AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

**Maarifə HACIYEVA**
**Mehmet RIHTIM**

# FOLKLOR VƏ TƏSƏVVÜF ƏDƏBİYYATI SÖZLÜYÜ

**БАКЫ -2009**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Folklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur**

Elmi redaktoru və ön sözцн мцяллифи:
**Hüseyn İSMAYILOV**
Filologiya elmləri doktoru, professor

Rəyçilər:
**Nizami CƏFƏROV**
AMEA-nın müxbir üzvü;
**İsmayıl VƏLИYEV**
Filologiya elmləri doktoru, professor

Redaktor:
**Rza XƏLИLOV**
Filologiya elmləri namizədi

Nəşrinə məsul:
**Əziz ƏLƏKBƏRLİ**
Filologiya elmləri namizədi

qapaq şəkli
**Aynur Timur**

**Maarifə HACIYEVA, Mehmet RIHTIM. Folklor və təsəvvüf ədəbiyyati sözlüyü,** Bakı, «Nurlan» nəşriyyatı, 2009, - 130 səh.

**Щ** **4603000000** **Ãðèôëè íÿøð**
**Í-098-2009**

© Folklor İnstitutu, 2009.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# TƏQDİM

Ədəbi mətnlərin tam şəkildə anlaşılması, oxucuların bu mətnləri hərtərəfli qavraması və mənimsəməsi üçün bu sahə ilə bağlı terminlərin mənalarının anlaşılıb dərk olunması çox mühümdür. Hər bir elm və istərsə də sənətin müxtəlif sahələrində olduğu kimi ədəbi-bədii ədəbiyyat nümunələrində də işlənən terminlərin özünəməxsus yeri və eləcə də mənası vardır. Ədəbiyyatda istifadə edilən məhz belə ifadələrin hansı mənaya gəldiyi oxucuya aydın olduğu zaman bu mətnlərdə ifadə edilən düşüncə, fikir, ardınca əsərin qayəsi, ideyası daha asan anlaşılır.

Belə ki, ədəbi əsərlərdə rəmzi xarakter daşıyan bəzi düşüncələr çox zaman oxucu tərəfindən yanlış anlaşılır və bir çox hallarda müəllifin verdiyi əsas fikirdən fərqli mülahizələr ortaya çıxır. Məsələn: bu gün "eşq" terminini bəzən yüksək təhsil almış insanların belə ədəbi mətnlərdə ifadə edilən mənada anlamadıqları müşahidə edilir. Bir çox oxucu bu düşüncənin sadəcə iki insan arasındakı sevgi, yəni məcazi eşq olduğunu zənn edir. Əslində isə bu terminlə əsl anladılmaq istənilən həqiqi eşqdir, yəni Allah eşqidir. Ədəbi mətnlərdə çox sıx-sıx qarşılaşdığımız "dost" kəlməsinin də eyni şəkildə, Allaha yaxın olma mənasında deyildiyini də görürük. Eləcə də təsəvvüflə bağlı “şəriət”, “təriqət”, “mərifət”, “həqiqət” kimi kəlmələrin də xüsusi mənası vardır. Bu terminlər Allah yolunda olan, Allaha könül vermiş insanların yüksəlmələrindəki mərhələləri həm də çox ali yüksək mərhələni ifadə etməkdədir.

Təqdim olunmuş sözlükdə belə terminlərin açıqlanması ilə bərabər Azərbaycan və Türk ədəbiyyatı materialları əsasında örnəklər də verilmişdir. Bu üsul ədəbi mətnlərin daha asan anlaşılmasına kömək etdiyi kimi, bu səpkidə yazılan lüğətlər də ədəbi qaynaqların daha dürüst və doğru anlaşılmasında bir açar olacaqdır.

**Bəxtiyar VAHABZADƏ**



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*f.e.d. professor, AMEA-nın müxbir üzvü.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# ÖN SÖZ

*Türkdilli xalqların tarixinin*
*müştərək öyrənilməsi*
*çox vacibdir.*

***İlham ƏLİYEV***

Qədim tarixi köklərə bağlı "Bir millət, iki dövlət" olan Azərbaycan və Türkiyə arasında XX əsrin son illərində və XXI əsrdə yüksələn münasibətlər bu dövlətlərin tarixinə təkrar-təkrar nəzər salmağı, onların arasındakı ədəbi bağların da tarixçəsini araşdırmağı tələb edir.

Məlumdur ki, ədəbi mətnlərin tərkibində elə terminlər işlədilir ki, bunların çoxu oxucuya tam mənada ya aydın deyildir, ya da onların izahına ehtiyac vardır. Bu terminlərin bir qisminə ədəbiyyatşünaslıq terminləri lüğətlərində açıqlıq gətirilmiş, bir qismini də bilmək üçün oxucu çox mənbələrə müraciət etməli olur. Ona görə də belə terminlərin mənasını yığcam şəkildə izah edən sözlüklərə hər zaman ehtiyac hiss edilmişdir. Xüsusilə də iki qardaş xalq olan Türkiyə və Azərbaycan türkləri arasında tarix boyu işlədilən terminlərin qarşılıqlı izahına tələbat artıq günümüzün zəruri tələbatına çevrilməkdədir. Ortaq türk mədəniyyəti ilə bağlı müştərək işlənən və ya dəyişik adlarla işlənən ədəbi terminlərin, o cümlədən folklor və təsəvvüf ədəbiyyatı ilə bağlı olan terminlərin və bu terminləri ifadə edən anlamların ədəbi salnamədə mövcud olan örnəklər əsasında qarşılıqlı şəkildə işlənib ortaya çıxarılmasına olan ehtiyacın ödənilməsi üçün professor Maarifə Hacıyeva və dosent Mehmet Rıhtımın hazırladığı "Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü" böyük zəhmət və araşdırma nəticəsində ərsəyə gəlmişdir. Bu sözlükdə Azərbaycan və Türk folklorunda, aşıq ədəbiyyatı və dini təsəvvüfi xalq ədəbiyyatında işlənən terminlərin hər iki dildəki qarşılığı, izahı və örnəkləri verilmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Lüğətdə uzaq və yaxın keçmişimizdən xəbər verən ədəbi materialların oxşar və eyniyyət təşkil edən və yaxud üst-üstə düşən cəhətlərinin öz əksini tapması faktları ədəbi materiallar əsasında verilmiş, sözlük Azərbaycan və Türk folklor, aşıq və təsəvvüf ədəbiyyatının söz xəzinəsini əhatə edilmişdir.

Oxuculara ilk dəfə təqdim olunan belə bir lüğət öz açıqlamaları ilə həm də Azərbaycan və Türkiyə türklərinin ədəbi əlaqələrini, tarixi köklərinin birliyini isbatlayan böyük içtimai və ədəbi əhəmiyyəti olan bir sorğu kitabıdır.

Türk və Azərbaycan folklor və təsəvvüf ədəbiyyatını oxuyub öyrənənlərə kömək məqsədi ilə yazılmış bu sözlük xeyirxah bir məqsədə xidmət edir. Sözlükdə 400-ə yaxın terminin mənası açıqlanmış, Azərbaycan və Türkiyə türkcəsi ilə örnəkləri verilmişdir. Ola bilsin ki, bəzi terminlər sözlükdə öz əksini tapa bilməmişdir. Şübhəsiz ki, bu boşluq kitabın sonraki nəşrlərində aradan qaldırılacaqdır.

***Hüseyn İsmayılov,***
*filologiya elmləri doktoru, professor.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MÜƏLLİFLƏRDƏN

XX əsrin sonları, XXI əsrin əvvəlləri türk dünyasının tarix, mədəniyyət, ədəbiyyat sahəsində bir-biri ilə qaynayıb qarışdığı, milli kimliyinə daha çox diqqət yetirdiyi bir dönəmdir.

Sovet İttifaqının süqutundan sonra türk xalqları öz keçmiş tarixi, mədəniyyəti, ədəbiyyatı ilə daha çox məşğul olmağa, onu araşdırıb üzə çıxartmağa girişdilər. Türk dünyasının ədəbi-mədəni dəyərlərinin araşdırılması böyük əhəmiyyət kəsb etməyə başladı.

Azərbaycan və Türkiyə arasındaki tarixi, ədəbi, mədəni birliyin kökləri qədim tarixlərə dayandığı üçün xalqlarımız arasındaki əlaqələrin çox qısa müddət içində olmasına rəğmən ciddi inkişaf etdiyi müşahidə edilməkdədir. Mustafa Kamal Atatürk XX əsrin əvvəllərində böyük bir uzaqgörənliklə bu tarixi bağların önəmini "Dil bir körpüdür", "İnanc bir körpüdür", "Tarix bir körpüdür" deyə anlayışlı bir şəkildə dilə gətirmişdir. XX əsrin sonlarında Azərbaycan dövlətçiliyinin xilaskarı, Türk dünyasının böyük tarixi şəxsiyyəti Heydər Əliyev də dini, dili, soyu bir olan Türk dünyasının iki qardaş ölkəsi olan Türkiyə və Azərbaycanı "Bir millət, iki dövlət" olaraq ifadə etmişdir.

Heydər Əliyev "Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir" deməklə ədəbiyyatın xalqın milli tarixinin ayrılmaz bir parçası, bəlkə də başlanğıcı olduğunu göstərmişdir. Heydər Əliyev kursunun böyük davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev “Türkdilli xalqların tarixinin öyrənilməsi çox vacibdir" deməklə kökü bir olan tariximizi və mədəniyyətimizi dərindən-dərinə araşdırmağ vacibliyini bir daha vurğulamışdır.

Bəşər tarixinə dastanlar və hekayələr, əfsanə və rəvayətlər, atalar sözü və nağıllar, klassik və xalq ədəbiyyatının hər növ örnəklərini verən, bu dəyərli xəzinəni öz mədəniyyətində yaşadaraq günümüzə qədər gətirən türk xalqları, o cümlədən Azərbaycan və Türkiyə türklərinin şifahi və yazılı ədəbiyyat zənginliyinin türklük dünyasında ayrıca yeri



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vardır. Bu zənginliyi və ədəbiyyatımızın qiymətli xüsusiyyəti olan eyniyyəti nəzərə alaraq bu xalqların ədəbi-bədii irsində rast gəlinən terminlərin örnəklərlə qarşılıqlı müqayisəsini verməklə iki qardaş xalqın ədəbiyyatlarının da bir kökə bağlılığını ədəbiyyatın verdiyi məhsulları incələməklə gəldiyimiz elmi qənaətlə bir daha təsdiqləmiş oluruq.

Sözlüyə Azərbaycan və Türk folkloru, aşıq, təsəvvüf və təkkə ədəbiyyatında işlədilən 400-ə yaxın termin daxil edilmişdir. Azərbaycan və Türk ədəbiyyatında eyni mənanı ifadə edən terminlər örnəklərlə açıqlanmışdır. Bununla bərabər yalnız Türk və ya Azərbaycan ədəbiyyatında istifadə edilən terminlərə də toxunulmuşdur. Bu terminlərin də araşdırılıb qarşılıqlı surətdə öyrənilməsi gələcək tədqiqatçıların öhdəsinə buraxılmışdır.

Sözlük Azərbaycan əlifbası əsasında tərtib edilmiş, hər terminin türkcə qarşılığı isə Türkiyə turkcəsi ilə (mötərizədə) verilmişdir. Qarşılığını verə bilmədiyimiz terminlərin önü və ya arxası boş buraxılmışdır. Türk ədəbi mətnlərindən götürülmüş nümunələrdə türk yazı və tələffüz tərzi gözlənilməyə çalışılmışdır.

Tədqiqatçılara, müəllim və tələbələrə, ədəbiyyat həvəskarlarına faydalı ola biləcəyini təxmin etdiyimiz bu kitabın bir boşluğu dolduracağına şübhə etmirik

***Maarifə HACIYEVA***
*f. e.d. professor*
***Mehmet RIHTIM***
*f. e. n., dosent*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| Azərbaycan əlifbası | Türk alfabesi |
|---|---|
| A a | A a |
| B b | B b |
| C c | C c |
| Ç ç | Ç ç |
| D d | D d |
| E e | E e |
| Ə ə | |
| F f | F f |
| G g | G g |
| Ğ ğ | Ğ ğ |
| H h | H h |
| X x | |
| I ı | I ı |
| İ i | İ i |
| J j | J j |
| K k | K k |
| Q q | |
| L l | L l |
| M m | M m |
| N n | N n |
| O o | O o |
| Ö ö | Ö ö |
| P p | P p |
| R r | R r |
| S s | S s |
| Ş ş | Ş ş |
| T t | T t |
| U u | U u |
| Ü ü | Ü ü |
| V v | V v |
| Y y | Y y |
| Z z | Z z |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## SÖZLÜK

| Azərbaycanca | Türkcə |
|---|---|
| **A** | |
| Ab | Ab |
| Aba | Aba |
| Abdal | Abdal |
| Abdəst | Abdest |
| Abi-həyat | Ab-ı hayat |
| Acıtmalar | |
| Adəm | Adem |
| Adət-ənənə | Adet-anane |
| Ağı | Ağıt |
| Axır zaman | Ahir zaman |
| Axirət | Ahiret |
| Ali əba | Al-i aba |
| Alqış | Alkış, Hayır-dua |
| Allah | Allah |
| Allah adamı | Allah adamı |
| Allahın gözəl isimləri | Esmâ-i Hüsna |
| Allah qorxusu | Allah korkusu |
| Alın yazısı | Alın yazısı, kader, takdir |
| Alp, ərən | Alp, Alperen |
| And | And, Yemin |
| Arif | Arif |
| Arqo, qarğadili | Argo |
| Asa | Asâ |
| Astana | Astana, Asitane |
| Aşıq | Aşık |
| Aşıq deyişmələri | Atışma |
| Aşıq ədəbiyyatı | Aşık edebiyatı |
| Aşıq havaları | Aşık makamı |
| Aşura | Aşure |
| Atalar sözü | Ata sözleri |
| Atmaca | |
| Ayaq | Ayak |
| Ayaq | Uyak |
| Ayaqlı qoşma | Ayaklı koşma |
| Ayaq vermek | Ayak açmak |
| Ayama | Takma ad, lakab |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| Ayə | Ayet |
| Ayin | Ayin |
| Ayna | Ayine, Ayna |
| Azər | Azer |
| **B** | |
| Baba | Baba |
| Badə | Bade |
| Bağı-irəm | Bağ-ı irem |
| Baş qafiyə | Baş kafiye |
| Batil | Batıl |
| | Battalname |
| Bayatı | Mani |
| Behişt | Behişt, Cennet |
| Bektaşilər | Bektaşi, Bektaşiyye |
| Beyt | Beyt |
| Beyt | Beyit |
| Beytullah | Beytullah, Kabe |
| Bədəhatən | İrticali |
| Bənd | Bend |
| Bəndə | Abd |
| Bənzəmə | Nazire |
| Bəzəmə | Yakıştırma |
| Bidət | Bid'at |
| Bismillah | Bismillah |
| Boy | Boy |
| Bölgü | Durak, Takti |
| Böyük cillə | |
| Bürc | Burc |
| **C** | |
| Cadu | Büyü, sihir |
| Cahannamə | Destan |
| Cam | Cam |
| Cami-cəm | Cam-i cem |
| Can | Can |
| Canan | Canan |
| Cəfəriyyə | Caferiye |
| Cəngnamə | Cenkname |
| Cığalı gəraylı | |
| | Cumhur |
| Cüng | Cönk |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| **Ç** | |
| Çarx | Çark |
| Çarpaz kafiye | Çapraz kafiye |
| Çərxi-fələk | Çark-ı felek |
| Çıldır təkərləməsi | Çıldır tekerlemesi |
| Çilə | Çile |
| Çiləxana | Çilehane |
| Çillə | |
| **D** | |
| | Danişmendname |
| Dar | Dar |
| Dastan | Destan |
| Dedim-dedi | Dedim-dedi |
| | Deme |
| | Devriye |
| Deyim | Deyim |
| Deyişmə | Deyişme |
| Dədə | Dede |
| Dərd | Derd |
| Dərgah | Dergah |
| Dərs | |
| Dərviş | Derviş |
| Dərvişlik | Dervişlik |
| Dəstar | Destar |
| Didar | Didar |
| Dildönməz | |
| Divani | Divan, Divani |
| Dodaqdəyməz | Dudakdeğmez, Lebdeğmez |
| Dodaqdəyməz təcnis | Cinaslı dudakdeğmez |
| | Dolapname |
| Dörd kitab | Dört kitap |
| Dörd qapı | Dört kapı |
| Dörtlük | Dörtlük, dörtleme |
| Dört ünsür | Dört unsur, Anasır |
| Dua, algış | Dua, Alkış |
| | Durak |
| Duvaqqapma | Dua |
| | Düvaz |
| Düzgü | |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| **E** | |
| Elm | İlim |
| Epos | Epope |
| Eşq | Aşk |
| Eşq badəsi | Aşk badesi |
| Eydirmə | |
| **Ə** | |
| Ədəb | Adab, Edep |
| Əfsanə | Efsane |
| Əğyar | Ağyar |
| Əhdi-sadiq | Ahd-i sadık |
| Əhli beyt | Ehl-i beyt |
| Əxi | Ahi |
| Əxilik | Ahilik |
| Əqidə | Akide |
| Ələm | Alem |
| Ələvi | Alevi |
| Ələvilik | Alevilik |
| Əlif-lam | Elifname |
| Əmrə | Emre |
| Ənəl-Haqq | Ene'l-Hak |
| Ənqa | Anka |
| Ər, ərən | Er, eren |
| Ərş | Arş |
| Əsatir | Esatir |
| Əvvəl-axır | |
| Əzgi | Ezgi |
| **F** | |
| Fal | Fal |
| Fani | Fani |
| Fələk | Felek |
| Fəna | Fena |
| Folklor | Folklor |
| **G** | |
| Gəraylı | Semai |
| Gözəlləmə | Güzelleme |
| **H** | |
| | Hak erenler |
| Haqq aşığı | Hak aşığı |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| | Hatırlama |
| Heca vəzni | Hece vezni |
| Heydər | Haydar |
| Heydərilik | Haydarilik |
| Hədis | Hadis |
| Həqiqət | Hakikat |
| Həqiqi eşk | Hakiki aşk |
| Hallac Mənsur | Hallac-ı Mansur |
| Hərbə-zorba | |
| Həşir günü | Haşir günü |
| Hicri təqvim | Hicri takvim |
| Hidayət | Hidayet |
| Hikmət | Hikmet |
| Hollavar | |
| | Hoşlama |
| Hu | Hu |
| Hürufilik | Hurufilik |
| **X** | |
| Xalq etimologiyası | Halk etimalojisi |
| Xalq şairi | Halk şairi, Ozan |
| Xalq şeiri | Halk şiiri |
| Xalq tamaşaları | Halk tiyatrosu |
| Xalq yaradıcılığı | Halk sanatı |
| Xanə | Hane |
| Xanəgah | Hanegah |
| Xəlvətxana | Halvethane |
| Xəlvətiyyə | Halvetiyye |
| Xərabət | Harabat |
| Xıdır | Hızır |
| Xıdırəlləz | Hıdırellez |
| Xirqə | Hırka |
| Xoyrat | Hoyrat |
| **İ** | |
| İbadət | İbadet |
| İxlas | İhlas |
| İqrar vermək | İkrar vermek |
| İlahi | İlahi |
| İmam | İmam |
| İman | İman |
| İnanc | İnanç |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| İrfan | İrfan |
| İsmi əzəm | İsm-i azam |
| **K** | |
| Kafir | Kafir |
| | Karagöz |
| Kəbə | Kabe |
| Kəramət | Keramet |
| Kibr | Kibir |
| Kövsər | Kevsər |
| Kukla | Kukla |
| Küfr | Küfür |
| **Q** | |
| Qafiyə | Kafiye |
| Qaravəlli | |
| Qarqış | Beddua |
| Qazı | Kadı |
| Qazi | Gazi |
| Qədir gecəsi | Kadir gecesi |
| Qəhrəmanlıq mahnıları | Koçaklama |
| Qələndər | Kalender |
| Qələndəri | Kalenderi |
| Qələndərlik | Kalenderilik |
| Qəməri aylar | Kameri aylar |
| Qıfılbənd | |
| Qırxlar | Kırklar |
| Qırx məqam | Kırk makam |
| Qızılbaş | Kızılbaş |
| Qiyamət | Kıyamet |
| Qiybət | Gıybet |
| Qol | Kol |
| Qopuz | Kopuz |
| Qoşayarpaq | |
| Qoşma | Koşma |
| **L** | |
| Lalə | Lale |
| Layla | Ninni |
| Lətifə | Latife, Fıkra |
| Lövh | Levh, Levh-i mahfuz |
| **M** | |
| Mahnı | Türkü |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| | Malayani |
| Mal-mülk | Mal-mülk |
| Merac | Mirac |
| Meyxana | |
| Məddah | Meddah |
| Məhəbbət | Muhabbet |
| Məhəbbət dastanları | Halk hikayeleri |
| Məhşər | Mahşer |
| Məqam | Makam |
| Mənqibə | Menkıbe |
| Mərasim nəğmələri | |
| Mərifət | Marifet |
| Mərsiyə | Mersiye |
| Məsəl | Mesel |
| Məzhəb | Mezhep |
| Mifologiya | Mitoloji |
| Mirat | Mir'at |
| Miskin | Miskin |
| Misra | Mısra |
| Motiv | Motif |
| Möcüzə | Mu'cize |
| Möhürbəndi | |
| Mövlana | Mevlana |
| Mövləvilik | Mevlevilik |
| Mövlüd | Mevlid |
| Muğam | Makam |
| Mübaliğə | Mübalağa |
| Müəmma | Muamma |
| Müxəmməs | Muhammes |
| Münacat | Münacat |
| Münafiq | Munafık |
| | Münker-Nekir |
| Mürəbbe | Murabba |
| | Mürebbi |
| Mürid | Mürit |
| Mürvəti gəraylı | |
| Müsəlla | Yağmur duası |
| **N** | |
| Nağıl | Masal |
| Namaz | Namaz |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| Nanay | |
| Nazlama | |
| | Nefes |
| Nəkşibəndiyyə | Nakşıbendiyye |
| Nəqərat | Nakarat |
| Nət | Na't |
| Nəzər | Nazar |
| Nitq | Nutuk |
| Novruz | Nevruz |
| Nuh tufanı | Nuh tufanı |
| Nur | Nur |
| **O** | |
| Oxşama | |
| On dörd məsum | On dört masum |
| On iki imam | On iki imam |
| | Ortaoyunu |
| Ovsun | |
| Ozan | Ozan |
| **Ö** | |
| Öcəşmə | |
| Övliya | Evliya |
| Öyütverici şeir | Eğitici şiir, didaktik şiir |
| Öyütləmə | |
| | Özdeyiş |
| **P** | |
| Pelheng | Teslim taşı |
| Pir | Pir |
| Piri-dastan | |
| Piri-muğan | Piri muğan |
| Pişrov, Təkərləmə | Tekerleme |
| **R** | |
| Rədif | Redif |
| Rəvayət | Rivayet |
| **S** | |
| Saqu | Saki |
| Samanyolu | Samanyolu |
| Sanama | |
| | Satranç |
| Sayaçı sözləri | |
| Saz | Saz |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| | Saz şairi |
| | Selis |
| Seyfü'l-mülk | |
| Seyri-süluk | Seyr-i süluk |
| Səadət | Saadet |
| Səccadə | Seccade |
| Səcdə | Secde |
| Səma | Sema |
| Səmah | Semah |
| Sınama | |
| Sırat körpüsü | Sırat köprüsü |
| Sicilləmə | Sicilleme |
| Silsilə | Silsile |
| Simurq | Simurg |
| Sofu | Sofu |
| Sufi | Sufi |
| Sührəverdilik | |
| Sülük | |
| Sünnə | Sünnet |
| Sünni | Sünni |
| **Ş** | |
| Şahbeyt | Şahbeyit |
| Şairnamə | Tezkire, Şairname |
| Şaman | Şaman |
| Şamanizm | Şamanizm |
| | Şathiyə |
| Şeyx | Şeyh |
| Şeytan | Şeytan |
| Şəcərə | Şecere |
| Şəriət | Şariat |
| Şərqi | Şarkı |
| Şəbeh | |
| Şiə | Şii |
| Şifahi xalq ədəbiyyatı | Folklor, Sözlü edebiyat, Şifahi halk edebiyatı |
| Şühud | Şuhud |
| **T** | |
| Tac | Tac |
| Takva | Takva |
| Tapmaca | Bilmece |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| Tapuğ | |
| | Taşlama |
| Termin | Terim |
| Tovhid | Tevhid |
| | Tevhid-hane |
| Təcəlli | Tecelli |
| Təcnis | Tecnis |
| Təxəllüs | Mahlas |
| | Tekellüm |
| Təkkə | Tekke |
| Təkkə ədəbiyyatı | Tekke edebiyatı |
| Təkkə şairləri | Tekke şairleri |
| Təkkə şeiri | Tekke şiiri |
| Təkrir | Takrir |
| Tərəkəmə | Terekeme |
| Təriqət | Tarikat |
| Tərzlər | |
| Təsəvvüf | Tasavvuf |
| Təsəvvüf ədəbiyyatı | Tasavvuf edebiyatı |
| Təsnif | Tasnif |
| Tövbə | Tevbe |
| Tuba | Tuba |
| Türbə | Türbe |
| Türkəçarə | Kocakarı ilacı |
| Türkmani | |
| **U** | |
| Ustad | Üstad |
| Ustadnamə | Hikaye döşemeleri |
| **Ü** | |
| Üçlər | Üçler |
| Ümmət | Ümmet |
| Üslub | Üslup |
| **V** | |
| Varsağı | Varsağı |
| | Velayetname |
| Vəhdəti-vücud | Vahdet-i-vucud |
| Vəli | Veli |
| Vəsf | Vasıf |
| Vəsfi-hal | |
| Vəzn | Vezin |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

| | |
|---|---|
| | Vəzn-i aher |
| Vird | Vird |
| Vücudnamə | Yaş destanı |
| **Y** | |
| Ya Allah | Ya-hu |
| Yanıltmaca | Yanıltmaca |
| Yasevilik | Yesevilik |
| Yeddi aşıq | Yedi aşık |
| Yeddilər | Yediler |
| | Yetmiş iki makam |
| Yol | Yol |
| Yurd rəvayətlər | |
| **Z** | |
| Zahid | Zahid |
| Zaviyə | Zaviye |
| Zəkat | Zekat |
| Zəngin gafiyə | Zengin kafiye |
| Zərbül məsəl | Darb-i mesel |
| Zikr | Zikir |
| Zincirləmə | Zincirleme |
| Zincirləmə nağıl | Zincirleme masal |
| Zöhd | Zühd |
| Zümrüd quşu | Zümrüd-ü Anka |



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Ab(Âb):** Mənşəcə fars dilinə məxsus olub su deməkdir. Təsəvvüf termini kimi müxtəlif mənaları ehtiva edir: mərifət, ilahi feyz, zat, varlıq, nəfs və s.

*Ya Həbibullah! Ya xeyrül-bəşər! Müştaqinəm,*
*Eylə kim ləbtəşnələr yanıb dilər həmvarə su.* ***(Füzuli)***

*Ay ağalar, dərdim yaman artıbdı,*
*Çərxi-fələk eldən daşım atıbdı.*
*Səkkiz şeydi bu dünyanı tutubdu,*
*Abü atəş, xakı baddı, dördü nə?* ***(Aşıq Qurbani)***

*Cana, qəmində gözlərinə su gəlir gedir,*
*Şeh oldu daşdı, indi bəhər su gəlir gedir.*
*Vəsl olmaz isə üzünü görmək mana müdam,*
*Kuyindən ey sənəm, mana bir su gəlir gedir.* ***(Xətai)***

*Akan su serinden ola gör agah,*
*Serden agah olan geda olur gah.*
*Değirmenin çarkı zikrullah,*
*Hû ismin zikr eder döne döne taş.* ***(Seyrani)***

**Aba (Âbâ):**1.Yundan hazırlanmış qaba qumaşdan üst geyimi. Dayanıqlı olduğu və gec köhnəldiyi üçün abanı dərvişlər və kasıblar geyərdilər.

2. «Âbâ» sözü öz mənşəyinə görə ərəbcə «əb» kəlməsinin cəmidir. «Atalar» mənasında işlədilir. Aşıq ədəbiyyatında din böyüklərinə də «aba» deyilmişdir.

İstər Azərbaycan, istərsə də Türk ədəbiyyatında «aba geymiş», «abası çiyinlərində» ifadələri çox işlədilmişdir.

*Kimi sufi, kimi hacı*
*Cümlemiz Hakka duacı.*
*Rasul-i Ekremin tacı,*
*Aba, hırka, şal bizimdir.* ***(Hasan Dede)***

*Aba diyarısan səcdəyə gəldim*
*Babamdan salam var mərd Anadolu.*
*Rənalığı xaliq türkə bəxş etdi,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əli mədar zənən mərdan ad olu.* ***(Aşıq Alı) Azərbaycan***

*Eşiyində hacı oldum Kabenin,*
*Gönlümüzde ziya mahi-tabanın.*
*Şah Hasan, Hüseyn, Zeynel abanın*
*Dostuna dost, düşmanına düşmanım .****(Aşıq Ali) Türkiyə***

**Abdal (Abdal) (bax: Dərviş, mürid):** Dünya ilə əlaqəsini kəsib Tanrıya bağlanmış dərviş. Övliyadan yetmiş, ya da qırx nəfərlik zümrəyə verilən addır. Əfqanıstanda bir zümrənin, Anadoluda isə köçəri bir xalqın adıdır.

Təsəvvufdə isə «Rıcalul-qayb» deyilən ərənlərdir. Az yemək, az danışmaq, az yatmaq, xalq kütləsindən ayrı yaşamaq, ehtiyacı olanlara və fağırlara kömək etmək, ölkəyə gələ biləcək fəlakətlərin qarşısını almaq üçün Allaha niyaz etmək, quraqlıq zamanı yağışın yağması üçün dua etmək, düşmənlə savaşan orduya kömək etmək kimi xüsusiyyətlərə malikdirlər.

Abdal zehniyyəti türk təkkə ədəbiyyatı şairlərinə böyük təsir göstərmiş, Pir Sultan Abdal, Qazak Abdal, Qayqusuz Abdal, Abdal Musa, Abdal Qələndər kimi şairlər özlərinə «Abdal» ləqəbini dərviş mənasında götürmüşlər.

Azərbaycanda Miskin Abdal kimi şairlər də özlərinə bu ləqəbi seçmişlər.

Abdal sözü aşıqların dilində:

*Ələsgərəm abdal ollam,*
*Eşqin girdabında yannam*
*Küsdürmüşəm, könlün allam,*
*Yalvara-yalvara ceyran.* **(Aşıq Ələsgər)**

*Xətaiyəm bir halam,*
*Əlif üstündə dalam.*
*Sufiyəm təriqətdə,*
*Həqiqətdə abdalam.* **(Şah İsmayıl Xətai)**

*Kul Himmet ustadım, ümmana dalam,*
*Gidenler gelmedi bir haber alam.*
*Abdal oldum, şal geyindim bir zaman,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bir dost bulamadım gün akşam oldu.* ***(Qul Himmet)***

*Aşık deyer dünya gelmez eynime,*
*Abdal olub post çekeyim eynime.*
*Tanrı emaneti olsun boynuma*
*Benim sevdiyime benden aşk eyle.* ***(Aşık)***

*Aşık Abbas abdal olmuş, aşk elinden delidir*
*On iki imam "çar yarlar" ol Hudamın kuludur.*
***(Aşık Abbas)***

**Abdəst (Abdest):** Təharət, dəstəmaz da deyilir. Namazdan əvvəl su ilə bəlli üzvləri üsulunca yuyaraq edilən dini təmizlik. Əl, ağız, burun, üz, dirsəklərə qədər qolları və topuq sümüyü üzərinə qədər ayaqları üç dəfə yumaq və qulaqlara, başa və boyuna məsh etməkdən ibarətdir. Abdəst, hər şeydən əvvəl, hər cür natəmizlikdən qurtarmaq üçün İslamın əmr etdiyi mühüm bir ibadətdir. Ağızdan başlayaraq əl, üz və ayaqların gündə beş dəfə təmizlənməsi İslamın paklığa verdiyi üstünlüyü göstərir. Beləliklə, İslam yüzillər öncə təmizliyin üzərində durub insanı hər cür maddi-mənəvi mikrobdan qorumaq istəmişdir. Bundan başqa abdəst alan bir insan, özünü mənən təmiz və rahat hiss edər və bu gözəl hiss və təmiz duyğuyla Allaha ibadət edər.

Təsəvvüfdə Allah aşiqinin qəlbinin Allahdan başqa olan şeylərdən təmizləməsi və onun qəlbinin sadəcə Allah məhəbbəti ilə doldurmasıdır. Səyid Yəhya Şirvani Şifaul-Əsrarda yazır:

Həzrət Əli deyir ki, mənəviyyatlarını təmizləmək üçün abidlərin dəstəmaz almadan öncə beş şeydən təmizlənməsi gərəkdir:

1. Qəlbinin hiylə, aldatma, qürur, həsəd, qəzəb və ədavətdən təmizlənməsi gərəkdir. Quranda deyilir: "Və paltarını təmizlə". Buradakı təmizlik qəlbin təmizliyidir. (Müddəssir, 4)

2. Dilin qiybət, yalan, boş söz, iftira və böhtandan təmizlənməsi. Quranda deyilir: "Bir-birinizdən qiybət etməyin" (Hucurat, 12)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

3. Mədəni haram və şübhəli şeylərdən təmizləmək. Quranda deyilir: “Ey iman edənlər! Sizə verdiyim nemətlərin halal və təmiz olanlarından yeyin”. (Bəqərə, 172)

4. Bədəni haram paltardan təmizləməkdir. Quranda deyilir: “Lakin təqva paltarı yoxdurmu? Məhz o, hamısından xeyirlidir” (Əraf, 26).

5. Zahiri təmizlikdir. Quranda deyilir: “Ey iman edənlər! Namaza qalxacağınız vaxt üzünüzü yuyun” (Maidə, 6)

**Abi-həyat (Ab-ı hayat):** Mifoloji təsəvvürə görə içənlərin ölümsüz olacaqlarına inanılan su, həyat suyu.

Rəvayətə görə Xızır və İlyas bu suyu içdikləri üçün ölümsüzlüyün sirrini bilmişlər. Rəvayətlərin birində deyilir ki, Makedoniyalı İskəndər bu suyu axtarmağa çıxmış, fəqət onu tapa bilməmişdir.

Klassik ədəbiyyatda bu termin «abi-heyvan», «abi-cavidan», «çeşmi-heyvan», «abi-kövsər» kimi ifadələrlə anılmışdır. «Abi-həyat» aşıq ədəbiyyatında və müasir ədəbiyyatda da «dirilik suyu», «ölməzlik suyu» mənalarında söylənilməkdədir.

«Abi-həyat» haqqında bir çox rəvayətlər meydana gəlmişdir. Məsələn: Azərbaycanda yaranan «Bulaq əfsanəsi»nə görə Şirvanda insana əbədi həyat verən bir bulaq vardır. Ancaq bu bulağı Xızır Peyğəmbərdən başqa heç kim tapa bilməmişdir. Makedoniyalı İskəndər bu bulağı tapmaq üçün Azərbaycana gəlmiş, nə qədər axtarsa da onu tapa bilməmişdir. Səməd Vurğun bu rəvayət əsasında «Bulaq əfsanəsi» adlı bir poema yazmışdır. Abi-həyat Azərbaycan və Türk klassik və aşıq ədəbiyyatında çox işlənən bir ifadədir:

*Xızr əgər zülmətə vardı, istədi abi-həyat*
*Mən dodağın çeşməsində abi-heyvan bulmuşam.*
***(Nəsimi)***

*Şərbəti-ləlin derlər çeşmeyi-heyvan ona.* ***(Füzuli)***

*Kəlbəcərdi adın sənin sahibi-dəftər bəyənib,*
*Səni yaradan təbiət demirəm hədər bəyənib.*
*Abi-həyat səndə imiş, gəlib İskəndər bəyənib,*
*Torpağını, gözəlini Aşıq Ələsgər bəyənib*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*İgidlərin təriflənib dastansayağı, Kəlbəcər!*

***(Aşıq Şəmşir)***

*Yunus Emre, bu dünyada iki kişi kalır derler,*
*Meger Hızır İlyas olsa abi-hayat içmiş gibi*

***(Yunus Emre)***

*Derdin senin cana rahat,*
*Senin özün kend ü-nabat.*
*Veslin senin abi-hayat,*
*İçen anı ölmeyiser*

*(**Aşık**)*

**Acıtmalar:** Azərbaycan uşaq folklorunda bir oyun növü. Burada məqsəd uşaqlara yubanmadan, çaşmadan vəziyyətdən çıxmaq vərdişi təlqin etməkdir. Yanlış söylənən hər bir söz gülüş doğurduğu üçün oyunda pərtlik yarada bilər. Odur ki, diqqət tələb edir.

Örnək:

*– Gəl gedək bağa*
*Mən də, mən də!*
*– Çıxaq budağa*
*– Mən də, mən də.*
*– Şaftalı yığaq*
*– Mən də, mən də.*
*– Bağban gəlsin.*
*– Mən də, mən də.*
*– İt mənə hürsün*
*– Mən də, mən də*

*Həsənağa*
*Doldu yarağa*
*Mindi ulağa,*
*Sürdü bağa.*
*Bir quş vurdu,*
*O da qurbağa.*
*Verdi qonağa*
*Qonaq yemədi.*
*Bizə vermədi*
*Yedi qurbağa*
*Düşdü yatağa.*

**Âdəm (Âdem):** İnsan. İlk insan və ilk peyğəmbər. Allah ilk insan olaraq Âdəmi, sonra arvadı Həvvanı yaratmışdır. Bugünkü insanlar onlardan törəyib çoxalmışlar.

Allah Adəm Əleyhissəlamı bütün dünyanın, gözəlliklərin bir yerə gəldiyi, toplandığı bir keyfiyyətdə yaratmış və bütün ucalıqların, gözəlliklərin toxumlarına torpaq ola biləcək qabiliyyətdə yaratmışdır. Və varlıqları əhatə edən uca bir vicdanın yanında onları əhatə edən duyğu ilə təchiz etmişdir. Bu üç xüsusiyyət sayəsində maddənin mahiyyətini öyrənə biləcək vəziyyətə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gətirmişdir. Sonra da bütün isimləri özünə öyrədilmişdir. İnsan oğlunu yaratdı, ucaltdı, cəsədinə ruh verdi, tərbiyə etdi, sonra isimləri öyrətdi və axırda da xilafətə namizəd etdi. Sonra da Adəmi mələklərdən üstün tutaraq ismi əzəm ilə onu ucaltdı. Adəm– Âdem peyğəmbərin adının türkçələşmiş şəklidir. "Quran"a görə Allah insanı şərəfli və kəramətli yaratmışdır. (İsra /70), Ə'raf surəsinin /79-cu ayətində qəlbləri olduğu halda anlamayan, gözləri olduğu halda hikmətləri görüb sezməyən, qulaqları olduğu halda doğrunu eşitməyən insanların mərtəbəcə aşağıda və qəflət əhlindən olduqları bildirilir. Bu baxımdan təsəvvüf əhli insanın anlamaq, duymaq, sezmək və əxlaq baxımından gerçək insan olmasına əhəmiyyət vermişdir. Həzrət Peyğəmbərin həqiqətinə mirasçı olan "kutb"a da Adəm-i Məna və Mərd-i Məna deyilir.

*Bu Adem dedikleri el ayakla baş değil,*
*Adem "mana"ya derler, surat ile kaş değil.*
*Adem mânâ-yı mutlak... Adem'dedir nutk-u Hak,*
*Ademden gafil olma, O hayal ya düş değil.*

*Adem gerek su gibi arı olsa, arınsa*
*Adem oldur, ey hoca! Nefsi de serkeş değil.*

*Kendi özünü bilen, maksudun bulan kişi,*
*Hakkı bilen doğrudur, yalancı kalleş değil.*

*Bu Kaygusus Âbdal'a Aşık demem dünyada,*
*Nakş ü suret gözetir, Maksudu Nakkaş değil.*
***(Kaygusus Abdal)***

*Deyirmen taşının ince ununu*
*Kepeğinden seçip eler var imiş.*
*Yüz bin sene evvel Adem donunu,*
*Giyip Havva için yeler var imiş.* ***(Pir Sultan Abdal)***

**Adət-ənənə (Âdet-anane):** Keçmişden bize qədər gəlib davam edən, bizdən əvvəlkilərdən bizə miras qalan həyatımıza aid mədəniyyət nümunələrinin ümumi adıdır. Adət-ənənə türk folklor terminologiyasında «örf», «adet-anane», «gelenek-görenek» şəklində də ifadə edilir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yas, toy, başlıq, elçi, nişan, cehiz, novruz, Xıdırəlləz kimi adət-ənənələr yüzillər boyu türk xalqlarının, o cümlədən Azərbaycan və Türkiyə türklərinin tarix boyu yaşadıqları adət-ənənələrin bir neçəsidir.

**Ağı (Ağıt):** Xalq folklorunda bir janrdır. Ölüm, ayrılıq, fəlakət mövzularında söylənilən ağıların mövzusu qəm, kədər, hüzn, üzüntünü əks etdirir. Ağılarda ölənin arxasından onun sağlığındakı qəhrəmanlığı, xasiyyəti, gözəl davranışı, qəddi-qaməti öyülür.

Türklərin ilk ağı örnəklərinə Çin mənbələrində rast gəlinir. 119-cu ildə Hun türkləri çinlilərin onların torpaqlarını istila etməsi ilə əlaqədar olaraq çəkdikləri üzüntüləri ağı ilə dilə gətirmişlər.

Ağı söyləməyin türk dünyasında çox qədim bir tarixi vardır. İslamiyyətdən öncəki dövrlərdə məşhur insanların ölümündən sonra «yuğ» adı verilən dini məclislərdə «saqu» deyilən şeirlər söylənirdi. Bu şeirlərdə ölənin igidlikləri, sağlığında etdiyi gözəl işlərdən danışılırdı. «Ağı», Orxon abidələrində və başqa türk ləhcələrində «sığıt», «sığıtcı», «sığta», «yoğ», «yuğ», «yoğçı», «yuğ», «yuğçı», «yoğla», «yuğla», «yoğlat», «yuğlat» kimi kəlmələrin qarşılığıdır.

Kaşğarlı Mahmudun «Divani-lüğətit-türk» əsərində iki saqu, yəni ağı yer almışdır. Bunlardan birincisi saka türklərinin qəhrəmanı Alp Ər Tunqa (Əfrasiyab), ikincisi adı bilinməyən bir türk qəhrəmanı üçün söylənmiş ağıdır.

Türk dastanları içərisində ağı söyləmə ənənəsini «Dədə Qorqud», «Manas» kimi dastanlarda görməkdəyik. «Dədə Qorqud»un «Qanturalının oğlu Bamsı Beyrək boyu»nda Beyrəyin dustaq edilməsinə görə göz yaşı tökən Banuçiçək qaralar geyərək, bu ağını söyləyir:

*Vay, ay duvağım iyəsi!*
*Vay, alnım-başım umudu!*
*Vay, şah iyidim, vay şahbaz iyidim!*
*Doyunca üzünə baxmadığım, xanım, iyid!*
*Qanda getdin məni yalnız qoyub, canım iyid.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Manas» dastanında da Manasın ölüm xəbərini alan qırğızlar ağı söyləyərək Manasın öldüyü yerə gedirlər.

Türk boylarında qədimdən bəri davam edən ağı söyləmə ənənəsi günümüzdə də davam etməkdədir.

Ağı bir nəzm şəkli deyil, bir formadır. Bu bayatı şəklində söyləndiyi kimi, sərbəst şeir şəklində də, ağının başlanğıcında ön söz şəklində cümlələrlə də ifadə oluna bilər.

Folklor ədəbiyyatımızda adətən ağılar dörd misralı yeddi hecalı şeirlər şəklində söylənir və bu şeirlər a.a.b.a. şəklində qafiyələnir:

*Yaşım gözüm dolusu,*
*Axar üzüm dolusu.*
*Gir qapımdan içəri*
*Baxım gözüm dolusu*

Bəzən ağı vəznsiz, zəif qafiyəli misralardan da yaranır. Bunlar oxşamaya bənzəsə də yalnız yas məclislərində söylənir.

*Şir biləkli,*
*Qara saçlı,*
*Mina boylu,*
*Darvaza kürəkli,*
*Gen sinəli,*
*Gözü qızlar ovçusu,*
*Dili qızlar elçisi...*

Ağı nakam vəfat etmiş bir gənc üçün söylənilirsə, ağının başlanğıcında şeirdən əvvəl ön sözə bənzər cümlələrdə söylənilir: «Açılmayan tüfəngin, sıyrılmayan xəncərin öz canına qurban! Ay kimi doğdun, gün kimi batdın... Minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın... Saydığına salam verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun... Altının bədöy atına, çiyinin süzən tüfənginə, tərkinin xurcununa, ağzının kəsərli sözünə anan qurban!»

Türk folklorunda ağının xüsusi bir şeir şəkli yoxdur. Adətən bayatı (mani) şəklində olan şeirlərlə söylənir, mövzusu da Azərbaycan folklorunda olduğu şəkildədir. Şeirlər dörd misralı



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yeddi hecalı olub, a.a.b.a., a.a.a.b, a.b.c.b. şəklində qafiyələnir:

*Ne yaman esdin felek,*
*Yüreyim kesdin felek.*
*Ellere her gün bayram,*
*Banamı kastın felek.*

*Bu dağlar ulu dağlar,*
*Çeşmeli sulu dağlar.*
*Yad elde qabre gittin*
*Göy kişner, bulut ağlar.*

*Yüce dağa yağar dolu,*
*Çok söyledim oldum deli.*
*Bu karşının qanlı yolu,*
*Bebeyimin dilin söyler.*

*Kanlı gömlek, kanlı gömlek,*
*Seni yumaz kuruturum.*
*Poyraz oğlum gelenecen*
*Boşan ömrüm çürüdürüm.*

**Axır zaman (Ahir zaman):** Dünyanın son zamanı. Ümumiyyətlə, hicri min ilindən sonrakı zaman.

*Axır zaman ümmətləri dünya fani bilməzlər,*
*Gedənləri görürlər də ondan ibrət almazlar.* ***(Əhməd Yasəvi)***

**Axirət (Ahiret):** Bu dünyadakı həyatdan sonrakı əbədi həyat. İslam inancında axirətə iman Allaha iman deməkdir. Mütəsəvvüflərə görə axirət günü yaşadığımız dünyanın sona yetməsi ilə insanların ikinci dəfə diriləcəyi və hər kəsin iman-küfür, əməl və əməlsizliyinə görə hesab, mükafat və cəza görəcəyi gün deməkdir. Bu dünyanın sonu, yəni axırı ilə başlayacağı, ya da ən son zaman olduğu üçün ona “son gün” yəni “axirət günü” deyilmişdir.

Hər sonradan yaradılanın bir ömrü olduğu kimi dünyanın da bir ömrü vardır və bu ömür sona gəlincə dünya da yox olacaqdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ancaq dünyanın nə zaman yıxılacağını, axirət gününün nə zaman olduğunu yalnız Allah bilir. Ancaq Allah bunu elçilərinə də bildirməmiş, fəqət dünyanın ömrünə görə o günə çox az zaman qaldığına da işarət etmişdir. Hətta Peyğəmbərimizin dostları və onlardan sonra gələn müsəlmanlar axirətə axşamdan sabaha qədər gözü ilə baxmışlar. Peyğəmbərimizin bəzi sözlərində isə dünyada Allahın varlığını və birliyini qəbul edən insanlar olduqca qiyamət qopmayacaqdır. Kafirlər davamlı olaraq Cəhənnəmdə qalacaqlar, günahsızlar və günahlarını tövbə ilə bağışladan möminlər Hz.Məhəmmədin rizası ilə Cənnətə girəcəkdir. Günahları qalanlar isə günahları müqabilində cəza çəkdikdən sonra Cənnətə gedəcəklər.

*Axirət halini hal əhlinə sor, ey qafil,*
*Bu səfərdə olanın yoldaşı dünya nə bilür?* ***(Nəsimi)***

*Dünya ahiret deme gel bilişim yad deme,*
*Uzak savaşa düşme geç kuru şehhâreden* ***(Kaygusuz)***

**Ali əba (Âl-i aba):** Dini təsəvvüf ədəbiyyatında işlənən bir termindir. Rəvayətə görə Həzrət Məhəmməd Peyğəmbər bir gün Əli, Fatma, Həsən və Hüseynin üstlərinə abasını örtmüş və bunlar mənim ailəm dəmiş. Bundan sonra bu müqəddəs ailəyə "Ali-əba" deyilir. Ali-əba təsəvvüf xalq şeirində:

*Məhəmməd Əlinin qullarındanam,*
*Ali-əba nəsli Heydəri denəm.* ***(Xətai)***

*Eynime geymişem Al-i abayı,*
*Ezelden sevmişim ben Mustafayı.*
*Kimden aldım dersin sen bu sefayı*
*İsmayıl ayetin kurbandan aldım.* ***(Aşıq Seyrani)***

**Alqış (Alkış, Hayır-dua):** Folklorun nəzakət ifadə edən bir janrı. Bəzən xeyir-dua da deyilir. İnsana yaxşılıq, gözəllik, xoş güzəran, sağlamlıq ifadə edən qəlibləşmiş sözlərdir. Qədim türklər alqışa «övmə» də demişlər. Kaşqarlı Mahmudun «Divani-Lüğatit-türkü»ndə dua "övmək", bir-birinin yaxşılıqlarını sayıb tökmək mənasında ifadə edilmişdir. «Dədə Qorqud» dastanında «Ol zamanda bəylərin alqışı alqış, qarğışı qarğış idi»



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

cümləsində alqış xeyir dua, dua etmək mənasındadır. Bu kəlmə Azərbaycan, kumuk və şor türkcəsində «alqış», Türkiyə, qırğız, uyğur, yakut, qazax, özbək türkcəsində «alkış», Kazan-Tatar türklərində «alkaş», Qaraçay-Balkar türklərində «alğış» şəklində ifadə edilir. Azərbaycanda «Çörəyin bol olsun, suyun sərin olsun», «Namərdə möhtac olmayasan», «Çırağın gur yansın», «Südüm halal olsun», «Allah əmanətində», «İşin avand olsun», «Allah qorusun», «Dizinə qüvvət gəlsin», «Baxtına gün doğsun», «Günün ağ olsun», «Ağ günlü olasan»; Türklərdə: «Akar sular ömrün olsun», «Allah seni korusun», «Paşa olasan», «Darısı başına», «Halal sütemmişe düşesen» «Kesene bereket» kimi alqışlar mövcuddur.

**Allah (Allah):** Kainatın yeganə yaradıcısının adı. Varlığına ilk insan Həzrət Adəm ilə inanılan və bağlanılan uca varlıq. Allahın varlığının əlamətləri hər yerdə görünməkdədir. Maddi bir varlıq olmadığı üçün maddəyə bulanmış varlıqlar Allahı doğrudan-doğruya görəməzlər, görməyə təhəmmül edə bilməzlər. Həzrət Musanın Turi-Sinada Allahı görmək istəyinə qarşı meydana gələn vəziyyət bunun ən gözəl misalıdır. Günəşin işığına belə dayana bilməyən bir göz, necə ola bilər ki, kainatı yaradanı görə bilsin. Onun varlığı daha çox qəlblərdə hiss edilir. Mədəni və yaxud ibtidai hər millətin dilində ona müraciət edən bir kəlmə mütləq vardır. Bütün millətlərin tarixlərində, kitabların başlanğıcında, sənətkarların əsərlərində, şairlərin misraların da, dindarların dodaqlarında, filosofların düşüncələrində, elm adamlarının araşdırmalarında onun adı ilə qarşılaşmaq mümkündür. O, mütləq varlıqdır, mükəmməldir, zəruri, əzəli və əbədi varlıqdır. “Qurana” görə Ona bənzər heç bir şey yoxdur.

Nəsimi Allah Taalanı “İxlas surəsi” ilə belə anladır.

*Oxuram isminde bismillahir-rəhmanir-rahim,*
*Ey sifatındır sifatın qül hüvallahü əhəd.*
*Əvvəli axır hüvəllahul-ləzi səndəki Allah birdir.*
*Zahirü batin hüvəlbaqisən, Allahü – səməd.*
*Ləm yəlid sənsən oxurlar, Ey vələm yuləd, səni*
*Ləm yəkun zatü sifatındır ləhu küfüvən əhəd.*
*(**Nəsimi**)*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Allah! Allah! deməyincə işlər düzəlməz,*
*Qadir Allah verməyincə ər bayımaz (kişi varlanmaz.)*
***(Dədə Qorqud)***

*Əlhamdü-lillah fikrimdir Allah*
*Fikrimdir Allah elhamdü-lillah.*

*Könlumdə vallah dildar-ı dilhah*
*Dildar-i dilhah könlümdə vallah.*

*Zikrimdir Allah hər bir mahalda,*
*Hər bir mahalda zikrimdir Allah.* ***(Nigari Qarabaği)***

*Allah deyü ismi əzəm oxunur,*
*İki rəkat namaz vardır qılana.* ***(Xətai)***

*Sana âlem görünen*
*Hakikatte Allah'tır.*

*Allah birdir, vallahi,*
*Sanma ki, bir kaç ola.* ***(Gaybi)***

*Ağ Aşıq, çağır Allahı,*
*Yetər dada şahlar şahı.* ***(Ağ Aşıq)***

**Allah adamı (Allah adamı):** Ricalullahdan, əhlullahdan olan şəxs. Haqq dostu, haqqa gedən insan. Mərdi-Xuda

**Allahın gözəl isimləri (Esmai Hüsna):** Allah özünü gözəl adlar (el-əsmaül Hüsna) ilə bildirir. Bir hədisdə Hz. Məhəmməd Allahın 99 adını tanıtmışdır. Bu isimlər bunlardır.

1. Allah. (Zatın ismi. İsmi əzəm)
2. Ər Rəhman. (Bütün yaradılmışlara xeyir və rəhmət diləyən)
3. Ər Rəhim. Mərhəmətedici
4. Əl Məlik. (Bütün kainatın sahibi, hökmdarı)
5. Əl Quddus. (Xatadan, qəflətdən, hər cür əksikliklərdən çox uzaq, təmiz)
6. Əs Səlam. (Qullarını hər cür təhlükədən salamata çıxaran, cənnətdəki bəxtiyar qullarına salam verən)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

7. Əl Mümin. (Könüllərdə iman işığı yandıran, ona sığınanlara iman verib onları qoruyan, rahatlandıran)
8. Əl Müheymin. (Gözətci və qoruyucu)
9. Əl Əziz. (Məğlubedilməz, qalib)
10. Əl Cabbar. (Əksiklikləri tamamlayan)
11. Əl Mütəkkəbbir. (Hər şeydə və hər hadisədə böyüklüyünü göstərən)
12. Əl Xaliq. (Hər şeyi yoxdan var edən)
13. Əl Bari. (Əşyanı və hər şeyin əza və cihazını bir-birinə uyğun yaradan)
14. Əl Müsavvir. (Təsvir edən, hər şeyə bir şəkil və xüsusiyyət verən)
15. Əl Qaffar. (Bağışlaması çox olan)
16. Əl Qəhhar (Çox bağışlayan, günahları bağışlayan).
17. Əl Vahhab. (Bol-bol verən)
18. Ər Rəzzaq. (Ruzi ehsan edən)
19. Əl Fəttah. (Açan, asanlaşdıran)
20. Əl Alim. (Hər şeyi bilən)
21. Əl Qabid. (Sıxan, daraldan)
22. Əl Basit. (Açan, genişləndirən)
23. Əl Hafid. (Hər cür müşkülü açan)
24. Ər Rafi. (Yuxarı qaldıran)
25. Əl Müiz. (İzzət verən)
26. Əl Müzil. (Kölgə salan)
27. Əs Semi. (Hər şeyi eşidən)
28. Əl Basir. (Hər şeyi görən)
29. Əl Hakim. (Hökm edən, haqqı yerinə yetirən)
30. Əl Adil. (Ədalətli)
31. Əl Lətif. (Ən incə şeylərin bütün incəliklərini bilən, incə və sezilməz yollardan qullarına çeşidli faydalar verən)
32. Əl Xabir. (Hər şeyin içərisindən, gizli tərəfindən xəbərdar olan)
33. Əl Halim. (Hilmi çox, qulunun cəzaya layiq olduğu halda onun cəzasını dərhal verməyib gecikdirən, müsaidə edən)
34. Əl Azim. (Əzəmətli)
35. Əl Gafur. (Mağfirəti çox olan bağışlayan, güzəşt edən, əfv edən)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

36. Əs Şəkur. (Allah rizasi üçün görülən işləri daha ziyadəsi ilə qarşılayan)

37. Əl Aliyyü. (Çox yüksək)

38. Əl Kəbir. (Ali, böyük)

39. Əl Hafiz. (Görülən işləri bütün təfsilatı ilə qoruyan, hər şeyi müəyyən vaxda qədər xəta-bəladan qoruyan)

40. Əl Muqit. (Hər yaradılmışın ruzisini verən)

41. Əl Hasib. (Hər kəsin həyatında etdiyi bütün işlərin hesabını təfərrüatı ilə bilən)

42. Əl Cəlil. (Cəlal və ululuq sahibi)

43. Əl Kərim. (Kərəmi bol)

44. Ər Raqib. (Bütün varlığı görən, bütün işlər nəzarəti altında olan)

45. Əl Mücib. (Ona yalvaranların istəklərini verən)

46. Əl Vasi. (Geniş və müsaidə edən)

47. Əl Hakim. (Buyuruqlara və bütün işlərə hikmətli)

48. Əl Vədud. (Yaxşı qullarını sevən, onlara mərhəmət edən, ruzisini verən, sevilməyə və dostluğa birinci layiq olan)

49. Əl Məcid. (Şanı böyük və yüksək)

50. Əl Bâis. (Ölüləri dirildib qəbirindən çıxaran)

51. Əl Şahid. (Hər zaman, hər yerdə hazır və nazir)

52. Əl Haqq. (Varlığı dəyişmədən duran)

53. Əl Vəkil. (İşlərini yolu ilə Allaha tapşıranların işini düzəldib, onları təmin edən)

54. Əl Qavi. (Güclü)

55. Əl Mətin. (Çox sağlam)

56. Əl Vəliyy. (Yaxşı qullarına dost)

57. Əl Hamid. (Ancaq ona həmd (şükür) və səna edilən, bütün varlığın dilindən birinci öyülən)

58. Əl Muhsi. (Bir-bir hər şeyin sayını bilən)

59. Əl Mübdi. (Məxluqatı maddəsiz və örnəksiz olaraq ilk yaradan)

60. Əl Mü'id. (Yaradan)

61. Əl Mühyi. (Həyat verən. Yaradılmışları yox etdikdən sonra təkrar can bağışlayan, sağlıq verən)

62. Əl Mümit. (Canlı bir məxluqun ölümünü yaradan)

63. Əl Hayy. (Diri, hər şeyi bilən və hər şeyə həyat verən)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

64. Əl Qəyyum. (Davamlı göyləri və hər şeyi tutan, idarə edən)
65. Əl Vacid. (Vucuda gətirən, yaradan, istədiyini istədiyi vaxt tapan)
66. Əl Mâcid. (Ali, şərif, uca, kərim. Qədri, şanı böyük, kərəm və cəmahatı bol)
67. Əl Vahid. (Tək. Zatında, sifətlərində, işlərində, isimlərində, hökmlərində əsla şəriki, bənzəri olmayan)
68. Əs Səməd. (Hacətlərin bitirilməsinə, iztiribların yox olmasına tək çarə)
69. Əs Qadir. (İstədiyini istədiyi kimi etməyə gücü yetən)
70. Əl Müqtədir. (Qüdrət və qüvvət sahibləri üzərində istədiyini edən)
71. Əl Muqaddim. (İstədiyini irəli çəkən, önə alan)
72. Əl Muahhir. (İstədiyini geri çəkən, arxaya qoyan)
73. Əl Əvvəl. (İlk. Ondan öncə bir ilk olmayan)
74. Əl Axir. (Son. Ondan sonra bir son olmayan)
75. Əl Zahir. (Aşıkar)
76. Əl Batin. (Gizli)
77. Əl Vali. (Kainatı və hər an olub bitən hadisələri təkbaşına idarə edən)
78. Əl Mütəa'li. (Yaradılmışlar haqqında ağlın mümkün gördüyü hər şeydən, hər hal və vəziyyətdən uca)
79. Əl Bərr. (Qullarına yaxşılığı və bəxşişi çox olan)
80. Ət Təvvab. (Tövbələri qəbul edib günahları bağışlayan)
81. Əl Müntaqim. (Ədaləti ilə suçluları haqq etdikləri cəzaya çatdıran)
82. Əl Əfüvv. (Əfv edən, əfvi bol)
83. Ər Rauf. (Şəfqətli, yazığı gələn)
84. Malikül-Mülk. (Mülkün əbədi sahibi, hökmdarı)
85. Zülcəlali Vəlikram. (Həm böyüklük, həm də kərəm sahibi)
86. Əl Muqsit. Bütün işlərini yerli-yerində edən)
87. Əl Cami. (İstədiyini istədiyi zaman, istədiyi yerdə toplayan, cəm edən)
88. Əl Ganiyy. (Çox zəngin, heç bir şeyə ehtiyacı olmayan)
89. Əl Muğni. (İstədiyini zəngin edən)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

90. Əl Mani. (Bir şeyin meydana gəlməsinə müsaidə etməyən)

91. Əd Darr. (Ələm və zərərverici şeylər yaradan)

92. Ən Nafi. (Xeyir və mənfəətverici şeylər yaradan)

93. Ən Nur. (Aləmləri nurlandıran, istədiyi simalara, zehinlərə, könüllərə nur yağdıran)

94. Əl Hadi. (Hidayəti yaradan, istədiyi qulunu xeyirli və faydalı yollara göndərən, muradına çatdıran)

95. Əl Bədi. (Təkrarı olmayan, heyrətedici aləmləri yaradan)

96. Əl Baqi. (Varlığının sonu olmayan)

97. Əl Varis. (Sərvətlərin keçici sahibləri əlləri boş olaraq yoxluğa döndükdən sonra varlığı davam edən sərvətlərin həqiqi sahibi)

98. Ər Rəşid. (Bütün işləri əzəli təqdirinə görə dosdoğru bir nizam ilə hikmətə çatdıran)

99. Əs Sabur. (Çox səbirli)

Qeyd: Allah-Talanın bu 99 gözəl adları bir çox mənbələrə görə daha çoxdur. Bəzi hədisi-şəriflərdə Allahın 99 ismini əzbərləyib hər gün oxuyanın cənnətə gedəcəyi müjdə edilir. Yenə "Quran"ın çeşidli ayətlərində Allahın bu gözəl adlarla Ona dua edilməsi tövsiyə edilir.

Azərbaycan və Türkiye şairləri Allahın gözəl isimlərini ifadə edən çoxlu şeirlər meydana gətirmişlərdir.

*Əvvəli ibtidasız, axırı intəhasız,*
*İlki, sonu olmayan onun özüdür yalnız.* ***(Nizami Gəncəvi)***

*Onun elmi əzəldən dəryadır necə dərya,*
*Onun əbədiyyəti səhradır, necə səhra.* ***(Nizami Gəncəvi)***

*Tapılarmı cahanda onunla bəhs eyləyən,*
*Varmı ondan savayı "Bu mülk mənimdir" deyən.*
***(Nizami Gəncəvi)***

*Üzümü döndərmişəm andan bəri rəhmanə mən.* ***(Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Xətindir ayəti-rəhman ki həqdən münzəl olmuşdur.* ***(Xətai)***

*Evel Allah, ahir Allah*
*Dönemem estağfirullah*
*İmanım Ametu billah*
*Ben deyem Allah eyvallah.* ***(Davut Sulari)***

*Rəhimsən, kərimsən ədlü ədalət,*
*Könüldən xəbərdar, hər dilə bələd.* ***(Aşıq Ələsgər)***
*Ələsgər, qəm çəkmə xuda kərimdi.****(Aşıq Ələsgər)***

**Allah qorxusu (Allah korkusu):** Havfullah, haşyetullah, mehafetullah "Hikmətin başı Allah qorxusudur. İnsan Allahdan qorxar, ancaq onun qorxusu uşağın anasının qəzəbindən qorxub, yenə ona sarılması kimidir. Təsəvvüfdə İnsanın Allahdan qorxma "Allahın rızasına uyğun olmayan bir iş görərəmsə, onun sevgi və mərhəmətindən uzaq düşərəm" şəklində ifadə edilir.

**Alın yazısı (Alın yazısı, kader, takdir) (bax: Löhv).** İslam dini nəzəriyyəsinə görə bu dünyada Allahın iradəsindən asılı olmayan heç bir şey mövcud deyildir. Bu ehkam Quran`ın bir çox ayələrində şərh edilir: "Ruhu alan hər bir məxluq ancaq Allahın iradəsi ilə və ömrünün müəyyən edildiyi kitaba uyğun olaraq yaşayar."

*Bir gömlek diktirdim düymeli,*
*İnsan kaderine boyun eymeli.*
*Deli gönül çirkine bel bağlama,*
*Sevdiyim kız bu dünyaya deymeli.* ***(Türkü)***

*Üç yüz onda gelmiş idim cihana,*
*Dünyayı görmedim ben kana kana.*
*Kader böyle imiş çiçek behane,*
*Lövhi kalem kara yazmış yazımı.* ***(Aşıq Veysəl)***

**Alp, ərən (Alp, alperen) (bax: Qazi, ər, ərən):** Türk dastanlarındakı igid tipi. «Alp Ər Tunqa», «Oğuz xan», «Dədə Qorqud» kimi dastanlardakı ideal qəhrəman tipi. «Oğuz xan»



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dastanındakı ideal alp tipi sonrakı türk dastanlarında Alp, Ərən və ya Alpərən tipinə dönüşmüşdür. Fuad Köprülü islamiyyətdən sonrakı türk dastanlarındakı Alpərənlərə Alp Qazi demişdir. «Seyid Battal Qazi», «Danışmənd Qazi», «Satuk Buğra xan» kimi islami türk dastanlarındakı Alp qəhrəmanlara Alp Qazi və ya Qazi demişlər.

Qədim türk hökmdarı Əfrasiyabın da etnik adı Alp Ər Tunqadır. Qəznəvilər dövlətinin (963) banisi, türk Alptəkinin adındakı Alp sözü türk qəhrəmanlıq və dövlətçilik tarixinə işıq tutmaqdadır. «Alp» kəlməsi Kaşqarlı Mahmudun «Divani-Lüğatit-Türk»ündə öz gerçək ifadəsini tapmışdır. Mahmud Kaşqarlıda «Alplar birlə uruşma, bəylər birlə tutuşma» (Alplar ilə vuruşma, bəylər ilə duruşma) şəklində açıqlama ilə bərabər Tunqa adlı bir türk qəhrəmanının qəhrəmanlıq sifəti də Alp Ər Tunqa şəklində ifadə edilmişdir. Əfrasiyabın Alp Ər Tunqa olduğu «Kudatqu Biliğ»də də bildirilir. Onun xarakter cəhətləri «Yaxşılığa qatılmaq» adlı aşağıdakı misralarda ifadə edilmişdir:

*Sən bax, diqqətlə bax türk bəylərinə,*
*Yaxşılıq biçilib əyinlərinə.*
*Türk bəyləri içrə ən şöhrətli ər.*
*Alp Ər Tunqa idi daim səfərbər*
*El-oba içində adlı-sanlı, mərd,*
*Elmli, zəkalı, ən cəsur xilqət.*
*Əfrasiyab derdi taciklər ona,*
*Xalqı biriəşdirib, yığdı başına.*

«Dədə Qorqud»da alplara məxsus xüsusiyyət «Alp iyidlər qırış günü qırımından qayıdarmı» şəklində ifadə edilmişdir. «Alp», «Ər», «Ərən» kəlmələrinə digər türk dastanlarında da – «Koroğlu», «Manas», «Maday Qara» və s. dastanlarda rast gəlirik. Maday Qarada:

*Alpın üzü qızıl yanğın kimi,*
*At soluyuşu ağ duman kimi* – şəklində alplar ifadə edilmişdir.

«Ər», «Ərən» türk aşıqlarının dilində



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ozan aşıklar sözünü,*
*Söyle aşıklar dinlesin*
*Er var içində od yanar*
*Er var ana çü nar olur.* ***(Aşık Ozan)***

*Erənlərə böylə erdilər, (yetişdilər)*
*Ermeyen böyle kaldılar.*
*Bulanlar böyle buldular*
*Sen sende iste bul seni.* ***(Kayqusuz Alaeddin)***

**And. (And, yemin):** Folklorda bir janr. Əski türklərin müqəddəs bildikləri varlıqlar haqqındakı inanclarla bağlı olaraq söylənilmişdir. "Kitabi Dədə-Qorqud" və başqa abidələrimizdə, nağıl və dastanlarımızda müxtəlif andlarla qarşılaşırıq. "Qılıncıma doğranayım", "Torpaq kimi sovrulayım", "Oxuma sancılayım" ("Kitabi Dədə Qorqud")

Azərbaycanda Allaha, Peyğəmbərə, 12 imama, müqəddəs sayılan suya, oda, yerə, göyə, çörəyə, duza, torpağa, aya, günəşə, ataya, anaya, pirlərə, ocaqlara istinad edilən bir çox andlar vardır:

"Allaha and olsun", "Din haqqı", "Məzhəb haqqı", "Torpağa and olsun", "Atama and olsun", "Anamın südü haqqı", "Yaradan haqqı", "Göy haqqı", "Halal taam haqqı", "Gün haqqı", "Duzçörəyə and olsun."

Andlardan yazılı ədəbiyyatda da bədii ifadə vasitəsi kimi istifadə edilir. Məsələn:

*And olsun, günəşə, and olsun, aya,*
*Qəlbimdə tikdiyim odlu saraya.*
*Başım ayrılsa da bir gün bədəndən,*
*Ürəyim ayrılmaz ana vətəndən.* ***(Səməd Vurğun)***

**Arif (Arif):** Bilən, anlayan, vaqif olan, aşina olan, anlayışı mükəmməl dərk edən, ürfan sahibi, Allahı bilən, mərifət məqamına çatmış sufi.

Türk təsəvvüf və xalq şeirində, eləcə də klassik divan şeirində «arif» kəlməsi bu mənanı daşıyır:

*Arif idim, oxudum haqq kəlamını,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əlif qəddim dal yazıldı o bürcə*. **(Aşıq Qurbani)**

*Eşidin məclisdə arif olanlar,*
*Sərrafam, gövhərim, kanım gedibdi*. **(Aşıq Ələsgər)**

*Arif olan kəslər yaxşını pisdən,*
*Seçən seçib seçməyənlər seçəcək.* **(Aşıq Alı)**

*Ariflerin irfanı var,*
*İki cahandan ireli.*
*Aşıkların meydanı var,*
*Kevnü-mekandan ireli.* **(Kayqusuz Alaeddin)**

*Arifler dünyayı sırdan eledi,*
*Her kes tülbendden süzdü, eledi.*
*Muhemmed dünyaya geldiyi zaman,*
*Huriler, melekler gezdi, beledi.* **(Aşıq Selmani)**

*Ariflərin kəlamın ariflər anlar ancaq,*
*Hər cahilin qatında sirr sözün anmaq olmaz.* ***(Rövşəni)***

**Arqo, qarğadili (Argo):** Fransızca "arqot" sözündəndir. Dilçilik ədəbiyyatlarında kiçik bir qrupun ümummilli dildən fərqli olan şərti jarqonu kimi izah olunur.

"Arqo"nun mənşəi bəlli deyildir. Ancaq bir görüşə görə bu kəlmə böyük bir ehtimalla əski fransız dilində "birini acılamaq mənasına gələn "harqoter" və ya yarmaq, parcalamaq mənasına gələn "hariqoter" sözlərindən törəmişdir. Başqa bir ehtimala görə kəlmə qədim ispanyaca "qaba", "kobud" adam mənasını verən "ariqote" sözündən yaranmışdır.

Arqo Azərbaycan dilçilik və folklor terminologiyasında şərti olaraq "qarğadili" kəlməsi ilə də ifadə edilir.

Türk terminoloji lüğətində isə "arqo" şəklində ifadə edilir. "Arqo" və ya "qarğadili"ni yalnız dilçilik istilahı kimi qəbul etmək doğru deyildir. Dilin bu sahəsi həm də xalq dilində bir yaradıcı zəmindir.

"Arqo" jarqon deyildir, arqo və ya qarğadili özəl bir "dilə", ifadəyə verilən addır. Jarqon isə bir coğrafi məkanda danışan bir qrupun anlayacağı şəkildə özünəməxsus danışma şəklidir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

"Arqo" xalq arasında qaba, özünəməxsus olan ifadələrdir. Bu kəlmənin hər kəsin anlaya bilmədiyi gizli şifrələri vardır.

Arqo söz və ifadələr cəmiyyətin hər təbəqəsində istifadə olunur. Şairlik kimi arqo kəlimələr də xüsusi bir ustalıq tələb edir.

Türk və Azərbaycan xalq dilində əsl mənasından uzaqlaşan "arqo" kəlmələr mövcuddur.

Örnək:

Azərbaycanda:

"tapş" tapşırmaq (tələbələr arasında)

"Dayı"(kiminsə yardımı, tapşırmaq)

“Quyruqlu beş” (tələbələr arasında “iki” deməkdir)

"Yerı var" (ticarətdə işləyənlərin dilində,yəni bir az ucuz olar)

"Sarı ilan" (qızıl)

"Dəm olmaq" (sərxoş olmaq)

"Fıs çıxmaq" (boş çıxmaq)

"Vızıldamaq" (əhəmiyyətsiz söz, mənası olmayan gücsüz söz)

"Matişkə" (tərbiyəsiz qadın, tərbiyəsiz adam)

"Ölüyuyan" (vəkil)

"Qoduqluq (həbsxana)

Atmaq (aldatmaq)

Şapka (rüşvət)

Levi getmək (başqası ilə gəzən, düzgün yolda olmayan)

Türkiyədə:

"Dədə" – tələbə dilində yaşlı, bığlı tələbə.

"Sarı kız" (kızıl pul)

'Zom olmak" (sərxoş olmaq)

'Fos çıkmak" (boş çıxmaq)

"Vızıldamak" (sakit səslə bezdirici şəkildə söyləmək, əhəmiyyətsiz söz)

"İnək" (tələbə arqosu) çox oxuyan tələbə

"Nataşa" (son zamanlar Türkiyəyə əxlaqsızlıq məqsədilə gedən rus qadınına verilən ad)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Asa (Âsa):** Ərəbcə bir kəlmə olub dəyənək, əl ağacı, baston mənasındadır. Dini rəvayətə görə Hz. Musaya möcüzə olaraq bir əsa verilmişdir.

Əsa götürmək Məhəmməd Peyğəmbərin də bir sünnətidir. Peyğəmbər əsa götürürdü. Odur ki, təriqət şeyxləri müsəlmanlar da peyğəmbərin sünnəti deyə əsadan istifadə edirdilər.

Təsəvvüfdə bir çox təriqətlərdə qırx yaşına çatanlara əsa verilirdi. Bəzi təriqətlərdə, məsələn, xəlvətilikdə kim xəlvətə girib qırx məqama çatsa, onun əlinə əsa verirdilər.

*Sana ərdən asa gərək bu yolda*
*Dayanırsan asaya dayanasın.* ***(Yunus Əmrə)***

*Hak yoluna gidenlerin*
*Asa olsam ellerine*
*Er pir vasfın edenlerin*
*Kurban olsam dillerine.* ***(Aşıq Seyrani)***

**Astana (Astana, Asitane) (bax: Təkkə, zaviyə, dərgah):**

Astananın lüğəti mənası "eşik" deməkdir. Evin astanası, yəni kandar, qapının ağzı, qapının çərçivəsinin alt hissəsi. Təsəvvüf istilahında təkkə, dərgah, zaviyə terminləri ilə bərabər bir təriqət qurucusu və ya böyük bir vəlinin olduğu təkyə mənasını daşıyır.

**Aşıq (Aşık) (bax: Saz şairi):** Saz ilə çalıb oxuyan, şeir yazan sənətkar. Bunlara saz şairi də deyilir. Əskidən aşıq mənasını dədə, ozan, varsaq, yanşaq kəlmələri ifadə etmişdir.

Aşıq şeirinin bünövrəsi islamiyyətdən əvvəl ozanlar tərəfindən qoyulmuşdur. Ozanlar aşıq ədəbiyyatı və sənətinin təmsilçiləri kimi bu sənəti XV–XVI əsrlərə qədər «ozan» adı ilə davam etdirmiş, sonrakı mərhələdə «ozan» məfhumu «aşıq» məfhumu ilə əvəz olunmağa başlamışdır. XV–XVI əsrlərdən etibarən ozanlar daha çox aşıq adı ilə nüfuz qazanmağa başladılar.

Aşıq sözü XI əsrdən işlənməyə başlanmışdır. Əhməd Yasəvi «Aşıqlar» şeirində yazırdı:

*On səkkiz min aləmdə*
*Heyran bolqan aşıqlar.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Tapmaq məşuq sorağın*
*Sərsan bolqan aşıqlar.*

*Hər dəm başı urqulub*
*Gözü xalqa tirmulub.*
*Hu-hu tuyub çoğrulub*
*Giryan bolqan aşıqlar.*

*Cuyub yanıb kül bolğan,*
*Eşqdə bülbül bolqan.*
*Kişi görsə gül bolqan,*
*Mərdan bolqan aşıqlar.*

Əhməd Yasəvinin ifadə etdiyi aşıqlar təkkə kökənli aşıqlardır, Allah aşıqlarıdır. Aşıqlığa aşiqlikdən yəni, Allaha aşiqlikdən gələn aşıqlardır. Belə aşıqlar XV əsrə qədər ozan kimi tanınmış, XV-XVI əsrlərdən isə aşıq titulu ilə məşhurlaşmışlar.

"Aşıqlar ölməz" sufilərin tez-tez istifadə etdiyi bir təbirdir. Bununla Haqq aşıqı sufilər nəzərdə tutulur. Seyid Yəhya sufiliyi abi-həyata bənzətmiş və onu tapanların Xızır kimi ölümsüzlüyə yetişəcəklərini söyləmişdir.

Aşıqlar qoşma, gəraylı, təcnis, bayatı, müxəmməs kimi şeir şəkillərindən tutmuş, böyük dastanlara qədər müxtəlif ölçülərdə bədii əsərlər yaratmışlar.

Aşıq sənətinin tərkibində bədii ədəbiyyat, musiqi, xalq teatrı ünsürləri və rəqs mövcuddur. Aşıqlar nəşəli, kədərli mövzular kimi, qəhrəmanlığı tərənnüm edən mövzular üçün də havalar vücuda gətirirlər ki, bunlara xalq arasında «havacat» deyilir.

Aşıq ədəbiyyatının qədim, əzəmətli abidəsi «Kitabi Dədə Qorqud»dur. «Aşıq Qərib», «Koroğlu», «Əsli və Kərəm», «Abbas və Gülgəz», «Şah İsmayıl» kimi istər qəhrəmanlıq, istərsə də məhəbbət dastanlarının meydana gəlməsində aşıqlar böyük rol oynamışdılar.

Azərbaycan torpağında tarix boyunca ünlü aşıqlar yetişmişdir: Aşıq Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Miskin Abdal, Sarı Aşıq, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd, Aşıq İslam, Aşıq Hüseyn Saraclı, Aşıq Mikayıl Azaflı bunlardan bir neçəsidir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aşıq türk xalq ədəbiyyatında saz şairi mənasında da işlədilən bir termindir. Türk ədəbiyyatında XIII əsrdə Aşıq Paşa «aşıq» sözündən ünvan kimi istifadə etmişdir. XV–XVI əsrlərdə Aşıq Çələbi, Aşıq Əhməd, Aşıq İbrahim kimi türk saz şairləri özlərinə aşıq demişlər.

Ənənəyə görə bədahətən şeir söyləməyə başlayan aşıqlar, əllərinə saz alıb şeir söyləmədən əvvəl dərin bir yuxuya gedirlər. Bu yuxuda Xızır, ya bir mürşüd və ya pir onlara «dolu» («eşq badəsi») içirirlər. Bu mənəvi içki ilə onlar «Haqq aşığı» olur və bundan sonra saz çalıb, şeir söyləyirlər.

Aşıqların yetişdikləri mühiti təxminən aşağıdakı şəkildə sıralamaq olar:

Dini təsəvvüf ortamında yetişən aşıqlar;

Kənd və əşirət içərisində yetişən aşıqlar;

Qəsəbə və şəhər şəraitində yetişən aşıqlar;

Köçəri çevrələrində yetişən aşıqlar;

Ustada şagird olaraq yetişən aşıqlar;

Röyadan sonra aşıq olanlar;

Dərd və sevda səbəbi ilə aşıq olanlar və s.

«Aşıqların bir qismi heç bir təhsil görməmişlər. Onların şeirlərindəki mükəmməl məlumatlar ya qulaqdan-qulağa eşidilmiş məlumatlardır, ya da ustad aşıqların şeir dünyasının təsiri ilə yazdıqları məlumatlardır. Onların inkişafı üçün kənd otaqları, qəhvəxana, çağrıldıqları məclislər yetərli sayılmışdır. Aşıqların böyük bir qismi isə az-çox təhsil görmüş, ustad yanında dərs almışlar. Onların şeirlərindəki mövzu rəngarəngliyi, dil zənginliyi, ustalıq bunu deməyə əsas verir. Belə aşıqlar şeirlərinin vəzinlərində də dəyişiklik etmişlər. Onlar əruz vəzninin məlum ölçüləri ilə yazdıqları şeirlərə özəl adlar vermişlər və bu adlardan yalnız özləri istifadə etmişdilər. Məsələn: divan, selis, səmai, qələndəri, vəzni-axər, satranc kimi». (136, III, 262)

Anadoluda Aşıq Paşa, Kazak Abdal, Pir Sultan Abdal, Aşıq Ömər, Qaracaoğlan, Öksüz Aşıq, Ərzurumlu Əmrah, Tokatlı Nuru, Aşıq Seyrani, Aşıq Sümmani, Aşıq Veysəl, Aşıq Əli İzzət Özkan, Murad Çobanoğlu, Kəmali Bülbül kimi yüzlərlə aşıqlar yetişmiş, bu ənənə bu gün də davam etməkdədir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Aşıq deyişmələri (Atışma):** Aşıqlar arasında yarış, müsabiqə şəklində keçirilən şeirləşməyə deyişmə deyilir. Deyişmənin xüsusi forması və qafiyəsi yoxdur. Adından da göründüyü kimi deyişmədə əsasən iki aşıq bir mövzuda qarşılıqlı şeir söyləyir. Deyişmədə əsas məqsəd sənətkarlığı, bilik və bacarığı isbat etməkdir. Öz bilik və bacarığını isbat etmək üçün aşıqlar söz meydanına getmiş, qarşılıqlı şeir söyləmişlər.

Azərbaycan aşıq ədəbiyyatında daha yayqın olan deyişmənin bir neçə mərhələsi var. Birinci mərhələ «dəvət», ikinci mərhələ «hərbə-zorba», üçüncü mərhələ aşıqların bacarığını nümayiş etdirən «ayaq vermək» mərhələsidir. Dördüncü mərhələ «qıfılbənd» adlanır.

«Dəvət» mərhələsində tanınmış bir aşığı başqa bir ustad aşıq söz meydanına çəkir. Məsələn: Zərnigar xanımla Aşıq Valehin deyişməsində («Valeh və Zərnigar dastanı») Zərnigar xanım Aşıq Valehi söz meydanına belə dəvət edir:

*Bizdən salam olsun, ey Aşıq Valeh,*
*Əgər aşıq isən bu meydana gəl.*
*Ya aşıqlıq ismin götür üstündən,*
*Ya hünərin varsa, bu meydana gəl!*

İkinci mərhələ «hərbə-zorba» mərhələsidir. Bu mərhələdə hər aşıq elmə, aşıqlıq sənətinə nə dərəcədə vaqif olduğundan danışır, rəqibinə zərbə vurmağa çalışaraq, ona hərbə-zorba gəlir. Məsələn: Aşıq Alı ilə Aşıq Hümmətin deyişməsindəki hərbə-zorba mərhələsi belədir:

*Aşıq Alı:*

*Mən rəhmət söylərəm kamil ustada,*
*Ərz etdi dərsimi düzünə yazdım*
*Köçməsin ünvansız türfə gözəllər*
*Vəsfini mahparə üzünə yazdım.*

*Aşıq Hümmət:*

*Mənim də ustada min rəhmətim var,*
*Belə eşitmişəm, belə də yazdım.*
*Ömür boyu gözəl düşmür dilimdən*
*Görəndə bir qara telə də yazdım*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Deyişmənin üçüncü mərhələsində aşıqlar ilk sözü söyləmə texnikasını nümayiş etdirir. İlk sözü söyləyən aşıq hansı şeir şəklini seçirsə, hansı hava ilə oxuyursa, hansı rədiflə şeir söyləyirsə, qarşısındakı aşıq da eyni yolu izləməlidir.

Aşağıdakı nümunə dediklərimizə bir örnəkdir:

*Molla Cümə:*

*Ay ağalar, bircə baxın*
*Görün necə yar oynayır.*
*Naz edir, süzür gedir,*
*Sevdiyim aşkar oynayır.*
*Al yanaq, billur buxaq*
*Zənaxdanı nar oynayır,*
*Əl vurun, geridə durun,*
*Balaca dilbər oynayır*

*Xəyyat Mirzə:*

*Həzarat, bircə baxın,*
*Gör necə dilbər oynayır.*
*Gül zərif, dəsti zərif,*
*Dəstində güllər oynayır.*
*Nazənin ağ üzünə,*
*Düşübdü tellər oynayır.*
*Səsinə həvəsinə,*
*Çar çəkib ellər oynayır.*

Deyişmənin «qıfılbənd» adlanan dördüncü mərhələsi aşıqların bir-birinə sual-cavabıdır. Bu müəmma sualları açmaq o qədər də asan deyildir. Qıfılbəndə Azərbaycan aşıqlarının yaradıcılığında çox təsadüf edilməkdədir:

*Ləzgi Əhməd:*

*O nədir ki, dayanıbdır dayaqsız,*
*O nədir ki, boyanıbdır boyaqsız.*
*O nədir ki, doğar əlsiz-ayaqsız,*
*Üç ay keçər ayağı var, əli var.*

*Xəstə Qasım:*

*Göy bir qədər dayanıbdır dayaqsız,*
*Ayla gündür, boyanıbdır boyaqsız.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Qurbağadır doğar əlsiz-ayaqsız,*
*Üç ay keçər ayağı var, əli var.*

Türk aşıq ənənəsinə görə də deyişmə iki aşığın qarşı-qarşıya gələrək bir-birilərini həm sazla, həm də sözlə atışmasıdır, yəni deyişməsidir.

Deyişmə aşıqlar arasında «karşılaşma», «karşıbəri», «deyişmə», «atışma» kimi adlarla da ifadə edilir.

Prof. Umay Günaya görə Şərqi Anadoluda yaşayan aşıq qarşılaşmaları aşağıdakı mərhələlərdə olur: xoşlama, xatırlama, təkəllüm. Təkəllüm isə 8 qrupa ayrılır: ayaq açma, öyüdləmə, bağlama, müəmma, sicilləmə, yalanlama, daşlama və ya takılma, tükətməcə, uğurlama və s.(127, 46-60)

Xoşlama bir növ aşıqların biri-biri ilə və dinləyicilərlə salamlaşmasıdır. Onlar «xoşgəldiniz», «mərhaba», «səfa gəldiniz» kimi rədiflərlə bir-birinə qarşılıqlı şeirlər söyləyirlər.

Xatırlamada aşıqlar özlərindən öncə yaşayan ustad aşıqların deyişmələrini sıra ilə xatırladırlar.

Təkəllum ısə aşıqların ən çox hunərını bıldırır. Bır növ aşıqların bağlamasıdır, birinin o biri üzərində qələbəsidir.

Türk aşıq ədəbiyyatında deyişmənin başqa bir növü də atışmadır. Atışma aşıqlar arasında keçirilən şeir söyləmə yarışlarında birinin oxuduğu dördlüyə və ya beytə, başqa bir aşığın eyni vəzn və ayaqla cavab verməsi deməkdir. Aşıqlıq ənənəsində ən çox hünər istəyən, böyük ustalıq tələb edən bölüm olmaqla, aşığın saz və söz meydanına cəsarətlə atılmasıdır.

Atışmaya başlamadan əvvəl aşıqlar sazlarına düzən verir, məclisi divan və ya divani ilə açırlar. Buna ayaq açma da deyilir. Bunun ardınca təkəllüm (təkərləmə), müəmma (bulmaca, tapmaca) takılma və taşlamalar söylənir. Yarış başlarkən aşıqlardan biri ayaq (qafiyə) verir. Yarış bu ayaq ilə başlayır. Aşıqlar verilən ayağın vəzn və qafiyəsinə uymalıdır. Yarış bədahətən şeir söyləməklə davam edir.

Yarışın qalibi olan aşıq atışmanı səmai ğözəlləmə və öyücü dördlüklərlə bitirir. Barışma, öymə və uğurlama deyilən bu bölümdə aşıqlar mədhedici dördlüklərlə bir-birini öyər və aralarında küskünlük qalmaz.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk aşıq ədəbiyyatında atışmaya aid nümunələrə XVI əsrdə rast gəlinir. Daha mükəmməl örnəklərə isə XIX və XX əsrlərdə təsadüf olunur.

Aşıq Seyrani ilə Aşıq Naminin atışmalarından bir örnək:

*Aşıq Seyrani:*

*Kayseri elinden geldim buraya,*
*Hasretlik duyğusu başlar sılaya.*
*Teker teker keçin çalın sıraya,*
*Merd oğlu merd ilə güreşe geldim.*

*Aşıq Nami:*

*Kayseri elinin yolları uzun,*
*Tifile benzersin acırım kuzum.*
*Ulu Mevla bana verirse izin,*
*Senin ile oğul, güreşe geldim.*

*Aşıq Seyrani:*

*Yaşlısın pederim, kamil deyilsin,*
*Baktım bu divana amil deyilsin.*
*Çaldığın sazına ehil deyilsin,*
*Merd oğlu merd ile güreşe geldim.*

*Aşıq Nami:*

*Cezasını çeker hasmım azğını,*
*Yaradan hak verir qulun azığını.*
*Senin de keserim çabuk hızını,*
*Senin ile oğul, güreşe geldim.*

*Aşıq Seyrani:*

*Aşıq Seyraniyim Haktan korkarım.*
*Aşkın şahiniyim pence takarım.*
*Gözüne kesdirme seni yakarım,*
*Merd oğlu merd ile güreşe geldim.*

*Aşıq Nami:*

*Aşıq Namiyim ben namidir ismim,*
*Çətinə benziyor könlümce hasmım.*
*Fidansın kiymaram söylensin ismim,*
*Senin ile oğul, güreşe geldim.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Aşıq ədəbiyyatı (Aşık edebiyatı):** Xalqın daha asan anlaya biləcəyi bir dildə, heca vəzni ilə yazılan və saz çalaraq diyarbadiyar dolaşan şairlərin əsərlərindən ibarət olan ədəbiyyat. Aşıq ədəbiyyatının bünövrəsi islamiyyətdən əvvəl ozanlar tərəfindən qoyulmuşdur. Sonralar ozanlar aşıq kimi məşhurlaşmışlar. Odur ki, istər ozanların, istərsə də aşıqların yaratdıqları ədəbiyyat aşıq ədəbiyyatı kimi tanınmışdır. Şeirlərini bədahətən söyləyən ozan və aşıqların əsərləri şeir-sevərlər tərəfindən «cünk» adlanan dəftərlərdə toplanmış və bu şeirlərin bir qismi zəmanəmizə qədər gəlib çatmışdır. Özü-nəxas təmiz və gözəl dili, şeir vəzni və mövzuları olan aşıq ədəbiyyatı uzun əsrlərdir ki, yaşayır və bu gün də yaşamaqda və inkişaf etməkdədir.

**Aşıq havaları (Aşık makamı):** Aşıqların sazla oxuduqları hava. Azərbaycanda xalq arasında buna «Aşıq havacat»ları da deyilir. Bu havalar xalq musiqi folklorunun təməl havacatla-rından biridir. Aşıq havaları mövzu etibari ilə qəhrəmanlıq, eşq, nəsihət, məzəli və s. kimi xüsusiyyətəri ifadə edir.

Hal-hazırda Azərbaycan aşıq havaları və variantlaranın sayı 150-dən çoxdur. Prof. Mürsəl Həkimovun elmi araşdırmalarında aşıq havalarının sayı 193-ə çatmışdır. Bu havaların bir neçəsi: «Koroğlu», «Gözəlləmə», «Dilqəmi», «Ayaq Divani», «Orta Divani», «Misri», «Yanıq Kərəmi», «Cığalı təcnis», «Təcnis», «Göyçə gülü», «Gəraylı», «Şərili», «Cəlili», «Ürfani», «Qaraçı», «Paşa köçdü», «Əfşarı», «Şahsevəni», «Bəhməni», «Calaloğlu», «Çobanbayatı», «Şəmşiri», «Hicrani», «Sarıtel», «Səməndəri», «Sultanı», «Naxçıvan gülü», «Orta Cəlili», «Cəlili», «Novruzu», «Müsəlləhi», «Mansırı», «Güllü qafiyə», «Əcəmi», «Qobustan şikəstəsi», «Dübeyti», «İncəgülü», «Kö-çəri», «Qürbəti», «Dərbəndi», «Qarabağ qaytarması», «Çayba-şı», «Vurğunu», «Borçalı», «Baş Sarıtel», «Orta Sarıtel», «Araz-barı», «At üstü», «Aşıq Ziyadı», «Çoban şikəstəsi» və s.

Türk saz havalarından bir neçəsi: «Tərəkəmə makamı» və ya «At üstü şikəstəsi», «Şirvani makamı», «Karaçı makamı», «Yanık Kərəmi makamı», «Güzəlləmə», «Şəki sicilləməsi», «Çıldır tərə-kəmələri» və s.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Aşura (Aşure):** Məhərrəm ayında şiələrin matəm günü. Ərəb təqvimi ilə Məhərrəm ayının onuncu günü. Bu gündə imam Hüseyin hicri 61/680 – cı ildə şəhid edildiyi üçün matəm tutulur.

Bir rəvayətə görə Nuh Peyğəmbərin gəmisi də bu gün torpağa çıxmış, buna görə də Həzrət Nuh da şükür əlaməti olaraq gəmidə olan bütün ərzaqı bir-birinə qarışdıraraq bir şirin yemək hazırlamışdır.

Bunlardan əlavə Məhərrəmlə əlaqədar daha bir çox hadisələr, rəvayətlər söylənilir. Odur ki, Məhərrəm ayının 9-10 və ya 10-11-ci günləri oruc tutmaq vacib hesab edilir.

**Atalar sözü (Ata sözleri):** Folklorun ən çox yayılmış janrlarından biri. Anonim xalq ədəbiyyatının qəliblənmiş bu janrı bir və ya bir neçə cümlədən ibarət hikmətli sözlərdir. Nə zaman söyləndiyi və kimin söylədiyi bəlli deyildir. Nəsildən-nəslə keçərək günümüzədək yaşayan atalar sözləri xalqın tarixə, tarixin də xalqa verdiyi ibrət dərsinin hamı tərəfindən qəbul edilmiş nəticəsidir. Atalar sözü xalqın dünyagörüşünü və həyata münasibətini bildirməklə, insanlara yol göstərən hikmətli sözlərdir. Bu hikmətli sözlər öyüdverici ruh, rəngli ifadə, dərin fəlsəfi ideya ilə zəngindir.

Kaşqarlı Mahmudun «Divani-Lüğətit-Türk»ündə, «Kitabi Dədə Qorqud»da daha öncəki əsrlərə aid atalar sözlərimiz mövcuddur. «Elmli insan ölməz», «Kül təpəcik olmaz», «Qarı düşmən dost olmaz» və s. kimi.

Azərbaycan və Türkiyə folklorunun ən qədim qaynaqlarından olan «Oğuznamə» adlı kitab dədələrimizin dil və təfəkkür incilərindən olan atalar sözləri və məsəlləri bizə çatdırmışdır. «Haza Kitab-i Oğuznamə» (“Bu Oğuznamə kitabıdır”) adı ilə Sankt-Peterburq Dövlət Universitetinin Şərq fakültəsi kitabxanasında mühafizə edilən bu kitab 1980-cı illərədək türkologiya elminə məlum olmayan XI-XV əsrlərə aid bir əlyazmadır. “Oğuznamə” 1987-ci ildə Azərbaycan alimi Samət Əlizadə tərəfindən üzə çıxarılıb, Azərbaycanda, 1992-ci ildə isə professor Ali Haydar Bayat tərəfindən Türkiyədə nəşr olunmuşdur.

«Oğuznamə»də təxminən iki min atalar sözü və məsəl toplanmışdır. Bunların dili IX-XI əsrə aiddir. Prof. Samət Əlizadə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yazır ki, «Oğuznamə»də elə nümunələr var ki, ona nə «Kitabi Dədə Qorqud»da, nə Yazıçıoğlu Əlinin «Səlcuqnamə» sində rast gəlmirik.

«Oğuznamə»dən bir neçə örnək: «Ac kiminlə gərəksə, savaşar», «Musa üçün İsanı qınamazlar», «El ilə gələn bəla bayramdır», «İnsaf dinin yarısıdır», «Öldüyün yetməz, qoz ağacından tabut istəyirsən», «Oğul ataya görə süfrə yayar», «Ölüm olmasa, hər kəs bildiyini edər», «Ac ol, dinc ol», «Yüyənsiz ata minmə», «Eşşəyə səməri yük olmaz» və s.

Azərbaycan ata sözləri dəfələrlə toplanıb nəşr edilmişdir. «Azərbaycan Atalar sözü». Bakı, 1926, «Atalar sözü və məsəllər». Bakı, 1949, «Atalar sözü və məsəllər». Bakı, 1961, «Atalar sözü». Bakı, 1990 bunlardan bir neçəsidir.

Azərbaycan atalar sözlərindən bir neçə nümunə: «Keçmə namərd körpüsündən, qoy aparsın sel səni», «Tək əldən səs çıxmaz», «Böyüyü dinləməyən böyürə-böyürə qalar», «Var evi kərəm evi, yox evi ələm evi», «Dərd var gələr keçər, dərd var dələr keçər», «Gördün yarın yar deyil, tərkin qılmaq ar deyil», «Çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə», «Ağac əyildi-sındı, igid əyildi-öldü», «Qazan qarası gedər, üz qarası getməz» və s.

Öyüdverici ruha, hikmətli fəlsəfi düşüncəyə malik olan türk ata sözləri ilə azərbaycan atalar sözlərinin mənəvi varisləri Azərbaycan və Türkiyə turkləridir.

Türk ata sözlərindən bir neçə nümunə:

“Hər kim kazanmasa ekmek parası, dostunun' yüz karası, düşmeninin maskarası”, “Telebe hocadan, karı kocadan korkmalı”, “Varsa pulun her kes kulun, yoksa pulun dardır yolun” “Sona kalan dona kalar”, “Kız beşikdə, cehiz sandıqda”, “Nerde birlik, orda dirlik “Akşam az ye, sabah qaz ye”, “Eldən gelen övün olmaz, o da vaktında bulunmaz”, “Sevda keçər yalan olar, sonra sokar yılan olar”, “Anası bəslər hurmayla, el oğlu qarşılar yarmayla”, “Kız evi, vezir evi”, “Çobana verme kızı, ya koyun güddürür, ya kuzu”, “Hakimsiz, hekimsiz memleketde durma”, “Boya posa bakma huya-huşa bak”, “Haramın temeli olmaz”, “Saç sefadan, tırnak cefadan uzuyar”, “Biri yeyer, biri bakar, kiyamet ondan kopar”, “Bir elin nesi var, iki elin sesi var”,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Ekmək elden, su gölden”, “Sebr edən derviş, muradına ermiş” və s.

**Atmaca:** Folklorun yumoristik xarakterli bir janrıdır. Dərin mənalı, hikmətli sözlərdən ibarət olan rəvayət və ya həqiqətən də həyatda olmuş bir hadisənin və ya anladılması çox mürəkkəb hadisələrin mahiyyətini çox sərrast bir şəkildə ifadə edir. Atmacalar əsasən tarixi şəxsiyyətlərin həyatından və ya bioqrafik əsərlərdən alınır.

Örnəklər:

1. Birisini tutub Abbasilər sülaləsinin məşhur xəlifələrindən Harur əl Rəşidin (763-809) yanına gətirmiş və demişlər:

– Bu kişi kafir olmuşdur!

Xəlifə bu sözün doğru olub-olmadığını soruşduqda həmin adam "müsəlmanam" demişdir. Harun əl-Rəşid:

– Aparın, onu o qədər döyün ki, kafirliyini boynuna alsın – deyə əmr verdikdə kişi:

– Ya xəlifə, bir kafir gəlib, "müsəlman oldum” desə ona xələt verirsiniz, amma mən müsəlmanı döyə-döyə kafir etmək istəyirsiniz – demişdi!

2. Teymurləng bir gün öz nədimi ilə hamamda çimərkən soruşmuşdu:

*– Bu duruşda mənim vücüdum neçəyə dəyər*

*– Yüz dinara*

*– Yüz dinar yalnız belimdəki fitənin qiymətidir – deyə Teymur etiraz etdikdə, nədim ona:*

*Mən də elə fitəni nəzərdə tuturam, deyə cavab vermişdi.*

3. Nadir şah Azərbaycanda rast gəldiyi bir kəndlidən soruşur:

*– De görum, Rüstəm güclü idi, ya mən? Kəndli deyir:*

*– Rüstəm padişahlara tabe idi, sən isə heç kimə tabe deyilsən.*

*Şah Abbas əzəmətli idi, ya mən?*

*– O şahlığı irs olaraq almışdı, sən isə qılınc gücünə.*

*– De görüm, Allah böyükdür, ya mən ? – deyincə kəndli:*

*– O göydə bildiyini edir, sən isə yerdə. Məni bu işə qarışdirmayın – deyə cavab verir.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

4. Azərbaycanlı şair Rəmzi Baba XIX əsrdə İstanbulda yaşadığı zaman bir gün küçədə II Sultan Məcidə rast gəlib bədahətən bu şeiri demişdir:

*Bir həftə sənin xərcin on il mənə kafidir,*
*On il məni rahat qıl, bir həftə imsak(qənaət) et.*

Sultan bu şeir üçün şairə ənam vermişdir.

**Ayaq (Ayak):** Aşıq şeirində dördlükdən sonra gələn və dördlüyün son misrası ilə qafiyəli yarım misra.
Məsələn:

*İki dərya xoş görünmür gözünə,*
*İki çarx dörd gəlməz ərin dizinə.*
*Xəstə Qasım, bu şeirinə, sözünə*
*Qazı, molla, müctəhidlər qaldı mat,*
*Tapmadı kəlimat. (Xəstə Qasım)*

*Aşıq Ələsgərəm soruşsan adım,*
*Huş başımdan gedib yoxdur savadım.*
*Sözlə mətləb yazmaq deyil muradım,*
*Arifə eyhamnan yazıram urfat*
*Sədrin olsun sat. (Aşıq Ələsgər)*

Ayaq türk aşıq şeirində də qafiyəli yarım misradır. Azərbaycan aşıq şeirində olduğu kimi hər dördlükdən sonrakı yarım misradır.

*Canlar kan eyledi ol cismi-mestin,*
*Kulunun babında dağlıdır destin.*
*Seyraniye yazık deyilmi dostum,*
*Etdiyin sitemler gelmez beyana.*
*Alsan lisana. (Aşıq Seyrani)*

2. Ayaq eyni zamanda bir qafiyə çeşididir. Tədqiqatçı Doğan Kayanın "ayaq" termini ilə açıqlamaları belədir:
"Ayaqlar" qafiyələrin xüsusiyyətlərinə görə "tək ayaq" və "dönər ayaq" deyə iki, qafiyə dərəcələrinin çətinliyinə görə isə "geniş ayaq", "dar ayaq", "qapanıq ayaq" olmaq üzərə üç yerə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ayrılır. (Türklük Bilim Araştırmaları. Sayı 8, Sivas, 1999. s.340.)

Türk aşıq qarşılaşmalarında (deyişmələrində) ayaq açma, ayaq alma, ayaq arama, ayaq düşürmə, ayaq beyti, ayaq dəyişdirmə ifadələri işlədilir.

Ayaq açma – deyişmədə ikinci aşığın o biri aşıq tərəfindən söylədiyi ilk dördlüyün ikinci misrasında şeirə ayaq ola biləcək qafiyəli söz söylənməsidir.

Ayaq alma – deyişmədə ikinci aşığın əvvəlki aşığın açdığı ayağı qəbul edib uyğun şeir söyləməsi.

Ayaq beyti – şeirin ilk dördlüyünün ilk iki misrasına verilən addır.

Ayaq dəyişdirmə – öncəki ayaqla söylənən şeirə son verib yeni bir şeir üçün ondan fərqlənən "ayaq"dan istifadə etmək.

Ayaq istəmə – Aşıqlann dinləyicilərdən "ayaq" tələb etməsi.

Ayaq uydurma – Aşığın söylənilən şeirə eyni "ayaq"la cavab verməsi.

Ayaq vermə – Aşıqlara onlann güclərini, bacarıqlarını sınamaq üçün dinləyicilər tərəfindən "ayaq" bildirmə.

Ayaqdan çıxma – İlk dördlükdə ortaya qoyulmuş "ayaq"dan fərqli olaraq başqa bir qafiyədən istifadə. "Ayaq"dan çıxan aşıq gücünün zəif olduğunu nümayiş etdirir.

Dar ayaq və va zor ayaq – Bu bir dönər ayaq çeşidi olub, eyni səsi daşıyan, fəqət sayı az olan kəlmələrlə söylənən "ayaq"dır.

**Ayaq (Uyak) (bax: Qafiyə):** Türk ədəbiyyat terminologiyasında divan ədəbiyyatı şeirləri üçün söylənilən “kafiyə” (qafiyə) termininin aşıq və təkkə ədəbiyyatındakı qarşılığıdır. Aşıq şeirində “qafiyə” ayaq şəklində də ifadə edilir.

Türk dini təsəvvüfi xalq şeirində və aşıq şeirində misra sonlarının bəlli bir qaydaya görə dağılışı olur. Şair bu ayağa uymaq zorunda olduğu üçün buna “uyak” deyilir. Məsələn:

İlk dördlük “a, b, a, b” ya da “a, b, c, d” şəklindədirsə, onun ardınca gələn bütün xanələr “d, d, d, b”, “e,e,e,b” kimi qafiyə şəklinə uymalıdır:

*Ela gözlərini sevdiyim dilber,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sen benim derdime deva bilmezsin.*
*Sen nasıl tabibsen yoktur ilacın,*
*Yürekde yaramı sara bilmezsin.*

*Sana derim sana, ey kalbi hain,*
*Kimsələr çekmesin feleyin yayın.*
*Alıb xarab etdin könül sarayın,*
*Alıb bir daşını koya bilmezsin.*

*Emrah eydür yalan oldu sözlerim,*
*Mühebbetin can evimdə gizlerim.*
*Ne durursun, ağlasana gözlerim,*
*Gitti kaşı kara, göre bilmezsin.* ***(Erzurumlu Emrah)***

**Ayaqlı qoşma (Ayaklı koşma):** Hər dördlükdən sonra yarım misrası (ayaq) olan qoşma.

Azərbaycan və türk aşıq şeirində ayaqlı qoşma örnəkləri mövcuddur.

Azərbaycan aşıq şeirindən örnək:

*Naqis, boydan uzun, mənadan kasad,*
*Sərbəst şeirlərdə söz çıxır dizə.*
*Şair gərək dayazlarda gəzməyə,*
*Təcnis dəryasına baş vurub üzə,*
*Səs sala ərzə.*

*Keçsə də dünyadan yüz min nəbilər,*
*Sevilir, yaşıyır yalnız Nəbilər.*
*Dağın şaxtasını Aran nə bilər,*
*Tufanlar canına salmasa lərzə,*
*Cavab ver sözə.*

*Gül, Əcayib, ayarlığı az ar sən,*
*Xəbisliyi bir sağalmaz azar san.*
*Nabələdsən, bu yollarda azarsan,*
*Ağzını salaram dodaqdəyməzə,*
*Danışma hərzə.* ***(Qiyas Əcayib)***

Türk aşıq şeirindən örnək:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Nari aşkın serden düşdüm yek derde,*
*Şeklin perilerde yoktur kişverde.*
*Ellerin hancerde; zerrin kemerde,*
*Her gördüyün yerde gel bakma kıya,*
*Can sana feda.*

*Sevdim sen dilberi hublar serveri,*
*Gördüm şeklin peri oldum müşteri.*
*Çeksen de hanceri, kessen bu seri,*
*Qayri şimden geri sen şah ben Geda,*
*Kul oldum sana.***(Tokatlı Gedai)**

**Ayaq vermək (Ayak açmak) (bax: Aşıq deyişmələri):** Aşıqlara dinləyicilər tərəfindən ayaq verilməsi, yəni qafiyə verməsi. Aşıqlar qarşı-qarşıya durub deyişərkən eyni rədif, eyni qafiyə üstündə, eyni saz havasını oxumalıdır.

Bir aşığın o biri aşığa "Aşıq şeirimə ayaq ver" deməsi qarşıdakı aşığın eyni qafiyə, eyni rədif, eyni saz havası, eyni pərdədə oxumasını istəməsidir. Belə vəziyyət əsasən aşıq deyişmələrində görünür.

Azərbaycan aşıq şeirindən örnək:

*Molla Cümə:*

*Ay xocalar, bircə baxın,*
*Görün necə yar oynayır.*
*Naz edir, süzür gedir,*
*Sevdiyim aşkar oynayır.*
*Al yanaq, büllur buxaq,*
*Zənəxdanı nar oynayır.*
*Əl vurun, cergə durun,*
*Balaca dilbər oynayır.*

*Xəyyat Mirzə:*

*Həzarat, bircə baxın,*
*Gör necə dilbər oynayır.*
*Gül zərif, dəstə dərif,*
*Dəstində güllər oynayır.*
*Nazman ağ üzünə*
*Düşübdü tellər oynayır.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Səsinə, həvəsinə*
*Car çəkib ellər oynayır.*

Türk aşıqlarından Aşıq Reyhani və Aşıq Səlmanidən bir örnək:

*Aşıq Reyhani:*
*Şu devri-alemde aşka düşeirsin,*
*Ya afas gedersin, yanar gedersin.*
*Cehenneme soyuq-soyuq girilmez,*
*Ya ateş gedersin, yanar gedersin.*

*Aşıq Selmani:*
*Bu dünyada hayrı-şeiri bilmezsin,*
*İnsan olmayaraq döner gedersin.*
*Eger bu dünyada arzun almışsan,*
*Sönmüş ateş gibi söner gidersin.*

*Aşıq Reyhani:*
*Bu yanan gönüllər bir gün oyamr,*
*İçer ecel şeirabını boyanır.*
*Cansız at kapıya gelir, dayanır*
*Anasız, babasız miner gedersin.*

*Aşıq Selmani:*
*İnsanlar dünyada misali yarpaq,*
*Evvel-ahır vardır dalından kopmak.*
*Bir gün bakarsan ki, yarılır toprak,*
*Bir quyu içinde konar gedersin.*

*Aşıq Reyhani:*
*Reyhani, hesaba bakmadın ise*
*Hikmət fermanını takmadın isə.*
*Faydalı bir çok iş yapmadın isə,*
*Ahirete bozulmuş fener gedersin.*

*Aşıq Selmani:*
*Selmaniyim, işim, gücüm zar ise,*
*Eger aşıq sevdiyine yar ise,*
*Yolculukda eger kısmet var ise,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Cenneti-alaya döner gedersin.*

**Ayama (Takma ad. Lakab):** Ayama hər hansı bir əlamətə görə bir şəxsə sonradan verilmiş əlavə ad. Daha doğrusu, xalq tərəfindən birinə verilən ləqəbə ayama deyilir. Ayamanın ləqəbdən və təxəllüsdən fərqi şəxsin xarakter, xasiyyət və fiziki görünüşünə görə xalq tərəfindən ad verilməsidir. Xalq ədəbiyyatının rəvayət, lətifə və dastanlarındakı bir çox tiplərə verilən adlar bu qəbildən olan ləqəblərdir. Məsələn: Dastanlarda: Koroglu. Qacaq Nəbi, Qatır Məmməd

Lətifələrdə: Molla Nəsrəddin (Türklərdə Hoca Nəsrəddin) Bəhlul Danəndə.

Nağıllarda: Tıq-tıq xanım, Donuzan qurdu. Düz xätun, Sican Solub bəy, Kara Fatma (türklərdə) kimi tiplərə xarakterlərinə görə xalq tərəfindən verilmiş ayamalardır.

Yazılı ədəbiyyatda da “ayama”dan tiplərin xarakterinə uyğun olaraq istifadə edilmişdir. Cəlil Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, Böyükağa Talıblının və b. əsərlərində çoxlu ayamalı tiplər vardır. B.Talıblının “Keyf içində” əsərindən bir nümunə:

Səfər bəy – Bundan sonra bir adam mənə “Ət yeməz oğlu” deməsin.

Qənbərqulu – Ağa, başına dönüm, bu necə ola bilər? Birdənbirə elin ağzını bağlamaq olmaz ki. Hamının dili öyrənib “Ət yeməz Əsgər, Ət yeməz Əsgər”. Daha başqa cür nə demək olar? Bu ləqəb sizin nəslin yaraşığıdır. Bax gör nə gözəldir: “Ət yeməz Əsgərin nəvəsi Əsgər ağa”.

Səfər bəy – Xeyr, bu heç mənim şənimə yaraşan ad deyil. Qoy desinlər “Ət yeyən Səfər bəy”, “Yağ yeyən Səfər bəy”.

Qənbərqulu – Əlbəttə, ağa, bu yaxşı olardı, amma bir az gecdir. İş-işdən keçib. Bir cəhətdən də pis olardı ki, xalqın dili dinc qalmazdı. “Ət yeyən Səfər bu yanda qalardı, hamı deyərdi “İt yeyən Səfər bəy”, “Bit yeyən Səfər bəy”

Ayamalar aşıq poeziyasında da dilə gətirilir. XVIII-XIX əsrlərdə yaşamış Şəmkirli Aşıq Hüseynin "Yüyür" adlı şeirindən örnək:

*Qıy vurun, qoçaqlarım,*
*Ay it, canavara yüyür!*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*A gədə, Hovruz Alı,*
*Çıx kəndə xəvərə, yüyür!*
*Hardasan Mırış Alı,*
*Sən də bulaqlara yüyür!*
*Ağrın alım Uzun Bavram,*
*Günün oldu qara, yüyür!*
*Amandı Daqqa Xəlil,*
*Sən də bir kənara yüyür!*
*Yatıbdı Tənbəl Qulu,*
*Axşamdan bərk xoruldar!*
*Sahqulu çox yaxşı qalxdı,*
*Boğazına keçdi palan.*
*A gədə Göycə Sadıx,*
*Sən də bu yanlara yüyür!*

**Ayə (Ayet):** İşarə, əlamət, nişan, əsər. Quran`dakı cümlələrdən hər biri. Quran`ın hər bir surəsində məna cəhətdən bir-birinə bağlanmış sözlər. İslamiyyətin qəbulundan sonra yaranan klassik və xalq şeirində sıx-sıx işlənən bir kəlmədir. İstər Azərbaycanda və istərsə də Türkiyədə təsəvvüf ortamında yetişən aşıqlar şeirlərində «ayət» kəlməsindən ilhamla bəhs etmişlər.

*Oxudum dərsi – hüsnün ayətini,*
*Yeddi müshəf kimi fürqanı gördüm.* ***(Nəsimi)***

*Gevheriye Haktan geldi hidayet,*
*Günahından rücu etdi berayet.*
*Altı min altı yüz altmış altı ayet*
*Şükür lisanımda qiraetimdir.* ***(Aşıq Gevhəri)***
*Kaygusuz der şah-i cihan*
*Başı kaba, teni uryan.*
*Bizimdir ayet-i Kur'an*
*Biz vasl-i didar ehliyiz.* ***(Kaygusuz Vizeli Alaeddin)***

**Ayin (Ayin) (bax: İlahi. mərasim nəğmələri):** Mənşəcə ərəb sözü olan bu kəlmənin mənası adət, etiqad, qayda-qanun, dəb, üsul, mərasim, dini ibadət tərzi deməkdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan folklorunda müxtəlif inanclar, mərasimlərlə bağlı olan ibadətlərdir.

Türk folklorunda da ayin adət, görənək, tərz, mərasim, ibadət tərzi mənasındadır. Türkiyədə Mövləvi, Bektaşi, Ələvi zümrələrindən başqa, daha çox müsəlman olmayanların, xüsusilə yəhudi və xristianların ibadət tərzini və dini mərasimlərini ifadə etmək üçün də işlədilən bir termindir. Türk folklor terminologiyasında ayinin mənaları:

1. Adət, görənək, törə, eyni zamanda üsul və ibadət tərzi.
2. Təkkə şeirinin bir növü.
3. Dini mərasimlərdə zikr və səma zamanı müxtəlif məqamlarda söylənən şeirlər.

Təkkə ozanlarının dilində səslənən ayinlərdən bir örnək:

*Kurbanlar taclanıp gülbank çekildi,*
*Kaflet uykusundan oyana geldim.*
*Dört kapı sancağı onda dikildi,*
*Can u baş koyarak kurbana geldim.*

*Dört kapıya salam verip aldılar,*
*Pirin hüzuruna yedip geldiler.*
*El ele hakka olsun dediler,*
*Henüz masum olub cihada geldim.*

*Pirim qulağıma eyledi telqin,*
*Şahu velayete olmuştur yakın.*
*Mezhebim Ceferü Sadikülmetin,*
*Allah dost eyvallah, peymane geldim.*

*Yolumuz on iki imama çıkar,*
*Rehberim Muhammed Ahmedü Muhtar.*
*Mürşidim Alidir sahib – Zülfükar,*
*Kulundur, Şahiya, divana geldim.* ***(Şahi Baba)***

Ələviliyin önəmli ayinlərindən biri «Cəm» adı verilən ayindir. «Cəm» – toplamaq, topluluq, cəmiyyət deməkdir. Buna görə də ayini – cəm, cəm adəti, cəm törəni bir araya gəlmə mənasına gəlir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Cəm ayinlərində qurban kəsilir. Buna iqrar qurbanı, görgü qurbanı, musahip qurbanı adları da verilir. Bu cəmlərdə toplantılar olur və ayinlər, nəfəslər, dualar oxunur.

Elə cəmlər də var ki, onlar yarı dini xarakterdədir. Abdal Musa Cemi (qurban ayında), Kərbala (Məhərrəm ayında) Koldan kopan erkanı, Dağdan endirme erkanı və s.

İqrar vermə ayini birinin Ələvi-Bektaşi yoluna atılması məqsədi ilə olan ayindir.

Görgü Anadoludakı Ələvilərin hər il qış aylarında keçirdikləri ayindir. Bu ayində əvvəlcə bir-birindən narazı və küsülü olanlar barışdırılır. Borcları varsa, ödəyərlər. Ayində qurban kəsən insanların qurban ətləri yalnız onların tövbələrindən sonra ayinə qatılanlar tərəfindən yeyilir.

Türkiyənin bəzi Ələvi bölgələrində qış aylarında cümə axşamını cüməyə bağlayan gecələr hər həftə Abdal Musa qurbanı kəsilir. Kənd əhalisi bir yerə toplanaraq kənddə hər hansı bir narazılıq və ya başqa bir məsələ olarsa, onu həll etmək üçün Abdal Musa qurbanı kəsirlər. Bu qurbanda qurban və digər xərclər ayində iştirak edənlərin hamısı tərəfində ödənilir.

Kərbala (Məhərrəm) ayini İmam Hüseynin Kərbalada şəhid olması həftəsinə – Məhərrəm ayının 1-12-ci günü matəm tutularaq icra edilir. Matəmdə şeirlər söylənir:

*Bu gün matəm günü gəldi,*
*Ah Hüseynü vah Hüseyn.*
*Sənin dərdin bağrım dəldi,*
*Ah Hüseynü vah Hüseyn.*

*Kərbalanın önü yazı*
*Ürəyimdən çıxmaz sızı.*
*Yezidlərmi qırdı sizi,*
*Ah Hüseynü vah Hüseyn.*

*Bizimlə gələnlər gəlsin,*
*Sərini meydana qoysun.*
*Hüseyn ilə şəhid olsun,*
*Ah Hüseynü vah Hüseyn.*
*Bir su verin məsum cana*
*Yezit içdi qana-qana*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Fatma ona yana-yana,*
*Ah Hüseynü vah Hüseyn.*

Məhərrəm ayında birinci gündən onuncu günə qədər oruc tutulur. Onuncu günün günorta vaxtına qədər oruc bitir, lakin matəm on ikinci günün sabahına qədər davam edir. On gün sulu şeylər yeyilməməklə, su içilmir və şadlıq, əyləncə olmaz. On ikinci günün axşamı qurban kəsilir və ayin keçirilir. Kərbala şəhidləri üçün şərbət içilir, dualar oxunur.

**Ayna (Ayine-Ayna):** Güzgü. Təsəvvüfdə kamil insanın qəlbinə ayna deyilir.

*Seyr-i billahtır seyr-i billahtır,*
*Li mallahtır fena fillahtır.*
*Ayinesinde ayinesinde*
*Çird-i sıfayı buldu bu gönlüm.* ***(Hacı Bayram-i Veli)***

*Mömin güzgüsü çün mömin imiş gözünü aç,*
*Görməyən güzgüdə şol surəti məna nə bilür.* ***(Nəsimi)***

*Gəlib ixlas ilə yola gedənin*
*Zərrəcə könlündə güman gərəkməz.*
*Sil-süpür dəlbini, evin pak eylə*
*Möminin aynası duman gərəkməz.* ***(Şah İsmayıl Xətai)***

*Yoxsa bu ayinədə əyri görürsən özünü.* ***(M.Ə. Sabir)***

*Bu ayinede alem*
*Bir tozdur anlar isen.* ***(Şeyh İbrahim)***

*Gir səmaya belə oyna,*
*Silinsin paç olsun ayna.*
*Qırx il bir qazanda qayna,*
*Daha çiysən yan dedilər.* ***(Xətai)***

**Azər (Azer):** Həzrət İbrahimin büt hazırlayıb satmaqla məşğul olan və “Qurani-Kərim”də adı çəkilən (En'am/74) atasının adıdır. Bugünkü Azərbaycan kəlməsinin onun adına görə yarandığı ehtimal edilir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Həzrət İsanın peyğəmbərliyini isbat üçün bir möcüzə olaraq diriltdiyi adamın adının Azər olduğuna dair bir rəvayət vardır. Kəlmənin farsca oxunuşu "atəş" mənasını verdiyi üçün bu kəlmə ədəbiyyatda çox istifadə edilmişdir. Kəlmənin bir mənası da "gözəl" deməkdir.

*Bu gün xəzan yenə bağın zərvü zivəridir,*
*Büt eyləmiş hər ağacı olamı Azəridir.*
***(Qazı Bürhanəddin)***

*"Halili asr imiş el-Hak Halil Paşa kim*
*Atıldı Azer-i küffara çekmedi azar.* ***(Nadiri)***

**Baba (Baba):** Ata, şeyx, mürşid kimi hörmətə layiq kişilər, yaxud da yaşlı adamlara deyilir.

Əhməd Yasəvinin Anadolu torpaqlarına gəlmiş xəlifələri və müridlərinə də “baba” deyilmişdir.

Təsəvvüfdə sülük yoluna girən, nəfsinə qalib gələn, nəfsində ölmüş, ruhunda dirilmiş və cəmiyyət üçün yararlı hala gəlmiş kişilərə baba deyilir. Bir sufinin mürşidi onun babasıdır. Bu təbir xüsusilə Bektaşi şeyxləri üçün ünvan olaraq söylənilir.

İstər Azərbaycanda, istərsə də Türkiyədə baba adı daşıyan yer və pir adları təsəvvuflə bağlıdır. “Coştu baba”, Ağ Baba”, “Şeyh Ali Baba” “Pervi Baba”, “Pervane Baba”, Babadağ”, “Baba Hakkaşi köyü” və s. (Türkiyə) “Baba Samit Piri”, “Soltan Baba Piri”, “Babadilim Piri”, “Diri Baba Piri”, “Şeyx Baba Piri” (Azərbaycan) kimi yer və türbə adları bu yerlərdə yaşamış və ya dəfn edilmiş dərvişlərin xatirələrini yaşadan adlardır.

**Badə (Bade):** Farsca bir kəlmə olub, qədəh mənasına gəlir. Divan ədəbiyyatında şərab, sərxoşluq verən içki mənasında işlənmişdir. Təsəvvüfdə badə eşq (ilahi eşq), ilahi sevgi, zövq mənalarını ifadə edir.

*Nə gördü badədə bilməm oldu badəpərəst,*
*Mürid-i məşrəb-i zühhad gördüyün könlüm.* ***(Füzuli)***

*Çərxi-fələk badəsindən*
*İçib sərxoş olan könül.* ***(Aşıq Abbas Tufarqanlı)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Bağı-irəm (Bağı-irem):** Klassik və aşıq ədəbiyyatında işlədilən bir termin-ifadə. Səddad adlı birinin cənnətə bənzətmək üçün saldığı bir bağça. Bu bağçaya yer üzünün cənnəti deyilmişdir.Odur ki, bu ifadə Azərbaycan və Türk şeirlərində rəmz kimi "Baği-irəm", "Bağı-cinana"(Behişt bağı) şəklində işlədilmişdir.

*Cəlilüşşən mələk həmdəmim ola,*
*Xəlili-xəlit namazım qıla.*
*Tez verin duamı, salın da yola,*
*Siz Baği-cinana götürün məni.* ***(Ağ Aşıq)***

*Birisi olmuştur başlar belası,*
*Biri domurlanmış ateş paresı.*
*Birisi də İrem-bağı lalesi,*
*Ak gül, kırmızı gül, bir de sarı gül.* ***(Mesleki)***

**Baş qafiyə (Baş kafiye):** Sətir başında söylənən qafiyə növü.

"Kitabi-Dədə Qorqud"da, Azərbaycan və Türk xalq şeirində çeşidli nümunələri vardır.

*Qara dağın yüksəyi oğul,*
*Qara suyun daşqını oğul.****(Dədə Qorqud)***

*Hərdən can deyirsən, can eşidirsən,*
*Hərdən haqlı sözü yan eşidirsən.*
*Hərdən pis xəyalı şən eşidirsən,*
*Hərdən təzələrsən yarını, könlüm.* ***(Aşıq Niftulla)***

*Bir üzü xallının, ləbi ballının,*
*Bir şirin dillinin dağı məndədir.*
*Bir tirmə şallının, qalmaqallının,*
*Bir incə bellinin dağı məndədir.* ***(Aşıq Rəcəb)***

*Güzel ağlar, güzel güler naz ile,*
*Güzel söyler, güzel dinlər söz ile.*
*Gözəl bahar gelir güzel yaz ile*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Güzel ile gül toplamak güzeldir.* ***(Pir Mehmet)***

*Adam var gösterir derd belasını,*
*Adam var feth eder Kan Kalasını.*
*Adam var getirir mübtelasını,*
*Adam var hızlıdan kaçmağı bilir.* ***(Aşıq Sümmani)***

**Batil (Batıl):** Əsli ərəbcə bir kəlmə olub, həqiqət olmayan, əsassız, boş şey deməkdir. Təsəvvüf istilahı kimi mümkün varlıqlar, yaranmış aləm, Haqdan başqa mənasındadır.

Şair Lebid deyir ki, Allahdan başqa hər şey batildir və hər bir nemət, şübhəsiz ki, zail olacaqdır.

*Batil hemişe batil-u buhudedir veli*
*Müşkil odur ki suret-i haktan zuhur ede.* ***(Baki)***

*Qazilər fitfa verib hər sözə batil dedilər,*
*Küfri tərk edib imanə gəlməyə ar etdilər.* ***(Nəsimi)***

**Battalname:** Battal Qazinin qəhrəmanlıq hekayələrini bildirən mənkibələrə verilən addır. VIII əsrdə Əməvilərin Bizansa qarşı müharibəsində "Əl-Battal" (qəhrəman) ləqəbi ilə məşhurlaşan bir müsəlman ərəb əmirinin türklər arasında yayılan qəhrəmanlıqlarının dastanlaşmış bir hekayəsi.

Battalnamə türk dastan ədəbiyyatında XI əsrdə Həmzənamə ilə başlayıb Əbu-Müslümannamə və Danışməndnamə ilə davam edən, XV əsrdə Saltuknamə ilə sona varan bir zincirin 2-ci halqasıdır.

**Bayatı (Mani):** Azərbaycan və türk xalq şeirinin ən yayqın nəzm janrı. Azərbaycan folklor terminologiyasında işlənən «bayatı» sözünün oğuz boylarından olan «bayat»ların adı ilə bağlı olduğu bilinməkdədir.

Türk folklor terminologiyasında işlənən «mani»nin isə ərəbcə «mana»dan gəldiyi yazılmaqdadır. Hər iki halda bayatı və mani qədim türk şeirinin ən əski bir janrıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Türk xalqlarının Avropadan Çinə qədər yayıldığı coğrafiyada zəngin bayatı örnəkləri meydana gəlmişdir. Anadoluda mani, Azərbaycanda “bayatı”, kərkük-türkmənlərdə «xoyrat», özbəklərdə «koşuk», «dörtlük», «aşulə», qaqauzlarda «çin», «şin», başqurdlarda «şığır», uyqurlarda «tortlük», tatarlarda «cing», «mane», kumıklarda «sarım», kazaklarda «ölen», «kayım oleng» kimi adlarla məşhurdur. Türk xalqları arasında bayatı söyləmək bir ənənə olmuşdur.

Bayatılar dörd misralı, 7 hecalı şeir bəndidir. Birinci, ikinci və dördüncü misralar qafiyəli, üçüncü misra sərbəst olur. Qafiyələr a.a.b.a., misralardakı bölgülər 3+4=7, 3+2+2=7 şəklindədir. Mövzularına görə bayatılar məhəbbət, hüzn, toy-düyün, qürbət-vətən, bayram, mövsüm, mərasim, təbiət və s. ilə əlaqədar olaraq söylənilir.

Azərbaycan bayatıları çox vaxt «mən aşıq», «əzizim», «əzizinəm», «eləmi» sözləri ilə başlayır.

*Mən aşıq, dərdə mərdim,*
*Düşməsin dərdə mərdim.*
*Mən dərmanı neylərəm?*
*Tifilkən dərd əmərdim.*

*Ocağa odun qala,*
*Od gətir, odun qala.*
*Qorxuram düşəm öləm,*
*Canımda odun qala.*

*Yarım o tayda qaldı,*
*Yarım bu tayda qaldı.*
*Toyum burda çalındı*
*Yarım o tayda qaldı.*

Türk manilərindən örnəklər:

*Pınar, ne hoş akarsın,*
*Mor menekşe kokarsın.*
*Ne mutlu sana, pınar,*
*Yar gelende bakarsın*

*Ark incedir geçilmiyor,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Su bulanık içilmiyor.*
*Bana yardan geç diyorlar,*
*Yar şirindir geçilmiyor.*

*Hekim, doktor yokmudur,*
*Benim derdim çokmudur.*
*Sensiz keçen zamanın*
*Bir dönüşü yokmudur.*

Azərbaycan, türk və kərkük bayatılarında kəsik mani (bayatı) növü də var ki, belə bayatıların 1-ci misrası 4 hecalı, digər 3 misrası 7 hecalı olur.

Örnək:

*Ben dənizə*
*Rahm eyle bendenize*
*Bir karaya çıkmadım,*
*Düşeli ben denize.* ***(Türkiye)***

*Vatan sızlar*
*Yurd sızlar, vatan sızlar.*
*Beni vatandan etdi,*
*Doğuşdan vatansızlar.* ***(Türkiye)***

*Vay dərdim*
*Vay dərmanım vay dərdim*
*El gül əkdi, gül dərdi,*
*Mən gül əkdim, vay dərdim.* ***(Azərbaycan)***

*Dərd arxalı*
*Sərilmiş dər-dər xalı.*
*Ya Rəbb, varmı mənim tək,*
*Qəm evli, dərd arxalı.* ***(Azərbaycan)***

*Bu dağdan*
*Karvan keçməz bu dağdan.*
*Ayrılıq yaman dağdı*
*Ha qorxum var bu dağdan.* ***(Kərkük)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bayatıların cinaslı, 6 misralı (türk edəbiyyatı terminologiyasında buna doldurmalı mani də deyilir), cinaslı kəsik mani, yedəkli mani, ayaklı mani (türk edəbiyyatında) şəkilləri də mövcuddur.

Cinaslı bayatı örnəkləri:

*Gülə naz,*
*Bülbül eylər gülə naz.*
*Dünya bir qəmxanədir,*
*Ağlayan çox, gülən az.* ***(Azərbaycan)***

*Ocağı qurum saxlar,*
*Od yanar, qurumsağlar.*
*Aşıq gey ər libasın,*
*Geyməsin qurumsaxlar.* ***(Azərbaycan)***

*Aşıq der: ay indilər,*
*Bədr oldu ay indilər.*
*Yar ilən keçən günlər*
*Olaydı ay indilər.* ***(Azərbaycan)***

*Denizde gez, gölde gez,*
*Bülbülde gez, gülde gez.*
*Ben burda kan ağlarım,*
*Sen orada gül de gez.* ***(Türkiye)***

*Ah o beni o beni,*
*Kakül örtmüş o beni*
*Ben yarımı unutmam*
*Unutsa da o beni.* ***(Türkiye)***

6 misralı (doldurmalı) bayatı örnəkləri.

*Ağlarım ağlar gibi,*
*Derdim var dağlar gibi.*
*Ciyerden yaralıyım,*
*Gülerim sağlar gibi.*
*Hər gelen bir gül ister,*
*Sahibsiz bağlar gibi.* ***(Türkiye)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yaman yara*
*Yaman derd, yaman yara.*
*Beni yardan edeni*
*Çıkarsın yaman yara.*
*Yamanlar yakşı oldu,*
*Biz olduq yaman yara.* ***(Türkiye)***

*Mən aşıq hindi zülfün*
*Gərdənə mindi zülfün.*
*Altın yasdıq, üstün qol*
*Qorxuram sındı zülfün.*
*Dəstələ qoy qoynuna,*
*Qan eylər indi zülfün.* ***(Azərbaycan)***

**Behişt (Behişt–Cennet):** Cənnət. Ruhani cənnət. Ruhun duyduğu ləzzət.

**Bektaşilər (Bektaşi, Bektaşiye):** Hacı Bektaş Vəli (1242-1337) tərəfindən qurulan təriqətdən olanlara Bektaşi, təriqətə Bektaşiyə deyilir. Bektaşilər çoxluğu, cəmi ifadə edir.

Hacı Bektaş Vəli xristianlığın yayıldığı bir bölgə olan Sulaca Karahöyükə gəlir. Bu kənddə insanları irşad edir və müsəlman olmayanları sevgi ilə islam dininə təşviq edərək bu dini qəbul etmələrinə nail olur. Beləcə də, Anadolunun islamlaşmasına və türkləşməsinə xidmət etmiş olur. Bir islam ziyalısı olan Hacı Bektaş Vəlinin «Makalât» adlı əsəri məşhurdur. «Vilayətnamə» də insanın yaradılması ilahi ilhamla izah edilməklə, bir neçə kəlmə ilə insanları Allaha bağlayan könülün xəritəsini cızır, yaxşılığı insan oğlu üçün ən gözəl keyfiyyət sayaraq deyir:

"Mənim üç dostum vardır. Mən öldüyüm zaman biri evdə qalır, biri yolda, biri də mənimlə gedir. Evdə qalan malımdır, yolda qalan yaxınlarımdır, mənimlə gedən yaxşılığımdır."

Onun başqa müdrik kəlamlarından:

«Dininə dizinlə deyil qəlbinlə bağlan», «Özünü dərk edərsən, özündən qurtararsan», «Ölü canından xəbərsiz olandır», «Doğruluq dost qapısıdır», «Oxunacaq ən böyük kitab insandır», «Ən yaxşı sərvət elmdir», «Gözə nur könüldən gəlir», «Ən böyük kəramət çalışmaqdır», «Gerçək fərz Allaha məhəbbətdir», «İri olaq, diri olaq, bir olaq», «Nəfsinə, əlinə, belinə, dilinə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sahib ol», «Ağlı olmayanın imanı, imanı olmayanın ağlı yoxdur», «Allaha qorxu ilə deyil, sevgi ilə varılır», «Gözü irəlidə, könlü geridə olan yola çıxmaz», «İncisən də incitmə», «Qadınları oxut», «Elmdən keçməyən yolun sonu qaranlıqdır».

Anadolu aşıqları Hacı Bektaş Vəliyə şeirlər yazmışlar.

*Arzulayıb sene geldim,*
*Pirim Hacı Bektaş Veli.*
*Eşiyine üzüm sürdüm,*
*Pirim Hacı Bektaş Veli.* ***(Pir Sultan Abdal)***

*Seyid oğlunun xub nefüsidir,*
*İnsanı kar eden maddi sesidir.*
*Doksan min erlerin ser çeşmesidir,*
*Hak der yalvarırım Hacı Bektaşa.****(Aşıq Seyid Yaroğlu)***

*Sensin beni bu sevdaya düşüren.*
*Hünkar Hacı Bektaş Veli sensin şahım.*
*Qürbet eli diyardiyar aşarım*
*Sensin imam, Haydar, Alisin şahım*. ***(Aşık Sabri)***

**Beyt (Beyt):** Əsli ərəb dilinə məxsus bu söz “ev” deməkdir. Təsəvvüfdə Allahın evi (Beyti-Xudabənd) nəzərdə tutulur. Kəbənin digər bir adı. Beytül-mamur-Allahın yerdən göyə yüksəltdiyi mahal. Yerə-göyə sığmayan Allah mömin qulunun qəlbinə sığar. “Möminin qəlbi Allahın evidir” Nur/36 ayətinə görə məscidlər də Allah evidir.

Beyt təriqət mənasında da işlədilir. Beytüş-Şaziliyyə (Şaziliyyə təriqəti)

**Beyt (Beyit):** Eyni vəznlə yazılan məzmunca bir-birinə bağlı olan iki misra. Beytdə misraların bir-biri ilə qafiyəli olması şərt deyildir. Beytin klassik şeirdə olduğu kimi aşıq şeirində də çeşidli örnəkləri var. Aşıq şeirində beyt əsasən heca vəzni ilə yazılır. Bəzən də əruzla yazılır.

*Müşkildə qılmışam, çağırram səni*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yetiş bir dadıma, ay ağa, haray.* ***(Abbas Tufarqanlı)***

*Adıma pay gəlir qadir Mövladan,*
*Bu torpaqda aşıqlar binası var.**(Aşıq Valeh)***

*Dedi: nişanlıyam, özgə malıyam,*
*Sındı qol-qanadım yanıma düşdü.**(Aşıq Ələsgər**)*

Türk aşıq şeirində beyt nümunələri:

*Deli gönül ne gezersin.*
*Geze geze yorulmanmı?**(Aşıq Veysəl)***

*Gel, gönül, dünyaya eyleme ülfet,*
*Neçə arifanlar getdi, gelmedi.* ***(Aşıq Ruhsatı)***

*Beni çıkarma gönüldən*
*Kulun,kurbanın olayım.* ***(Aşıq Seyrani)***
*Kiyametden haber sordum, dediler bir elametdir,*
*Kişi yarından ayrılsa, hemen o gün kiyametdir.*

*Mövlam sene hoş vermiş senin ne suçun var,*
*Gözüm gördü gönlüm sevdi, benim ne suçum var.*

*Nə əcaip arif olmuş bu dünyanın berberleri,*
*Hem akcasın alır, hem okşar dilberleri.*

*Dilberler aşiqe çok iş ederler,*
*Aqibet soyub derviş ederler.*

*Hak-teala qüdretiyle seni mehbub eyləmiş,*
*Gönlüm almış sene vermiş beni Məcnun eylemiş.*

**Beytullah (Beytullah–Kabe):** Allah evi, Kəbə. Beyt ərəbcə də ev deməkdir. Tərkib olaraq Beytullah iki sözdən "beyt" və "Allah" sözlərindən ibarət olub, Kəbə haqqında işlədilən bir ifadədir. Dünyanın ən müqəddəs məbədi Beytullah, Beyt-ül Mamur, Beyt-ül Atik. Bütün möminlərin ibadət əsnasında yönəldikləri mərkəz. Dördkünc olduğu üçün Kəbə deyilir. Bu müqəddəs yerin ətrafına Məscidül Haram ismi verilir. İçində bir



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qism olaraq Məqami İbrahim mövcuddur. Bura İbrahim Əleyhissəlamın Kəbəni tikərkən, yaxud insanları həccə dəvət edərkən, üstünə çıxdığı daşın olduğu yerdir. Tavaf namazı burada qılınır. Kəbənin ilk inşası Hz.Adəm (A.S) tərəfindən olduğuna dair rəvayətlər vardır. Kəbə qibləgahdır. Üstünə fərz olan müsəlmanların, həcc vaxtında gedib ziyarət etmələri zəruri olan, mühüm və ən böyük məbədimizdir. Arifin, kamil insanın qəlbi və ya Kəbə: Kamil insan bütün isimləri toplayan "Allah" isminin məzhəri (zahirə çıxdığı yer) olduğundan bu heyəti-məcmuə ancaq ona sığa bilər. Bunun üçün də könülə "Mirat-i-Xuda" deyilir. Sufilərə görə könül o qədər genişdir ki, bütün kainatı içinə ala bilər.

*Fuzuli hâlâ olmaz sürət-i dost fikrindən,*
*Bu mənada beytullah derlər qəlbə mömindir.* ***(Füzuli)***

**Bədahətən (İrticali):** Bədahətən aşıq ədəbiyyatında və ümumiyyətlə, şairlikdə işlədilən bir kəlmə – termindir. Ərəbcə bir söz olub, hər hansı bir hazırlıq olmadan söz söyləmək deməkdir.

«Aşıq Qərib» dastanından Aşıq Qəribin bədahətən söylədiyi şeir:

*Bu bərat gecəsi dilək dilədim,*
*Şükür muradımı verdi Haqq mənim.*
*Dilədiyim dilək Haqqa yaradı,*
*Ondan oxur dilim zikrullah mənim.*

Türk aşıq ədəbiyyatında hər ikisi ərəb kökənli söz olan «bədahətən» və «irtical» terminləri işlənməkdədir. Hər iki kəlmə də bir anda ağıla gələn, birdən-birə söylənilən şeir mənasındadır.

Türk aşıq şeiri ənənəsinə görə bədahətən şeir söyləmə aşıq şeir yarışlarında həlledici üsul olmuşdur. Deyişməyə başlayacaq aşıq bədahətən şeir söyləmə qabiliyyətinə malik olmalıdır.

Bununla belə bədahətən (irticalən) şeir demək aşıqlıq vergisi verilən insanlara aiddir. Bunlar uzun yuxudan sonra



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bədahətən şeir söyləyirlər. Məsələn: Aşıq Şenlik röyada Həzrət Peyğəmbərin camalını gördüyünü bədahətən söylədiyi aşağıdakı şeirdə belə ifadə edir:

*Röyayi – alemde, yatdığım yerde,*
*Neçə yüz min hayal düşüme geldi.*
*Üzbeüz cismime saldı bir ateş,*
*Sevdiyim salatın düşüme geldi.*

*Eynine geymişdi qaflet lüzumu,*
*Kor oluban açmayaydım gözümü.*
*Bir tağayyır keyfle gördüm özümü,*
*O kadar möhübbeti hoşuma geldi.*

*Şenliyem, hakine getdim yüzünen,*
*Bir kelme danışdım şirin sözünen.*
*Hayıf ki, bakmadım kıyar gözünen,*
*Sürahi kameti karşıma geldi.*

**Bənd (Bend):** Söz özünün əsas həqiqi mənasında (daha doğrusu, ilkin) bağ, düyün-bağlamaq, düyünləmək; bənd olmaq, bəndə düşmək fel əsasında bu məna hifz olunur və həm də terminoloji mənada geniş işlənilir. Xüsusi sahə sözü olaraq bir-biri ilə qafiyələnən şeirin bir bölümü olub xalq ədəbiyyatında heca vəzni ilə yazılan ən az dörd misradan ibarət olan şeiri bildirir. Misralarda hecaların sayı isə 7,8,11,15 və daha çox ola bilər. Ancaq bəzi aşıq şeirlərində misra sayı 5,6 ola bilər.

Dörd misralı 8 hecalı bənd:

*Alçaq yerdən duman qalxar,*
*Dağı dolana-dolana.*
*Göy üzünü alar bulud,*
*Mahı dolana-dolana.* ***(Aşıq Qurbani)***

Dörd misralı on bir hecalı bənd:

*Qalmışam həyatın mah pərdəsində,*
*Ağlaram ömrümün ah pərdəsində.*
*Eşqimin sazının şah pərdəsində,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bir hava çalmışdım, çalmamış olum.* ***(Mikayıl Azaflı)***

Beş misralı bənd:

*Adımı qoydular Bəsti,*
*Qardaş kələyimi kəsdi*
*Öldürməkdi məni qəsdi,*
*Atam bilmir bala məni,*
*Salıb yaman hala məni.* ***(Aşıq Bəsti)***

Altı misralı bənd:

*Namə! Get canana de, amandı məndən küsməsin,*
*Sirrimi qanana de, amandı, məndən küsməsin.*
*Qaşları kamana de, amandı, məndən küsməsin,*
*Gözləri məstana de, amandı, məndən küsməsin.*
*Gül üzlü tabana de, amandı, məndən küsməsin,*
*Xana de, sultana de, amandı, məndən küsməsin.*
***(Molla Cümə)***

Türk aşıq ədəbiyyatında da bənd anlayışı eynən Azərbaycan aşıq ədəbiyyatındakı kimidir.

8 hecalı, 4 misralı bənd:

*Yene bir sevdaya düştüm*
*Aşkın elinden-elinden*
*Yene ümman olup taştım,*
*Aşkın elinden-elinden.****(Derviş Himmet)***

11 hecalı, 4 misralı bənd:

*Kara gözlüm mendən Allah selamın,*
*Keser gedermisin kiyametedek?*
*Bir kurulu yayqır kaşları keman,*
*Yaşar gedermisin kiyametedek?****(Aşık Halil)***

11 hecalı, 5 misralı:

*Bir günüm doğar da, bir günüm batmaz,*
*Şu ıssız evlerde bir gelin yatmaz.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oğlumun yerini kimseler tutmaz*
*Yoksa yavrum seni vurdular m'ola,*
*Kefensiz kabire koydular m'ola.*

***(Çanaqqala ağılarından)***

**Bəndə(Abd):** Ərəbcə bir kəlmə olub, qul, kölə, bəndə deməkdir. Abdullah-Allahın bəndəsi.

Təsəvvüfdə haqqa qul olub başqasına bəndə olmayan mənasını ifadə edir. Bir insanın qəlbi Allahdan başqa şeylərdən sıyrılmadıqca Allahın qulu ola bilməz.

Hz. Peyğəmbər (s) belə demişdir:

"Məlik Peyğəmbər olmaqla qul peyğəmbər olmaq arasında Allah məni sərbəst buraxdı. Sərbəst seçimdə mən ikincini seçdim. Allah ilə məxluqat arasında qul olmaqdan daha yüksək bir dərəcə olsaydı, Rəsulullah onu qaçırmazdı. Allah da Ona verirdi. O, bu üzdən şəhadət kəlməsində "abdühü və rəsulüh" deyə anılır. Göründüyü kimi, qul olmaq insan üçün ən yüksək məqamdır. Təsəvvüfdə aşağıdan yuxarıya doğru mənəvi yüksəliş ifadə edən məqamların başında tövbə, ən üst zirvəsində də qulluq gəlir. Qul olan insan gerçək hürriyyət sahibidir. O, Rəbbdən başqa heç kimə boyun əyməz. O, sadəcə Allahın əmrinə tabedir. Ondan başqa hər şeydən azaddır. Allahın əmrindən uzaq olan şəxs, demək, nəfsin və şeytanın əsarəti altındadır".

**Bənzəmə (Nazire):** Divan ədəbiyyatında nəzirə adı verilən şeirlər. Aşıq ədəbiyyatında da nəzirə, bənzətmə, bənzəmə kimi adlarla ifadə edilir. Bənzətmə yazan aşıq ustad aşığın və ya ustad aşıqların bir şeirindəki eyni rədifdən istifadə edərək və ona bənzədərək yeni bir şeir yazır. Azərbaycan aşıq şeirində onlarla şeir nümunəsi bənzəmə şəklində yazılmışdır.

Məsələn: Aşıq Ələsgərin «Sarı köynək» şeirinə Aşıq Hüseyn Bozalqanlının yazdığı bənzəmədən:

*Aşıq Ələsgər:*

*Cilvələnib nə qarşımda durubsan,*
*Anam sənə qurban, ay sarı köynək.*
*Mələksən, çıxıbsan cənnət bağından,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Heç kəs ola bilməz sənə tay, sarı köynək.*

*Aşıq Hüseyn Bozalqanlı:*

*Səhər çağı qafil çıxdın qarşıma,*
*Yıxdın atam evin, ah sarı köynək.*
*Maral kimi süzüb keçdin bərədən*
*Dönüb bir ovçuya bax, sarı köynək.*

Bənzəmə yolu ilə yazılan şeirlərə türk aşıq ədəbiyyatında da təsadüf edilməkdədir. Belə şeirlərə ədəbiyyatşünaşlıqda nəzirə deyilir. Məs: XVI əsrdə yaşamış Kazak Abdalın «Bəyənməz» rədifli şeirinə bənzədərək XIX əsrdə yaşamış Aşıq Seyrani eyni rədiflə nəzirə yazmışdır.

*Kazak Abdal:*

*Yaz olunca yayla yayla köçenler,*
*Topuz korkusundan şardan kaçanlar.*
*Meşe yaprağını kıyıp içenler,*
*Rumeli bağçası duhan beyenmez.*

*Aşıq Seyrani:*

*Çıkmış yüksekliye qaval öttürür,*
*Çoban köpeyine koyun güttürür.*
*Başını baltaya tıraş etdirir*
*Geder berbere de dükkan beyenmez.*

**Bəzəmə (Yakıştırma):** Azərbaycan və Türk folklorunda bir janr.

Sözlər arasında onun tərkibindəki səslərin alliterasiyasına əsaslanan ifadələr. Bu zaman eyni cinsli səslərin təkrarı mətnə, xüsusən şeirə ayrıca səs və intonasiya ifadəliliyi bəxş edir. Meydana çıxan məna simmetriyaları da xalq şeirinə məxsus lakonikliyi gücləndirir.

Örnəklər:

*“Kaş ile göz “Armut biş ,*
*Gerisi söz” Ağzıma düş.”*
*“Verirseniz kıza geldim, “Verdik kırkı,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Vermeseniz tuza geldim." Gitti korku."*

*"Azacık aşım, "Tencere, tava,*
*Kavqasız başım." Her biri bir hava."*
*"Havada bulut, "Görümce, görümce,*
*Sen onu unut." Görmeyim ölünce."*

*Çıktı dokuza,*
*Enmez sekize."*

Azərbaycan dilində də belə yaraşdırma və ya bəzəmə mövcüddur, bu yaraşdırmalar müxtəlif sözlərlə ifadə edilsələr də eyni səslərin köməyi ilə atalar sözündə şeiriyyət və musiqi yaranmış olur.

*"Allahdan buyruq, "Aşına – aşına,*
*Ağzıma quyruq." Çıxdı ocaq başına."*

*"Azacıq aşım, "Özü yorğanda,*
*Ağrımaz başım." Dili fərmanda."*

*"Baldızım "Öyündə(evində) yox urvalıq,*
*Çuvaldızım." Könlündən keçir darğalıq"*

*"Üstü bəzək, "Gördün yemək*
*Altı təzək." Daha nə demək"*

**Bidət (Bid'at):** Dində sonradan ortaya çıxan rəvayətlər, daha doğrusu, Məhəmməd peyğəmbərin və onun dörd xəlifəsinin zamanlarında olmayan və sonradan meydana çıxarılan, dini məsələlərdə uydurulan söz, yazı, üsul və işlər, reformalar.

Peyğəmbərimiz "Dində yeni ortaya çıxan şeylərdən qaçınız. Çünki bu yeni şeylərin hamısı bidətdir. Bidətlərin hamısı dələlətdir, yoldan çıxmaqdır", deyə buyurmuşdur.

Bidət əhli Peyğəmbərin yolundan ayrılanlardır. Bidət sahibi ettiqadda (imanda) və əməldə (İbadətdə) dində olmayan yeniliklər ortaya çıxaranlardır. Odur ki, sonralar bidət sözü şəkk mənasında işlədildi və hətta küfr sözünün sinonimi oldu.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Bismillah (Besmele):** Ərəbcə “Allahın adıyla” deməkdir. Bir işə besmele ilə başlanırsa, o işin sonu kəsik gəlməz. “Bismillahirrəhmaniirrəhim” deyilirsə, “Rəhman və Rəhim olan Allahın adıyla başlayıram”, deməkdir. Habelə “Onun əmriylə və Onun üçün başlayıram və Ona arxalanıb cəhd edirəm, Onun əmri ilə edirəm. Çünki bu başladığım işin tamamlanmasında lazım olan qüvvət və qüdrət Onun tərəfindən mənə verilmişdir və Ondandır. O, mənə bu qüvvət və qüdrəti verməsə mən bu işi bitirə bilmərəm” kimi də dərk olunmalıdır.

Xalq arasında “buyur, gəl, get, hazıram” mənasına gələr. Bir yerə giriləcəyi zaman hörmət üçün birinə “siz buyurun” yerinə “Bismillah” deyildiyi kimi bir söz söyləyəcək, bir iş görəcək insana da “söylə”, “et” yerinə “Bismillah” deyilir. Birinə əmr verilən zaman əmri yerinə hazır olduğunu bildirmək üçün “Bismillah” deyilir.

*Şəfqətli, ədalətli Tanrının adı ki var,*
*Hikmət xəzinəsini açan açardır, açar.* **(Nizami)**

*Nöqteyi–sirri–ilahi bai bismillahdır,*
*Kim ki, bilməz bu sirri müşkirü-gümrahdır.***(Nəsimi)**

**Boy (Boy):** «Dədə Qorqud» dastanını əmələ gətirən hekayələrin hər birinə verilən ad.

Türk xalqlarının ədəbiyyat terminlərində həmin məna eyni adla – «boy»la ifadə edilir. «Dədə Qorqud» dastanında 12 müstəqil boyun olduğu, hər boyun müstəqil bir hekayə olduğu nəzərə alınarsa hər boyun bir hekayə, bir dastan mənasına gəldiyi görünür. Hər boyun sonunda Dədə Qorqudun «boy boyladı, soy soyladı» ifadəsi hər bölümün müstəqil bir hekayə olduğunu göstərir.

Dünya kitabxanalarında (Vatikan və Drezdendə) «Dədə Qorqud»un 12 mükəmməl boyu vardır. Bu boylar aşağıdakılardır:

1. Dirsə xan oğlu Buğacın boyu;
2. Qazan xanın evinin yağmalanması boyu;
3. Kam Pürənin oğlu Bamsı Beyrək boyu;
4. Qazan bəyin oğlu Uruz bəyin əsir olduğu boy;
5. Duha Qoca oğlu Dəli Domrulun boyu;



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

6. Qanlı Qoca oğlu Qanturalının boyu;
7. Qazılıq Qoca oğlu Yeyənək boyu;
8. Basatın Təpəgözü öldürdüyü boy;
9. Bəkil oğlu İmranın boyu;
10. Uşun Qoca oğlu Segrək boyu;
11. Salur Qazanın əsir olub oğlu Uruzun çıxardığı boy;
12. İç Oğuzun Dış Oğuza asi olub Beyrəyin öldüyü boy.

**Bölgü (Durak, Takti):** Xalq şeirində bölgü və ölçü heca vəzninin iki mühüm şərtidir.

Terminoloji lüğətlərdə «bölgü»yə «təqti» də deyilir. Bölgü misrada olan kəlməni ortadan bölməmək şərtilə hər misranın bəlli bir yerində ritmi və ahəngi saxlamaq məqsədilə misranın bölümlərə ayrılmasıdır. Məsələn: 11 hecalı şeirdə bölgü 3+3+5, 5+3+3, 4+4+3, 6+5; 5+6; 8 hecalıda 4+4, 5+3, 3+5; 7 hecalıda 4+3, 3+4; 14 hecalıda 7+7, 4+3+4+3 şəklində ola bilər.

11 hecalı:

*Dərd bilən möhtərəm, istəkli qardaş, 6+5*
*Gəlirmi guşinə nərələr məndən? 6+5*
*Qəmli sənətkaram, divanəsərəm , 6+5*
*Nədən qurtarmadı yaralar məndən? 6+5* ***(Aşıq Şəmşir)***

8 hecalı:

*Gözüm yaşı leysan olub 4+4*
*Sellər hara atar məni? 4+4*
*Hicran dərdi üzüb-düyüb 4+4*
*Leylilərə qatar məni. 4+4* ***(Aşıq Ulduz)***

Türk xalq şeirində «takti» və ya «durak» kimi ifadə edilən bölgü anlayışı da heca vəznində yazılmış Azərbaycan şeirində olduğu kimidir. Misralardakı kəsmə(bölgü) 14 hecalı şeirdə 7+7, 4+3+4+3; 11 hecalı şeirdə 6+5; 8 hecalı şeirdə 4+4 ola bilər.

*Gönül, gözün / açdın ise (4+4)*
*Yetersin sen / kitab sana.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Gördüyün üz / dost üzüdür,*
*Alemde yok / hasab sana.***(Kayqusuz Abdal)**
*Ela gözlerini / sevdiyim dilber (6+5)*
*Kokuya benzetdim /güller içinde*
*İncecikdir belin / hilaldır kaşın,*
*Selviyə benzetdim / dallar içinde.***(Qaracaoğlan)**

**Böyük cillə:** Çillənin farsca çihil (qırx) kəliməsindən olduğu ehtimal edilir. Azərbaycan xalq təqvimində qışın ən uzun birinci ayı. Qış girdikdən (dekabrın 22-dən) yanvarın sonuna qədər davam edən 40 günə böyük cillə deyilir.

**Bürc (Burc):** sözlüklərdə aşağıdakı mənaları ilə qeyd olunmuşdur:

1. Qalanın çıxıntısı
2. Qalanın qülləsi
3. Təqvimdə olan 12 ulduzun hər birinə bürc deyilir.

Anonim xalq ədəbiyyatında bürc ulduz təqvimi ilə əlaqədar söylənilir. Buna ulduz falı da deyilir. On iki ulduz bürcü bunlardır: Quzu (qoyun), Buğa, Əkizlər, Yengəc (Xərçəng), Aslan, Başaq, Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça, Balıq.

İlin on iki bürcü ilə insanoğlu arasında sıx bir əlaqə olduğu düşünüldüyü üçün qədim zamanlarda insanlar bunu bir elm sahəsi hesab etmişlər.

Bürclərə türk xalqları çox önəm verdikləri üçün bürclərlə bağlı təqvim, əfsanə və rəvayətlər yaratmışlar. Aşıq şeirlərində də bürc ilə insanoğlu arasında sıx bir əlaqə olduğu düşünülür:

*Arif idim, oxurum haqq kəlamını*
*Əlif qəddim dal yazıldı o bürcə.***(Aşıq Qurbani)**

Türk əfsanələrindən birində tərəzi bürcünün əmələ gəlməsi belə izah edilir: «Üç keyik (maral) ovçu tərəfindən qovalandığı zaman onlar göyə çıxmış və tərəzi bürcünü əmələ gətirmişlər». Odur ki, tərəzi bürcü haqqındakı əfsanələrdə «3 maral və 1 ovçu» motivi çox söylənilir.

Başqa bir türk əfsanəsində bu bürc belə izah edilir: «Tərəzi bürcü göydə bir yay kimi durmuş, ovçular bu sözdə yalnız bu bürcü qorumuş» (29, II, 75)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Cadu (Büyü, sihir):** Xalqın inanc və etiqadları, mərasim və təsəvvürləri ilə bağlı olaraq bir qrup insanlar arasında cadu deyilən bir psixoloji təsir vasitəsi ortaya çıxmışdır.

Şamanlar xəstələri müalicə edərkən onların bəd ruhlarla necə mübarizə apardıqlarını, xəstə olduqlarını təmsil edən ayinlər edib, psixoloji təsir etməklə xəstələri sağaldırlar.

Yas mərasimləri, ölüm, xəstəliklə, ev, ailə, məişətlə bağlı insan psixologiyasına təsir edən cadu, sehirlə bağlı təsəvvürlərə xalqın bir qrup insanları inanır. Bunlardan bir neçə örnək:

1. Məzarlıqdan 40 günlük ölünün baş daşının yanından torpaq alıb, ona çınqıl qatarlar. Bir şeyə büküb evin yeddi addımlığında yerə bastırarlar. İnanılır ki, bu evdə hər zaman biri xəstə olar.

2. Xalq arasında deyilir ki, filankəs (dostlar, ər-arvad və s.) itlə pişik kimi dolanırlar. İnanılır ki, onlara cadu edilmişdir.

İtlə pişiyin əl-ayağını bir qab suda yuyub, sonra bu suyu cadulamaq istənilən insanın evinin həyətinə səpərlər ki, bu ocaqda hər zaman dava-dalaş olsun.(Bax: Azərbaycan folklorunun janrları. Bakı, 1982, səh. 80-81)

Hal-hazırda da tez-tez rast gəldiyimiz oxunmuş (sehirlənmiş, cadulanmış) duz, düyü, şəkər kimi maddələrin yedizdirilməsi, dua yazılmış üzük, boyunbağların taxılması insanların caduya inanmasının bir əlamətidir.

**Cahannamə (Destan) :** Aşıq ədəbiyyatında bir şeir növü.

Cahannamələrin mövzusunu tarixi hadisələr təşkil edir. Aşıq mənzumədə özünü həmin hadisənin şahidi kimi göstərir və şeirin son bəndində tapşırmasını söyləyərək öz adını və ya təxəllüsünü yazır.

Azərbaycan aşıq şeirindən örnək:

*Ey mahal, qulaq asın,*
*Basıbdı tufan Göynüyü,*
*Sübhü-şam qəhrə düşüb,*
*Eylədi viran Göynüyü.*
*Bu zalım Afat dağı*
*Axıtdı cövlan Göynüyü.*
*Bu bəla söndürübdür*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sünbülü-reyhan Göynüyü.*
*Gör necə lal eylədi*
*Bülbülü-xəndan Göynüyü.*
*Kimini əsir elədi,*
*Tez qaçıban başda qalıb.*
*Kimisi axıb gedib,*
*Kimisi daşda qalıb.*
*Kimisi sayələnib*
*Qalxıban ağacda qalıb.*
*Kiminin əli çatmaz,*
*Can yığılıb döşdə qalıb.*
*İçində var fisqi-fəsad*
*Batırdı şeytan Göynüyü.*
*Min evi, mədrəsəsi*
*Sel axıdıb etdi xarab.*
*Əlli, atmış ayna qapı*
*Yer altında verdi cavab.*
*Bu ərzi-hal yazılsa*
*Heç götürməz dəftər-kitab.*
*Bizə gələn yıxıntıya*
*Heç bir insan çəkməz hesab.*
*Biz çəkək hesabını*
*O ərşi-asman Göynüyü.*
*Nə qədər heyvanı var,*
*Lil vurub eşikdə axıb.*
*Nə qədər səbisi var*
*Pəncədə, beşikdə axıb.*
*Nə qədər rizqisi var*
*Daqqada, yeşikdə axıb.*
*Nə qədər çörək, dügü*
*Təhnədə, meşikdə axıb.*
*Xaliqi ac eylədi*
*Böylə Süleyman Göynüyü.*
*Gör necə məkrə düşüb*
*Artırdı fənanı Göynük.*
*Gözündən qayıb edib*
*Həm ata ananı Göynük.*
*Uçurdular əllərindən*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ördəyi, sonanı Göynük.*
*Tərk edib qohum, qardaş*
*Dostu, həm aşnanı Göynük.*
*Gör necə zarr edib*
*Saldı bu mərdan Göynüyü.*
*Ey kəndin əşxasları,*
*Qəzet salın goburnata1.*
*Biri getsin rus şahına,*
*Biri getsin səldənətə.*
*Əl-ayaq tökülübən*
*Biz düşmüşük bu xuryatə.*
*Hər yandan donluq çıxıb*
*Bəlkə gələ bu zəhmətə.*
*Ağası verməz bada*
*Bu həşri insan Göynüyü.*
*Kim deyər quraq töküb*
*Hamı seli birdən yağa.*
*Qopuban su ləşgəri*
*Saçılmadan yoxsul dağa.*
*Elə yer var ki, düşüb*
*Qurtarmadı bircə çağa.*
*O görükən abad mülkdən*
*Şəbtə vurmuş üç otağa.*
*İçindən bayquş çıxıb*
*Eylədi viran Göynüyü.*
*Göynüyün bu zülmünə*
*Ölkə demiş qurban fəda.*
*Çini-çilpaq lərzələşib*
*Çıxartdılar ərşə səda.*
*Xilasdı bir azacıq*
*Qalancanlar oldu əda.*
*Neyləsin Molla Cümə*
*Təqdirinmiş bəlkə xuda!*
*Min üç yüz iyirmi səkkizdə*
*Eylədi fərman Göynüyü.*
*Rəcəbul mürəccəbdə*
*Qıldı pərişan Göynüyü.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk aşıq ədəbiyyatında belə uzun şeirlər dastan adlanır. Bu səpkidə olan dastanlar mənzum hekayə xarakteri ilə digər xalq dastanlarından fərqlənir və «Şairnamələr», «Yaş dastanları», «Öyüt dastanları», «Savaş dastanları», «Heyvan dastanları», «Əlifnamələr», «Türk istiqlal savaşı dastanı», «Qıtlıq dastanı» kimi qruplara bölünür.

Türk aşıq şeirindən örnək:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

***KITLIK DESTANI***

*Zile fıkarası halleri ey can,*
*Dinlersen eyleriz muhtasar beyan.*
*Sene doksan bire yakın kalınca*
*Şiddeti şitadan halleri yaman.*

*Dükkanlar kapandı taşra çıkılmaz,*
*Fukara zar eder asla bakılmaz.*
*Değirmenler dondu unlar öğütmez,*
*Aç kaldık ekmekçi açmadı dükkân.*

*Doksanda kurudu yağmadı yağmur,*
*Kül katıp ekmekçi sattılar hamur.*
*Kör oldu gözleri şimdi dilenir*
*Baş çıkmadı memur gösterdi Süphan.*

*Buğdayın kilesi beşyüz elliye,*
*Böyle bir afattır oldu Zile'ye.*
*Kömüş, öküz nerde, bakmaz deveye*
*Baha yüküne de satılır saman.*

*Açlıktan kırılır sığırla davar*
*Merkep esp koyun deve ne ki var*
*Yalnız Zile değil etrafta da var*
*Karada aç kalır kırılır insan*

**Cam (Cam):** Farsca bir kəlmə olub qədəh mənasını ifadə edir.

Təsəvvüfdə "Allah dostunun qəlbi" üçün söylənən bir istilahdır.

**Cami–cəm (Cami-cem):** Farsca "cam" və ərəbcə "cəm" sözlərinin birləşməsidir. "Qədəhlər" deməkdir. Könül üçün söylənən bir təbirdir.

**Can (Can):** Farsca bir kəlmə olub, könül, ruh mənalarını ifadə edir. Mövləvilərin dərvişlər üçün söylədikləri bir termindir.

*Canı kim ki, canı için sevər cananın sevər,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Canı için kim ki, cananın sevər canın sevər.* ***(Füzuli)***

*Teslim Abdal eder ahdım bütündür,*
*Aslımı sorarsan Ali zatımdır.*
*Can vermek çok kolay ölmek atımdır,*
*Can bu cesetteyken bir yol ölsene.* ***(Teslim Abdal)***

*Bu cihanda geldi gelmedi nece bin evliya,*
*Mevlanın muhabbeti bilirmisen canda olur.* ***(Seyrani)***

**Canan (Canan):**Divan ədəbiyyatında sevgili, yar, məşuqə. Təsəvvüfdə isə Mevla, Rəbb, Allah mənasını ifadə edir.

*Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,*
*Neçün qılmaz mənə dərman məni bimar sanmazmı?***(Füzuli)**
*Canan diləyən dağdağa-yi cana düşərmi?*
*Can istəyən əndişeyi canana düşərmi?*
***(Həmzə Nigari Qarabaği)***

*Gerde-i gaybiyyeden canan çıkınca şahide*
*Turda takat kalmamış seyr-i cemal-i vahide*
*"Vaka-i Tur" aksi tesir yaptı ruh-i zahide*
*Samirinin kıssasından zahidan ateşlenir.* ***(Seyrani)***

**Cəfəriyyə (Caferiye):** Şiələrin on iki imamlarından olan altıncı imam Cəfər əs-Sadiqin yolu ilə gedənlər.

İmam Cəfər əs Sadıq (ö. 148/765) şiə imamlarının ən böyüyü və şiəliyi daha çox yayan imam olaraq görülür. Şiələr özlərindən bir məzhəb olaraq bəhs edərkən Cəfəriyyə adını söyləyirlər. İmam Cəfərə şiə etiqadını və ibadətlərini əsaslandıran bir çox görüş, vəz və nəsihətlər istinad olunur. İmam Cəfər, bütün sünnülərə görə, xüsusilə də təsəvvüf əhlinə görə bir vəli olaraq qəbul edilir. O özünü elmə və təfəkkürə vermiş, Əbu Hənifə və İmam Malik kimi böyük alimlər belə ondan faydalanmışdır.

*Açarım dini Məhəmməd, məzhəbi Cəfər yəqin,*
*La fəta illa Əli, bu sirri-pünhan məndədir.*
***(Şah İsmayıl Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Məhəmməd, Əlinin qullarındanam,*
*Ali-Əba nəsli Heydəri denəm.*
*İmami Cəfərin məzhəbindənəm,*
*Dərdimənd Xətai, dərmanə gəldim.* ***(Şah İsmayıl Xətai)***

Türkiyədə təkkə şairləri imamları öyən duvazlarında İmam Cəfərin adını dilə gətirilər:

*İmam Cəfər mezhebine uyarız,*
*Biz Muhammed, Ali deyenlerdeniz.* ***(Pir Sultan Abdal)***

*Kılıcın kuşandım bir gerçek erin,*
*Gayretin çekmezem erkansız kemin.*
*İmamlar civanı imam Caferin,*
*Dostum dost, düşmanina düşmanam.* ***(Aşıq Alı)***

*Pirim kulağıma eyledi telkin,*
*Şahi velayete olmuşuz yakın.*
*Mezhebim Caferi sadikül-metin*
*Allah dost eyvallah peymane gəldim.* ***(Şahi Baba)***

**Cəngnamə (Cenkname):** Cəngnamələr türk dastan yaradıcılığının davamçısıdır. Qaynaqlarını "Qurani-Kərim" və hadisələr olmaqla islam tarixi və ərəb-fars ədəbiyyatından almışdır. XIII əsrdən türk təsəvvüf xalq ədəbiyyatında inkişaf etməyə başlamışdır. Cəngnamələr şəkil etibarilə mənzum, mənsur və mənzum-mənsur olurlar.

Həzrət Əli cəngnamələrində qazi tipi təmsil edilir. Cəngnamələrdə Həzrət Əli, Düldül və Zülfüqar fövqəladə əlamətləri ilə ifadə edilirlər.

**Cığalı cəraylı (bax: Gəraylı):** Bu gəraylıda cığa hər dördlüyün üçüncü misrasından sonra gəlir. Cığadan sonra dördüncü misra gəlir. Prof. Mürsəl Həkimovun yazdığına görə Azərbaycan aşıq şeirində cığalı cəraylı nümunəsinə Aşıq Hüseyin Cavanın yaradıcılığında təsadüf edilir:

*Aşıq yalan görməsə,*
*Siyah saçın hörməsə,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Açan gülün dərməsə,*
*Gül tökülər,*
*Əğyar gülər,*
*Bel bükülər,*
*Cığa ağlar, tel vay eylər.*

**Cumhur (bax: İlahi):** Türkiyənin Mövləvi və Ələvi-Bektaşi təkkələrindən başqa bütün təkkələrdə oxunan ilahilərə verilən ad.

Örnək:

*Aşıq oldur ma'şukun şevkında ser-gerdan olan*
*Aşk ile buldum vefalar özge sohbet ehliyem.*
*Gün gibi didar-i şevkinden müşeirref oldu can*
*Kalmadı zulmet siyahı Hakka vuslat eyliyem.*

*Şöhret(ü) nam sahibidür anlamam Ümmi Sinan*
*Dem-be-dem dost işiginde nâsdan uzlet ehliyem.*
***(Ümmi Sinan)***

**Cüng (Cönk):** Əlazması şəklində olan kitab çeşidlərindən biri. Ədəbiyyat həvəskarları tərəfindən yazılan cünglərdə şairlərin, aşıqların, xalq ədəbiyyatının digər anonim janrlarının seçmə əsərləri və ya seçmə beyt və bəndləri qeydə alınır.

Qiymətli əlyazmaları olan cünglərdə bir çox əsərin tək variantı və mətni də mühafizə edilib saxlanmışdır. İstər Azərbaycan, istərsə də Türkiyədə bir çox məlumatlarla zəngin olan belə dəftərlər-cünglər ədəbiyyat tarixinin yazılmasında qiymətli qaynaq olan mövzular vermişdir. Dünyanın bir çox kitabxanalarında türk dünyasının ədəbiyyat və sənət incilərindən xəbər verən çoxlu cünglər saxlanılmaqdadır.

Azərbaycan Elmlər Akademiyası Əlyazmaları İnstitutunda orta əsrlərdən qalma bir çox cüng mühafizə olunmaqdadır.

**Çarx (Çark):** Göy, tale, ox yayı, yer, davam edən, sürən kimi mənaları ifadə edir.

Mövləvilər sağ ayağa çarx, sol ayağa dirək deyirlər. Səma sırasında dirək adı verilən sol ayağa dayanaraq, sağ ayaq döndürüldüyü üçün çarx adı verildiyi söylənilir. 2 cür çarx vardır: tam çarx, yarım çarx. Səma sırasında ayaq qaldırılır və



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bir addım atılır. İlk nöqtəyə dəyərsə, buna tam çarx, tam dairə tamamlanmazsa buna yarım çarx deyilir.

Çarx atma üsulunu mənbələr belə ifadə edir: Sol ayaq sabitdir. Mevlana bunu "bir ayağımız şəriətə sıx-sıx qımıldamadan dayanıb. Yəni islama sıx-sıx bağlıyıq, bütün vücud varlığımız onun üzərində bina etmişdir" şəklində açıqlayır. Sağ ayaq isə dönmə hərəkətini Kəbəyə dönmə mövqeini əsas alaraq dönür. Mevlana Cəlaləddin Rumi sağ ayağın cizdiyi bu dairəni "biz digər ayağımızla bütün məşrut, din, məzhəb, görüş, fikir, hikmət qənaətləri dolaşır, onları tanıyır, bilir, xoşgörü ilə davranırıq, onları anlamağa çalışır, dialoq qururuq" şəklində açıqlayır.

**Çarpaz qafiyə (Çapraz kafiye):** Aşıq şeirində dörd misralı bəndlərdə birinci misra ilə üçüncü, ikinci misra ilə dördüncü misranın qafiyəli olmasıdır.

Azərbaycan aşıq şeirindən örnək:

*Getmə göz önündən, ay Şəkər xanım, (a)*
*Könül mayil olub o qələm qaşa. (b)*
*Gəl əyləş məclisdə sən mənim canım,*
*Mən saz çalım, sən də eylə tamaşa.*

Eyni sənətkarlıq nümunələri türk aşıq şeirində də görünməkdədir.

*Karibce-karibce öter (a)*
*Kızılözün turnaları (b)*
*İyide eylence yeter (a)*
*Ala gözün sürmeleri (b)* ***(Qaracaoğlan)***

**Çərxi-fələk (Çark-ı felek):** 1.Hərəkət edən göyüzü. Məcazi mənası: Tale, bəxt. Qədim türklər «çərxi-fələyə» «gök çıkrısı», yəni «göy dəyirmanı» demişlər. Sonralar «gök çıkrısı» və «fələyi» «evrən» termini ilə əvəz etmişlər. XV əsrdə Karaxanlılar zamanında «evrən evrilir» (Çevrilir), yəni «evrən dönür» demişlər.

*Hər kişidə bir cübbəbü dəstar olur, amma*
*Min başda biri layiqi-dəstar bulunmaz.*
*Çün çərxi-fələk cahilü-nadan sevər oldu,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Pəs lacərəm uş fəzlə xiridar bulunmaz.* ***(Nəsimi)***

2. Göy qübbəsinin durmadan dönməsi ilə bağlı olan bir termindir. Qədim ərəblər və iranlılar da türklər kimi göy qübbəsinin durmadan döndüyünə inandıqlarından bu dönüşü «çərxi-fələk» şəklində ifadə etmişlər.

3. Qədim türklər evrənin dönüşünün insanlara yaxşı və ya pis taleh gətirdiyinə inanırdılar. Bu inanc bayatı və aşıq şeirlərində də öz izini qoyurdu.

*Bir yar gəlir obasından,*
*Alım dərdü bəlasından.*
*Çərxi-fələk badəsindən*
*İçib sərxoş olan könlüm.****(Abbas Tufarqanlı)***
*Emrahın behude sanma emeyin,*
*Elbette dergaha keçer dileyin.*
*Kırılsın dişleri çarhi-feleyin,*
*Nice hor eylemiş merdaneleri.* ***(Aşık Emrah)***

*Bu sırra münkirler ermez,*
*Dost yüzünü körler görmez.*
*Çarh-i felek döner durmaz,*
*Ya ben nice dönmeyeyim.* ***(Seyyid Nizamoğlu)***

*Çarkı felek gökte döner,*
*Rahmet melekleri ener.*
*Her çiçeğe arı konar*
*Ayrı atrı bala gider.****(Talibi)***

*Keçirdim ömrümü havayi heves*
*Derdim bir kimseye deyildir qiyas.*
*Her vakit, her zaman kalbimdə bu yas,*
*Çarki-felek güldürmedi yüzümü.* ***(Aşık Veysel)***

**Çıldır təkərləməsi:** Türkiyənin yalnız Qars bölgəsi aşıqlarının söylədikləri bir şeir növüdür. Aşıqlar bəzən buna «Şəki sicilləməsi» də deyirlər və ilk dəfə Azərbaycanın Şəki bölgəsi aşıqları tərəfindən söyləndiyini qəbul edirlər. Türkiyədə Qars bölgəsində yayqın olduğu üçün «Kars sicilləməsi», «Muhannəs»də deyilməkdədir. (61, 182)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aşıqlardan böyük məharət tələb edən «Çıldır təkərləməsi»-nin bəndləri və misralarının sayı sabit deyildir və hər aşıqda dəyişir. Şeirdə misraların sayı istənilən qədər uzadıla bilər. Əsasən hər bəndin misraları qafiyəli olur. Deyildiyinə görə aşıqlar tərəfindən söylənən ən uzun təkərləmə (sicilləmə) Çıldırlı Aşıq Şenliyə aiddir. Aşıq Burhanidən "Çıldırtəkərləməsi" örnəyi:

*Ey efendim, her gününde zarar oldu karım benim.*
*Gece-gündüz kan ağlardım, kalmadı kararım benim*
*Düşünceden bizar oldum, çok artdı efkarım benim,*
*Yar yolunda talan oldum, gitdi devlet varım benim*
*Hiç bir zaman talehim yok, karadır kaderim benim.*
*Cananıma hesret oldum, budur intizarım benim.*
*Böylə mi olur etibarım, nazlı vefadarım benim.*
*Beni ikrardan dönmemişim, bozulmuş ikrarım benim*
*Aşiq idim bir güzele terk etti beni cananım,*
*Sadık dostken düşmən oldu mərhəmətsiz yarım mənim*
*Can-can deyib dost bildiyim, indi düşmən oldu getdi,*
*Aşiqini ömür boyu bir atəşə saldı getdi.*
*Məni qoydu qəm-kədərdə, o da qəmli qaldı getdi*
*Daha görünməz gözlərə sanki bir sirr oldu getdi.*
*Vakıtsız vurdu sam yeli, qazel kimi soldu getdi.*
*Tereddüd etdi fikrinde, hayallara daldı getdi.*
*Sevdası serimdən getmez, aşkı canda qaldı getdi.*
*Bu canım cisminde durmaz, könlümü de aldı getdi.*
*Akibetini bilmedi, o da sürmedi sefanı*
*Özü de qamlara daldı, derdli şifakarım benim.*

***(Aşık Burhani)***

*Aşık idim bir güzele, terk etti beni cananım*
*Sadık dosken düşmanım oldu, merhametsiz yarim benim*
*Can can değip dost bildiğim, şimdi düşman oldu gitti,*
*Aşığını ömür boyu bir ateşe saldı gitti,*
*Beni koydu kam kederde, o da gamhar kaldı gitti,*
*Daha görünmez gözlere, sanki bir sır oldu gitti,*
*Vakitsiz vurdu sam yeli, gazel gibi soldu gitti,*
*Tereddüt etdi fikrinde, hayallere daldı gitti,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sevdası serimden gitmez, aşkı canda kaldı gitti,*
*Bu canım cisminde durmaz, gönlümü de aldı gitti,*
*Akibetin bilmedi, o da sürmedi sefayı,*
*Özü de gamlara daldı, dertli şifakarım benim.*

*Bülbüle cefa eyleyen, arada harada kalmaz,*
*Beni yardan ayıranlar, ahım onlara da kalmaz,*
*Ne kadar dağda kar olsa, eriyen karada kalmaz,*
*İbrahim oda atıldı, yakmadı nara da kalmaz,*
*Mansur'un kanlısı oldu, kurulan dara da kalmaz,*
*Eyyup sabır etti derde, cisminde yara da kalmaz,*
*Bir günde eyyama döner, esen rüzgara da kalmaz,*
*Ey Burhani sabur eyle ahın ağyara da kalmaz,*
*Seni yaktı o vefasız, o da yansın benim gibi.*
*Vardı bir yada yar oldu o zülümkar yarim benim.*

***(Aşık Burhani)***

**Çilə (Çile) (bax: Xəlvet):** Qirx mənasına gələn farsca “çi-hil” sözündən əmələ gələn bir təsəvvüf terminidir. Çiləyə ərəbcə xəlvet və “ərbain” də deyilir.

Bir dərvişin qaranlıq bir hücrədə təkbaşına qırx gün az yatmaq, az yeyib-içmək və mümkün qədər sürəkli ibadətlə məşqul olduğu müddətə çilə deyilir. Bu, nəfsi tərbiyənin kamilləşməsinə kömək üçün camaatdan uzaq olmaqdır. Təsəvvüfdəki çilə ömür boyu deyildir, sadəcə 40 günlükdür.

Çilə metodu belə tədbiq edilirdi. Şeyx dərvişi çilə otağına dua ilə göndərər, fatihə çəkib, qapını örtüb gedərdi. Otaqda bir dəri və ya asa və hücrənin rəfində Qurani-Kərim olardı. Dərviş bu hücrədən yalnız lazım olduqda (tualet, abdəst, cümə namazı və s. üçün) çıxardı. Çıxanda heç kimlə danışmazdı. Geyəcəyini və yeyəcəyini müəyyən vaxtlarda bir dərviş gətirib qoyar, salamdan başqa bir söz söyləməzdi. Ənənəyə görə çiləyə girənə ilk gün 40 zeytun verilir, hər gün birini əksildərək 40-cı gün sadəcə bir zeytun verilirdi. Yeyəcəyin zeytun olması Nur surəsinin 35-ci ayətində də ifadə edilmişdir.

Dərviş çilədən çıxınca 40 gün içində təfəkkür və röyalarını şeyxinə danışırdı. Əgər şeyx lazım bilirsə onu 2-ci dəfə çiləyə göndərirdi. Bir-birinin ardınca 3 dəfə çiləyə girən olurdu. Dərviş çiləni bitirib hücrədən çıxınca şükür qurbanı kəsilirdi. Kəsilən



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qurbanın ət suyundan hazırlanan yeməyi ona verirdilər, onu təbrik edirdilər.

*Çile vü halvet bais-i qaflet*
*Aşkı kıl adet aşık ol aşık.* **(Qayli Sunullah)**

*Çək ey sofi şərabi ərbaini*
*Ki ol saf eyləsün qəlbindəkini.* **(Nigari)**

Təsəvvüf məktəblərində bəzən kiçik qüsur qarşısında çilə cəza şəklində də olurdu. Xəlvətilərin ikinci piri Şeyx Yəhya Bakuvi 40 dəfə çilə çıxarmışdı.

**Çiləxana (Çilehane) (bax: Xəlvetxana):** Çilə evi deməkdir Təsəvvüf ərbabının çilə çıxardıqları xüsusi hücrəyə çiləxana deyilir. Təkkələrin qaranlıq otaqlarından çiləxana kimi istifadə edilirdi. Hücrələr bəzən də dağ başlarındakı və tənha yerlərdəki mağaralarda inşa edilirdi. Azərbaycanın Şamaxı rayonunun mərkəzindəki Diri Baba çiləxanası kimi. Bakıda Şirvanşahlar sarayı yanındakı Şah məscidinin künclərində də xəlvətiyə təriqətinin çiləxanalarını görmək mümkündür.

**Çillə:** Çillənin bir neçə mənası vardır.

1. Azərbaycan xalq təqvimində qış mövsümünün “Böyük çillə” və “Kiçik çillə” adlandırılan iki ayının adı. Böyük çillə 40, kiçik çillə 20 gündür.

2. Zahı qadının dünyaya uşaq gətirməsindən sonra aradan keçən qırx günlük müddətə də çillə deyilir.

**Danışmendname:** XI əsrdə iç Anadoluda Bizansa qarşı fəthləri ilə məhşurlaşan və burada öz adı ilə tanınan bir dövlət quran Danışmənd Qazinin adı ətrafında əmələ gələn mənkibələrdən ibarət dini-dastani hekayələr.

**Dar (Dar):** Ərəbcə ev, farsca edam yeri deməkdir. Təsəvvüfdə Bektaşilik terminlərindəndir. Bektaşiliyə girən adamın meydanda iqrar verdiyi yerin adıdır. Meydanın tam orta yerinə dar deyilir. Biət və təriqət təlqini kimi mərasimlər burada icra olunurdu. Təsəvvüf ədəbiyyatında “Həllac Mansur”un başına



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gətirilən hadisəni ifadə etmək üçün şeirlərdə işlənən edam yeri mənasında işlədilirdi.

*Circis oldum basıldım, Mansur oldum asıldım*
*Hallac pambığı gibi, bunda atılıb geldim.* ***(Yunus Emre)***

**Dastan (Destan):** Şifahi xalq ədəbiyyatında həcm baxımından ən böyük əsər. Beynəlxalq termin olan «Epos»un qarşılığıdır. Farsca «Dasitan» sözündəndir. «Şahnamə»nin baş qəhrəmanı Rüstəmin atası Zalın başqa bir adı da Piri Dasitandır. Azərbaycan terminoloji lüğətində «dastan» termini həm «Oğuz xan», «Dədə Qorqud», «Koroğlu», «Köç», «Boz qurd» kimi qədim türk dastanlarına, həm də «Əsli və Kərəm», «Qurbani və Pəri», «Lətif şah» kimi aşıqların vücuda gətirdikləri hekayələrə də verilən addır.

Azərbaycan şifahi xalq ədəbiyyatında mövcud olan dastanlar mövzu baxımından bir neçə qismə ayrılır: qəhrəmanlıq dastanları, məhəbbət dastanları, ailə-məişət dastanları. «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm» qəhrəmanlıq dastanları, «Şah İsmayıl», «Novruz», «Əsli və Kərəm», «Aşıq Qərib», «Abbas və Gülgəz» məhəbbət dastanları, «Alı xan və Pəri xanım», «Səlim şah» kimi dastanlar ailə-məişət dastanlarıdır.

Türk xalq ədəbiyyatında dastan:

1. Türk millətinin tarix içindəki macəralarını əks etdirən, onun millətolma çabalarını, ideallarını dilə gətirən zəngin ədəbiyyat məhsulları.
2. Türklərin meydana gətirdikəri həm fövqəladə hekayələrdən, həm də igidliklərdən bəhs edən uzun mənzumə.
3. Xalq şeirində bir növ. Anadoluda aşıqlar tərəfindən söylənən şeir şəklinə verilən ad.

Necati Səbətçioğlu dastana belə tərif verir:

«Dastanlar bir millətin bütün bir varlığını ələm və kədəriylə, sevinc və coşqularıyla, bütün duyğu və düşüncələrini, millətolma yolundakı çabalarını və bu çabalardan doğan canlı və hər zaman təzə xatirələrini, gələcəyə yönəldilmiş dinamik əməllərini



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bir məfkurə yumağı halında dərləyib toparlayan ən zəngin ədəbi xəzinədir». (72, 11)

Türk dastanları islamiyyətdən öncə və sonra olmaq üzrə iki dönəmdə yaranmışdır. «Yaradılış dastanları», «Oğuz dastanları», «Saka dastanları», «Göktürk dastanları», «Uyğur dastanları» islamiyyətdən öncəki dövrdə, «Danışmənd Qazı», «Satuk Buğra xan», «Battal Qazi dastanı» kimi dastanlar islamiyyət dönəmində yaranmışdır.

Anadoluda türk aşıqlarının şeirlə yazdıqları uzun mənzumələr də dastan adlanır. Bu dastanlar mövzularına görə «Şairnamələr», «Yat dastanları», «Öyüt dastanları», «Savaş dastanları», «Güldürücü dastanlar», «Əlifnamələr» kimi adlarla bilinir. Belə dastanların 4 bənddən 121 bəndə olanı vardır.

Məsələn: Kayıkçı Kul Mustafanın savaşla bağlı olan «Gənc Osman» dastanı dörd dördlükdən ibarətdir:

*İbtida Bağdada sefer olanda*
*Atladı handeyi geçdi Genc Osman.*
*Vuruldu sancaklar, kapdı sancağı,*
*İlleti handeye dikdi Genc Osman.*

*Eyerleyin kır atının ikisin,*
*Fethedeydim düşmanlarin kapısın.*
*Sabah namazında Bağdad kapısın,*
*Allah, Allah, deyip açtı Genc Osman.*
*Sultan Murad eydür gelsin göreyim,*
*Nece qehremandır ben de bileyim.*
*Vezirlik istese üç tuğ vereyim,*
*Kılıcından al kan saçtı Genc Osman.*

*Kul Mustafa karakolda gezerken,*
*Gülle kurşun yağmur gibi yağarken*
*Yıkılası Bağdad seni döverken*
*Şehidlere serdar oldu Genc Osman.*

**Dedim-dedi (Dedim-dedi):** Şeirlə deyişmə. Buna daxili deyişmə də deyilir. Ən gözəl nümunələrinə aşıq ədəbiyyatında rarst gəlinir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Dedim-dedi»lərə, demək olar ki, əksər aşıqlar müraciət etmişlər.

*Dedim: Sənə aşıq olan can budur,*
*Dedi: Sənin eşqin axar bir sudur.*
*Dedim: Cavan ömrüm çürüyüb gedir,*
*Dedi: Əbəs sözdür, əfsanədir bu.* ***(Aşıq Qurbani)***

*Dedim: Zülfün niyə dönüb ilana,*
*Dedi: Dilin öyrəşibdi yalana.*
*Dedim: Bir dərdimənd yarı olana,*
*Dedi: Eləsinə çöp də verilməz.* ***(Aşıq Şəmşir)***

Azərbaycan aşıq ədəbiyyatında XVII əsrdən başlayaraq rast gəldiyimiz «dedim-dedi»lərin ilk nümunələri isə "Kitabi Dədə Qorqud"da, XII əsr yazılı Azərbaycan ədəbiyyatında Nizami Gəncəvinin əsərlərində mövcuddur.

Müasir Azərbaycan şeirində "dedim dedi" növünün bir çox nümunələri də bu ədəbi varisliyin nəticəsində yaranmışdır.

*Dedim: Mən sevirəm, dedi: Sevginən,*
*Dedim: Qoşa gəzək, dedi: Tələsmə.*
*Dedim: Bağ içidi, dedi: Seyr elə,*
*Dedim: Bir gül üzək, dedi: Tələsmə.*

*Dedim: Bir vədə ver, xəyala varma,*
*Dedi: Zəhmət çəkib, özünü yorma.*
*Dedim: Qadan alım, dedi: Yalvarma,*
*Dedim: Onda küsək, dedi: Tələsmə.*
*Dedim: Mən aşiqəm al yanağına,*
*Dedi: Bülbül qonar gül budağına.*
*Dedim: Üzük taxım qoy barmağına*
*Əhdi-peyman kəsək, dedi: Tələsmə.*
***(Nəriman Həsənzadə)***

«Dedim-dedi» adı verilən şeirlər əslində daxili deyişmədir. Şair və aşıqların müraciət etdikləri deyişməyə xas olan bu şeir növünü aşıqlar qeyri-müəyyən isimlərdən çıxararaq müəyyən isimlərlə aid edir və bu şeirləri başqalarına aid kimi söyləyərək



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Deyişmələr» əmələ gətirirlər. Aşıq Ələsgərdən və müasir aşıqlardan Aşıq Ulduzdan iki nümunə:

*Aşıq Ələsgər:*
*Sən bilirsən subay gəzmək günahdı,*
*Şəriətə, yol, ərkana nə dedin?*
*Anlamaz anlasın, qanmayan qansın,*
*Sındırdın, döndürdün qana, nə dedi?*

*Həcər xanım:*
*Arif olan bu sözlərə inansın,*
*İzin versin, ata-ana deyirəm.*
*Anlamaz anlasın, qanmayan qansın*
*At sürməsin bu meydana deyirəm.* ***(Aşıq Ələsgər)***

*Aşıq Ulduz:*
*Eşit salamımı, ay aşıq İmran,*
*O hansı bəladı çarəsi yoxdu.*
*Kimi tutsa, ömür boyu sağalmaz,*
*Məkanı bilinmir, xanəsi yoxdur.*
*Aşıq İmran:*
*Al cavabın deyim ay Ulduz xanım,*
*Məhəbbət odunun çarəsi yoxdu.*
*Arif insan ömrü boyu yaşayır,*
*Məkanı ürəkdir, xanəsi yoxdur. (139, 151)*

Türk xalq ədəbiyyatında da dedim-dedi bir şeirləşmə növüdür. Əsasən aşıq şeirinin qoşma, gəraylı, varsağı şəklində yazılır. Türk aşıq şeirində bu şeir nümunələrinə XVII əsrdən təsadüf edilməkdədir. Aşıq Ömər, Aşıq Əmrah, Aşıq Şenlik kimi ustad aşıqların yaradıcılığında «Dedim-dedi»lərin ən mükəmməl nümunələri mövcuddur.

*Dedim: Dilber, yanakların kızarmış,*
*Dedi: Çiçek taktım gül yarasıdır.*
*Dedim: Tane-tane olmuş benlerin,*
*Dedi: Zülfüm deydi tel yarasıdır.* ***(Aşıq Ömər)***

*Dedim: Erzurum ne? Dedi: Elimdi,*
*Dedim: Geder misin? Dedi: Yolumdu.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Dedim: Emrah nedi? Dedi: Kulumdu,*
*Dedim: Satar mısan? Söyledi: Yok, yok!* ***(Aşıq Emrah)***

*Dedim: Şenlik sene yardı,*
*Dedi: Vefadarım vardı.*
*Dedim: Şahsın Şəmsi-nurdu,*
*Dedi: Kekab tutarım ben.* ***(Aşıq Şenlik)***

**Deme:** Təkkə şeirində bir şeir növü. Ələvi toplantılarında sazın müşayəti ilə oxunur. Bu şeirlər əsasən 8 hecadan ibarət olur və Həzrət Əli sevgisi ön planda tutulur.

Örnək:

*Güzel aşık cevrimizi*
*Çekemezsin demedim mi?*
*Bu bir rıza lokmasıdır,*
*Yiyemezsin demedim mi?*

*Bu dervişlik bir dilektir,*
*Bilene büyük devlettir.*
*Yensiz yakasız gömlektir,*
*Giyemezsin demedim mi?*

*Çıkalım meydan yerine,*
*Erelim Ali sırrına.*
*Can u başı Hak yoluna*
*Koyamazsın demedim mi?*

*Aşıklar kara bahtl (ı) olur,*
*Hakkın katında kutl (u) olur.*
*Muhabbet baldan tatl (ı) olur,*
*Yiyemezsin demedim mi?*

*Pir Sultan Abdal şahımız,*
*Hakka ulaşır rahımız.*
*On iki imam katarımız,*
*Uyamazsın demedim mi?* ***(Pir Sultan Abdal)***

*Erenler yolun güderiz,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Çekilip Hakk'a gideriz.*
*Gaza-yı ekber ederiz*
*İmam Ali'dir ulumuz.* ***(Muhyi)***

**Devriye:** Təkkə ədəbiyyatında bir şeir növü. Dini təsəvvüfi xalq ədəbiyyatında mövzusu devr nəzəriyyəsi olan mənzumələrin adıdır. Devr – dairəvi bir hərəkətlə dönmək mənasındadır. İnsanın Allahdan gəlib təkrar Allaha dönmək düşüncəsinə əsaslanır.

Təkkə ədəbiyyatında devriyyələr (dövriyyələr) əsasən Bektaşi şairləri tərəfindən yazılmışdır. Devriyyə nəzəriyyəsi Bektaşi təriqətinin özünəxas düşüncə və görüşlərinə əsaslanır. Bektaşi şairlərinin yazdıqları «devriyyə»lərin demək olar ki, hamısında «Turi Sina» dağının adına rast gəlinir. Bu dağ Allah ilə əlaqə yaradan dağın adıdır. Mütəsəvvüflər ermişliyə ucalmağı Tur dağına bənzətmişlər.

Başqa təriqətə məxsus olanlar da devriyələr yazmışlar.

Dövriyələr qoşma, ilahi, nəfəs, dastan kimi şeir növləri və şəkillərində yazılmışdır.

*Ya Rab, aşkını ver bana!*
*Hü deyeyim döne döne?*
*Aşık olayım ben sana,*
*Hü deyeyim döne döne.*

*Koma hiç benliğim bende,*
*Varlığım yok eyle sende.*
*Seni görüp her mekanda*
*Hü deyeyim döne döne.*

*Çaha düştüm Yusuf gibi,*
*Derde düştüm Eyyup gibi.*
*Ağlayayım Yakup gibi,*
*Hü deyeyim döne döne.*

*Senden gayrısın al benden,*
*Ayırma ben kulun senden.*
*Sevdir bana seni candan*
*Hü deyeyim döne döne.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Gönlümde ağyar kalmasun,*
*Senden gayru yar olmasun.*
*N'olduğum kimse bilmesün*
*Hü deyeyim döne döne.*

*Şevkin ver bana döneyim,*
*Ta kül olunca yanayım.*
*Gördüğüm seni sanayım*
*Hü deyeyim döne döne*

*Mevla'm koma beni bana*
*Al gönlümü senden yana*
*Müştakın oluban sana*
*Hü deyeyim döne döne.*

*Seyyid Nizamoğlu kuldur,*
*Gerek dilgür, gerek öldür.*
*Aşkınla gönlümü doldur*
*Hü deyeyim döne döne.* ***(Seyyid Nizamoğlu)***

**Deyim (Deyim):** Şifahi xalq ədəbiyyatında bir janr. Öz mənasından fərqli bir məna daşıyan qəlibləşmiş ifadə və təbirlər deyim adlanır. İnsanların hadisələrə münasibəti əsnasında dərin məntiq və müşahidəsi, şəxsi baxışı deyimlərin əmələ gəlməsində əsaslı səbəb olur. Deyimlər söz və cümlədən çıxan bir mənanı, bir görüşü canlandırdığı üçün zaman-zaman yayqınlaşaraq müstəqil yaşamaq hüququ qazanır, daha doğrusu, öz anlamlarından ayrı bir anlam daşıyırlar.

Qədim türk yazılı abidələri vasitəsi ilə bir çox deyimlər zəmanəmizə gəlib çatmışdır. Məsələn:

Atı küsi yok bolmak «Adı-sanı yox olmaq»

(Bilgə Kağan. D.S. 21. Gül Tiğin. D.S.27)

Ot sub kılmak. «Ayrılmaq, bir-birinə düşmən olmaq» (Gül Tiğin. D.S.27. Bilgə Kağan. D.S.22).

Deyimlər məcaz, istiarə, kinayə, təşbeh, eyhamlarla bərabər lətifə, atalar sözü, dastan, nağıl, əfsanə, zərbül-məsəllərdən də bəzi ünsürləri alır.

Azərbaycan dilində yayqın olan bir neçə deyim:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Öküzü öldürüb adını üstündən götürmək», «İt ilindən qalma», «Amerika açmaq», «Beş günlük dünya», «Ərəb Zəngi kimi yol kəsmək», «Kərəm kimi yanmaq», «Söz dəyirmandakıdır», «Pişik fərmanla gəlib», «Əli, Vəli, Pirvəli» və s. kimi.

Türk dilində də sabitləşən deyimlərin əmələgəlmə səbəbləri Azərbaycan dilində olduğu kimidir:

Örnəklər:

«Çileden çıkarmak», «Meydan okumak», «Kemer sıkmak», «Burnundan gelmek», «Kulaklarına küpe olmak», «Ak denizde kaptan, Mısırda sultan» və s.

**Deyişmə (Deyişme)** (bax: Aşıq deyişmələri)**:** Anonim xalq ədəbiyyatında bir janr. Bu janrın bayatılarda, xalq dastanlarında, xalq oyunlarında diqqəti cəlb edən nümunələri vardır.

Azərbaycan və Türk folklorunda oğlanla qızın deyişməsi, yerlə göyün deyişməsi, dağla aranın deyişməsi, qızların deyişməsi, yazla-qışın deyişməsi, xalq ədəbiyyatındakı deyişmə nümunələridir. Belə deyişmələrə sözlüklərdə «duet» də deyilir. Türk xalq ədəbiyyatında deyişmə janrına «kovalama», «atma mani», «atma türkü», «karşıberi»də deyilir. Toylarda, tarlalarda, qadın məclislərində, kişi məclislərində bədahətən söylənən deyişmə nümunələri mövcuddur.Türk folklorundan deyişmə örnəyi:

*Kızlar:*

*Karşıya yaban derlər,*
*Mor taşa kaban derlər.*
*Kız, hatırın kalmasın,*
*Nişanlın çoban derlər.*

*Kız:*

*Karşı yabansız olmaz,*
*Mor taş kabansız olmaz*
*Hatırınız kalmasın,*
*Sürü çobansız olmaz.*

Azərbaycan folklorundan deyişmə örnəyi:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oğlan:*

*Sən bir gözəl ceyran olsan,*
*Düzlərə qaçacaq olsan.*
*Mən bir mahir ovçu olsam,*
*Səni ovlasam, neylərsən?*

*Qız:*

*Sən bir mahir ovçu olsan,*
*Məni ovlayacaq olsan*
*Mən bir qızıl alma olsam,*
*Sandığa girsəm, neylərsən?*

*Oğlan:*

*Sən bir qızıl alma olsan,*
*Sandığa girəcək olsan.*
*Mən bir paslı açar olsam,*
*Sandığı açsam neylərsən?*

*Qız:*

*Sən bir paslı açar olsan,*
*Sandığı açacaq olsan,*
*Mən bəzəkli gəlin olsam,*
*Sandıqdan çıxsam, neylərsən?*

*Oğlan:*

*Sən bəzəkli gəlin olsan,*
*Sandıqdan çıxacaq olsan.*
*Mən bir qəşəng oğlan olsam*
*Qoynuna girsəm, neylərsən?*

**Dədə (Dede):** Türkcə bir kəlmə olan dədə həm də təsəvvüfdə istilahdır. Mövləvilikdə muhubilikdən sonrakı mərtəbədir. Muhib dərviş olmağa iqrar verib çiləsini tamamladıqdan sonra ona bir hücrə verilir və dədə deyə çağrılır. Dədə yeni muhibləri ləyaqətlərinə görə "Məsnəvi" oxudaraq, ayin məşq edərək, mey üfləməyi, üsul tutmağı öyrətməklə tərbiyə edib yetişdirir.

Dədəlik ələvilərdə soydan gələnlərə məxsusdur. Yəni Həzrəti Peyğəmbər soyundan gələn seyidlərə dədə deyilir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ələvilərə dədənin taliblərlə görüşməsi hər qış mövsümü olur. Buna görgü sorqu deyilir. Bahar gəlib tarlalarda iş başlayınca dədə öz kəndinə dönər. Bu hədis xalq arasında aşağıdakı ata sözü ilə ifadə olunmuşdur: "Çiğdem bitti, dede gitti"

Bektaşilər Hacı Bektaş Dərgahında şeyx olan babaya Dədə Baba deyirlər. Bektaşilərdə dərəcələnmə sırası belə idi: aşıq, talib, muhib, dərviş, baba, xəlifə, dədə, baba. Bunların ilk dördü mürid, beşincisi və altıncısı baba ilə xəlifə, mürşid, dədə, baba isə pir rütbəsindədi.

Dədə ilə bağlı bir çox atalar sözü də vardır.

"Dede himmet, oğul hizmet" Bu ata sözündə dərvişin mənəviyyatca irəliləyə bilməsi üçün din qardaşlarına xidmət etməsi gərəkliyi ifadə edilir.

"Kendüsi muhtac-i himmet bir dede, nerde kaldı ğayrıya himmet ede" Bu ata sözü heç kimə faydası olmayan, dərvişliyindən sui-istifadə edənlər üçün deyilmişdir.

Dədə aşıqların sazında və sözündə:

*Qaibdən dəlil göründün,*
*Dədəm xoş gəldin, xoş gəldin.*
*Bizi sevib sevindirdin,*
*Dədəm xoş gəldin, xoş gəldin.*

*İki can idik birləşdik,*
*Məhəbbət qapısın açdıq.*
*Şükür didara erişdik,*
*Dədəm xoş gəldin, xoş gəldin.* ***(Xətai)***

**Dərd (Derd):** Mənşəcə farsca olan bu söz qəm, iztirab, ələm deməkdir.

Təsəvvüfdə sevgilidən sevənə keçən və təhəmmülü çətin bir hal, yəni ilahi eşq. Bu, arzu olunan bir dərddir. Ən böyük dərd dərdsiz olmaqdır. "Allah dərdini artırsın" Bu, Mövləvilərdə bir deyimdir. Dərdli – aşıq yəni Allah aşığı deməkdir.

*Dolap, neçin inlersin?*
*Derdim vardır inlerim.*
*Ben Mevlaya aşık oldum,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Onun için inlerim.**(Yunus Emre)***

*Çareyi – behbudimi sordum müalicden dedi:*
*Dərd, dərdi – eşqdir, mümkün degil səhhət sana.**(Füzuli)***

*Mənə derdim gərək dərman gərəkməz,*
*Tənimdə səndən özgə can gərəkməz.*
*Cahanda Ruşəni dərdindən özgə*
*Sənə ey Gülşəni dərman gərəkməz. **(İbrahim Gülşəni)***

**Dərgah (Dergah):** Qapı, eşik, məqam, təkkə. Bir təriqətdən olanların toplanıb ibadət etdikləri böyük təkkələr dərgah adlanırdı. Dərgahlarda şeyxlər və dərvişlər iqamət edirdi.

Dərgah aşıqların dilində:

*Yolunda peşkəşdi sərim,*
*Bəlkə qəfil qada oldum.*
*Ruhum qalar dərgahında,*
*Bəlkə eldən cüda oldum.**(Aşıq Alı)***

*Yene ilgit-ilgit yeller esince,*
*Bulutlar kaynaşır yel nic olur dost,*
*Özünü rızaya teslim etmeyen,*
*Sürerler dergahtan hal nic olur dost.*
***(Pir Sultan Abdal)***

*Sıtkınan niyazım Hacı Bektaşa,*
*Dergahına gedemedim, neyleyim.*
*Aşkınla girifdar oldum ateşe,*
*Dergahına gidemedim, neyleyim.*

**Dərs:** Əsli ərəbcə təhsil, oxuma, tədris etmə mənasına gələn dərs, Azərbaycan aşıq şeirində seirin məzmunu, mənası və aşığın ifaçılıq sənəti ilə əlaqədar işlənən termindir. Kamil aşıq həmin dərsləri mənimsədikdən sonra ortaya çıxmalıdır. Xalq şairi Osman Sarıvəlli aşıq sənəti ilə bilavasitə əlaqədar olan “dərs” və ya “dərslər” məhfumunun mahiyyətini belə ifadə edir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1. Dərsi-ədəb. Aşığın davranışı, ədəb-ərkan gözləməsi, həyatda və məclisdə oturuşu-duruşu ilə nümunə göstərmək üçün əxz etdiyi əxlaqi vərdişlərin nümayişi

2. Dərsi-idrak. Dünyanı necə dərk etmək, necə başa düşmək. Bəzi nəsihətamiz şeirlər, ustadnamələri və fəlsəfi şeirləri buna misal gətirmək olar.

3. Dərsi-imtahan. (deyişmələr, qıfılbəndlər, bağlamalar və s.) (102, 55)

**Dərviş (Derviş) (bax: Abdal, mürid):** Əsli farsca «yoxsul» mənasına gələn dərviş təsəvvüfdə təriqətlərin birinə girən insanlara deyilmişdir. Təriqətə hüsn-rəğbət göstərərək, onun qayda-qanunlarını yerinə yetirənlər bir müddət sonra dərviş ola bilirdi. Təsəvvüf əhli təriqət yolunda varlığından keçməyi şüar edənləri bu adla adlandırır. Təriqətlərdə dərvişə mürid də deyilir.

Təkkə aşıqları da «dərviş» kəlməsini yuxarıda ifadə edilən mənada işlətmişlər.

*Bu dervişlik beratın okumadı müftiler,*
*Anlar ne bilsün anı bu bir gizli varaktır.* **(Yunus Emre)**

*Hər ki ol dərvişdir miflis gərək,*
*Üz üzünsüz üzünə munis gərək.*
*Barmağın ağzındə qoyub daima,*
*Misli-naxun zindəvü bihuş gərək.* **(Rövşeni)**

*Bu dervişlik bir dilektir,*
*Bilene büyük dövlettir.*
*Yensiz yakasız gömlektir,*
*Giyemezsin, demedim mi?*
*Dervişler harabat olur,*
*Hak qatında hürmet olur.*
*Muhabbet baldan tatlıdır,*
*Doyamazsın, demedim mi?* **(Pir Sultan Abdal)**

*Kimi molla, kimi derviş,*
*Allah bize neler vermiş.*
*Kimi arı çiçek dermiş,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sen balsın da ben çeçmiyim?* ***(Pir Sultan Abdal)***

**Dərvişlik (Dervişlik):** Dərvişlik təriqətə mənsubluq mənasını ifadə edir. Dərvişlik İslama bağlanmaqla olur. İslamın ixlasla, sidq və takva ilə yaşanmasına deyilir.

Dərvişliyə fəqirlik şərti qoşan mütəsəvvüflər olduğu kimi Hoca Ubeydullah Ahrâr Taşkendi, Abdulkadiri Ceylani, Sadrəddini Konevi kimi zənginliyi ilə tanınmış sufilər də olmuşdur. Sufilərə görə pul cibdə olmalı qəlbdə deyil.

Həzrət Peyğəmbər özünə yaşama biçimi olarak zühdü və fəqirliyi seçərək, "fəqirlik mənim öyüncümdür. Mən onunla öyünürəm" demişdir. Özü müsəlmanların lideri olaraq hər cür dünyəvi zənginlik fürsəti əlinin altında ikən o, birinci olaraq fəqirliyi seçmiş və hətta sevgili arvadlarını dünya və ya axirətdə (yəni zəngin olmaq və fəqir yaşamaqda) seçim etmələri üçün sərbəst buraxmış, onlardan bir ay uzaq qalmışdı.

Sufilərin fəqirliyi birinci olaraq seçməsinə Həzrət Peyğəmbərin təsirinin olması şübhəsizdir. Ancaq bu fəqirlik zillət, tənbəllik mənasında olan bir fəqirlik deyildir. Dərvişlik bu yönü ilə zor bir məsləkdir. Şah İsmayıl Xətai və Seyrani bunu belə ifadə edirlər:

*Həmdiillah, irişib cananəyə can olmuşuq,*
*Sər verib meydani-eşqə girib üryan olmuşuq.*
*Qətreyi – naciz ikən dəryayi – ümman olmuşuq,*
*Fəxr edib dərvişliyi aləmə sultan olmuşuq,*
*Təkyeyi – fanidə bir neçə gün Mehman olmuşuq.* ***(Xətai)***

*Andelibim gül gerek, dal yokluğu yokluk değil,*
*Dervişim hırkam yeter, şal yokluğu yokluk değil.*
*Aşık-i Seyraniyim mal yokluğu yokluq değil,*
*Eyleyen dilden dile destan-i adem yokluğu.* ***(Seyrani)***

**Dəstar (Destar):** Farsca bir kəlmədir. Başa geyilən təkkə, fəs kimi şeylər üzərinə sarılan sarığa dəstar deyilir. Mövləvilər bu sarığa hörmət əlaməti olaraq kəlməyə "şərif" sözü də əlavə edərək "dəstari – şərif" deyirdilər. Sarıqların 7 –yə qədər çeşidi olmuşdur. Cüneydi, Payeli, Kafesi şeker aviz, Dolama, Hüseyni Kafesi, Örfi, Hüseyni. Təriqət şeyxləri daha çox Hüseyni



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sarıq sararlar ki, bu, aşağıdan yuxarıya doğrudur və yarısında yuxarıdan aşağıya doğru enər. “Örfi Destar” tikilmiş və içinə pambıq doldurulmuş və ən az üç barmaq qalınlığında tülbəndlə aşağıdan yuxarıya, yarıdan sonra onun tərsi olaraq yuxarıdan aşağıya doğru sarılır. Hər sarığın arasında bir bir parça açıqlıq buraxılır. Alt tərəfdə isə bir sarım dümdüz sarılır. Dəstar deyilən sarıq nəyin üzərinə sarılsa, (fəs, tac, sikkə) o, sarıqların üstündə görünür. “Dolama dəstar” dümdüz sarılır. “Kafesi Hüseyni Dəstar” və “Kafesi şəkər aviz Dəstar” isə tülbənd dörd qat tikilərək iki barmaq enliliyində və çox zaman doqquz arşın uzunluğunda tülbəndlə sarınır. Alt tərəfi qalın olur, üstə doğru incəlir və tac sikkənin qalınlığına bərabər olur. Sağdan sola, soldan sağa sarılarkən, hər sarılan o birinin tərsinə olur.

*Hər kişidə bir cübbəyi dəstar olur amma,*
*Min başda biri layiqi – dəstar bulunmaz.**(Nəsimi)***

**Didar (Didar):** Görmə, seyr etmə, üz, göz, çöhrə mənalarını ifadə edir. Təsəvvüfdə ilahi gözəlliyə tamaşa, sevgili mənasındadır.

*Canü könüldən gəzdim, aradım,*
*Haqqın didarını görmək muradım.*
*Didar ilə məhəbbətdir tələbim,*
*Ya bu gün, ya sabah öldüm ərənlər.**(Xətai)***

**Dildönməz:** Qoşma, gəraylı, divani şəklində yazılan aşıq şeirinin bir növü. «Diltərpənməz» də deyilir. Ağız içində dilin hərəkət etməməsinin yer aldığı kəlmələrdən əmələ gələn şeir. Belə şeirlərdə aşıq şeirin xarici şəklinə diqqət etdiyi üçün şeirin məzmunu sönük qala bilər.

Azərbaycan aşıq şeirində «dildönməz»in ilk örnəyinə Aşıq Ələsgərin yaradıcılığında rast gəlinir.

*Əziz ayə, müəmmayə,*
*Salsan sayə, bu mevayə.*
*Səbəb sənsən bu sevdayə*
*Böyük ağa, sağa bax, bax.* ***(Aşıq Ələsgər)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Divani (Divan, Divani):** Aşıq şeirinin bir şəkli. Azərbaycan və türk aşıq şeirində divani:

1. XVI-XVII əsrdən etibarən aşıqların divan şairlərinin təsiri ilə yazdıqları şeirlər.

2. İki aşığın deyişmə əsnasında məzmunu döyüşkən, təhrikedici xarakterdə şeirlər söyləməsi, yəni «divan tutması», başqa bir ifadə ilə sözlə döyüşməsi.

Divani 4 misralı, 15 hecalı, bir neçə bənddən ibarət olan şeirlərdir. Belə şeirlər müəyyən bəstə ilə oxunur. Sazın müşayiəti ilə oxunduğu üçün misralar bəzən 7+8=15 və 8+7=15 heca olmaq üzrə iki qismə bölünür.

*Havalanma dəli könül / zorunan işin nədir?*
*Mənsur təki Hələbdə / darınan işin nədir?*
*Oruc tut, namaz qıl / şükür et Allahına*
*Yoxsulsan alçaxdan yeri / varınan işin nədir?*

*Gəl, biçarə Aşıq Alı / qafil olma dilindən,*
*Şükür eylə iqbalına / cüda düşmə elindən.*
*Əl uzatma hər deşiyə / arı vurar əlindən,*
*Sən ki, ovçu deyilsən / maralınan işin nədir.* ***(Aşıq Alı)***

Şeirin hər misrasının özlüyündə iki yerə bölünən divani nümunələri türk xalq şeirində də mövcuddur:

*Şeirh edib razı derunmun / ol canına söylesem,*
*Payine yüzümü sürtsem/ bi-bihale söylesem.*
*Katreyi eşkin tökülse / dane-dane söylesem,*
*Çekdiyim her türlü qemden / bir nişane söylesem.*

*Çok muhabbet nüshasını / alnıma yazdı kalem,*
*Başıma cem oldu her / pervaneler çekti alem.*
*Ne çıraklar yaktı gör / kim sineme şemi alem*
*Derdini bir anlar olsa / yana-yana söylesem.*
***(Aşıq Gövhəri)***

Qars, Ərzurum aşıqları arasında daha çox divani adı ilə məşhur olan divani şeir şəklinin Azərbaycanda «cığalı divani»,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«qıfılbənd divani», «divani mərsiyə», «divani mədhiyə», «öyüdləmə divani», «zəncirləmə divani» kimi çeşidli şəkilləri vardır.

Türk aşıq şeirində həm 15, həm də 16 heca ilə divani adlanan şeirlər yazılmışdır. Türk elm adamlarından Məhmət Yardımçı divanının türk aşıq şeirində XVI əsrdən göründüyünü, bu şeir növünün 15 hecalı dördlükdən başqa 16 hecalı şəkillərini və qəzəl, ayaqlı qəzəl, mürəbbe, müsəddəs, ayaqlı müsəddəs şəkillərində yazıldığını, divan ədəbiyyatındakı mürəbbelərə daha çox bənzəri olduğunu, əruz vəzninin «failatün, faulatün, faulatün, failatün» qəlibi ilə söyləndiyini yazır.
(Mehmet Yardımçı. Başlanğıcdan Günümüzə. Halk Şiiri, Aşık Şiiri, Tekke Şiiri. Ankara, 1999, s.200.)

**Dodaqdəyməz (Dudakdeğmez, lebdeğmez):** Aşıq şeirində bir şeir şəkli. Əsasən qoşma şəklində yazılır. Bu şeirin əsas şərti şeir söyləyərkən dodaqların bir-birinə dəyməməsidir. Daha doğrusu, şeirdə (b,f,m,p,v) qoşadodaq və diş-dodaq samitlərinin olmamasıdır. Eyni zamanda şeirdə sənətkarlığın, dərin fikrin olması, anlaşılmaz sözlərin işlənilməməsidir.

Azərbaycan aşıq şeirində ilk nümunələri Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşirdə görünən dodaqdəyməz, sonrakı dövrlərdə Şair Cavadın, Əcaibin və b. yaradıcılığında da təşəkkül etmişdir.

Örnəklər:

*Ərşdən çən çəkildi, ayazı qaldı,*
*Ağıl zaya getdi, ay azı qaldı.*
*Sənətdən yadigar, a yazı qaldı,*
*Gərdişin ah-zarla, ay Alı, keçdi.* ***(Aşıq Alı)***

*Sin sən ilə sin içində sinayə,*
*Səhər yeli sayə saldı dal-dala.*
*Seyr eylə səhrada səhər sinayə,*
*Sızıl sıqın hərcayidən dal-dala.*

*Səcarə sərindən sərtdi səqarə,*
*Səd yazdı, səd qaldı, gəldi nəzərə.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sədasında dedi sənsən nə karə*
*Səng içində səda gəldi dal-dala.*

*Saildi Cavadın, sən sədayə gəl,*
*Sədayə, dada hey, sən sədayə gəl.*
*Sirrisən ya sirr sən sədayə gəl.*
*Sən siratda səda nardan dal-dala.* **(Şair Cavad)**

*Tarik-i aşka gir ehli Huda ol,*
*Gönül gel layiki her itila ol.*

*Dilersen dehrde azade – şeirlik*
*Gurur-i cahi terk eyle geda ol.*

*Sakin ızardan ağyara halin*
*Yine sen derdine çare – resa ol.*

*Cida-i kıl ü kale yok nihayet*
*Ricalü'illah ile hal-aşina ol.*

*Çekil izzetle uzlet guşesine*
*Aziz ol dera-i şöhretten cuda ol.* **(Remzi Dede)**

Türk aşıq şeirində ləbdəyməz adı ilə də bilinən dodaqdəyməz şeir nümunələrini Aşıq Reyhani, Aşıq Arifi, Aşıq Tanrıqulu, Aşıq Səlmani, Əli Dadaşoğlu, Qul Nuri və b. Yaradıcılığında görmək mümkündür. Aşıqların ustalıqlarını göstərmək üçün bir növ söz hünərini bildirən dodaqdəyməz şeir növü çox zaman aşıq deyişmələrində istifadə edilir. Tədqiqatçıların da yazdığı kimi «Deyişmənin ən çətin biçimi olub, aşıqların dodaqları arasına iynə qoyaraq, yarışdıqları çətin bir deyişmə növüdür».

Türk aşıq şeirində dodaqdəyməz deyişməyə örnək:

*Arifi:*

*Ey arkadaş yar karşına gelirse,*
*Kendi gözleriyle gör yarasını.*
*Onun aşkı seni derde salınca,*
*Gerçekten alarsın yar yarasını.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Dadaşoğlu:*

*Derde düşenlerin halına yazık,*
*Yetiş ilac ile sar yarasını.*
*Eger dostun sene atarsa kazık,*
*Ne acı, ne yaklaş sor yarasını.*

*Arifi:*

*Senin için nara kendini yaksa,*
*Yarının doğru yanan ışıqsa.*
*Eger ki, o sana gerçek aşıksa,*
*Getir kendi yüzün sür yarasına.*

*Dadaşoğlu:*

*Yara derin olsa, derdli neylesin,*
*Dosta yarenine halin söylesin.*
*Yaradan derdine ilac eylesin*
*Atarsa içinden kir yarasını*

*Arifi:*

*Her kes kararınca olsa karınca,*
*Könlünün içine aşkı girince,*
*Aşkı ilahiye tezden erincə,*
*Dışarıya döker sır yarasını.*

*Dadaşoğlu:*

*Coşğun-coşğun sular akarken çağlar,*
*İniler dereler seslener dağlar.*
*Ali Dadaşoğlu derdine ağlar,*
*Açarsa dostuna her yarasını.*(82, 200)

**Dodaqdəyməz təcnis (Cinaslı dudakdeğmez):** Qafiyələri cinaslı olan dodaqdəyməz qoşma. Azərbaycan aşıq şeirində XIX əsrdə Aşıq Ələsgərdən başlayaraq günümüzə qədər olan aşıq şeirində gözəl örnəkləri vardır:

*Ata, kağızını alardıq yazda,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Kəsildi arası, ay qara qaldı.*
*Sanki keçdi nagah ərşin çırağı*
*Gecənin alnında Ay qara qaldı*

*Yağı insanları saldı nə saya,*
*Saysan şəhidləri gələr nə saya.*
*Qara kağız rəngin qatdı nəs aya,*
*Ayların içində ay qara qaldı.*

*Əcaib, qəddini yay indi nədən,*
*Sənə qarlı qışdı yay, indi nədən?*
*Yar çıxdı qarşıma, yayındı nədən?*
*Sinən aynasında ay qara qaldı.* ***(Qiyas Əcaib)***

**Dolapname:** Dolap təsəvvüfdə Allah eşqinin, Allaha təslim olmağın rəmzidir. Dolapnamələr Allah eşqini anladan suallı-cavablı mənzum əsərlərdir.

*Dolap neçün inlersin?*
*Derdim vardır inlerim.*
*Ben Mevlaya aşık oldum,*
*Onun için inlerim.*

*Dülgerler beni yondu,*
*Her azam yerine kondu.*
*Bu inledim Hak'tan geldi*
*Onun için inledim.*

*Ben bir dağın ağacıyım,*
*Ne tatlıyım, ne acıyım.*
*Ben Mevla'ya duacıyım*
*Onun için inlerim.*

*Derviş Yunus eydür ahı,*
*Gözyaşı döker günahı.*
*Hakka aşıkım vallahi*
*Onun için inlerim.* ***(Yunus Emre)***

**Dörd kitab (Dört kitap):** Dörd müqəddəs kitab: Tövrat, Zəbur, İncil və Quran. İmanın şərtlərindən biri də Allahın kitab-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

larına inanmaqdır. Mütəsəvviflərə görə sadəcə Allahın kitablarına inanmaq yetməz. Dörd müqəddəs kitabın mənasını, ruhunu da qavrayıb insanlarla ona görə davranmaq lazımdır. Dörd müqəddəs kitabın tövsiyyə etdiyi xüsuslar bunlardır:

1. Bütün insanlar Həzrət Adəmin nəvələri olduqları üçün qardaşdırlar.

2. Bütün insanlar onları yaradan Allahın sevgisi ətrafında birləşməlidirlər. Allah eşqi ilə birləşən insanlar bir-birinə pislik etməyi düşünməzlər.

3. Müsəlmanlar, xristianlar və musəvilər əhli-kitab adlanırlar. Çünki onlara Allah tərəfindən kitab göndərilmişdir.

Təsəvvüfi xalq şeirində bu düşüncələr belə dilə gətirilir:

*Dörd kitabın manasını okudum hasil ettim,*
*Aşka gelince gördüm bir uzun hece imiş.* ***(Yunus Emre)***

*Dörd kitabın manası bellidir bir elifde,*
*Sən əlifi bilmezsin bu nice okumaktır?* ***(Yunus Emre)***

*Batil dava kılmam birdir bazarım,*
*Onun üçün böyle sermest gezerim.*
*Üç harfdan dört kitapı yazarım.*
*Okudum defteri divana geldim.* ***(Hekimanlı Esiri)***

*Gerçi hata ile isyanım çoktur,*
*Kalbimde menliyin eseri yoktur.*
*İncil, Tevrat, Zəbur dört kitap haktır,*
*Ledün ayetini Kurandan aldım.* ***(Aşıq Seyrani)***

**Dörd qapı (Dört kapı):** Şəriət, təriqət, mərifət, həqiqət pillələrinin keçirilməsində olan dörd mərhələdir, yəni insanı Allaha yaxınlaşdıran bir sonsuz yüksəlişdir. İnsan bu sonsuz yüksəlişə çatmağı məqsəd etməyincə o, həqiqi insan, həqiqi ərən ola bilməz. Qısası, dörd qapı məcazi olaraq insanın ruhi kamilləşməsinin mərhələsidir. Biri o birini tamamlayan dörd mərhələnin birincisi, şəriət mərhələsidir. Bu mərhələdə insan iman etməli, elm öyrənməli, ibadət etməli, haramdan qaçmalı,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ailəsinə faydalı olmalı, insanlara zərər verməməli, Peyğəmbərin əmrlərinə əməl etməli, şəfqətli olmalı, təmizliyə diqqət etməli və pis işlərdən qaçmalıdır.

İkincisi, təriqət mərhələsidir. Bu mərhələdə insan tövbə etməli, mürşidin istədiyinə uymalı, təmiz geyinməli, yaxşılıq yolunda mücadilə etməli, xidmətkar olmalı, haqsızlıq etməkdən qorxmalı, ümidsizliyə düşməməli, ibrət almalı, əliaçıq olmalı, özünü fağır görməli.

Üçüncü, mərifət mərhələsidir. Bu mərhələdə ədəbli olmalı, eqoistlik, kin, qərəzdən uzaq olmalı, səbirli, qənaətcil, həyalı, comərd, elmli, xoşniyyət, özünü dərk edən, arif olmalı.

Dördüncü, həqiqət mərhələsidir. Bu mərhələdə insan təvazökar olmalı, insanlarda eyib axtarmamalı, Allahın yaratdıqlarını sevməli, bütün insanları bir görməli, bacardığı yaxşılığı insanlardan əsirgəməməli, həqiqəti gizlətməməli, mənanı bilməli, Allahın varlığına yetişməyə can atmalıdır.

Dörd qapı mərhələləri təsəvvüfi xalq ədəbiyyatında belə dilə gətirilir:

*İlk kapı şariattır, emri nehyi bildirir*
*Yıka günahlarını her bir Kuran hecesi.*
*İkincisi tarikat, kulluğa bel bağlaya,*
*Yola doğru varanı yarlıqoya hocası.*

*Üçüncüsü marifət, canın gözünü açar,*
*Bu mana sarayının arşa gedər yücəsi.*
*Dördüncüsü həqiqət, erən her şeyi bula*
*Bayram ola gündüzü, kadir ola gecəsi.* ***(Yunus Emre)***

*Dervişin yanında dört ulu kapı gerek,*
*Kancarı bakar isə gündüz ola gecesi.* ***(Yunus Emre)***

*Dört kapıyı tanımazsa bir kişi,*
*Çülha dokur artıq eger bezini.*
*Namert olur feyli şeytandır işi,*
*Dü cihanda qara eyler yüzünü.* ***(Hekimanlı Esiri)***

*Kış kaydını görmemişsin,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Gönce gülü dermemişsin,*
*Dört kapıya ermemişsin*
*Gelmiş burda söz edersin* ***(Pir Mehmet)***

*Şeiriat ilə tarikat anla ya.*
*Hakikat piri ne derse anlaya.*
*Her kimde kim, ola bu üç haysiyet,*
*Şeiriet ü tarikat ü hakikat,*
*Marifet anda biter kan oldurur,*
*Marifet cevher ü maden oldurur* ***(Kayqusuz Abdal)***

*Keçmək gərək dörd qapıdan,*
*Halı gərək yol əhlinin.*
*Mürəbbidən, musahibdən,*
*Əli gərək yol əhlinin* ***(Şah İsmayıl Xətai)***

Aşıq Qurbani (XVI əsr) təsəvvüf mərhələlərini aşağıdakı iki dördlükdə belə ifadə edir:

*İxlas kəmərini qurşadılar belimə,*
*Mərifətdən bir yol düşdü əlimə.*
*Həqiqətdən su bağlandı gölümə,*
*Düşübdü əlimə doğru rah mənim.*

*Təriqətdən bir yol düşdü əlimə,*
*Mərifət kəmərin çəkdim belimə.*
*Nagahani su bağlandı gölümə*
*Ədəb aldım xub ərkana yetişdim.*

Bu iki dördlükdə anlaşılır ki, Qurbani ilk mərhələ olan şəriətin əmr etdiyini ixlasda yerinə yetirdikdən sonra, təriqətə müraciət etmişdir. Bu vasitə ilə «mərifətullah»ı, yəni «Allah elmin»i əldə etmək mərhələsinə çatmış, nəhayət, son mərhələ olan «həqiqət»ə yetişmişdir. Bu məsafələri necə getdiyini də qoşmanın son bəndində belə ifadə edir:

*Qurbani der, budur söz müxtəsəri,*
*Şah əlindən içdim abi kövsəri.*
*Övliyalar, ənbiyalar sərvəri*
*Pirim olan Şah Mərdana yetişdim.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aşıq Alı isə dörd mərhələnin üçünü belə izah edir:

*Mənəm deyən başa varmaz, mənəm demə gerdə dur,*
*Əl ki gördün qan içində çək ətəyin gerdə dur.*
*Həqiqət, mərifət haqdır, təriqətdə yerdə dur*
*Kəc baxma ustad yoluna, pirinən işin nədir.* ***(Aşıq Alı)***

**Dördlük (Dörtlük, dörtleme):** Xalq poeziyasında bəndləri dörd misralı şeirlərin hər bir bölümü dördlük adlanır.

Milli vəznli əsl Azərbaycan və türk şeiri dörd misralı bənddir. Digər türk xalqlarının da şeirlərində dördlük işlək bir bənddir.

Qoşma, gəraylı kimi şeir janrları dördlüklərlə yazılır. Belə dördlüklər 8,11 hecalı olur. Azərbaycan xalq şeirlərindən nümunələr:

*Uca boylu, şirin dilli bəxtəvər,*
*Qalırsan qaydıma qal gülə-gülə.*
*Gecə-gündüz mən çəkirəm ahu-zar,*
*Alırsan canımı al gülə-gülə.* ***(Aşıq Abdulla)***

*Ulğun cuşa gəlsə, köpük yağ olmaz,*
*Söyüd bar gətirsə, bağça bar olmaz.*
*Zibil təpə olsa, küllük dağ olmaz,*
*Yel əsəndə alçaqlara endirər .* ***(Abbas Tufarqanlı)***

Türk xalq poeziyasından örnək:

*Mal sahibi, mülk sahibi,*
*Hanı bunun ilk sahibi?*
*Mal da yalan, mülk de yalan,*
*Var, bir az da sen oyalan* ***(Yunus Emre)***

*Geri gelmez keçen günler,*
*Çürür torpaq olur tenler.*
*Yarı benden ayıranlar*
*Kar-buz kimi donar mola?* ***(Aşık Seyrani)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Can bülbülüm cida düştüm gülümden,*
*Zalımdan bezmedik dağlar mı kaldı?*
*Ahu gözlü yarım senin elinden,*
*Şikayət etmedik beyler mi kaldı?* **(Aşıq Halil)**

Qoşma, səmai, varsağı daha çox dördlükdən ibarət olsa da türk terminoloji lüğətində buna «dördləmə» də deyilir. Dördləmələr də qoşma kimi qafiyələnir və son bənddə aşığın adı deyilir.

*İki kulağım var, hiç biri duymaz,*
*Erenler izini izler ağlarım.*
*Yüküm ağır, yolum menzile uzak,*
*Deve kibi ben de dizler ağlarım.*

*Ulu bezirganlar metini satar,*
*Üzümünü yeyip, çöpünü atar.*
*Kötü olan sözü soysuzlar tutar,*
*Efendimden izin gözler ağlarım.*

*Aşkın mızrağını engine saldım,*
*Diyari-qürbetde ben karip qaldım.*
*Unutdum kendimi deryaya daldım,*
*Kimseler halımdan bilmez ağlarım.*

*Devletim hökmüme çıkarmış ferman,*
*Eceli peşime taktı her zaman.*
*Bir seher vaktında yol aldı karvan,*
*Gülmeyen bahtımla gezer ağlarım.*

*Bir münasib tacım yokdur giyecek,*
*Bir halal ekmeyim yoktur yiyecek.*
*Bir tabib bulmadım derdim deyecek,*
*Derdi derinumda gizlər ağlarım.*

*Doğması farz, amma ölmesi sünnet,*
*Seyrani ecele eylemez minnet.*
*Kimi huri ister, kimisi cennet,*
*Ben hakkın rızasın gözler ağlarım.*

*Seyranının yara dönmez yolları,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Başına zindandır Halep çölləri.*
*Sert esiyor bana seher yelleri*
*Talehim yüzümə gülmez ağlarım.*

*Aşkın sermayesi kara dağıtdı,*
*Bazan düşündürdü, bazan ağlatdı.*
*Kader Seyraniyi Halebe attı,*
*Çıkmayan bir candan bezer ağlarım.* ***(Aşık Seyrani)***

**Dörd ünsür (Dört unsur, Anasır):** Dörd ünsür – od, hava, su və torpaqdır.

Qədim türklərdə bu dörd ünsür on iki bölümü (ayı) əmələ gətirirdi ki bu da bir təqvim idi. «Kudatqu Bilik»də dörd ünsürün bir il olması ifadə edilir və dörd ünsür belə sıralanır:

*Üçü atəş, üçü su, üçü oldu yel,*
*Üçü oldu torpaq, dünya oldu il.*

Azərbaycan folklorunda dörd ünsür belə ifadə edilir:

*Üçü bizə yağıdır,*
*Üçü cənnət bağıdır.*
*Üçü yığıb gətirir,*
*Üçü vurub dağıdır.*

Azərbaycanda Novruzun başlanmasına dörd həftə qalandan bu bayrama hazırlaşılır. Bunun səbəbi də insana və torpağa həyat verən dörd ünsürlə və hər ünsür də bir çərşənbə ilə əlaqədar olmuşdur.

1. Su çərşənbəsi;
2. Od çərşənbəsi;
3. Yel çərşənbəsi;
4. Torpaq çərşənbəsi.

Dörd ünsür Azərbaycan aşıq ədəbiyyatında belə dilə gətirilir:

*Abi-atəş, xak-baddan cəm oldum,*
*Adəm dəryasından sorağa gəldim.*
*Şərin biətindən, dinin şərtindən*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ana vücudunda yarpağa gəldim.*
***(Xaltanlı Tağı, XIX əsr)***

Təkkə ədəbiyyatında dörd ünsürə anasır da deyilir. Anasır – ünsür kəlməsinin cəmidir. Dörd ünsür olan od, su, hava və torpaqdan maddi aləm yaranmışdır. Odur ki, türk divan və xalq şeirində dörd ünsür çox zaman «anasır» şəklində ifadə edilir:

*Bu anasır dörd güruhdur,*
*Dördündən biridir insan.*
*Bu sirri duyan arifdir,*
*Hep deyil yarıdır insan.*

*Kimse vardır yola getməz,*
*Öyüd versen, öyüd almaz.*
*İqrarsızda iman olmaz*
*Nitqinin eridir insan.*

*Mevlam adın kendi qoydu,*
*Adına adamsın dedi.*
*Ademi melekler yudu,*
*Paktır, hem arıdır insan.*

*Caferoğlu, yoldan azma,*
*Sakın yanlış fikir düzme.*
*Rabbini yabanda sezme,*
*Mevlanın sırrıdır insan.*
***(Caferoğlu)***

Aşıq Paşanın şeirində dörd ünsür belə mənalandırılır:

*Alemin aslı bu dört servetdürür,*
*Alemi servet tutan bunlardurur.*

*Bunlarınla bu cahan tutdu sebat,*
*Bunlarınla dünyada bitdi nebat.*

*Bünyede nene vücuda gelmeye,*
*Kim bulardan anda mövcut olmaya.*

*Çün içinde duttu dört makam*
*Anın ile bu beden oldu temam*

*Dörd kavil duttu dahi geldi dürüst,*
*Dörd asıldan bu beden oldu dürüst.*

*Anların kim canını Allah alır,*
*Öyle bir katre geru derya olur*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Dua, alqış (Dua, alkış):** Folklorun bir janrı. Dua əsli ərəbcə "çağırma, Allaha yalvarma" deməkdir. Dua insanın Allaha müraciəti, səslənməsi, ondan kömək istəməsi, yaxşılıq və mərhəmət diləməsidir. Bu səslənmələr sıxıntı və ehtiyaclar qarşısında insanoğlunun dilindən çıxan sözlərdir. Bu sözlərlə insanoğlu səmimi-qəlbdən Allaha üz tutur, həm qəlbi, həm də dili ilə öz istəklərini bildirir. Azərbaycan və türk folklorunda islamiyyətdən əvvəl də qəlibləşmiş dua örnəkləri vardır. Bir qisim dualar isə islamiyyətdən sonrakı dövrlərdə yaranmışdır. Dua örnəklərinin əksəriyyəti həm Azərbaycan, həm də türk folklorunda eyni mənadadır. «Dar günün olmasın», «Başın-dişin ağrımasın», «Allah əldən-ayaqdan salmasın», «Atana, anana rəhmət», «Əlin-ayağın dərd görməsin» və s.

"Qurani Kərim"də dua ilə əlaqədar "Rəbbiniz buyurmuşdur ki, Mənə dua edin. Mən də sizin dualarınızı qəbul edim" – deyə buyrulmuşdur.(Gafur surəsi 40\60)

**Durak (bax: Nəfəs):** Təkkə şeirlərində bir ilahi növü. Əsasən Xəlvəti təkkələrində oxunan ilahilərə deyilir. İki zikirin iki fəsli arasında bir və ya iki dərviş tərəfindən oxunur.

Belə ilahilərdə "Haqq, Dost, Hu" kimi nidalar söylənir.

*Bütün evren semah döner,*
*Hu, hu Hacı Bektaş dost.*
*Gökyüzünde delil yanar*
*Hu, hu Hacı Bektaş dost.*

*Biz acıyı bal ederiz,*
*Hakkımızı helal ederiz.*
*Bize Bektaşi can derler,*
*Gedersek Hakka gederiz*
*dost.*

*Gökyüzünde uçun durna,*
*Feryadı şahlar şahına.*
*Ham olan hoşlarız biz,*
*Hak diyerek başlarız biz.*

*Mahsuni ünümiz bizim,*
*Bulunmaz kinimiz bizim.*
*Cahil bize dinsiz demiş,*
*Sevgidir dinimiz bizim.*

***(Mahsuni Şeirif)***

**Duvaqqapma (Dua) (bax: Ustadnamə):** Bu termin:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1. Azərbaycan folklorunda adət-ənənələrlə bağlı şəkildə işlədilir. Toy gününün üçüncü günü gəlinin namus timsalı olan «duvaqqapma» məclisi olur. Bu məclisdə ailəyə yaxın adamlar iştirak edir və gəlinin duvağını görüb onun pak və namuslu olduğuna şahid olurlar.

2. Aşıq dastanlarına məxsus olan termin. Aşıqlar dastanı söyləyib bitirdikdən sonra tərbiyəvi xarakter daşıyan son sözü şeirlə bitirirlər ki, bu şeirlərə aşıqlar «duvaqqapma» deyirlər. Məsələn; «Vaqifin dastanı» adlanan dastan belə bitir:

«Vəli xan daha bir söz demədi, bacısı Şeyda xanımı kecavəyə oturtdu, cehizini də vurdu karvana, Vaqiflə Qarabağa yola saldı. Gündə bir mənzil gedib, Qarabağa çatdılar. İbrahim xan Vaqifdən çox razı oldu. Rəhim xanla Vaqifin toyu bir gündə oldu. Qırx gün, qırx gecə toy elədilər. Toyu aşıq bu duvaqqapma ilə bitirdi:

*Yasəmən zülflərini*
*Töküb gərdana dolanır.*
*Ağ biləkdə bilərziyi,*
*Qulaqda tana dolanır.*
*Pərişan tellərində*
*Şirmayı şana dolanır.*
*Bəxtəvər gümüş kəmər*
*Dönür hər yana, dolanır.*
*Gizləmir mah camalın*
*Mərdi-mərdanə dolanır.*
*Adına layiqdimi*
*Bu qədər üsyan gözələ.*

***(Azərbaycan xalq dastanları, s.194)***

Prof. Fikrət Türkmən Anadoluda dastan söyləyən aşıqların dastanı «döşəmə», «hekayənin mətni», «dua» bölmələrində söylədiklərini yazır. Diqqət edilsə bu üsul Azərbaycan aşıqlarının dastanı «ustadnamə» ilə başlayıb «duvaqqapma» ilə bitirməsinə bənzəyir. Türk aşıq dastanlarındakı «dua» deyilən son bölüm, Azərbaycan aşıq dastanlarının sonunda aşıqların söylədikləri «duvaqqapma»dır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Düvaz:** Təkkə şeirinin bir növü olub Ələvi–Bektaşi məclislərində on iki imam üçün söylənən şeirlərdir. Bu şeirlərdə Məhəmməd Peyğəmbərdən sonra on iki imamın adları çəkilməlidir. İlk imamdan sonuncu imama qədər 350 illik bir dövr ərzində baş verən hadisələr bu şeirlərdə qısa və nəzərə çarpacaq ifadələrlə dilə gətirilir. Düvaz adlanan şeirləri başa düşmək üçün on iki imamın (İmam Əli, İmam Həsən, İmam Hüseyn, İmam Əli Zeynal Abidin, İmam Məhəmməd Bağır, İmam Cəfər Sadıq, İmam Musayi Kazım, İmam Əli Rza, İmam Məhəmməd Təqi, İmam Əli Ənnəqi, İmam Həsən Əl Əsgəri, İmam Məhəmməd Mehdi) həyatlarını, şəxsiyyətlərini, başlarına gələn hadisələri bilmək gərəkdir.

Bektaşi aşıqlarından bir örnək:

*Muhəmmed Mustafa, Murtaza Ali'nin*
*Dostuna dost, düşmenine düşmenim.*
*Pirim Hünkar Hacı Bektaş Velinin,*
*Dostuna dost, düşmaina düşmanım.*

*Eşiyinde Hacı oldum Kabenin*
*Gönlümüzde ziya mahi-tabanın.*
*Şah Hasan, Hüseyn, Zeynal abidin*
*Dostuna dost, düşmanına düşmanım.*

*Bu seri meydanda gerek fakirin,*
*Her dem Şahi Merdan ola zikirin.*
*İnanın qazilər, İmam Baqirin,*
*Dostuna dost, düşməninə düşmanım.*

*Kılıcın kuşadım bir gerçek erin,*
*Qayretin çekmezem erkansız kemin.*
*İmamlar civanı imam Caferin,*
*Dostuna dost, düşmanına düşmanım.*

*Lanet canına yoldan azanın,*
*Müminler yoluna kuyu qazanın.*
*Şah Musai Kazım, Əli Rızanın*
*Dostuna dost, düşmanına düşmanım.*
*Bendesinin bendesiyim Əlinin,*
*Aşıkıyam onların didarının.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Şah Tağı ba Nakı, Əli Esgerin,*
*Dostuna dost, düşmanına düşmanım.*

*Ali der, qayretini çekerem dinin,*
*Kuranda okunan azim mübinin.*
*Bu seri yoluna koydum Mehdinin*
*Dostuna dost, düşmanına düşmanım.* ***(Aşık Alı)***

**Düzgü:** 1.Azərbaycan uşaq folklorunda uşaq oyunlarında söylənən oyun təkərləmələri.

2. Nağılların başlanğıcında söylənən pişrovlara (təkərləmələrə) də düzgü deyilir.

Örnək:

*Həsənağa*
*Mindi ulağa,*
*Sürdü bağa.*
*Bir quş vurdu,*
*O da qurbağa.*
*Verdi qonağa,*
*Qonaq yemədi.*
*Saldı yağa,*
*Özü yedi.*
*Bizə vermədi.*
*Yedi qurbağa,*
*Düşdü yatağa.*

(Azərbaycan klassik ədəbiyyatı kitabxanası. I cild. Bakı, 1982, s. 479)

**Elm (İlim):** Ərəb mənşəli bir kəlmə olub, bilmək, mərifət, irfan deməkdir. Özünü bilmək. Sufilərə görə elm ikidir. Birincisi təhsillə və təlqinlə əldə edilən elm. Buna kəsbi elm deyilir. İkincisi isə vəhbi elmdir. Allah bunu bəndəsinin qəlbinə salar. Buna mərifət elmi lədün də deyilir. Kəsbi elm ağılla qazanılan üsulun məhsuludur. Burda halal, haram, yaxşılığı əmr, pisliyi nəhy etmək kimi xüsuslar əsas alınır.

Seyid Yahya Bakuvi "Əsrar ət talibin" əsərində elmləri dörd sinfə ayıraraq aşağıdakı şəkildə təsnif etmişdir:

1. Şəriətin zahirdəki əmri, yasağı və digər hökmlər.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

2. O ehkamın iç hökmləri ki, buna batin elmi və təriqət elmi ismini verirəm.

3. Batinin bizzat özü. Buna Mərifət elmi adı verirəm.

4. Batindən daha batin. Buna da Həqiqət elmi adı verirəm.

Bu elmləri Hz. Məhəmməd bir hədisində belə ifadə etmişdir: “Şəriət bir ağacdır, təriqət onun budaqları, mərifət yarpaqları, həqiqət isə meyvələridir”.

*İlim ilim demekdir,*
*İlim Hakkı bilmekdir.*
*Sen kendini bilmezsin,*
*Ya nice okumakdır.**(Yunus Emre)***

*Elm kəsbilə rütbyi-rifət*
*Arzuyi-muhal imiş ancaq*
*Eşq imiş hər nə var aləmdə*
*Elm bir qiylü qal imiş ancaq.**(Füzuli**)*

*Dörd şey vardır bir qarındaşa lazım,*
*Bir elim, bir kəlam, bir nəfəs, bir saz.**(Xətai)***

**Epos (Epope):** Eposun folklor terminologiyasında qarşılığı dastandır. «Epos» beynəlxalq termindir. «Epos» yunan sözü olub «hekayə edirik» deməkdir və «hekayə» mənasına gəlir. Folklor terminologiyalarında qəhrəmanlıq sərgüzəştilərini anladan bir çox mənzum dastanlar da «epos» deyə yazılmaqdadır. Türk folklor terminologiyasında «Epos»un qarşılığı «Epope»dir. Azərbaycan folklorunda qəhrəmanlıq dastanlarına çox zaman «epos» da deyilir. Məsələn: «Dədə Qorqud» eposu, «Koroğlu» eposu, «Oğuz Xaqan» eposu. Özbək, Qazax, Qırqız türklərində də eyni ifadədən istifadə edilir. Məsələn: «Alpamış» eposu, «Manas» eposu kimi.

Bir çox millətlərin də müəllifi məlum olmayan və anonim əsər sayılan eposları vardır. Məsələn: «Nibelungen» (alman), «Kalevela» (hind), «Chansons de Roland» (fransız), «Şahnamə» (fars), «İqor» (rus), «Gilqamış» şumer (sumer) və s.

Epope və ya qəhrəmanlıq dastanları millətlərin tarix içindəki macəralarından bəhs edir. Bu qəhrəmanlıq dastanlarının məqsədi din, vətən, qəhrəmanlıq duyğularından simvolik bir



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şəkildə bəhs edib, tarixə dərs verməkdir. Bu məqsədlə də xalq arasında yaşayan, heç bir zaman ölməyən, hər zaman bacarıqlı olan əfsanəvi bir qəhrəman əldə bayraq edilir.

**Eşq (Aşk):** Eşq təsəvvüf və təkkə ədəbiyyatında Allah sevgisini ifadə edən bir kəlmədir. Təmiz sevgi, Allah sevgisi. Təsəvvüfdəki mənası həqiqi sevgili Allaha olan həqiqi eşqdir.

«Eşq» kəlməsi çox zaman sadəcə iki insan arasındakı sevgi, yəni məcazi eşq mənasında başa düşülür. Halbuki bu kəlmə ilə əsl anladılmaq istənilən həqiqi eşqdir, yəni insanı ucaldan bir mənbə olan Allah eşqidir.

Təsəvvüfə görə eşq məcazi (keçici) və həqiqi (əbədi, ilahi) olmaqla ikidir. Həqiqi, yəni əbədi eşq Allah eşqini, Allaha insan sevgisini əks etdirən eşqdir.

Məcazi eşq isə iki insan arasındakı eşq olmaqla bərabər bu dünyadakı gözəllərə, gözəlliklərə, dostlara, Allahın yaratdığı bütün varlıqlara duyulan eşqdir, məhəbbətdir. Çünki insan bu sevgi ilə yenə də Tanrını, onun təzahür etdiyi varlıqları sevmiş olur. Məcazi, yəni keçici eşq əbədi eşqə bir hazırlıqdır. Yaradılanın Yaradandan ötrü sevilməsi gərəkliyini ifadə edir.

Azərbaycanda və Türkiyədə aşıq ədəbiyyatında məcazi eşqi ifadə edən Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Qaracaoğlan, Aşıq Gövhəri, Aşıq Ömər, Xəstə Qasım, Aşıq Əmrah, Aşıq Ələsgər, Aşıq Veysəl kimi bir çox aşıq-şairlərin şeirlərində məcazi eşq bütün incəlik və lətafəti ilə ifadə olunmuşdur.

*Be hey ala gözlü canan,*
*Kul olmağa geldim sana.*
*Gönül tahdında sultanım,*
*Kul olmağa geldim sana.* ***(Kul Mehmet)***

Yazılı ədəbiyyatda Nizami Gəncəvi «Mehrabı eşqdir uca göylərin» deyərkən məcazi eşqi deyil, ilahi eşqi nəzərdə tutur, bütün kainatın Allah eşqi ilə döndüyünü ifadə edir.

Türk təsəvvüfi xalq ədəbiyyatının Yunus Əmrə, Aşıq Paşa, Əşrəfoğlu, Pir Sultan Abdal, Kayqusuz Abdal, Aşıq Seyrani, Qul Himmət kimi görkəmli nümayəndələrinin əsərlərində ilahi



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

eşq anlayışı həyəcan və təsəvvüfi vəchlə söylənilmişdir. Yunus Əmrə «Aşk gəlincək cümlə əksiklər bitər» deyir.

Füzuli ilahi eşqin elmdən yüksək olduğunu və ən böyük həqiqətin eşq olduğunu belə ifadə edir:

*Eşq imiş hər nə var aləmdə*
*Elm bir qeylü-qal imiş ancaq.*

Yunus Əmrə Allahı sevən insanların Allah sevgisindən üstün eşq tanımadığını belə dilə gətirmişdir:

*Dört kitabı okuyan bulmadı aşka çare,*
*Ne beylər, ne sultanlar, ne müderris, ne kadı?*

və ya

*Dörd kitabın manasını okudum hasil etdim,*
*Aşka gelince gördüm bir uzun hece imiş.*

Aşıq Paşa isə:

*Aşk ilə başım hoşdürür,*
*Kanda varsam yoldaşdürür.*
*İl on iki ay sarhoşdürür,*
*Aşkdan içmişdir canımız* – şəklində Allah eşqinin əbədi olduğunu ifadə etmişdir.

Həqiqi eşq–Allah eşqi aşıqların dilində belə dilə gətirilmişdir:

*Atəşliyəm səni yandırar adım,*
*Eşq əhlində atəş az ola bilməz.* ***(Aşıq Alı)***
*Eşqin odu cigerimi,*
*Yaka geldi, yaka gider.*
*Qarip başım bu sevdayı,*
*Çeke geldi, çeke gider.*

*Fırqət kar etti canıma,*
*Gelsin aşıklar yanıma.*
*Aşq zencirin dost boynuna*
*Taka geldi, taka gider*
*Bülbül eder zar u – efqan*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Eşq oduna yandı bu can*
*Benim gönülcüyüm haman,*
*Haktan geldi, Hakka gider.*
*Ariflər durur sözüne*
*Qayri görünmez gözüne*
*Eşrefoğlu yar yüzüne,*
*Baka geldi, baka gider.* ***(Eşrefoğlu)***

**Eşq badəsi (Aşk badesi): X**alq ədəbiyyatında bir motiv. Bir çox aşığın röyada içdiyi mənəvi içki. Bu içkiyə eşq badəsi deyilir. Röya görən aşıqlar yuxuda sevdiyini görməklə bərabər Allah eşqinə çatmaq üçün lazım olan bilik, ərkan və aşıq olmanın üsullarını da badə içməklə əldə edirlər. Aşıqların bir çoxu yuxuda badə içdikdən sonra saz çalmağa və şeir deməyə başlamışlar.

Aşıq ədəbiyyatında badə içmək bir ənənə halını almışdır. Aşıqların çoxu ya ustad yanında dərs almaqla və ya badə içməklə aşıqlığa başlamışlar. Eşq badəsi bir pir tərəfindən içirilir. Belə aşıqlara Haqq aşığı demişlər. Haqq aşığı olan aşıqlar badə içməklə təsəvvüfi sirləri əldə etmək hadisəsinə inanmışlar.

Azərbaycan məhəbbət dastanlarındakı aşıqların bir çoxu yuxuda eşq badəsi içən aşıqlardır.

Haqq aşığı olan aşıqlar badə içmə hadisəsini qəbul edirlər. Türk aşıq ədəbiyyatında «Badə içmə» hadisəsi ilə bağlı prof. Umay Günayın həyatda olan aşıqlarla apardığı bir çox müsahibələr də bu fikri təsdiqləyir. Bunlardan bir neçəsi:

Aşıq Qara: «Badə içmə ənənəsinə inanıram. Hər axan suyun bir mənbəyi vardır. Sizin loğman həkiminiz, bizim də pirimiz vardır».

Aşıq Şərəf Taşlova: «İnanıram. Göründüyü şəkildə olmasa da xəyali röya və ilhama bağlı olaraq badə adı altında əldən və könüldən badə içilir».

Aşıq İsmayıl Önər: «Badə gerçək. Yüz qoyunda bir qoç olduğu kimi min kişidə də bir təsadüf əsəri olur».

Aşıq Murad Çobanoğlu: «Badəyə inanıram. Səbəbi eşqin badəsidir. İlhamlı aşığa röyasında pirlər eşq badəsi içirir».



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aşıq Rüstəm Alyansoğlu: «Aşıqlarda badə içmə ənənəsinə mən bir aşıq kimi inanmıram. Aşıqlıqda sadəcə ilham vardır, badə deyə bir şey yoxdur».

Aşıq İlham Dəmir: «Badəyə inanıram, fəqət bu əsrdə olmaz. Səbəbi isə millətin küfür və pis işlər gördüyü dövrdür».(127, 94-95)

**Eydirmə:** Azərbaycan Folklorunda heyvandarlıqla bağlı söylənən mənzum şeirlər. Sağıcı sağıma başladıqda inəyin südünü tam verməsi üçün həzin səslə sayaçı bayatılar oxuyur. Həmin şeir parçasına «eydirmə» deyilir. Qədimdən bu günə qədər heyvandarlıqla məşğul olan insanlar inəklərə «qaragöz», «maral», «ceyran», «gəlin», «sənəm», «mərcan» kimi isimlər verirlər. «Eydirmə» şeirlərdə inəklərə verilən adlar da şeirə daxil edilir və şeir inəyi sağan insan tərəfindən şirin bir tələffüzlə ifadə edilir:

*Naxırın gözü Maral!*
*Dilimin sözü Maral!*
*Çöldə gəlin yerişli,*
*Qapıda quzu Maral!*

Sağıcı inəyin südünün eydirməsi üçün yenə şeir söyləyərək sanki inəklə danışmağa başlayır:

*Anam, a gəlin inək,*
*Sonam, a gəlin inək.*
*Mənim qaragöz anam,*
*O gözlərə qurbanam.*
*Balam, a gəlin inək,*
*Sonam, a gəlin inək.*

Bəzən də inəyi sağan adam inəyə özünü də nişan verir və ona öz sahibi olduğunu şeirlə ifadə edir.

*Nənəm, nənəm,*
*Səni sağan*
*Mənəm, mənəm.*
*Gül muncuğum*
*Boynundadır*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Quyruğunu*
*Farağat qoy.*
*Ayağını*
*Farağat qoy.*
*Buynuzunda*
*Üzərliyim,*
*Ev-eşiyim,*
*Bəzərriyim.*
*Mənəm, mənəm.*
*Səni sağan*
*Mənəm, mənəm.*

Azərbaycan folklorunda belə eydirmələrin sayı çoxdur və bu şeir parçaları etnoqrafik mahiyyətdə olur.

**Ədəb (Adab, Edeb):** Ədəb kəlməsi tərbiyələr, nəzakət qanunları, davam etdirilməsi gərək olan əsaslar mənasına gəlir.

Sufilərin rəayət etməyə məcbur olduqları qanunlara "ədəbi-şəriət", "ədəbi-sufiyyə", "ədəbi-mərifət", "ədəbi-həqiqət", "Ədəbi-təriqət", "ədəb və ərkan" kimi adlar verilir.

"Gözəllik geyilən paltarın insana qazandırdığı gözəllik deyildir. Həqiqi gözəllik elm və ədəb gözəlliyidir. (Həzrət Əli)

"İnsanoğlunun ədəbdən nəsibi yoxdursa o, insan deyildir. İnsanoğlu ilə heyvan arasındakı fərq budur. Gözünü aç və Allahın bütün kəlamının mənasının ədəbdən ibarət olduğunu gör". (Şəmsi Təbrizi)

*Ədəbdir kişinin daim libası,*
*Ədəbsiz kişi üryana bənzər.*
*Ədəbilədir nizamı aləm,*
*Ədəbilədir kəmali adəm.*

**Əfsanə (Efsane):** Folklorun bir janrı. Farsca «fəsanə» sözündəndir. Yunanların «mif», ərəblərin «Usturə» (cəmi «əsatir») bir çox qərb dillərində «leqenda» termininin qarşılığı əfsanədir.

Əfsanənin anlamı:

1. Əsli olmayan nağıl, hekayə.
2. Dillərdə dolaşan vaqiə.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əfsanələr şifahi ədəbiyyatın bir növü olaraq bir təbiət hadisəsini, bir varlığın meydana gəlişini, tarixi şəxsiyyətləri, ilk kəşflərdən birini və s. fövqəladə şəkildə izah edən hekayələrdir.

Əfsanələr tarixdəki fövqəladə varlıq və güclərlə bağlı olan hadisələrdən yarana bilir.

Əfsanələr insanların inanclarını, adət-ənənələrini, tarixi hadisələri, milli dəyərlərini fövqəladə şəkildə anlatsalar da, milli mədəniyyətin inkişafında önəmli rol oynayırlar.

Azərbaycan və Türkiyə türklərinin tarixi hadisə və abidələrlə, bitki və heyvanlarla, din və inanclarla, şəhər və ölkələrlə, qala və dağlarla, tarixi şəxsiyyətlərlə, məhəbbətlə bağlı saysız-hesabsız əfsanələri mövcuddur. Azərbaycan əfsanələrindən örnək:

«Cavab» əfsanəsi.

Teymurləng qabaqda, düzü-dünyanı tutmuş qoşunu da dalda Azərbaycana çatanda atını saxladı. Kəndə çapar göndərdi ki, qızlar, gəlinlər, analar qiymətli şeylərini, öz zər-zibalarını götürüb kənddən qırağa çıxsınlar. Bizim işimiz kişilərlədir, biz təkcə kişilərlə vuruşmağa gəlmişik. Hünərləri, qeyrətləri varsa, qabağımızda duruş gətirsinlər. Qızların, gəlinlərin, anaların salamatlığı üçün bir gecə vaxt veririk.

Qoşun çöldə gecələdi. Sübhün gözü açılanda hamısı atlandı, kəndə yeridi.

Teymurləng mat qaldı; kənd bomboş idi, ins-cins qalmamışdı, burada insan nəfəsi duyulmurdu, kənd qəbirstanlığa oxşayırdı.

Kəndi ev-ev gəzdilər, bir qoca tapdılar. Beli doğanağa dönmüşdü. Gözləri görmürdü. Əlində əsa vardı. Əsaya dirənə-dirənə yeriyirdi.

Qocanı Teymurləngin hüzuruna gətirdilər. O, qocadan soruşdu:

– Baba, hanı bu kəndin kişiləri?

Qoca yönünü səs gələn səmtə çevirdi:

– Hörmətli hökmdar, – dedi, – siz xəbər göndərdiniz ki, qızlar, gəlinlər, analar ən qiymətli şeylərini, zər-zibalarını götürüb kənddən aralansınlar. Onlar da sizin əmrinizə əməl etdilər.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Teymurləng qocanın sözünün canını başa düşmədi, qeyzlə xəbər aldı:

– Bəs kişilər?

Qoca aram-aram söyləməyə, bir hikməti, bir həqiqəti xırdalamağa başladı:

– Ey böyük hökmdar, dünyada qıza qardaşdan, anaya övladdan, qarıya öz ömür-gün yoldaşından qiymətli nə var ki! Bu kənddə ən qiymətsiz, ən lazımsız şey mənəm ki, qalmışam.

Teymurləng atının başını dala döndərdi.

Türk əfsanələrindən örnək: «Hasan dağı» əfsanəsi.

Biri Hasan dağında, digəri Akşehirdə yaşayan iki evliya dostluq edirmiş. Akşehirdəki evliya kürə çörəyi bişirməklə məşğul imiş. Evliya bir gün Hasan dağında yaşayan dostuna deyir ki, gələndə mənə dağdan qar gətir. Avqust ayı imiş. Hasan dağında yaşayan evliya dəsmalına qarı büküb elə gətirir ki, qar yolda ərimir. Fırına yaxınlaşarkən bir gözəl qadın görür və elə çaşır ki, qar kürənin istisindən əriyib dəsmaldan dammağa başlayır. Bu zaman Akşehirli evliya: «Hasan dağında evliyalıq etməyə nə var, gəl burada et görüm» deyir. (Türkiyənin Ürgüpdə II Uluslararası Eren və Evliyalar Konqresində Muammer Yavuzdan eşitdiyim əfsanə (Maarifə Hacıyeva).

«Gözəllik suyu» əfsanəsi.

Görənlərin heyran olduğu bir çoban qızı varmış. O, hər sabah erkən qalxıb quzu sürüsünü otarmağa gedərmiş. Onun gözəlliyi dillərə dastan olmuşdu. Bir gün padşahın qızına çoban qızını o qədər öymüşlər ki, o da bu qızın gözəlliyini görmək üçün onu saraya gətirtmişdi. Onun gözəlliyindən gözləri qamaşan padşah qızı:

– Sən nədən bu qədər gözəlsən?

Çoban qızı məsum duruşla:

– Heç, demiş, – mən quzularımı o qədər sevirəm ki, ona görə.

Halbuki, iş belə deyildi. Bu gözəlliyin sirrini heç çoban qızının özü də bilmirdi.

Padşah qızının əmri ilə çoban qızının getdiyi yer, etdiyi işlər təqib edilir. Özü də bilmədən gizlincə göz həbsinə alınır.

Demə çoban qızı quzularını otardığı yamacın ətəyindəki çalaların içinə girib, səhər-axşam orada çimərmiş.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Çox keçmədən Berqamda olan bu çalaların üstündə tikililər tikildi, bura Gülüstana çevrildi. Burada çimənlərin bədəni, dərisi gözəlləşir, suyundan içənlər gəncləşib göyçəkləşərmiş.

O zamandan bəri bu suyun adına «Gözəllik suyu» deyilmişdir. (134, 24)

**Əğyar (Ağyar):** Əsli ərəbcə bir kəlmə olub, lüğəti mənası özgə, başqası, yad, yabançı kimi mənaları ifadə edir.

Təsəvvüfdə həqiqətə yad olanlar, həqiqətə aşina olmayanlar mənasına gəlir.

*İçi ümman-ı vahdettir yüzü sahrayı-kesrettir*
*Yüzün gören görür ağyar içinde var olur peyda* ***(Niyazi)***

*Gel işte, Kaygusuz yarı, çıkar gönülden ağyarı,*
*Bu gün gör yine didarı, bu sevda özge sevdadır.* ***(Kaygusuz)***

*Biz bu mülke gelip dururuz,*
*Ölmeden ölüp dururuz,*
*Yar'la yar olup dururuz*
*Arada ağyar bilmeyiz.* ***(Muhittin Abdal)***

**Əhdi-sadiq (Ahd-i sadık):** Təsəvvüfi xalq ədəbiyyatında işlənən bir termin.

– Allah ruhları yaratdığı zaman onlara: "Mən sizin Rəbbiniz deyiləmmi?" deyə soruşar. Onlar da "bəli" deyə cavab verərlər. Bu sözləşmə təsəvvüfdə "Əhdi-sadiq" adlanır.

**Əhli–beyt (Ehl-i beyt):** Qısaca «ev xalqı, əhli» mənasına gəlməkdədir. Məhəmməd Peyğəmbərin evi, ailəsi və ocağıdır. Əli, Fatimə, Həsən, Hüseyn və Həzrət Peyğəmbər əhli-beyt hesab olunurlar.

Türk aşıq ədəbiyyatında Əhli-beyt beşlər şəklində də ifadə edilir.

«Əhli-beyt»də ifadə edilən fikir Həzrət Məhəmmədin ailəsi və soyudur. Rəvayətə görə bir gün Həzrət Məhəmməd qızı Fatimə, kürəkəni Əli və nəvələri Həsən ilə Hüseyni əbasının altına alaraq onları qorumuş, onlara şəfqət göstərmiş, əlini



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əbasının üstünə qoymuşdur. Bundan sonra özü ilə birlikdə beş nəfər olan ailə üzvləri «Əhli-beyt» adı ilə anılmışdır.

«Əhli-beyt» ələvilərdə önəmli yer tutur. Bu ifadə təkkə şairləri və aşıqları tərəfindən də dilə gətirilmişdir:

*Netti Peygamberin Ehli-beytini.*
*Arş ile kürsünün hoş bezeyini.*
*On iki imam Hasan soyunu*
*Gülü gülüstanı solan dünyadı.* ***(Aşık İlhani)***
*Şükür matlabimi getirdin ele,*
*Gül oldum feryadı verdim bülbüle.*
*Cem olduk bir yere Ehli-beyt ile,*
*Kırklar meydanında ferraş idim ben.* ***(Şiiri)***

**Əxi (Ahi):** Ərəbcə "qardaşım" deməkdir.

**Əxilik (Ahilik):** Axilik (və ya fütuvvət) igidlik və comərdliyə əsaslanaraq qurulmuşdur. Ərəbcə gənc, igid, dəliqanlı və comərd mənasında olan "Feta" kəlməsindən yaranan və adına "Futuvvət" deyilən bu təşkilatın mənsubları bir-birlərinə "qardaşım" anlamında olan "Əxi" kəliməsiylə müraciət etdikləri üçün bu kəlmədən alınaraq təşkilata mənsub olanlara "Əxilər" demişlər.

Əxilik orta əsrlərdə islam dünyasında qurulan sufi xarakterli qardaşlıq cəmiyyəti olmuşdur. Bu cəmiyyət ticarət və sənət əhli arasında geniş yayılmışdı və iqtisadi həyatı tənzimləmə məqsədi güdürdü.

XIII əsrdə Evhadiddün Kirmani tərəfindən Azərbaycanda yayılan əxilik XIII – XIV əsrlərdə geniş vüsət tapmışdı.

Anadoluda əxiliyi təsis edib yayan Azərbaycanlı Əxi Ərvan olmuşdur. O, əxiliyin prinsiplərini belə izah edirdi:

"Əxi halaldan qazanmalıdır. Təşkilat mənsublarının hamısının sənəti olmalıdır. Comərd olub, yoxsullara yardım etməlidir. Alimləri sevməli, onlara hörmət göstərməlidir. Namazlarını zamanında qılmalı qəzaya buraxmamalıdır. Xoşməramlı olub, haramdan çəkinməlidir. Bəylərin, zənginlərin qapısına getməməlidir. Əxi olan eyni zamanda cihad idealına da sahib olmalıdır. Çünki, cihad Quranda fərz qılınmışdır. Ona sual verib nəsihət istəyənlərə "Ey əxi (qardaşım)! Alış-veriş elmini



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bilməyən, haram loxmadan xilas ola bilməz. Haram loxma yeyən isə ibadətlərinin savabını tapa bilməz. Zəhmətləri həmişə boşa gedər. Sonunda böyük əzaba tutular və peşman olar" – deyirdi.

Bir əxi üç cəhətdən açıq olmalıdır:

1. Comərd olub əliaçıq olmalı, fəqət israfçı olmamalıdır;

2. Qapısı müsafirə açıq olmalı, gələn müsafirə münasibətdə qüsuru olmamalıdır;

3. Süfrəsi açıq olmalı, ac gələni tox göndərməlidir;

Üç şeyi isə bağlı olmalıdır:

1. Gözü harama və başqasının nöqsanını görməyə qapalı olmalıdır;

2. Heç kimə su-i zan etməməli;

3. Yad qadına, qıza, başqasının baxması haram olan yerlərə baxmamalıdır.

**Əqidə (Akide):** Dinin təməl hökm və prinsiplərini əsaslı şəkildə anladan qayda və düsturdur. "Əqidə" kəlməsinin cəmi "əqaid"dir, inanc anlamına gəlir. Yəni inanılan şey, iman, anlayış deməkdir. Əqidə ibadəti deyil, əməli deyil, inancı, imanı əsas götürən qayda və hökmlərdir. Qısaca əqidə Quran işığında İslam dininin islam əsaslarından sistemli bir şəkildə bəhs edən düsturlardır. İslamın inanc ifadəsi "Amentu" cümləsində toplanmışdır. Bu da Allahın birliyinə, mələklərə, kitablara, peyğəmbərlərə, axirət gününə, qədərə, xeyir və şərin Allahdan gəldiyinə inamdan ibarətdir. Bunlar İslam əqidəsinin və tevhid inancının əsasını təşkil edən təməl düsturlardır.

**Ələm (Alem):** Bayraq və sancaq deməkdir. Dövlətin simvolu olan bayraq sufi təriqətlərində də istifadə edilirdi. Əməvilərin ağ bayraqlarına qarşılıq olaraq Həzrət Əli tərəfdarlarının yaşıl bayrağı olduğu söylənilir. Bayraqların üzərində özlərinə "la ilahə illallah" kimi ibarələr yazılır. Təkkə bayraqlarının ələmlərində "Ya Abdelkadır-i Geylani", "Ya Seyyid Ahmed er-Rufai", "Ya Gavs-i Azam" kimi təriqət pirlərinin isimləri yazılır.

**Ələvi (Alevi):** Həzrət Əli tərəfdarı, Əliyə mənsub deməkdir. Həzrət Əliyə bağlılıq nöqtəsində birləşən çeşidli dini və siyasi



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qruplara mənsub olanlar haqqında deyilən bir termin. Təsəvvüf ədəbiyyatında və məzhəblər tarixində bu termin Həzrət Əlini sevmək, saymaq, ona hər xüsusda bağlı olmaq mənalarında istifadə edilir.

Ələvi inancına görə Allah-təala dünyanı yaratmadan öncə Həzrət Məhəmməd ilə Həzrət Əlinin nurlarını yaratmış və dünyanı bu nurların işığı ilə aydınlatmışdı. Tanrı şəriəti Hz.Məhəmmədə, təriqəti isə Hz.Əliyə vermişdi. Ələvi cəmlərində yandırılan şam Hz.Əlinin nurunu təmsil etdiyi üçün bu şam müqəddəsdir.

Azərbaycan aşıq ədəbiyyatında Həzrət Əli sevgisi:

*Alıyam çağırram gözəl Allahı*
*Dilimdən tərk etmə bismillahi.*
*Əliyyə – Mürtəza – şahların şahı,*
*Şahi – Mərdan açar dərdim bilirsən.***(Aşıq Alı)**

Türk aşıq ədəbiyyatında isə:

*Mürüvvetim var Haq Muhamed Aliye,*
*Daha sizden qayri kimim var benim.*
*Hızır ile Hacı Bektaş Veliye,*
*Daha sizdən qayri kimim var benim.* ***(Təslim Abdal)***

**Ələvilik (Alevilik):** Həzrəti Əliyə aid edilən mistik cərəyan «Bütün kəramətləri insanda axtarmaq» anlayışı Ələvi fəlsəfəsinin təməl düşüncəsidir. Ələvi inancına görə yer üzündəki hər şeyin ruhu vardır. Yer üzündəki bütün varlıqlar Allahın yansımasıdır. Buna görə də ələvilikdə bütün varlıqlara sevgi ilə baxmaq, sevgi ilə yanaşmaq əsasdır. Heç bir varlığı incitməmək lazımdır. Bu səbəbə görə ələvilər üçün dağlar, ağaclar, sular, günəş və atəş müqəddəs sayılır.

Tanrı insanı öz ruhundan yaratdığı üçün ehtiram göstərilməsi lazım olan varlıqların başında insan dayanır. İnsan Haqq ilə Haqq olmağa sahibdir. Ona görə də «Ənəl Həqq» deyən Həllac Mənsurun ələvi etiqadına görə önəmli yeri vardır.

Ələvi ozanlarının deyişmələrində insan belə dilə gətirilir:

*Kainatın aynasıyım,*
*Madem ki, ben bir insanım.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Hakkın varlık deryasıyım,*
*Madem ki, ben bir insanım.*

*İnsan Hakta, Hak insanda,*
*Arıyorsan bak insanda.*
*Çok marifet var insanda*
*Madem ki, ben bir insanım.* ***(Aşık Daimi)***

**Əlif-lam (Elifname):** Klassik ədəbiyyatda və aşıq ədəbiyyatında işlənən bir termin. Hərflərlə bağlı yazılan şeirlərə deyilir. Belə şeirlər sətir başlarındakı hərflərin alt-alta əlifba sırası ilə yazılması nəticəsində əmələ gəlir. Hərflərin düzülüşü müəyyən bir məna daşımalıdır. Divan ədəbiyyatında belə şeirlər məsnəvi, qəsidə, qəzəl şəklində yazılır. Aşıq şeirlərində isə qoşma, gəraylı, divani, dastan kimi şeir şəkillərində rast gəlinir.

Divan ədəbiyyatında Nəsimi, Füzuli, Aşıq Muhibbi kimi şairlərin «Əlifnamə»ləri ilə bərabər, Azərbaycan və Türk aşıq şeirinin Aşıq Ələsgər, Molla Cümə, Aşıq Hüseyn Cavan, Aşıq Paşa, Aşıq Ömər, Aşıq Şenlik, Ruhsati, Müdami kimi aşıqların yaradıcılığında rast gəlinir.

Azərbaycan aşıq şeirindən örnək:

*Əlif – Allah ilə yad etdim mən Allahü-Əkbər,*
*Bi – bədayi ləm yəzəldir fani olmaqdan bəri.*
*Te – təala Allahdır hərdəm bu könlümün əzbəri,*
*Si – sənayi haqqdır bəhri dəhanın gövhəri,*
*Cim – camalın nəşəsi xurudimahi ənvəri.*

*Ha – həmdi təsbihi la əhsa sənə,*
*Xa – xalqı cümlə aləm vəsfinə eylər səna.*
*Dal – gəhkədə yoxdur mən ey bari xuda,*
*Re – rəhimsən yarlıqa mən asiyə damən məşhəri.*

*Ze – zəbanini qərar et həmdinə zülmnən,*
*Sin – sübhandır sifatın töhməti hər eybdən,*
*Şin – şəhadət ləfzi illəllahdır könlüm sevən,*
*Sad – səddi zövq ilə təşbihi təhlilin qılan,*
*Zad – zəfi dinl olub çəkməz o hal məşhəri.*

*Ti – Tərifə məsiyət səyyahım Leylü nəhar,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Za – Zellasa siyərririm qapında şərmsar.*
*Eyn – uqbadə məgər yar alə lütfi girifdar,.*
*Gün – qaffar əz– zunub –əl– əsimin sən biqərar*
*Fal – Fəğfarl əya elsani lütfün məzhəri.*

*Qat – qıl zikri ilahi birlə sən ikna könül,*
*Kafi – külli şeytanədir ol deyil əsla könül.*
*Lami – ləbin zikri ola təsbihila əhsa könül,*
*Mimi – meydanı fənayə çıxma, ey şeyda könül*
*Nun – nirəngin eliyib şeytan qurmuş çənbəri.*

*Hi – hüveyda aləm içrə ölmədin həstu müqim,*
*Va – vəli dərmandədirlər günahın üçün ya Kərim.*
*Laməlif – la laşərikladir ol həyyı qədim*
*Yai – yəzdan fəzlidin Kazım ümidin kəsmə kim,*
*Əksi rəyi əqidir etmək xəyali əbtəri.* (115, 84)

Türk aşıq şeirindən örnək:

*Elif Allahı seversen beri bak,*
*Be benden vaz keçme boyu gözelim.*
*Te ilə se ilə seni sevirem,*
*Cim ilə cilvesi, huyu gözelim.*

*Ha ilə hi ilə hor bakma bana,*
*Dal ilə zel ilə guş eyle söze.*
*Ri ilə zel ilə gel çıkma üzə,*
*Sin ilə sefası, soyu gözelim.*

*Şin ile şad ol tut bu pendimi,*
*Sad ilə dad ilə sakın kendini.*
*Ta ilə za ilə etme andını,*
*Ayındir kaşların yayı gözelim*

*Gayın gafletden eyleyib güzar,*
*Fe ile kaf ile eyle gel hezer.*
*Kaf ilə lam ilə alemi gezer,*
*Mim ile nun nuru ayın, gözelim.*

*Vav ile he ilə güftarı yazar,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Lamelif deyen canından bezer.*
*Ya ile Ruhsatı böylece yazar,*
*Cennet-i alası köyü gözelim.* ***(Ruhsatı)***

**Əmrə (Emre):** Əsli ərəbcə «əmr» kəlməsindəndir. Təsəvvüfdə «Allah aşığı» mənasındadır.

Türkiyədə Yunus Əmrə, Tapdıq Əmrə kimi Allah aşıqlarına verilən ləqəbdir.

Yunus Əmrə, onun mürşidi Tapdıq Əmrənin adı Azərbaycanla da bağlıdır. Qax rayonunun Oncalı kəndindəki Oğuz məzarlığında onların qəbirləri yerli əhali tərəfindən müqəddəs sayılan önəmli ziyarətgahlardandır.

**Ənəl–Haqq (Enel–Hak):** «Mən Haqqam», mənasına gələn bu söz, Allah eşqinin ən yüksək mərtəbəsinə yüksələn sufi şair Hallac Mənsur tərəfindən söylənilmişdir. Söylədiyi bu ifadə onun ölümünə səbəb olmuşdur.

«Ənəl-Haqq» ifadəsi Allahlıq iddiasına düşmək deyildir. «Mən Haqqam» düşüncəsinin altında Allahdan başqa heç bir varlığın olmadığı, mənası nəzərdə tutulur. O, bu ifadəni Allah eşqindən həyacana gəldiyi, özünü unudub yalnız Allah eşiqini düşündüyü anda söyləmişdir. Bu düşüncədə insanın inamı olan şey yenə «Tanrıdan başqa bir varlıq yoxdur» deməkdir.

Təsəvvüf xalq ədəbiyyatında daha ölməzdən əvvəl Tanrı eşqinə ulaşmağın sirri mənasında «Ənəl-Haqq» ifadəsi işlənmişdir.

Örnək:

*Dördüncü əsmayə nail olasın,*
*Enel-Hak sırrına vaqif olasın.*
*Daha ölmezden sen evvel ölesin*
*Erişib canına fazlı Hudanın.*

*Kim bildi Mensurun «Enel-Hakk»lığın*
*Nesiminin postu üzülmeyince.* ***(Aşık Seyrani)***

*Okudum aşkın kitabın*
*Fethettim Enelhak babın.* ***(Ümmi Sinan)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Musa'ya tecəlli göründü Tur'da*
*Məst olup ağlını şaşırdı onda.*
*Enel-Hak sirrini görüb Mansurda*
*Hakikat kemendin dergahdan aldım.* ***(Aşık Seyrani)***

**Ənqa (Anka) (bax: Simurg):** 1.Qaf dağında yaşadığına inanılan, ismi olub, cismi tapılmayan mifoloji bir quşun adıdır. Odur ki, misli az tapılan şeylər haqqında Zümrud-ü Anka və ya Simurq da deyilir.

*Çün Nəsiminin məqamı Qaf immi ənqamisal*
*Şol müəlla qədrigər ari gövhər desəm, nola?* ***(Nəsimi)***

Əski ədəbiyyatda qənaət sahiblərinə kinayə ilə "anka meşrəb", "anka təbiət" deyirdilər. Füzulinin aşağıdakı beyti yuxarıdakı fikri ifadə edir:

*Cife-i dünya deyil hər kəs kimi mətlubumuz.*
*Bir bölük ankalarız Qafa qənaət bəkləriz.* ***(Fuzuli)***

2. Fars rəvayətlərinə görə "Şahnamə"də adı çəkilən əfsanəvi Simurq (Anka) (Zümrüd) quşunun yaşadığı dağın adı Əlbürz dağıdır.

3. Folklorda rəvayətləşən Qaf dağının adı Qafqaz dağları ilə də əlaqələndirilir. Bu dağ ətrafında yaşayan tayfalar bir sıra əfsanələr, rəvayətlər uydurmuşlar. Əfsanələrin birində "Şahnamə" dastanının qəhrəmanı Rüstəm pəhləvanın, onun atası Zalın babası Samın və Samın atası Nərimanın himayəçisi və havadarı olan əfsanəvi Simurq quşunun məskəni bu Qaf dağı olduğu göstərilir. Şəhriyar Zümrüd quşu (Ənqa) əfsanəsini belə xatırladır.

*Bax ki, Heydərbaba əfsanə tək olmuş bir,*
*Mən kiçik bir dağı sərmənzili-ənqa etmişəm.* ***(M. Şəhriyar)***

**Ər, ərən (Er, eren):** Türk dastanlarındakı ər, ərən tipi.

1. İgid, qəhrəman, cəsur mənasındadır. «Ərən», «Xorasan ərənləri», «alp ərən»lər türk dastan və mənkibələrinin qəhrəmanlarıdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

2. «Ərən»in ikinci mənası da tanrı dostu, övliya, ermiş anlamındadır.

«Koroğlu»da

*At odu üstündən ər aşırmaya,*
*Dərə dolandırıb yol aşırmaya.*

və ya

*Hər yana getsən yolundu,*
*Ərənlər sağı-solundu.*

«Manas» dastanının qəhrəmanının adı Ər Manasdır:

*Yakub oğlu gənc Manas,*
*Yalnız doğmuş Ər Manas.*
*On yaşında ox atmış,*
*On dördünə basınca*
*Ordu devirib xan olmuş.*

Yenə «Manas»da

*Qurd doğuran ər ölməz*
*Ər doğuran el ölməz – deyilir.*

«Ərən» aşıqların dilində hər iki mənanı ifadə edir.

*Ozan, aşıklar sözünü,*
*Söyle, aşıklar dinlesin*
*Er var içinde od yana,*
*Er var ona çü nar olur.* ***(Aşık Ozan)***

*Erenlerin gerçegiyiz,*
*Tekkelerin çiçegiyiz.*
*Hacı Bektaş köçeyiyiz*
*Edeb, erkan, yol bizdedir.* ***(Hasan Dede)***

*Erenler torpağa basdı kademi,*
*Topraktan halk olub sürdülər demi.*
*Palçıqdan yaratdı Mevla ademi,*
*O zaman atamın belinde idim.* ***(Aşık Seyrani)***

*Bir gece uykuda gördüm bir mana,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ne men yoza bildim, ne də yozan var.*
*Erenler bir nişan dikmiş meydana,*
*Ne men vura bildim, ne de vuran var.* ***(Aşık Seyrani)***

**Ərş (Arş):** «Quran»da və hədislərdə bir termin kimi ilahi hökmranlıq və taxt mənasını ifadə edir. Ərşin sözlükdəki əsl mənası «yüksəklik, yüksək yer və yüksək şey»dir.

«Quran»da ərş Həzrət Yusifin və Bilqeysin taxtı və ayrıca Allaha aid edilmiş mənasını ifadə etmişdir. Bəzi ayətlərdə «Rəb-bül-ərş», «Zül-ərş» kimi ifadələr də keçməkdədir. Göylərin və yerin yaradılmasından bəhs edən ayətdə onların ərşin üzərində və yeddi qat olduğu ifadə edilir.

Kaşqarlı Mahmud «Divani-Lüğatit-Türk»də 7 qat göydən bəhs etmişdir.

Ərş qərb türklərinə görə yeddi, şərq türklərinə görə doqquz qatdır. Əskidən isə bütün türklərdə göyün doqquz qat olduğuna inanılmışdır. İslamiyyətlə heç bir əlaqəsi olmayan Sibir türklərinin mifologiyasında da «yeddi qat göy», «doqquz qat göy» inancları vardır.

«Ərş» kəlməsi aşıqların dilində:

*Fikir gəzir asimanı,*
*Ərşi-əladan gəlirəm.*
*Tilsimlərin açarıyam,*
*Sirri-binadan gəlirəm.* ***(Ağ Aşıq)***

Anadoluda «yeddi qat göy» anlayışı geniş yayılmışdır. Bu inanca görə yer kimi göy də yeddi qatdır. Aşağıdakı şeirdə bu inanc belə ifadə edilmşdir:

*Yeddi yer, yeddi gök bünyad olmadan*
*Ay ile gün, yıldız icad olmadan.*
*Dünya dedikleri abad olmadan*
*Qıbledir Muhemmed, secdedir Ali.*(29, II, 30)

Təsəvvüf şeirində ərş göyün son qatıdır:

*Arşin nuru yere endi,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Suyun nuru yere endi.*
*Hep susuzlar suya kandı*
*Muhammed doğduğu gece.*
*Muhammedi bil ne işdir,*
*Bir can bir canı sevişdir.*
*Arş ü-kürsüdən genişdir,*
*Ülfet elinin aynası.* ***(Aşık Seyrani)***

**Əsatir (Esatir) (bax: Əfsanə):** Dünyanın yaradılması, yer üzündəki həyatın başlanğıcı, təbiət hadisələri, əfsanəvi qəhrəmanlar, ruhlar və s. haqqında qədim insanların təsəvvür və etiqadlarını ifadə edən, həqiqətə uyğun olmayan rəvayətlər.

**Əvvəl-axır:** Aşıqlar arasında bəzən «hərf təcnis» də deyilir. Əvvəl-axırın əsas xüsusiyyəti şeirdəki misraların ilk və son hərflərinin eyni olmasıdır.

Azərbaycan aşıq şeirinin «əvvəl-axır qoşma», «əvvəl-axır divani», «əvvəl-axır gəraylı», «əvvəl-axır təcnis» kimi şəkilləri mövcuddur. Bu şeir şəklinə daha çox Aşıq Molla Cümədə (XIX-XX əsr) rast gəlinir.

Əvvəl-axır divani örnəyi:

*Nə əcəb xub yaradıb hüsnünü Tanrı bu qızın!*
*Nə əcəb gülşənə bənzər gülüzarı bu qızın!*
*Nə əcəb məstləşib çeşmi xumarı bu qızın!*
*Nə əcəb tazə bitib heyvası, narı bu qızın!*
*Nə əcəb çiçəklənib fəsli-baharı bu qızın!*
*Nə əcəb taci muqəvvəs çəkilib qaşı kaman,*
*Nə əcəb xoş danışır ləzzət ilən tuti-zəban.*
*Nə əcəb xətləri heyrandı və həm püstə dəhan.*
*Nə əcəb gərdanı mina, nə əcəb incə miyan.*
*Nə əcəb bal ləbindən olur cari bu qızın.*

***(Məlikballı Qurban)***

**Əzgi (Ezgi):** Türk musiqi folklorunda əzgi – nəğmə, hava, havacatdır, oxunan parçanın melodiyasıdır. Türkülər, manilər, qoşmalar özünəməxsus bir əzgi ilə söylənir. Məsələn: Hoyrat, Kərəm, Zeybək, Bozlak, Divan kimi. Qoşmalar belə əzgilərinə görə fərqli adlarla söylənir. Özəl bir əzgi ilə söylənən qoşmalar



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

da “Topal koşma”, “Bayandır koşması”, “Bülbül koşması”, “Cem koşması”, “Yelpük koşması” adları ilə tanınır.

Bir çox türkülər özünəməxsus əzgiyə sahibdir. Ələvi məclislərində dua mahiyyətində icra edilən türkü deyişmələrə əsla oynanılmaz, nə də alqışlanmaz. Dini mahiyyət daşıyan səmah, duvaz, nəfəs, ilahi kimi əzgilər də dini mahiyyət gərəyi ilə çalınıb söylənən parçalardır.

Aşıq şeirlərində səlis, satranc, divani kimi şeirlərin də ən mühüm xüsusiyyəti hər birinin fərqli əzgi ilə oxunmasıdır.

**Fal, (Fal):** Fallar bir millətin inkişaf mərhələlərini, dünyagörüşünü, təsəvvürlərini əks etdirir.

Fal millətlərin şifahi ədəbiyyatında önəmli yer tutur.

Fala baxmanın müxtəlif xalqlarda fərqli şəkilləri vardır. Rəqəmlərlə, kitablarla, kartla, əllərin içindəki xətlərlə, su ilə, noxudla, qəhvə ilə, ulduzlarla və s. fala baxma olmuşdur.

Türk xalqlarında inanclarla bağlı olaraq göz falı, qulaq falı, su ilə fala baxmaq, ulduzlarla fala baxmaq, noxudla fala baxmaq, kitabla, şəkillə fala baxmaq çox geniş yayılmışdır.

Azərbaycanda da su, ay, ulduz falları, göz, qulaq falları və yuxarıdakı adı çəkilən digər fallar yayqın olmuşdur. Türklərin qədim bayramlarından olan Novruzun son çərşənbəsi olan ilaxır çərşənbədə “qapıpusma”, “qulaq dinləməsi” ilə bağlı qulaq falı vardır. Bu fala inananlar üçün qapı arxasından eşidilən gözəl bir sözün uğur, pis sözün uğursuzluq əlaməti sayılması qulaq falının əsas əlaməti sayılır.

Gözlə fala baxmada hamilə qadının başına ona hiss etdirmədən arxadan cizlincə bir çimdik duz töküb onun nə edəcəyini müşahidə edərlər. Əgər qadın əli ilə üzünü sığallarsa və ya əlini üzünə sürtərsə qızı, əlini çənəsinə sürtərsə oğlu olacağına inanılır.

Ulduz falları da çox yayqın olmuşdur. Bir rəvayətə görə şair Molla Pənah Vaqif (XVIII əsr) ulduzların hərəkətinə görə sabahkı günün uğurlu və ya uğursuz olacağını söyləyə bilirmiş.

**Fani (Fani):** Ərəbcə bir kəlmə olub, keçici, bitici, sonu olmayan, sonu ölümlü mənalarına gəlir.

Təsəvvüfdə isə Haqqdan başqa bir şeyi qalmayanlar üçün deyilir. Fanilik nəfsdən uzaqlaşmaqdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Kitabi Dədə Qorqud” da dünyanın gəlib keçiciliyi belə ifadə olunmuşdur:

*Onlar da bu dünyadan gəldi, keçdi,*
*Karvan kimi qondu köçdü.*
*Onları da yer gizlədi, əcəl aldı,*
*Fani dünya kimə qaldı?*
*Gəlimli-gedimli dünya,*
*Bir ucu ölümlü dünya.* ***(Dədə Qorqud)***

**Fələk (Felek) (bax: Çərxi-fələk):** Qədim türk mifologiyasında fələk sadəcə göy üzü üçün söylənən bir kəlmə olmuşdur. Fələk sözünün cəmi olan «Əflak» isə ayı, günəşi və bütün ulduzlarla bərabər planetlərə verilən addır. İnanca görə fələk durmadan üzərimizdə dönən göy üzüdür. İnsanlara yaxşı və pis tale fələyin dönüşü ilə əlaqədardır. Azərbaycan və Türkiyə folklorunda fələk “tale” anlamında dilə gətirilmişdir.

*Aman fələk, dad fələk,*
*Heç olmadım şad fələk.*
*İçirdiyin zəhərdən*
*Özün də bir dad fələk.* ***(Azərbaycan bayatısı)***

*Fələyi dindirəydim,*
*Bilməzi bildirəydim.*
*Mənə yazı yazanda*
*Qələmin sındıraydım.* ***(Azərbaycan bayatısı)***
*Fələk salıb işim fəngə,*
*Düşmüşəm qovğaya, cəngə.*
*Aşaram Hində, Firəngə*
*Alınmaz sorağım mənim* ***(Abbas Tufarqanlı)***

*Fələk mənə cövr eylədi dünyada,*
*Yaxşı günüm yaman gündən az oldu.*
*Bəydən nəmər aldım, ağadan ənam,*
*Müxtəsəri, qazandığım bez oldu.* ***(Aşıq Alı)***

*Bak bu kaşa, bak bu göze,*
*Yürek kebab oldu köze.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yakasız gömlekler bize,*
*Felek biçer demedimmi?* ***(Qaracaoğlan)***

**Fəna (Fena):** Ərəbcə bir kəlmə olub yoxluq, heçlik deməkdir.

Təsəvvüfdə sufinin gözündən əşyanın silinməsinə fəna deyilir. İslam təsəvvüfündə qul heç olunca, heçin yerinə Allahın sifətləri keçər. Bunun da mənası belədir. Allahın qulu insan kimi daşıdığı sifətləri tərk edər, fənaya çataraq, tam hala gəlir, mükəmməlləşir. Ancaq gedən pis sifətlərin yerini Allahın mükəmməl olan ilahi sifətləri və xasiyyətləri alır. Fəna halı qulun mənliyinin yox olması tevhidin gerçəkləşməsi deməkdir. Bu hal tevhidin ən yüksək dərəcəsidir. Qul Allahın təfəkküründə o dərəcədə doğulur ki, o mənliyini itirmək dərəcəsinə gəlir. Buna Fəna Fit-tevhid deyilir.

Fəna–fillah təbiri isə belə açıqlanır. “Qulun zat və sifətinin Haqqın zat və sifətində fani olması, Qul bu halda bütün dünyəvi əlaqələrindən uzaqlaşır, Allahın birlik dərgahına tam bir təvəccöhlə yönəlir.

Örnəklər:

*Həbsi-həvadə qoyma Fuzüli sifət əsir,*
*Yarəb, hidayət eylə təriqi-fəna mana* ***(Fuzuli)***

*Bəhri-fənada fani ol, gör ki, nə xoş həyat olur,*
*Abi-həyat imiş fəna, gərçi adı məmat olur.* ***(Nəsimi)***

*Əhli-fəna olsa fəna, iqlimi həftin varına,*
*Bil kim, həqiqət söz durur kim, mehdiyi-dövran gəlir.*

*Şol kim fənadan filfəna buldu olup sahibqıran,*
*Ana bu xəlqin əksəri ənsarü həm ə'van gəlir.* ***(Nəsimi)***

**Folklor (Folklor):** Beynəlxalq termin.

İngiliscə «Folk» və «Lore» sözcüklərinin bir araya gəlməsindən yaranmışdır. «Folklor» terminini ilk dəfə ingilis alimi Wiliam John Thomson işlətmişdir. 22 avqust 1846-cı ildə «Atheneum»



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qəzetində dərc etdirdiyi bir məqalədə elm adamlarını xalq türkülərini toplamağa çağırmış və xalqdan toplanmış bu ədəbiyyata «Folklor» adını vermişdir.

1891-ci ildə keçirilən millətlərarası folklor konqresindən sonra bütün dünyada ya ingilis şəkli olan «Folklore», ya da bunun tərcüməsi istifadə edilməyə başlanmışdır.

«Folklor» sözünün mənası «xalq elmi», «xalq hikməti» olduğundan Azərbaycan ədəbiyyatşünaslıq terminologiyasında «şifahi xalq ədəbiyyatı», «ağız ədəbiyyatı», «el ədəbiyyatı», «şifahi söz ədəbiyyatı» kimi terminlərdən də istifadə edilməkdədir.

Türk xalq ədəbiyyatında «Folklor»un qarşılığı «xalq elmi»-dir. Ziya Gökalp «Folklor» sözünü «Xalqiyyat» şəklində türkcəyə çevirmişdir. Türk ədəbiyyatşünaslıq terminologiyasında «Folklor»un müqabilində «xalq bilgisi», «xalq bilimi», «xalq kültürü», «xalq ədəbiyyatı» kimi terminlər işlənmişdir.

Hal-hazırda isə «folklor»la yanaşı «xalq bilimi» termini işlədilir. Folklora aid bütün ədəbi məhsullar xalq biliminə aiddir. Bu ifadə xalqın ortaq yaşantısından doğan dəyərlərin hamısını əhatə edər. Xalq rəqsləri, xalq musiqisi, xalq mifologiyası, adət-ənənələr, inanc və bayramlar, etiqadlar, anonim əsərlər və s. bu elm sahəsinə aid edilir.

Folklor hər bir xalqın milli ədəbiyyatının başlanğıcı, bu ədəbiyyatın bir parçasıdır. Folklorun materialı xalqa aid olan şifahi ədəbiyyat məhsullarının hamısıdır.

Folklor etnoqrafiya, arxeologiya, tarix, antropologiya kimi elm sahələri ilə əlaqədardır.

Xalq təbabəti, xalq memarlığı, bu günkü modern psixologiya, dinlər tarixi üçün də folklor çox dəyərli material verə bilər.

Folklora aid materialları toplayıb incələyən elm sahəsinə folklorşünaslıq_deyilir.

Xalq ədəbiyyatı – folklor elmi ilə məşğul olan alimlərə folklorşünas deyilir. Türkiyədə isə folklorşünas alimlərə folklorçu, xalqbilimçisi deyilir.

XX əsrdə Azərbaycanda Əmin Abid, Vəli Xuluflu, Yusif Vəzir Çəmənzəminli, Hümmət Əlizadə, Salman Mümtaz, Eynəlı Sultanov, Hənəfi Zeynallı, Məmmədhüseyn Təhmasib, Vaqif Vəliyev, Azad Nəbiyev, Əhliman Axundov, Paşa Əfəndiyev,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mürsəl Həkimov, İsrafil Abbasov, Hüseyn İsmayılov, Bəhlul Abdullayev, Məhərrəm Qasımlı, Ağalar Mirzə kimi folklorşünas alimlər yetişmişdir.

Türk folklorunun öyrənilməsində xidməti olan xalq bilimçisi alimlər: Zeki Veledi Toğan, Ziya Gökalp, Saim Sakaoğlu, Şükrü Elçin, Cahit Öztelli, Vasfi Mahir Kocatürk, Dursun Yıldırım, Faruk Sümer, İlhan Başgöz, Umay Günay, Pertev Naili Boratav, Hikmet Dizdaroğlu, Mehmet Yardımçı, Hasan Köksal, Yaşar Kalafat, M.Öcal Oğuz, Doğan Kaya, Ali Berat Alptekin, Esma Şimşek və b.

**Gəraylı (Semai):** Azərbaycan klassik aşıq şeirinin formalarından biri. 3-5 və ya 7 dördlükdən və hər misrası 8 hecadan ibarət olur. Birinci bənddə 2-ci və 4-cü misralar həmqafiyə olub, sonrakı bəndlərin dördüncü misrası birinci bəndin sonuncu 4-cü misrasındakı rədiflə həmqafiyə olur. O biri bəndlərdə 1-2-3-cü misralar həmqafiyə olur. Misralarda bölgü 5+3, 4+4, 3+5 şəklində ola bilər. Şeirin son bəndində aşıqlar adını və ya ləqəbini söyləyirlər ki, buna «möhür bəndi» deyilir.

«Gəraylı» sözünün mənşəinin bir türk boyunun və ya elinin yaratdığı şeirin adı ilə bağlı olduğu ehtimal edilir. Azərbaycan aşıq şeirinin görkəmli nümayəndələri olan Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgərin yaradıcılığında gəraylının ən mükəmməl nümunələrinə rast gəlinir.

*Nə ağlarsan, nə sızlarsan,*
*Bir dərdi min olan könlüm.*
*Axırda zünnar olarsan*
*Qəmə yoldaş olan könlüm.*

*Bir yar gəlir obasından,*
*Alım dərdü bəlasından.*
*Çərxi fələk badəsindən*
*İçib sərxoş olan könlüm*

*Abbas ağlar arsız-arsız,*
*Dünya olub etibarsız.*
*Deyirdin dözərəm yarsız,*
*Döz, bağrı daş olan könlüm.* ***(Abbas Tufarqanlı)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan aşıq şeirində gəraylının «cığalı gəraylı» «əlif-lam gəraylı», «sallama gəraylı», «mürvət gəraylı», «qaytarma gəraylı», «nəqarətlı gəraylı», «gəraylı dildönməz», «gəraylı rübai» kimi törəmələri vardır.

Türk aşıq şeirində 8 hecalı 3-5-7 bəndli şeirlər «səmai» adlanır. Bu terminin «səma» sözündən yarandığı ehtimal edilməkdədir. «Gəraylı» və «Səmai» terminlərinin adlarından başqa bütün yazılış, qafiyələnmə, bənd sayı bir-birindən fərqlənməyən Azərbaycan gəraylıları ilə türk səmailəri arasında heç bir fərq yoxdur.

Örnək:

*Gönül, qürbet ele varma,*
*Ya gedinir, ya gedinmez.*
*Her dilbəre meyil verme,*
*Ya sevilir, ya sevilmez.*

*Yürükdür bizim atımız,*
*Yardan atlatdı satımız.*
*Gurbet elde kıymetimiz*
*Ya bilinir, ya bilinmez.*

*Bağçanızda nar ağacı,*
*Kimi dadlı, kimi acı.*
*Gönüldeki derd ilacı*
*Ya bulunur, ya bulunmez.*
*Deryalarda olur behri,*
*Doldur da ver içim zehri.*
*Sonam, qürbet elin kahri*
*Ya çekilir, ya çekilməz.*

*Emrah der ki, düşdüm dile,*
*Bülbül figan eder güle.*
*Güzel sevmek bir sarp kala*
*Ya alınar, ya alınmaz.* ***(Erzurumlu Emrah)***

*Herdem yüzüme gül gibi*
*Gülen dilberin kuluyum.*
*Ben ağladıkca yaşımı*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Silen dilberin kuluyum.*

*Nazilen salan başını*
*Oynadır göz ü kaşını.*
*Rahm edüp ben yoldaşını*
*Anan dilberin kuluyum.*

*Kul Mehemmed, eydür ferman,*
*Hastasına eder derman.*
*Benimle her gece mihman*
*Olan dilberin kuluyum.* ***(Kul Mehemmed)***

**Gözəlləmə (Güzelleme):** Aşıq şeirində bir şeir şəkli. Divan ədəbiyyatında qarşılığı «mədhiyyə»dir.

Sevda və gözəlliklərə yazılan şeirlərdir. Gözəlləmələr yalnız qadın gözəlliyinə deyil, gözəl olan və sevilən hər şeyə yazılır. Şeirdə mədhedici sözlərlə bu gözəlliklər dilə gətirilir.

Gözəlləmələr qoşma, divani və s. şeir formalarında yazıla bilər.

*Yaraşır əndamına geyindiyin sarı, gözəl,*
*Yaradan verib sənə belə ixtiyarı, gözəl.*
*Dolub əttar sinənə bağçaların barı, gözəl,*
*Lütf eylə mən xəstədən əsirgəmə narı, gözəl,*
*Tök mətah, xırıd eylə, aç indi bazarı, gözəl.*

*Ağlımı sərdən aldı baxdım gözün alasına,*
*Canımı qurban eylərəm belə gözəllər xasına.*
*Libas əndama uyur, əndam uyur libasına,*
*Ələsgər Məcnun olub düşüb Leyli sevdasına*
*Sayiləm, bir sayə sal, üz döndərmə barı gözəl*
***(Aşıq Ələsgər)***

Türk aşıq ədəbiyyatında da gözəlləmə aşıqların bir gözəli, bir atı, bəyəndiyi bir insanı, bir təbiət lövhəsini, yurdun bir parçasını öymək üçün söylədikləri şeirlərdir.

*Dinleyin, bir güzeli medh edeyim,*
*Yigide nisbetde yürüyüşlünün.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Can feda ederim böyle sunaya*
*Bin türlü naz ilə sallanışlının.*

*Kadife şalvarlı, tül libasının,*
*Güverçin topuklu sarı mestlinin,*
*Elleri kınalı kumru neslinin,*
*Zülfü gerdanına taranışlının.*

*Entarı geyinmiş fireng irengi,*
*Yanaqlar kırmızı alma irengli.*
*Saçları topukla eyliyor cengi,*
*Bir hüma bakışlı on dört yaşlının.*

*Qaracaoğlan der ki, güzelin huyu,*
*Hezeren çubuğuna benziyor boyu.*
*Ab i kevser kimi lebinin suyu,*
*Peynirdir dişləri inci dişinin.* ***(Qaracaoğlan)***

**Hak erenler:** Allah dostları, gerçəyə çatanlar üçün işlənən bir termindir.

*Ben sefaletten olurken seni sıkmazsa,*
*Hak erenler buna umman ki desin eyvallah.*
***(Mehmet Akif Ersoy)***

**Haqq aşığı (Hak aşığı):** Bədahətən şeir söyləmə və saz çalma qabiliyyətinə sahib olan aşıq.

Ənənəyə görə Haqq aşığına Xızır Peyğəmbər, mürşid, pir və ya Həzrət Əli yuxuda eşq badəsi içirir və oyandıqdan sonra onlar şeir söyləyir, saz çalırlar. Aşığa bu qabiliyyət Haqqdan vergi olduğu üçün xalq arasında onlara “Haqq aşığı” deyilir. Bu ifadə Türk ve Azərbaycan aşıq şeirində mövcuddur.

**Hatırlama:** Türk aşıq fəsillərinin bir bölümünə verilən addır. Bu bölümdə aşıqlar özlərindən öncə yaşamış ustad aşıqların deyişlərini sıra ilə söyləyirlər.

Bu tərz Azərbaycan aşıqlarının dastana başlamadan öncə söylədikləri ustadnamələrə də bənzəyir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Heca vəzni (Hece vezni):** Şeirdə hecaların sayına görə olan ölçü.

Heca vəzni Azərbaycan və türk şeirinin əsas, ana vəznidir. Bu vəznə əskidən «Barmaq hesabı», «Hesabi bəyan» da deyilirdi.

Azərbaycan və türk şifahi xalq şeiri bu vəznlə meydana gəlmişdir. Yazılı ədəbiyyatda da heca vəzni ilə yazılmış poetik örnəklər mövcuddur.

Heca vəznində əsas şərt hecaların sayıdır. Azərbaycan xalq şeirində 2 hecalıdan 15 hecalıya qədər örnəklər mövcuddur. Ən çox rastlanan isə 7,8,11,15 hecalıdır.

2 hecalı:

*Yüz ölç,*
*Bir biç.* ***(Atalar sözü)***

3 hecalı:

*Az getdi,*
*Uz getdi.* ***(nağıllarda)***

4 hecalı:

*Yüz gün yaraq,*
*Bir gün gərək.* ***(Atalar sözü)***

*Telli sazım,*
*Xoş avazım.*
*Bahar yazım,*
*Sən murazım,*
*Süsənbərim* ***(Ağ Aşıq)***

7 hecalı:

*Buxarıya od qala,*
*Odun gətir, od qala.*
*Elə yandır aşığı*
*Məhşərəcən od qala.* ***(Sarı Aşıq)***

8 hecalı:

*Duman gəl get bu dağlardan,*
*Bahar gəldi, qar əylənməz.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bu dünya bir bivəfadır,*
*Gözəldə ilqar əylənməz.* **(Abbas Tufarqanlı)**

11 hecalı:

*Eşqin firqətindən bəlkə çaşmışam,*
*Dərd əlindən başım alıb qaçmışam!*
*Onun həsrətindən xəstə düşmüşəm,*
*İstərəm köksündən nar dilim-dilim.* **(Aşıq Abdulla)**

15 hecalı:

*Bağda səhər qarşı gəlir işvə-nazlı dilbərim,*
*Qələm qaşlı, ay qabaqlı, xumar gözlü dilbərim.*
*Ağ buxaqlı, gül yanaqlı, günəş üzlü dilbərim,*
*Hər tərəfdən bircə busə ver, qadasın aldığım.*
**(Aşıq Məhəmməd)**

Türk şeirində də Azərbaycan şeirində olduğu kimi 4-dən 15 hecalıya qədər nümunələrini tapmaq mümkündür. Ən əski və yayqın olan isə: 7,8,11 hecalıdır.

7 hecalı:

*Keten gömlek giyemem,*
*El sözüne uyamam.*
*Bir dilbere kul oldum,*
*Fakat adın diyemem.* **(Mani)**

8 hecalı:

*Behey ala gözlü dilber,*
*Vaktın keçer demedimmi?*
*Harami olmuş gözlerin,*
*Bellər keser demedimmi?* **(Qaracaoğlan)**

11 hecalı:

*Urdu beni zalım kanlı yaramaz,*
*Kayet çoktur, deyil benim yaram az.*
*Bana yardan qayrı cerrah yaramaz,*
*Umarım ki, yene bağrım o yara.* **(Aşık Gevheri)**



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Heydər (Haydar):** «Haydar» – farsca «aslan» deməkdir. Əsədullah, yəni Allahın aslanı. Həzrət Əli üçün deyilən bir addır. Müsəlmanlar Həzrət Əli əvəzinə Heydər, Heydəri-Kərrar da deyirlər. Heydəri-Kərrar dəfələrlə düşmən üzərinə gedən Hz.Əlinin bir ləqəbidir.

*Xətai, qəm çəkməm, çün ənəlhəq demişəm,*
*Çəkmişəm Heydər təki meydanda hu mərdanə mən.*

***(Xətai)***

*Tanrının Aslanı Hazreti-Ali*
*Kırkların başında nə demək olur.* ***(Pir Sultan Abdal)***

*On iki məsumi paki piş edən hümmətlərə*
*Mürtəzanı Heydəri-Kərrar edən pərvərdiyar.* ***(Xətai)***

*Pirim Şahi-Mərdan, Heydəri-Kərrar,*
*Dadıma yetişsin Əhmədi-Muxtar.*
*Aşıq Alı üzü qara günahkar,*
*Cəhənnəm odunun küllərinə bax.* ***(Aşıq Alı)***

**Heydərilik (Haydarilik):** Heydərilik Həzrət Əlini sevən və təriqətə mənsub olan mənasına gəlir. Heydəriliyin XV əsrdə yaşamış Şeyx Heydər Əli tərəfindən qurulduğuna da inanılır.

«Heydəri» Azərbaycan aşıq şeirində həm də bir şeir şəkli və aşıq musiqisinin birinin adıdır.

**Hədis (Hadis):** Peyğəmbərimizin mübarək sözləri, hal və hərəkətləri. İslam dininin "Quran"dan sonra ikinci qaynağı.

**Həqiqət (Hakikat):** Dörd qapının–(şəriət, təriqət, mərifət və həqiqətin) dördüncüsü.

Həqiqət–gerçək, Allah gerçəyi deməkdir. Bilinənin, görünənin və olanların gerçəkləşməsi.

Şəriətdən həqiqətə mənəvi bir yolla gedilir. Bu mənəvi yolçuluğa «sülük» (davranış tərzi), yolçuya isə «salik» (bir yol ilə gedən, bir yolu təqib edən, bir təriqətə məxsus olan) deyilir. «Həqiqət» türk təkkə aşıqlarının dilində:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Hakikat yolunda hak savaşımı,*
*Akıttım gözümdən kanlı yaşımı.*
*Pirler meydanında koydum başımı,*
*İcazet verdiler meydandan aldım.* ***(Aşık Seyrani)***

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytani öldürə, nəfsin yandıra.*
*El içində pak otura, pak dura,*
*Danışanda xoş sədalı gərəkdi.* ***(Aşıq Ələsgər)***

**Həqiqi eşq (Hakiki aşk) (bax: Eşq):** İlahi eşq, Allah eşqi.

*Aşk kitabın Xuda bana gönderdi* ***(Pir Sultan Abdal)***

**Həllac Mənsur (Hallac-ı Mansur):** Təsəvvüf tarixinin ən çox adı çəkilən isimlərindən biri. Adı Hüseyn bin Mənsur, atasının adı Əbül-Muqisdir. 858-ci ildə (hicri 244) İranın Beyza şəhərində anadan olduğu söylənilir. 919-cu ildə (hicri 306) isə edam edilmişdir.

Həllac Mənsur öz zəmanəsinin bəzi din alimlərinin anlamadığı Allah Təalanın eşqi ilə yanan bir haqq aşığıdır. Çox çətin əzab əziyyətlər çəkmiş hümməti yüksək kəramətlər göstərmiş bir vəlidir. Sözləri gözəl, danışması səlis, fərasəti üstün, həqiqət, məna və mərifətlər sahibi olub, yaşadığı müddətdə daima ibadətlə məşğul olmuşdur. Həllac Mənsurun edamına səbəb olan "Ənəl-həqq" sözü onun təsəvvüf yolunda eşq sərxoşuluğu (Allah eşqi) içində söylədiyi bir sözdür. Bu sözün zahiri mənası "Mən Haqqam" demək olan və həqiqi mənası "Mən yoxam, Haqq vardır" deməkdir.

*Çün təcəlla nurunu görmək təmənna eylərəm,*
*İndi Mənsuram, məni bir dara göndərmək gərək.* ***(Xətai)***

*Qanı Mənsurləyin bir əhli-həq kim*
*Asıla eşq içində başı bər-dar.* ***(Nəsimi)***

**Hərbə-Zorba. (bax: Deyişmə, təkəllüm):** Azərbaycan aşıq şeirində deyişmənin yumorlu bir mərhələsi.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Aşıqlar deyişmə əsnasında bir-birinə müraciətlə özlərini öyür, qarşıdakı aşığa şeirlə meydan oxuyurlar.

Hərbə-zorbanın xüsusi bir şəkli yoxdur. Qoşma və başqa şeir şəkillərində söylənilə bilər.

Örnək:

*İstəmirəm sənə dəyəm, dolaşam,*
*Bağırsam qulağın kar olar onda.*
*Əlindən alaram telli sazını,*
*Gen dünya başına dar olar onda.* ***(Aşıq Hüseyn Bozalqanlı)***

*Filü gərgədantək girrəm meydana,*
*Əsrəmiş nərlərtək sallam rəmzi-cəng.*
*Şirü bəbir misal bir əjdahayam,*
*Yoxdu dəryalarda mənimtək pələng.* ***(Meşkinli Məhəmməd)***

**Həşir günü (Haşr günü):** Toplanma, bir araya gəlmə. Allah Təalanın bütün insanları, qiyamət qopmasından (dünyanın axırı gəldikdən) sonra dirildib, dünyada etdiklərinin hesabını vermək üzərə Ərəsət deyilən meydanda toplaması.

*Və'dəyi-yövməl-qiyamət endi haqdan arifə,*
*Ruzi-haşr oldu, çalındı vəhdətin günündə sur.* ***(Nəsimi)***
*Günahkardı nə ki yoldan azan var,*
*İki mələk – xeyir–şəri yazan var.*
*Ərəsət var, qıl körpü var, qazan var,*
*Orda qəbul olsun niyazım mənim.* ***(Aşıq Ələsgər)***

**Hicri təqvim (Hicri takvim):** Hicri-qəməri ili 12 aydan ibarətdir. Məhərrəm, səfər, rəbi-ül-əvvəl, rəbi-ül-sani, cəmadi-ül-əvvəl, cəmadi-ül-axir, rəcəb, şaban, ramazan, şəvval, zülqədə və zülhiccə.

Hicri-şəmsi ayları isə aşağıdakılardır: fərvərdin, ordibehişt, xordad, tir, mordad, şəhrivər, mehr, aban, azər, dey, bəhmən, isfənd.

Hicri, Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə mühacirət etməsi ilə əlaqədar «hicra» [köçmə] sözündən götürül-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müşdür. Məhəmməd peyğəmbər səfər ayının 24-də Məkkədən cıxmış, rəbi-ül-əvvəl ayının 9-da Mədinə şəhərinə daxil olmuşdur. Bu göcməni əlamətdar hadisə sayan ərəblər həmin ili yeni eranın–müsəlmanların erasının başlanğıcı kimi qəbul etmişlər. həmin il məhərrəm ayının 1-i müsəlmanların müqəddəs hesab etdiyi cümə gününə düşdüyünə görə yeni təqvimi məhərrəm ayının 1-dən [622-ci il, 16 iyul] hesablamaq qərara alınmışdır. Miladi 638-ci ildə Xəlifə Ömər ibn əl-Xəttab hicri-qəməri təqvimini rəsmi dövlət ili elan edir.

Hicri-qəməri ilinin [Ay ili] qısası 6 ay 30, 6 ay 29 gün olmaqla 354 sutka, uzunu isə 7 ay 30, 5 ay 29 gün olmaqla 355 sutkadır. Bu təqvim hazırda Əlcəzair, Ədən, Əfqanıstan, Bəhreyn, İndoneziya, İordaniya, İraq, İran, Yəmən, Qətər, Küveyt, Livan, Liviya, Marokko, Pakistan, Səudiyyə Ərəbistanı, Suriya, Sudan, Tunis və başqa ölkələrdə tətbiq edilir. Hicri-şəmsi ili də [Günəş ili] öz başlanğıcını 622-ci il fərvərdin ayının birindən [21 mart], baharın əvvəlində gecə-gündüzün bərabərləşdiyi gündən götürür. Hicri-şəmsi ilinin qısası 365, uzunu 366 [6 ay 31 gün, 5 ay 30 gün, axırıncı isfənd ayı 29, yaxud 30 gün] sutkadır. Demək, o, hicri-qəməri ilindən 11 gün artıqdır. Buna görə də sistematik olaraq hicri-şəmsi ili, hicri-qəməri ilindən geri qalır. Təqribi olaraq 33 hicri-qəməri ili 32 hicri-şəmsi ilinə bərabərdir. Hicri-şəmsi ili yerin günəş ətrafında fırlanmasına əsaslandığına görə onun ayları yerində sabitdir.

Fərvərdin ayının 21-i əksər vaxt baharın əvvəlinə, gecə-gündüzün bərabərləşdiyi vaxta düşür. Bu, günəşin həməl bürcü üstündə olması vaxtına əsaslanır. Bu hadisə günortadan qabaq baş verdikdə həmin gün, günortadan sonra baş verdikdə sabahısı ilin birinci günü, novruz hesab edilir. Nadir hallarda hicri-şəmsi ilin əvvəli martın 20-nə düşür.

Hicri-qəməri təqvimində isə aylar müxtəlif fəsillərə, vaxtlara düşür. Buna görə də müsəlmanların müqəddəs tutduqları məhərrəm və ya ramazan ayları hər il yerini dəyişir.

Göründüyü kimi, təqvimlər arasında xeyli fərqlər mövcuddur. Bu təqvimlərin illərini bir-birinə dəqiqliklə çevirmək isə tez-tez lazım gəlir.

Hicri-qəməri ilini hicri-şəmsi ilinə cevirmək üçün birincini 33-ə bölüb, qisməti yenə ondan cıxmaq lazımdır. Məsələn,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hicri-qəməri 1408-ci ili hicri-şəmsiyə cevirək. 1408:33=42 [22 qalıq qalır] 1408—42=1366. Deməli, hicri-qəməri 1408 ili, hicri-şəmsi 1366-cı ildir. hicri-şəmsi ili miladi ilindən 621 il gec başladığına görə ona 621 əlavə etsək, miladi ili alınar. Məsələn, 1366 hicri-şəmsi ili miladi 1987-ci ildir. Lakin bu tam dəqiq deyil. Hicri ili miladi ilə cevirib günü dəqiq təyin etmək ücün mütləq cap olunmuş sinxronik cədvəllərə baxmaq lazımdır.

**Hidayət (Hidayet):** Əsli ərəbcə bir kəlimə olub, doğruluq, islamlıq, haqqı haqq, batili də batil görüp doğru yola girmək, doğru olmayan yoldan uzaqlaşmaq, məqsədə doğru olan yolu göstərmə mənasını ifadə edir. Gayəyə gedən yolu tutmaq, haqqa çatmaq məqamlarında istifadə olunur:

*Natiqəm, nitqi-hidayət, gəl həbibullahı gör.* ***(Xətai)***

**Hikmət (Hikmet):** Dini təsəvvüfi xalq şeirində dini mövzuları ifadə edən şeirlər nəzərdə tutulur.

Hikmət geniş mənada islamiyyətin əsaslarını islam dinini qəbul edən türklərə öyrətmək, təsəvvüfün incəliklərini və təriqətin qanunlarını müridlərə təlqin etmək üçün Əhməd Yasəvi tərəfindən yazılmış şeirlərdir. Başqa sözlə, dini təsəvvüfi xalq ədəbiyyatının ən böyük siması olan Əhməd Yasəvinin «Hikmət» adı verilən şeirlərinin Yasəvi dərvişləri tərəfindən tərtib edilmiş hikmət məcmuəsi. Sufi bir şəxsiyyət və təriqət sahibi bir mürşid olan, türk millətinin mənəvi həyatında əsrlərlə nüfuzu davam edən və çeşidli təriqətlər üzərində də təsiri olan Əhməd Yasəvi «Piri Türkistan» kimi tanınan bir şəxsiyyətdir.

XII əsrdə Buxara, Mərv, Herat kimi islam mərkəzlərində təşəkkül edən təsəvvüf anlayışı Yasəvi dərvişləri vasitəsi ilə türklərin yaşadığı hər yerə yayılırdı.

Hikmətlərin böyük bir qismi 5-25 arasında dəyişən dördlüklərdən ibarətdir. Qafiyələnməsi qoşmaya bənzəyir. Dördlüklərə yazılmış hikmətlərdə hecanın 12 (4+4+4) ölçüsündən, qəzəl biçimində yazılmış hikmətlərdə hecanın 14 (7+7) və ya 16 (8+8) ölçüsündən istifadə edilmişdir.

Dördlüklərdən ibarət hikmət:

*Ümmet olsan, gariplere tabi ol sen;*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ayet, hadis her kim dese, sami ol sen;*
*Rızık, nasip her ne verse, qani ol sen;*
*Kani olup şevk şarabını içtim işte.*
*Medine'ye Resul varıp oldu garip;*
*Gariplikte mihnet çekip oldu habip;*
*Cefa çekip Yaradan'a oldu qarip*
*Garip olup engellerden aştım işte.*

*Gönlüm katı, dilim acı, kendim zalim;*
*Kur'an okuyup amel kılmaz sahte alim;*
*Garip canımı harcayayım, yoktur malım;*
*Hak'tan qorkur ateşe girmeden piştim işte*

Qəzəl şəklində hikmət:

*Aşkın kıldı şeyda beni, cümle alem bildi beni*
*Kaygım sensin dünü günü, bana seni gereksin seni.*

*Taala'llah zihi ma'ni, sen yarattın cisim ve canı,*
*Kulluk kılsam dünü günü, bana seni gereksin seni.*

*Gözüm açtım seni gördüm, hep gönülü sana verdim,*
*Akraba terkini kıldım, bana seni gereksin seni.*

*Söylesem ben dilimdesin, gözlesem ben gözümdesin,*
*Gönlümde hem canımdasın, bana seni gereksin seni.*

*Feda olsun sana canım, döker olsan benim kanım,*

*Ben kulunum sen sultanım, bana seni gereksin seni.*

*Alimlere kitap gerek, sufılere mescit gerek,*
*Mecnun'lara Leyla gerek, bana seni gereksin seni.*

*Gafillere dünya gerek, akillere ukba gerek,*
*Vaizlere minber gerek, bana seni gereksin seni.*

*Alem tamam cennet olsa, hep huriler karşı gels*
*Allah bana nasip kılsa, bana seni gereksin seni.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Cennete girem cevlan kılam, ne hurilara nazar kılam,*
*Onu bunu ben ne kılam, bana seni gereksin seni.*

*Hace Ahmed'dir benim adım, günü günü yanar odum,*
*İki cihanda ümidim, bana seni gereksin seni.*

**Hollavar:** Azərbaycan şifahi xalq şeirində əkinçiliklə, şumlama ilə bağlı söylənən şeirlər. Belə şeirlər əsasən bayatı şəklində söylənir. Avazla deyildiyi üçün türkü kimi də oxunula bilir:

*Qara kəl elin varı,*
*De, dərdin bilim barı.*
*Məni mağmun eyləmə,*
*Açılsın dilin barı.*

*Qara kəlim naz eylər,*
*Quyruq bular, toz eylər.*
*Ay qaranlıq gecədə,*
*Kotanı pərvaz eylər.*

*Öküz öküz xan öküz,*
*Boynu qızıl qan öküz.*
*Keç çayırdan, çəməndən,*
*Sənə can qurban, öküz.*

*Öküzüm gedər işə,*
*Qorxuram bağrı pişə.*
*Nola bir bulut gələ,*
*Göydən yerə nəm düşə*

**Hoşlama:** Türk aşıq deyişməsinin bir bölümü. Buna «mərhabalaşma» («salamlaşma») da deyilir. Aşıqlar dinləyiciləri salamlamaq və ya xoşgəldiniz demək üçün «xoşgəldiniz», «səfa gəldiniz», «mərhaba» kimi rədiflərlə və ayaqlarla qarşılıqlı qoşma dördlükləri və ya divanilər oxuyurlar.

Konyadakı X aşıqlar bayramının açılışında söylənilən xoşlamalardan bir neçəsi.

*Aşıq Taşlova:*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Aşıklar meclisinə, mehmanlar, hoş geldiniz,*
*Böyle hayır-dua yoktur, erkanlar, hoş geldiniz.*
*Amirallar, komutanlar hepiniz gecemize,*
*Ankaradan çiftər, çiftər bakanlar, hoş gəldiniz.*

*Aşıq Çobanoğlu:*

*Aşıkların yarasına dermanlar, hoş geldiniz,*
*Erkanlar, sonra sizler loğmanlar, hoş geldiniz.*
*Aşığın göz yaşı derya ucudur deli gibi,*
*Bizlərə öndər olan kaptanlar, hoş geldiniz.*

*Aşıq İlhami:*

*Biz kimi aşk yoluna yananlar, hoş geldiniz,*
*Aşk meydanında pervane dönenler, hoş geldiniz.*
*İnsanoğlu tabiattır gah açılır, gah solur,*
*Yerde, gökte türlü mana sunanlar hoş geldiniz.*

(Örnəklər prof. Umay Günayın "Türkiyede Aşık Tarzı Şiir Geleneyi ve Rüya Motifi" kitabından götürülmüşdür. Ankara, 1993, s.48)

**Hu (Hu):** ərəbcə "O" mənasını ifadə edən ilahi isimlərdəndir. Yəni Allahın ismidir. Sufilərin arifləri Allah sözünü ululuq mərtəbəsində "Hu" şəklində ifadə edirlər. "Hu" ilə bağlı deyişlərdən bəzisi: Bir işin bitdiyini bitirmək üçün ya "Hu" və ya "Artıq bu işə ya Hu" dedik deyirlər. Birisini çağırarkən "Ya Hu" və ya "Qonşu, Hu" deyilir.

Bəzən də gerçəyin Allah qatında məqbul olduğunu, onun niyaza layiq olduğunu bildirmək üçün sözünü "Gerçəyə hu" sözüylə bitirərlər.

Örnəklər:

*Süzülü o çeşmi ahu dedi zevk-i vasla ya Hu,*
*Bu değildi neyleyim, bu yolum intizara düştü.*

***(Şeyx Qalib)***

*Hu dedim*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Her gece kudsiler üzerine gönülden Hu-Hu dedim*
***(Mevlana)***

*Ey safa ehli sufi, gönülden Allah Hu, de*
*Ey vefalı aşık, candan Allah Hu, de(Mevlana)*

*Ravza-i Hu'yu məqam et ey Camali Xəlvəti,*
*Ta vücudun mülkünə kəşf ola bu əstari Hu*
***(Camali Xəlvəti)***

*Məhəbbət ötəri hal da deyilmiş,*
*Hu çəkdim, Kərəm tək aha dayandım.**(Ağ Aşıq)***
*Ya Rab, aşkını ver bana.*
*Hu diyeyim döne döne.*
*Aşık olayım ben sana*
*Hu diyeyim döne döne.* ***(Seyyid Nizamoğlu)***

**Hürufilik (Hurufilik):** Hərflərin texniki tərəfləri ilə bağlı görüşləri inkişaf etdirməklə hürufiliyi bir fəlsəfi-dini fikir sistemi olaraq quran şəxs azərbaycanlı Şəhabəddin Fəzlullah Nəimidir (1339-40/1394). Fəzlullah çox gənc yaşında ilahiyyat ilə maraqlanmağa başlamış, on səkkiz yaşında təsəvvüfə yönələrək həccə getmişdir. Qayıdanda Xarəzmə gəlmiş və bir müddət burada qaldıqdan sonra Təbrizə keçmişdir. Burada ətrafına topladığı insanlarla etdiyi dini söhbətlər sayəsində böyük ehtiram qazanmışdır. 1386-ci ildə öz təlimini Təbrizdə elan etmiş, daha sonra İsfahanda bu fikri sistemli yaymağa başlamışdır. Uzun müddət bir mağarada inzivaya çəkildikdən sonra Fəzlullah özünün «Mehdi» olduğunu irəli sürmüşdür. Ətrafındakı yeddi inanılmış xəlifəsi və daha sonra çoxsaylı müridləri ilə yeni inancın təbliğinə başlamışdır. Qısa müddətdə müxtəlif ictimai təbəqələrdən olan insanlar bu yeni axının ətrafında toplanmağa başlamışdır. Fəzlullah düşüncələrini «Cavidani-kəbir», «Ərşnamə», «Məhəbbətnamə», «Növmnamə», «İsgəndərnamə» adlı əsərlərində bəyan etmişdir.

Yeni sistemin yayılması hakim dairələrdə narahatlıq yaratmışdır. Əmir Teymurun oğlu Miranşahın əmri ilə Fəzlullah həbs edilmiş, 1394-ci ildə Naxçıvanda Əlincə qalasında öldürülmüşdür. Onun cəsədi ayaqlarına bağlanmış iplə çəkilərək ibrət



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olsun deyə küçələrdə dolaşdırılmışdır. Fəzlullahın tərəfdarları isə təqiblərə məruz qalmışdır.

Hürufi nümayəndələrindən Əhməd Lorun 1427-ci ildə Şahruxa qarşı bir sui-qəsd cəhdindən sonra müridlərdən bir qismi yaxalanıb edam olunmuş, 1467-ci ildə isə Qaraqoyunlu hökmdarı Cahanşaha qarşı Fəzlullahın qızının rəhbərliyi ilə başlayan bir qiyam amansızlıqla yatırılmış və üsyanın rəhbəri beş yüzə qədər tərəfdarla edam edilmişdir. Bu hadisələrə görə hürufiliyə bağlı insanlar dağılsalar da görüş və inanclarını tamamilə itirməmişdilər.

Əbdülbaqi Gölpınarlı *«Hürufilik mətnləri kataloqu»* adlı əsərində hürufiliyin Anadoluda Mir Şərif və xüsusilə böyük Azərbaycan şairi İmadəddin Nəsimi tərəfindən yayıldığını bildirir. İ.Nəsimi XV əsr Azərbaycan ədəbiyatının ən nüfuzlu şairidir. O eyni zamanda bu dövrdə Azərbaycan, İran, İraq və Anadoluda yayılan hürufilik təriqətinin də qüdrətli şairidir. İ.Nəsimi hürufiliyin gülünc tərəflərini almamış və onun gözəl, vəcdli və həyəcanlı şerləri ilə hürufiliyin yayılışında təsiri olmuşdur. Zənnimizcə, K.Ə.Kürkçüoğlu Abbas əl-Əzzaviyə istinadən «Nəsimi olmasaydı, hürufilik bu qədər geniş yayılmaz və zamanımıza gəlib çata bilməzdi» deyərkən tamamilə haqlıdır.

Anadoluda olduqca çox yeri gəzən və uzun müddət qalan İ.Nəsiminin bir çox insanı hürufiliyə cəlb etməsi şəksizdir. Bu insanların sonradan çox ardıcıl və təsirli bir təbliğat apardığını, Fateh Sultan Məhəmməd dövründə Osmanlı sarayına qədər girmiş olmalarından anlaşılır.

Hürufilikdə “Quran”ın təvili və yozumu saylar üzərində qurulmuşdur. Bu təriqət şiə təmayüllü olsa da, yaranışından etibarən istər şiə, istərsə də sünni məzhəblərinin daşıyıcıları arasında tərəfdar tapmış, xüsusilə təsəvvüf xətti ilə ədəbiyyat və təriqətlərə təsir etmişdir.

Hürufilik anlayışı hərflərin bir növ sirlərinə əsaslanıb XIV əsrdə sistemli şəkildə yayılmağa başlayıb. 1398-ci ildə Fəzlullah Hürufi tərəfindən Xorasanda qurulmuşdur. Hürufilik kainatı sadəcə hərflərdən ibarət görməkdir. Bu cərəyana görə kainatdakı hər şey 32 hərfin üzərində qurulmuşdur və kainatdakı hər şey bu hərflərdən meydana gəlmişdir. Fəzlullah Hürufi



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

və onun hərflərin sayına olan xəyal düşüncəsini türk ədəbiyyatına Seyid İmadəddin Nəsimi gətirmişdir. Nəsiminin faciəli şəkildə öldürülməsindən sonra hürufilik Anadoluda da ələvi türklər arasında sürətlə yayılmağa başladı, və ən çox da Bektaşiliyə təsir etdi.

Hürufilik təriqəti haqqında Hüseyn Ayanın belə açıqlaması vardır.

«Bilindiyi kimi ədəbiyyatımızda hərflərə və saylara taxılıb qalan şəxslər vardır. Bunlardan bir qismi çox əskilərdən gəlib və «Əlifba»nın bəzi hərflərinin təşəkkülünü asanlaşdıran füqurlar meydana gətirən və dolayısı ilə ədəbi sənətləri zənginləşdirən təbirlərin yaranmasına səbəb olan hərflərdir. Əlif, Cim, Dal, Ra, Sin, Mim, Nun, Lam kimi. Hərflərin sıralarında olduğu kimi nöqtələrin də çeşidli şəkildə hesablanması ilə bəzi təbirlərdən xəyallar doğmuşdur. Ayrıca «Qurani Kərim»də «Hürufi Mukatta» deyilən və bəzi surələrin başında Əlif, Lam, Ra, Ta, Ha, Mim, Kaf, Nun kimi hərflərin olması və mənalarının Həzrət Peyğəmbərdən başqa heç kim tərəfindən bilinməməsi səbəbi ilə bəzi kəlmələrlə Allahın sirrini çözməyə çalışılmış, gətirilmiş yozumlar daha sonralar «Hürufilik» cərəyanının meydana gəlməsinə səbəb olmuşdur. Heç bir elmi əsasa dayanmayan hürufilik sadəcə hərflərlə məşğul olmamış, insan üzündə 7 sayını (2 qaş, 4 kirpik, 1 saç) görmüş, öz düşüncə və xəyal aləminin bir başqa yöndən gərəkliyini saxlamaq üçün bu sayı səkkizə çıxarmış, bunu dörd ünsürə vurmuş, ikiyə bölmüş və beləliklə əmələ gətirdiyi sistem sayəsində kainatın sirrini çözdüyünü irəli sürmüşdür. (Bax: V Uluslararası Türk Halk Edebiyatı Seminarı Materialları. Eskişehir, 1991, s.17.)

Mustafa Nihat Özön isə Hürufilik cərəyanının mahiyyətini belə açıqlayır:

«Fəzlullah tərəfindən qurulan bir təriqətdir. Bu təriqət XVI-XVII əsrlərdə Anadolu və Rumelinə yayılmışdır. Sonra Bektaşi və Qızılbaş inancları arasında genişlənmişdir. Hulul və Tənasüh hürufiliyin təməlidir. Allah Adəmi dörd ünsürlə (od, hava, su, torpaq) yaratdı və bu vücuda dörd ruh (nəbati, heyvani, cismani və insani) qoydu və bu dörd ruh qarşılığı dörd orqan (qulaq, burun, göz, ağız) yaratdı və bunlara qarşılıq olaraq dörd nəfs (əmmarə, levvanə, tilhəmə, mütmainə) yaratdı və bu



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nəfsin üzərinə dörd aləm (aləmi – nasut, lahut, məlakut, cedərut) verdi və bu aləmə dörd mələyi (Cəbrayıl, İsrafil. Mikayıl, Əzrayıl) məmur etdi və bunların üzərinə dörd qüvvət (Saima, Şamma, Başıra, Zaika) qoydu və bu dörd gücə qarşı dörd kitab (Zəbur, Tövrat, İncil, Quran) verdi, dörd kitabın müqabilində dörd hərf (R,S,Y,D) verdi və bu hərflərin üzərində on iki nöqtə vardır ki, bunlar da on iki imama işarədir (buradan başlayaraq Bektaşı inancı bu düşüncələrə qarışır). On dörd təmiz məsum Peyğəmbərin zövcəsi Xədicə, qızı Fatimə və on iki imam; bunlar 28 edər ki, bu da iyirmi səkkiz hərfin qarşılığıdır. Həzrət Məhəmməd (s.a.s.) ilə Həzrət Əli (s.a.s.) bir sayılır. Bu da 29-cu hərfi, yəni Lam Əlifi meydana gətirmişdir. Bismillah – yeddi hərfdir. «Fatiəhə»də 7 hərf yoxdur (se, sim, hi, ze, şun, zi, te). Məhəmməd Əli (m, h, m, d, a, l, i) yeddi hərfdir. Hürufilik öz düşüncələrinə (doktorinə) uyan şairlər yetişdirdiyi üçün sonrakı şairlərə də təsirini göstərmişdir».(92, 124)

**Xalq etimologiyası (Halk etimolojisi):** Xalqın bəzi kəlmələri öz nöqteyi-nəzərindən izah etməsi deməkdir. Belə izah bədii əsərlərdə bir ədəbi vasitədir. Məsələn:

Əli Vəliyev əsərlərinin birində xalq etimologiyasına dayanaraq çox "savadlı" görünmək istəyən bir qəhrəmanı "kommunist" sözünün etimologiyasını belə açıqlayır: "Kommunist" ərəbcə "qövm" (qohum) və "nist" sözlərinin birləşmsindən yaranmışdır; qövm qohum-əqrəba, nist isə olmayan deməkdir. Beləliklə Komunist heç bir qohum-əqrəbası olmayan insan deməkdir.

**Xalq şairi (Halk şairi, ozan):** Xalq arasında yetişən, xalqın arzu və istəklərini dilə gətirən şairlərə xalq şairi deilmişdir. Ancaq bu təbir Azərbaycanda 1956-cı ildə dövlət tərəfindən verilən bir qərarla adlısanlı şairlərə ünvan olaraq verilməsindən sonra işlənməyə başlanmışdır. Azərbaycanda bu titul ilk dəfə 1956-cı ildə Səməd Vurğuna 50 illiyi münasibətilə verilmişdir. Daha sonralar Süleyman Rüstəm, Məmməd Rahim, Rəsul Rza, Osman Sarıvəlli, Bəxtiyar Vahabzadə, Süleyman Rəhimov, Balaş Azəroğlu, Məmməd Araz kimi onlarla məşhur şair və yazıçı Azərbaycan dövləti tərəfindən "Xalq şairi" və "Xalq yazıçısı"adlarına layiq görülmüşdür.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türkiyədə isə xalq şairi xalqın içərisindən çıxıb aşıq tərzi şeirlər yazan şairlərə deyilir. Milli düşüncələrə sahib, yazılı ədəbiyyatın görkəmli nümayəndələrinə ədəbiyyatçılar milli şair deyirlər. Milli şair dövlət tərəfindən verilən ünvan deyildir. Bu ad xalqın özünün milli hesab etdiyi, millətin həqiqi sevgisini qazanan bir növ qeyri rəsmi tituldur.

**Xalq şeiri (Halk şiiri):** Xalq şeirinin mənzum olanları və milli şeirin aşıqlar tərəfindən heca vəzni ilə yazılmış formaları. Belə şeirlər əsasən heca vəzni ilə yazılır. Milli şeirin layla, oxşama, bayatı, ağı, qoşma, gəraylı, gözəlləmə, divani kimi forma və şəkillərində yazılır.

Türk folklor ədəbiyyatlarında xalq şeiri anonim xalq ədəbiyyatının mənzum olanları və aşıq ədəbiyyatı təmsilçiləri olan saz şairləri tərəfindən meydana gətirilmiş, əsasən heca vəzni ilə, bəziləri də əruzla yazılmış şeirlərdir. Xalq şeirinin müxtəlif ölçü və şəkilləri vardır: qoşma, varsağı, səmai, gözəlləmə, taşlama, koçaklama, satranc, selis, ağıt, muamma, kalenderi, mani, türkü, ninni və s.

**Xalq tamaşaları (Halk tiyatrosu):** Folklorun anonim janrlarından biri. Bu janr «Xalq tamaşaları», «Xalq dramları», «Xalq teatrı» adları ilə də terminologiya lüğətlərində və dərsliklərdə qeyd edilməkdədir.

Xalq tamaşaları xalqın törənləri, ayinləri, nəğmələri və xalq oyunları ilə şəkillənib yayılmışdır.

Əslində xalq tamaşaları mövsüm mərasimlərinin icrası əsasında ortaya çıxmışdır. Bu mərasimlər get-getə inkişaf edərək xalq tamaşalarına çevrilmişdir. Məsələn: Novruzla bağlı «Qodu-qodu», «Kosa-kosa», «Tənbəl qardaş» kimi oyun tamaşalar Azərbaycan xalqının həyatında geniş yer almışdır. Məsələn: «Kosa-kosa» oyununda əsas qəhrəman Kosa və Keçidir. Kosa qışın, keçi isə ilk baharın rəmzidir. İlk oyunda keçi, yəni ilk bahar qalib gəlir.

Xalq tamaşaları mövzu və mündərəcəyə görə çoxdur. «Kəndirbaz oyunu», «Tapdıq çoban», «Kaftar quş», «Kukla», «Kilimarası», «Maral oyunu» kimi oyunlar əsrlər boyu xalq tamaşaları kimi göstərilmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Prof. Azad Nəbiyev xalq tamaşaları və onun erkən törəmələrini belə qruplaşdırır. «Cıdır tamaşaları», «Zorxana tamaşaları», «Əyləncə tamaşaları», «Gözbağlıca tamaşaları», «Kəndirbaz tamaşaları», «Masxara tamaşaları», «Qaraçı tamaşaları», «Buğa döyüşdürmə», «Nər döyüşdürmə», «Qoç döyüşdürmə», «İt döyüşdürmə», «Xoruz döyüşdürmə», «Yumurta döyüşdürmə» və s. (21, 430-479)

Günümüzdə türk folklor terminologiyasında işlənən «Xalq tiyatrosu» termini folklorun bir janrı kimi qəbul edilmişdir. Əslində türk ədəbiyyatı terminləri sözlüyündə «teatro» termini yazılı ədəbiyyata aiddir. Xalq ədəbiyyatında «teatro»ya «oyun» deyilmişdir («Karagöz oyunu», «Kukla oyunu», «Orta oyunu» kimi).

Azərbaycan folklor terminologiyasında işlənən «xalq tamaşaları» ilə Türk folklor terminologiyasında işlənən «xalq oyunları» eyni məna kəsb edir. Bununla belə terminologiyada qəbul olunmuş «Xalq tiyatrosu» ifadəsi xalqın törənlərini, ayinlərini və xalq oyunlarını ifadə edən tamaşalara aiddir. Xalq teatrosu xalqın törənləri, ayinləri və oyunları sayəsində yaranmış və genişlənimşdir. Bu teatr şifahi ədəbiyyatın üzərində inkişaf etmişdir.

Türkiyədə yazılı teatrın tarixi XIX əsrə aiddir. Amma şifahi xalq teatrının (xalq oyunlarının) tarixi türk tarixinin çox qədim dövrlərinə aiddir. Bu teatr islamiyyətdən əvvəl və islamiyyətin qəbulundan bu günə qədər müxtəlif bölgələrdə yaşayan türk xalqları arasında inkişaf edib yaşamış və diqqətəlayiq örnəklər vermişdir. «Hokkabaz», «Köçək», «Canbaz», «Curguna», «Cengi», «Meddah», «Karagöz», «Kukla», «Orta oyunu», «Köy orta oyunu» kimi adlar xalq teatrının adlarıdır.

**Xalq yaradıcılığı (Halk sanatı):** Xalqın yaradıb ortaya çıxardığı mədəniyyət örnəkləri. Xalqın estetik yaradıcılıq fəaliyyətini ifadə edən bu ifadə xalq musiqisi, xalq teatrı, xalq tətbiqi sənət əsərləri, xalq memarlığı, xalq rəssamlığı, xalq oyunları kimi bir sıra sənət növləri üçün işlədilən bir termindir.

Azərbaycan ədəbiyyat terminləri içərisində folklor mənasını ifadə edən şifahi xalq yaradıcılığı terminindən də istifadə edilir.

**Xanə (Hane):** Əsli fars dilindəki "xana" ev sözü ilə bağlıdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Folklor termini olaraq şeirin dörd misrasına verilən ad mənasını ifadə edir.

Türk və Azərbaycan aşıq şeirində şeiri meydana gətirən dördlüklərdən hər birinə xanə, (türkcə "hane") deyilir. Qoşma, varsağı, gözəlləmə kimi şeirlər üç və daha artıq xanədən ibarət olur. Xanələrin hamısına birlikdə türk folklor ədəbiyyatlarında katar, Azərbaycan folkloru ilə bağlı ədəbiyyatlarda isə qatar deyilir. Aşağıdakı türk aşıq şeirinin hər dördlüyü bir xanə, hamısı birlikdə qatardır:

*Ben bu aşkın çilesini,*
*Yanar çekdim, tüter çekdim.*
*Yedim qonca sillesini,*
*Bülbül kimi öter çekdim.*

*Dizgin etsem könül atın,*
*Keçer gögün yedi katın.*
*Yalan dünya maslahatın*
*Gah bitmez, gah biter çektim.*

*Seyrani bilmem mert midir?*
*Yoksa cana comert midir?*
*Eyyubun derdi dert midir?*
*Ben ondan beş beter çektim.* ***(Aşık Seyrani)***

Azərbaycan aşıq şeirindən örnək:

*Halım olubdu pərişan,*
*Görünməz yarım, ağlaram.*
*Düşmüşəm dəryayi-qəmə,*
*Artıb ah-zarım, ağlaram.*

*Bağça qalıbdı bülbülsüz,*
*Bülbül necə yaşar gülsüz.*
*Göz yaşını tökər dilsiz,*
*Artıbdı zarım ağlaram.*

*Soltanam, qaldım avara,*
*Görən əl çatarmı yara?*
*Şad ikən düşdüm azara,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Közərib narım, ağlaram.* ***(Aşıq Soltan)***

**Xanəgah (Hanegah):** Bir təriqətin bütün təkkələrinin bağlı olduğu və şeyxin yaşadığı, təriqətin ən ali məqamdakı təkkəyə deyilir. Təkkələr əsasən təhsil və tərbiyə məkanları olub, ara-sıra məscid vəzifəsi də görürdü. Şeyxin ailəsi ilə birlikdə qaldığı hissə, umumiyətlə, təkkəyə bitişik olurdu. Zaman keçdikcə təkkələr memarlıq baxımından da inkişaf etmişdi. Məsələn, mükəmməl quruluşlu xanəgahda bu bölmələr mövcud olurdu: səmaxana, xəlvətxana, hücrələr-dərviş otaqları, kiler-mətbəx, qəhvəxana ocağı, hamam, məscid, axur, şeyx türbələri.

Həmişə təkkədə qalan dərvişlər eyni zamanda təkkə xidmətlərini də həyata keçirirdilər. Təkkənin məsrəfləri vəqflər yolu ilə əldə olunur, dərvişlər də qazandıqlarının bir qismini bağlı olduqları dərgaha bağışlayırdılar. Zikr məclislərində bəstəli olaraq ilahilər oxunduğu üçün şeir və musiqi dünyası təkkələrlə yaxından əlaqəli idi. Başqa sözlə, təkkələr, dini və ictimai funksiyası ilə yanaşı, ədəbiyyat və incəsənətin mühafızə və inkişafında da rol oynamışdır. Azərbaycanda bir çox xanəgah olmuşdur. Bunlardan biri də Seyid Yəhyanın xanəgahı və qəbri-dir. Seyid Yəhya Bakuvi xanəgahı Bakıda bu gün «İçərişəhər» adlanan yerdə Şirvanşahlar sarayı kompleksinin içərisindədir.

Bir başqa xanəgah da Pirsaat çayı yanındakı Pir Hüseyin Xanəgahıdır. Bu xanəgah tam təşəkküllü bir sufi kompleksi olub, Azərbaycandaki ən qədim xanəgahlardan biridir.

**Xəlvətxana (Halvethane):** Xəlvətxana sufilərin xəlvətə çəkildikləri kiçik ölçülü, ümumiyyətlə, xarici aləmdən təcrid edilmiş bir məkan olub. “xəlvətgah”, “çiləxana” kimi adlarla da qeyd olunur.

Lüğəti mənası «tənha yer», «boş məhəl», «tənha yerə çəkilmə»dir. Xəlvət etmə və ya xəlvətə çəkilmə tamamilə tənha qalmaq və ya başqası ilə təklikdə söhbət etmək üçün tənha qalıb heç kimə qoşulmamaqdır. İstilah kimi xəlvət təriqətə mənsub bir müridin müəyyən bir vaxtdan sonra şeyxinin istəyi ilə insanlardan uzaqlaşaraq tənha bir yerdə, çox zaman təkyələrin xəlvətxana deyilən xüsusi bölmələrində inzivaya çəkilməsi və bir müddət, ümumiyyətlə, 40 gün içində davamlı



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olaraq Haqqı zikr etməsidir. Bir başqa ifadə ilə desək, xəlvət ibadət, zikr, riyazət və müraqəbə ilə məşğul olmaq üzrə tənha bir hücrəyə qapanmadır.

Xəlvət ümumiyyətlə, 40 gün sürdüyü üçün buna «ərbain çıxarmaq» və «çilə çəkmə» də deyilmişdir. «Ərbain» ərəbcə, farsca «çehel»in təhrif olunmuş variantı olan «çilə» ifadəsi də ilk mənasında «qırx» deməkdir. Belə ki, «Çiləxana» da «çehelxana»nın təhrif olunmuş variantıdır. «Xəlvətnişin» xəlvətə girən, tənhalıqda oturan kimsəyə deyilmişdir. «Xəlvəti» isə artıq xəlvətə daha çox əhəmiyyət verən, xəlvəti təriqətinə mənsub olan şəxsdir. «Xəlvət» kəliməsindən «xəlvətgah» («tənhalıq» və «xəlvət məqamına məxsus yer»), «xəlvətgüzin» («xəlvət yolunu seçən», «tənha yerə çəkilib ibadət, zikr və müraqəbəni seçən») «təriqi-xəlvəti» «xəlvətiliyə məxsus yol, təriqət, məşrəb»), «dərvişi-xəlvəti» («xəlvəti yoluna süluk edən dərviş») kimi xüsusi ifadələr və tərkiblər də törəmişdir.

Xəlvətxana eləcə də xəlvətgah VIII əsrdən etibarən sufilərin nəfslərini tərbiyə etmək məqsədilə ibadət və təfəkkürə daldıqları xəlvət dövrü istifadə etdikləri məkanlardır. Memarlıq baxımından təsəvvüf həyatının bir sahəsini və dövrünü əhatə edəcək bir xəlvətxana prototipini tapmaq mümkün deyil. Belə ki, təriqətlərin hələ formalaşmadığı dövrdə sufilərin olduqca fərqli məkanlarda xəlvətə girdikləri anlaşılır. Xəlvət məhəlli, bəzən Babakuhinin etdiyi kimi tənha bir mövqedə olan bir mağara və ya Əbu Səid Əbülxeyrin həyatında bir örnəyi görünən xəlvətxanaya özünü başıaşağı asdırdığı quyu və yaxud da Pir Ömərin meşədə bir ağac qovuğuna çəkildiyi kimi də olmuşdur.

Ancaq XI əsrin ortalarından etibarən təriqətlərin ədəb və ərkanlarının ciddi qaydalara bağlanmasına paralel olaraq xəlvətxanalara məxsus xüsusiyyətlər üzə çıxarılmışdır. Şeyx Sührəverdinin "Əvarifül–məarif" əsərindəki izaha görə xəlvətxana bir dərvişin içində təkbaşına namaz qıla biləcəyi ölçüdə, xəlvətə girənin diqqətinin xarici aləmə aid bir sıra cəhətlərə yönəlməsinə imkan verməyən daha çox qaranlıq bir hücrədir.

Xəlvətilik təriqətinə aid xəlvətxanaların ən qədim örnəkləri Şamaxıda və Bakıdadır. Seyx Yəhya dövründə Bakıda tikilmiş Şirvanşahlar sarayı kompleksində yerləşən şah məscidi və xan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ailəsi türbəsinin künclərində yerləşən kiçik otaqlar xəlvətxanadır.

Zahid və mütəsəvviflərin ən qabarıq özəlliklərindən biri tənha yaşamağı üstün tutmaları və Haqqla olmaq üçün xalqdan ayrı qalmağa əhəmiyyət verməleridir. Başlanğıcda cəmiyyət həyatını tərk edib, evinin bir guşəsində inzivaya çəkilən və ya tənha yerlərdə yaşamağa üstünlük verən zahidlər daha sonrakı dövrlərdə də bu adətlərini davam etdirmişlər. Bəzi mütəsəvviflər və təriqət mənsubları, bu yolda onları təqib edərək xəlvəti sufiyanə həyatın bir ünsurü halına gətirmişlər.

Sufilikdə xəlvətin qırx gün ərzində həyata keçirilməsinin əsasını qoyan Şeyx Sührəverdi olmuşdur. O, Hz. Musanın Sina dağında Allahla danışmaq üçün qırx gün oruc tutmasına əsaslanaraq xəlvətin qırx gün olmasının səbəb və hikmətini açıqlamış və «qırx gün müddətində nəfsinə nəzarət edərək Allaha yönələn kimsəyə Allah lədün elminin qapılarını açar» – demişdir

Niyazi Misri, demişdir ki,

*Getdi kəsrət, gəldi vəhdət, oldu xəlvət dost ilə,*
*Həp haqq oldu cümlə aləm, şəhrü bazar qalmadı.*

**Xəlvətiyyə (Halvetiye):** Şeyx Abu Abdullah Sıraciddin Ömər Şeyx Ekməlüddin Lahıci (ölümü 1349) tərəfindən Şirvanda qurulmuş bir təsəvvüf məktəbi. Bu zat xəlvətə çox önəm verirdi. Hətta hər kəsdən uzaq qalmaq üçün içi boş böyük bir çinar ağacına girərək, üst-üstə 40 dənə ərbain (qırx çillə) (1600 gün) çıxarması məşhurdur.

Xəlvətiyyə Azərbaycanda qurulmuş bir təsəvvüf məktəbidir. İki piri, yəni qurucusu vardır. Biri Lahıclı Ömər, ikincisi Seyid Yəhya Bakuvidir. XV əsrdə ən önəmli mərkəzi Bakı olmuşdur. Bu təsəvvüf məktəbinin silsiləsi bu şəkildədir:

1. Hz. Peyğəmbər
2. Hz. Əli
3. Həsəni-Bəsri
4. Həbibi-Əcəmi
5. Davudi-Tai
6. Maruf Kerhi
7. Sarı əs Sakahi



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

8. Cüneydi-Bağdadi
9. Mumşad Dineveri
10. Əbu Hafs Ömər Vecihüddin əl Bəkri
11. Abdülqahir Sührəverdi
12. Əbü Nəcib Sührəverdi
13. Qutbiddin Əhbəri
14. Şihabüddin Muhammed ət Təbrizi
15. Səyid Cəmaləddin Şirazi – Perseri
16. İbrahim Zahid Ceylani – Lənkəranlı
17. Ahi Muhammed Nur – Şirvanlı
18. Ömər Xəlvəti – Şamaxı
20. Ahi Əmrəm – Şamaxı
21. Hacı İzzəddin Şamaxı
22. Sədrəddin Hiyəvi – Şamaxı
23. Yəhya Şirvani Bakuvi

**Xərabət (Harabat):** Əsli ərəbcə bir kəlmə olub xarab evlər, viranələr deməkdir. Məcazi mənası meyxanə deməkdir. Təsəvvüfdə təkkə, könül, maddi varlıqdan fani olmaq, nəfsani arzuları təxrib etmək və pis əxlaqı yıxıb, yox etməkdir.

*Alimlər, ulamələr mədrəsədə buldusa,*
*Mən xərabət içində buldum nə oldu.* ***(Yunus Əmrə)***

*Harabat ehlini hor bakma sakın*
*Define bulunur viranelerde. (Seyrani)*

*Ben harabet ehliyem yoktur kararım ta ebed*
*Bade-i aşk içmişem gitmez humarım ta ebed* ***(Hakkı)***

*Xərabət üstündən bir səs ucaldı,*
*Fələyin damına bir çadır saldı.*
*Qəflətən ucaldı hatifdən bir səs,*
*Bu dünya bir saman çöpünə dəyməz.* ***(Məhsəti Gəncəvi)***

*Bir qəlp pulu bizdən almırlar inan!*
*Süpürür hamını əcəl dünyadan.*
*Xərabətdən çıxıb dedi bir qoca:*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*“Şad yaşa, torpaqda çox yatacaqsan”.* ***(Məhsəti Gəncəvi)***

**Xızır (Hızır):** Azərbaycan və Türk dastan və əfsanələrində bir motivdir.

Xalq ədəbiyyatının önəmli bir ünsürü olan Xızır motivi dastan qəhrəmanlarına yol göstərib onlara yardım edər.

Xızır inancı türk xalqları arasında hələ də varlığını sürdürməkdədir.

Azərbaycan və Türk mifologiyasında insanın ölməzlik qazandırıldığına inanılan abi-həyatı (dirilik, ölməzlik suyunu) Xızır Peyğəmbərin içdiyinə və ölməzliyin sirrinə yetişdiyinə inanılır.

**Xıdırəlləz (Hıdırellez):** Xızır və İlyas isimlərinin birləşməsindən əmələ gəlmişdir. Anadoluda və türk xalqlarının yaşadıqları bir çox ölkələrdə 6 mayda qeyd edilir. “Xıdırəlləz”in “ruzi-xızır” yəni “yaşıllıq günü” mənasına gəldiyi izah edilməkdədir.

Xızır kəlməsi çayır, çəmən və yeni yetişən qönçə mənalarını da daşıyır. Bu günün Xızır və İlyas peyğəmbərin bir-biri ilə görüşməsi gününə təsadüf etməsi haqqında xalq arasında əfsanələr və etiqadlar da mövcuddur. Əfsanəyə və etiqada görə onların gəzildiyi və ayaq basdığı hər yerdə yaşıllıqlar əmələ gələn Xızır Peyğəmbərin İlyas Peyğəmbər ilə görüşməsi may ayının 6-a təsadüf etdiyindən bu gün hər il xalq arasında müqəddəs bir günün bayramı kimi qeyd edilir.

Sonralar xalq arasında Xızır və İlyas kəlmələri “Xızırəlləz”, “Xıdırəlləz”, “Xızır İlyas”, “Xıdır Nəbi” şəklində söylənilmişdir.

Türk xalqları mədəniyyətinin mühüm bir parçası olan Xıdırəlləz türklərin İslamiyyətdən əvvəlki inanclarından bir çox ünsürü daşımaqla bərabər, İslamiyyətin qəbulundan sonra bu bayram Xızır və İlyas Peyğəmbərlər haqqında yaranan əfsanəni yaşadaraq, soyuq günlərin bitdiyini və isti günlərin başladığını, təbiətin önəmli bir keçid dövründən xəbər verən bir gün hesab edilir. Bu gün türk xalqları tərəfindən törənlərlə qeyd olunmaqla canlılığını yaşadır.

Xızırəlləzlə bağlı inancların təməlində Xızırın qutsal gücündən faydalanma, onun köməyi ilə gələcəyin gözəl, bolluq və



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bərəkət içində olması, insanların bütün bir il sağlam, əmin-amanlıq içində keçirmə düşüncəsi var.

Türk xalqlarında havanın, suyun və torpağın isinməsi ilə təbiətin yaşıllığa boyanması artıq baharın gəlməsidir. Odur ki, bu günün təbiətə can gətirəcəyinə inanılmış, bütün ilin bərəkətli olacağı inancı ilə bu günü bayram etmişlər.

Xalq dastanları və nağıllarında Xızır Peyğəmbər qəhrəmanları şər-xətadan qoruyur, onlara xeyir-dua verir və onların muradına çatmasına çalışır. Odur ki, türk xalqlarının yaşadığı hər tərəfdə bəzi fərqliliklə bu gün bayram edilir.

Məsələn: Anadoluda Xıdırəlləz gecəsi hər evin qapısına yaşıl otlar, əsasən ısırqan otu (gicitkən) asılır.Bununla heyvanların bol süd verəcəklərinə inanılır. Bu gecə ağac yandırılaraq üzərindən üç dəfə atlanılır. Beləcə də qış tənbəlliyinin keçəcəyinə, odun şeytanın bədxahlıqlarını qovacağına inanılır.

Tədqiqatçılardan İsmail Ali Sarar Türkiyənin Sarıköy kəndində Xızırəlləz törənini belə anladır: “Bu torpaqlarda öncə sabahın erkən saatlarında dan yeri ağararkən çevrədən gələn bütün insanlar bir yerə toplaşırlar. Müxtəlif tədbirlər hazırlayırlar. Məsələn: evi olmayanlar axşamdan bir gül ağacının dibində bir “ev” tikərlər. Tarlası olmayanlar torpağı cizərlər. Evladı olmayanlar xeyirli evlad diləyərlər.

Qırx çeşmədən su toplayarlar, tonqal yandırarlar. (Bu törənlərin çoxu yüz illər boyu çeşidli türk topluluqlarında olmaqla bərabər,bu adətlərin böyük bir qisminin Orta Asiyadan gəldiyi də düşünülməkdədir) Sonra ocaqlar yandırılır, qazanlar qaynayır və bütün Sarı Köy əhalisi buğda, düyü və qurbanları ilə plov bişirirlər, çörək yapırlar. Günorta yeməyini birlikdə Yunus Əmrənin yatdığı yer ətrafında yeyərlər, sonra da dualar və mövlüd oxunar.

Anadolunun bəzi kəndlərində də Xızırəlləzdə məzarlar ziyarət edilir. Məzarlar çiçəklərlə, yarpaqlarla bəzənir. Bu bayrama bağlı xalq arasında yaşayan şeirlərdən örnəklər:

*Hızır, Hızır hız gelir,*
*Var dereden od gelir.*
*Hızıra hızır deyirler,*
*Hızıra çırak koyurlar*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ben Hızırın kuluyam,*
*Boz atının çuluyam.*
*Hızır getti hayınan,*
*Bir kulanca tayınan*

*Tayı balçığa batdı,*
*Hızır yanında yattı.*
*Hızır Nebi, Hızır Nebi,*
*Bitti çiçek, oldu yaz.*

Azərbaycanda "Xıdırəlləz" və ya "Xıdır Nəbi" adlanan bayramın da şən və təntənəli bayramlarban biri olduğu yazılmaqdadır.

Prof. Əhliman Axundov bu bayramın Azərbaycanda hər il kiçik çillənin 10-da keçirildiyini qeyd edir. Müəllif yazır:

"Çox ehtimal ki, bu mərasim Xıdır İlyas əfsanələriylə əlaqədardır. Xıdır (Xızr) dara düşənlərin xilaskarıdır. Nağıl və dastanlarda gösdərildiyinə görə Xıdır darda qalanlara ən çox qışda, boranda kömək edir. Xıdır Nəbi bayramı da qışın şiddətli vaxtında keçirilir. Bu mərasimdə Xıdır yazın gəlməsinin, təbiətin oyanmasının carçısı kimi göstərilir. Xıdır Nəbi bayramında yeyilən nemətlər, edilən şənliklər hamısı yaz fəslini, göy otlaqları, göy zəminləri çağırmaqla əlaqədardır. Qovurma, qovut, yarma, xəşil kimi yeməklər də yazı çağırmaq, havaya təsir göstərməklə əlaqədardır."

Bu mərasimdə uşaqlar, yeniyetmələr "Xıdır-Xıdır" mahnısını oxuyar, bayramlıq toplayarlar:

*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək oldu yaz.*
*Mən Xıdırın quluyam*
*Boz atının çuluyam!*

*Çatma, çatma, çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin,*
*Ayağı yerə çatmaya,*
*Gecə evində yatmaya. və s.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Xirqə (Hırka) (bax: aba):** Ərəbcə bir kəlmə olub, türkcədə də eyni şəkildə deyilir. Yamaqlı paltar deməkdir. Təriqət əhlinin geyimi. Önü açıq, yaxasız, geniş və qolludur. Dərvişlər xirqəni əsasən zikr əsnasında geyir.

Xirqə (hırka) Mövləvilərdə rəsmi geyimdir. Mürid şeyxin hüzuruna çıxarkən, məscidə, meydana (səma törəninə) girərkən xirqə geyər. Ancaq Mövləvilər bir qayda olaraq səmaya başlamazdan öncə xirqəni çıxarırlar.

Əskidən dərvişlər qazancının halal olduqlarına inandıqları insanlardan bez parçaları alır, bunlardan xirqə tikərdilər. Bu parçaları bir-birinə yamaqlı şəkildə tikildikləri üçün bunlara yamaqlı mənasını verən "murakka" da deyilirdi.

Xirqə geymənin təriqətə girmək kimi bir mənası da vardı. Ona görə də xirqə müridə bir törənlə geydirilirdi. Xirqənin müxtəlif rəngləri ola bilər. Süluku bitənlər bəyaz rəngli xirqə geyərlər.

*Şah Xətai, nələr gəlir dilimdən,*
*Həqiqət qurşağın çözmə belindən.*
*Neçə özün bilməz dərviş əlindən,*
*Xirqə ağlar, tülbənd ağlar, şal ağlar.* ***(Xətai)***

*Andelibim gül gerek, dal yokluğu yokluk değil,*
*Dervişim hırkam yeter şal yokluğu yokluk değil.*
***(Seyrani)***

**Xoyrat (Hoyrat):** Türk boylarında bayatı (Azərbaycan), mani (Türkiyə), kuşik, cing (özbək, tatar) adı ilə bilinən şeirlərə İraqdakı Kərkük Türkmənlər «hoyrat» deyirlər. Azərbaycan şifahi xalq şeirindəki bayatılara da bəzən xoyratlar deyilir. Tədqiqatçıların da yazdığı kimi, bayatı, mani, kuşik və xoyratlar arasında həm məzmun, həm də forma cəhətdən əsaslı bir fərq yoxdur. Bunlar 4 misralı, 7 hecalı olurlar. Bəzən xoyratların birinci misrası 4 hecalı da ola bilər.

*Al, çax fələk,*
*Tüfəngin al, çax fələk!*
*Mərdi namərd edibsən,*
*Namərddən alçax fələk*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oxuyandı,*
*Yar kitab oxuyandı.*
*Ox atdı məni vursun,*
*Sinəmdə oxu yandı.*

*Fələyi dindirəydim,*
*Bilməzin bildirəydim.*
*Mənə yazı yazanda,*
*Qələmin sındıraydım.*

*Divara daş qoymuşam,*
*Uğrunda baş qoymuşam.*
*Gözlərimdən qan gəlir,*
*Adını yaş qoymuşam.*

**İbadət (İbadet):** Əsli ərəbcə bir kəlmə olub, "qulluq, tapınma" mənasını ifadə edir. İbadət-qulluq vəzifəsini islamiyyətin bildirdiyi şəkildə yerinə yetirməkdir. İbadət Allah-Təalanın əmr və qadağan etdiyi şeylərə uyaraq ona riayət etməkdir.

"Allah – Təalanı görür kimi ibadət et! Sən onu görmürsən, o isə səni görür", "Alimin yuxusu cahilin ibadətindən xeyirlidir." ("Hədisi – Şərif")

*Hakk'a yakın olayım dersen ibadet eyle,*
*İbadet eyleyen Hakk'a yakın olur olmalı.* ***(Ahmet Yesevi)***

*Dörd şey vardır bir qarındaşa lazım,*
*Bir xeyir, bir şər, bir ibadət, bir niyaz.****(Xətai)***

*Haqq bizə göndərib dəlili-ayət,*
*Oruc tut, namaz qıl, eylə ibadət.*
*Mehdi qoşununda olma xəcalət,*
*Məhşərdə yerini dar eyləməynən!* ***(Aşıq Ələsgər)***

**İxlas (İhlas):** Xalis, səmimiyyət, niyyəti düzəltmək, təmizləmək, dünya malını düşünmədən bütün işlərini, ibadətlərini yalnız Allah üçün etmək. Əməlin işə, işin əmələ uyğun olması. Riyakar və ikiüzlü olmamaq.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İslamda inancın ruhu tevhid, ibadətin ruhu ixlas, dünyəvi işlərin ruhu ədalətdir.

İxlas surəsi: "Qurani-Kərim"in yüz on ikinci surəsi. Tevhid, Təfrid, Təcrid, Vilayət və Mərifət surəsi də deyilmişdir. Dörd ayət kərimədir. Surədə: İslam dininin Tevhid (Allah-Təalanın bir olduğunu bilmək) inancı ən anlamlı şəkildə ifadə edilmişdir. İxlas surəsində Allah-Təala buyururdu ki, "Ya Məhəmməd! De ki, Allah birdir. Saməddir. Heç bir şeyə möhtac değil, hər şey ona möhtacdır, doğurmamışdır, doğulmamışdır. Heç bir şey onun bənzəri deyildir".

*Gəlib ixlas ilə yola gedənin,*
*Zərrəcə könlündə güman gərəkməz.*
*Sil-süpür qəlbini, evin pak eylə,*
*Möminin aynası duman gərəkməz.* ***(Xətai)***

*Ey Vidadi, yenə xan qulluğunda*
*Qayim olub nə qiyamət eylərsən.*
*Yaman gözdən Allah özü saxlasın,*
*İxlas ilə yaxşı xidmət eylərsən.* ***(M.P.Vaqif)***

*İhlas ile gelen bu yoldan dönmez,*
*İkilikten geçmeyen birliyi bilmez.*
*Eri Hak görmeyen Hakk'ı da görmez,*
*Gözü bakar ama körden sayılır.* ***(Pir Sultan Abdal)***

*Pir Sultan Abdalım hey Hıdır İlyas,*
*Gönlünde kalmasın gam ile garaz.*
*Yedi Yasin bir Elham üç kere ihlas*
*Hak nasip eylesin öldüyüm zaman.* ***(Pir Sultan Abdal)***

**İqrar vermək (İkrar vermek):** Dinə etiqad göstərib inandığını sözlə söyləyib ifadə etmək iqrar vermək deməkdir, yəni **s**öz vermək. Mövləvilikdə və Bektaşilikdə təriqətə girməyə və şeyxə bağlanmağa talibin söz verməsi, biət etməsi.

*Erenlerin himmeti ele giresi deyil.*
*İkrar ile gelenler mehrum olası deyil.*
*İkrar gerek bir ere, göz açıb didar göre,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Serraf gerek gövhere, nadan bilesi deyil.* ***(Yunus Emre)***

*İqrar verdim dönməm ələst bəzmindən*
*Verdiyim iqrarı imandan aldım.* ***(Xətai)***

**İlahi (İlahi):** XIII əsrdən sonra Anadolu və Azərbaycanda yayqınlaşan və dini mövzuları ifadə edən şeirin ümumi adıdır. Təkkə ədəbiyyatının ən çox işlənmiş nəzm şəkillərindən olan ilahilər təsəvvüf şairlərinin, demək olar ki, hamısı tərəfindən qələmə alınmışdır. Ərəbcə mənası "Allaha aid, Allaha dair" demək olan hər hansı bir təriqətin izini daşımayan mənzumələrdir. Belə şeirlərdə Tanrının birliyi, əzəmət və qüdrəti öyülərək təlqin edilir.

İlahilər həm heca, həm də əruz vəzni ilə yazılır. Belə şeirlərə musiqi bəstələnir və musiqinin müşayiəti ilə oxunur. İlahilər dini törənlərdə və dərgahlarda özünəməxsus havacatla oxunur. Onu şərqilərdən (mahnılardan) ayıran ən mühüm nöqtə ilahilərin üsullarla bəstələnmiş olmasıdır.

İlahilər çeşidli təriqətlərdə aşağıdakı adlarla anılır:

1. Nəfəs – Ələvi Bektaşi təkkələrində oxunan ilahilərə deyilir.
2. Ayin – Mövləvi təkkələrində oxunan ilahilərə deyilir.
3. Tapuğ – Gülşəni təkkələrində oxunan ilahilərdir.
4. Cumhur – Mevləvi və Bektaşi təkkələrindən başqa bütün təkkələrdə oxunan ilahilərdir.
5. Durak – Xəlvəti təkkələrində oxunan ilahilərdir.

Türkiyədə həmçinin Ramazan ilahiləri, Məhərrəm ilahiləri, Qədir gecəsinə məxsus ilahi növləri də mövcuddur. Belə ilahilərdə yaradılış, ilahi eşq, vəhdət, nəfis, dünya kimi mövzulara yer verilir.

Örnək:

*Aşkın aldı bendən, beni,*
*Bana seni gerek seni.*
*Ben yanarım dün ü günü,*
*Bana seni gerek seni.*

*Ne varlığa sevinirim,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ne yokluğa yerinirim.*
*Aşkım ile avunurum*
*Bana seni gerek seni.*

*Aşkın aşıklar öldürür,*
*Aşk denizine daldırır.*
*Tecelli ilə doldurur*
*Bana seni gerek seni.*

*Sofulara sohbet gerek,*
*Ahilere ahiret gerek.*
*Mecnunlara Leyla gerek,*
*Bana seni gerek seni.*

*Yunusdur benim adım.*
*Gün geçdikce artar odum.*
*İki cahanda maksudum*
*Bana seni gerek seni.* ***(Yunus Emre)***

**İmam (İmam):** Əsli ərəbcə bir kəlmə olub, öncü, önə düşmək, ona tabe olunan deməkdir.

İslamiyyətdə Peyğəmbərin vəkili, xəlifə, namaz qıldıran mənasındadır. İbadət yerlərində namaz qılanlara, dini məsələlərdə müsəlmanlara başçılıq edən şəxs.

*Bu Xətai der əzəldən mən imamın quluyam,*
*Ey imami-həq Əlüyül-Mürtəzasından mədəd.* ***(Xətai)***

**İman (İman):** Əsli ərəb dilinə məxsus bir söz olub, inanmaq, inanc deməkdir. Qəlb ilə təsdiq, dil ilə sözün (əməlin) birliyinə iman deyilir. Allahın gözəl isimlərindən bir də Əl Mümin, yəni könüllərdə iman işığı yandıran, ona sığınanlara iman verib onları qoruyan, rahatlandırandır.

Sufilər vəlilərin imanını "vüslata ermək", "bir olanı görmək" şəklində dəyərləndirərkən, imanın daha yüksək dərəcəsini eşq və həqiqət olaraq görürlər.

Təsəvvüfdə imanı qısaca dil ilə söyləmə, islamı yaşamanın qəlbə, mərifətə daxil olmasının bir tərkibi kimi dəyərləndirmək olar.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Qanqı büttür bilməzəm imanımı qarət qılan,*
*Səndə iman yox ki, sən aldın deyəm imanımı.* ***(Füzuli)***

*Şükür Hakk'ın keremine*
*Ben bende buldum imanı*
*Hak bir kapu açtı bana,*
*Ben bende buldum imanı* ***(Kaygusuz Alaeddin)***

**İnanc (İnanç):** Bir folklor janrı olan inanclar insanların sahib olduqları etiqadlardır.

Türklər arasında inanclar iki böyük mərhələ keçirmiş, get-gedə təkmilləşərək zəmanəmizə qədər gəlmişdir.

I mərhələ. Türklərin islamiyyəti qəbul edənə qədər olan mərhələdir ki, bu mərhələyə əcdadlarımızın insan, kainat, varlıq, hadisə, canlılar, bitkilər və s. haqqında olan inancları daxildir.

II mərhələ isə islamiyyətin qəbulundan sonrakı mərhələdir. Türklərin islam dinini qəbul edərək bu dinin təsiri ilə yaşatdıqları inanclar.

İstər Azərbaycan, istərsə də Türkiyə türkləri tarix səhnəsində müxtəlif inanclara sahib olmuşlar və bəzi təbii ünsürləri bir növ müqəddəsləşdirmişlər və ona inanmışlar. Bunları:

a) Bitki, heyvan, su, dağ, daş və s. ilə bağlı inanclar,

b) Adət-ənənə, bayramlarla bağlı inanclar,

c) Dini inanclar – şəklində sıralamaq mümkündür.

Azərbaycan türkləri arasında gündəlik həyat, təbiət hadisələri, bitki və heyvanlar aləmi, əsatiri görüşlər və astral (göy üzünə dair) təsəvvürlərlə bağlı inanclar mövcuddur. Bunlardan bir neçəsi:

«Qoz ağacının altında yatmazlar», «İncir ağacını kəsməzlər», «Dərdi və ya yuxunu suya danışarlar», «Ölənin gözü açıq qalarsa, gözünə torpaq qoysan, yumular», «Ay işığında doğulan uşaq sakit, ayın qaranlığında doğulan uşaq igid olar», «Ayın üçü günündə doğulan uşaq gözəl olar» və s.

İslamiyəti qəbul etmiş türklər o biri dünyaya aid olan axirət, qiyamət, cənnət, cəhənnəmin olduğuna inanırlar.

Türklərdə ardıc ağacının tüstüsünün hər hansı bir əşyanı təmizlədiyi inancı vardır. Zeytun və incir ağacının kutsallığına,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

zəqqum ağacının isə lənətlənmiş və cəza məqsədilə istifadə edildiyi inancı vardır.

**İrfan (İrfan):** Əsli ərəbcə bir kəlmə olaraq xəbərdar olma, bilmə mənasını ifadə edir. Mərifət, kəşf, ilham, ruhi təcrübə və mənəvi yolla əldə edilən bilik, təsəvvüf bilgisi. Təsəvvüfdə Allahı dərk etmə mənasındadır. Zahiri elmdən, yəni mədrəsədə öyrədilən elmdən tamamilə ayrı olan irfan, əslində insanın özünü bilməsidir. İrfan sözlə, kitabla deyil, zövqlə, Allah eşqi ilə, istedadla, ədəblə, bir mürşidin yetişdirməsi ilə əldə edilən ləyaqətdir, insanın özünü dərk etməsidir.

*Əhli-irfan məclisində,*
*Ləlü-mərcandı bu söz.* ***(Aşıq Ələsgər)***

*Gerçeklerin remzini*
*İrfan içinde iste* ***(Şeyh İbrahim)***

*Ariflerin irfanı var,*
*İki cihandan ileri.*
*Aşıkların meydanı var,*
*Kevnü-mekandan ileri.* ***(Kayqusuz Vizeli Alaeddin)***

*Hak Muhammed de Muhammed nuri imdadıdır,*
*Nur-i imanım fitili şem-i irfanımdır.* ***(Aşık Seyrani)***

**İsmi azam (İsm-i azam):** Mənası ən böyük isim, ad deməkdir. Allahın bütün ilahi isimlərini əhatə edən bir ada "ismi-azam" deyilmişdir.

*Allah, Allah deyü ismi azam oxunur.* ***(Xətai)***

**Kafir (Kafir):** Əsli ərəbcə olub ilk anlamında inkar edən, örtən mənasındadır.

İslamiyyətdə "kafir" deyildikdə inanılması lazım olan şeylərin hamısına və ya birinə inanmayan, dinin əmrlərini bəyənməyən, ona əhəmiyyət verməyən adam nəzərdə tutulur.

*Neçə kişilər də daviyi-islam edər amma,*
*Tək arada bir xaç ilə zünnar bulunmaz.* ***(Nəsimi)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ey küfrü şirk içində sanan özünü mömin,*
*İslamü şərü iman məxsusü-övliyadır.* **(Nəsimi)**

**Kalender: (bax Qələndər):**

**Karagöz:** XVI əsrdə Osmanlı imperatorluğunda yaranan türk xalq teatrının adı.

Bu teatrın qəhrəmanları Qaragöz və Hacivatdır. Qaragöz sənəti dəmirçilik olan, heç oxumamış, amma zəkalı, açıq qəlbli, diribaş bəzən də kobud və qərarsız bir tipdir.

Hacivat isə mədrəsə təhsili görmüş, Osmanlı ləhcəsi ilə danışan, bütün davranışı ilə Qaragözə əks olan bir tipdir. Ərəb və fars sözlərini əslində olduğu kimi tələffüz edər, Qaragöz isə onun sözlərini ya anlamaz, ya da anladığını bəhanə edərək yanlış yozar. Bu cür bir-birinə zidd xarakterlər bir-birini tamamlayır.

İki hissədən ibarət olan Qaragöz oyununun mövzusu nağıllardan, xalq dastanlarından və gündəlik hadisələrdən alınırdı. Qaragöz tamaşası Türkiyədə yüz illər boyunca teatr tamaşasına olan ehtiyacı ödəyə bilmişdir. Ramazan gecələrində, sünnət düyünlərində əsas əyləncə növü olmuşdur. Qaragöz tamaşalarını xalq uzun müddət bir kino-ssenarisi kimi də dəftərlərə yazır, əzbərləyirdilər. Xalq danışığında “qaragözlük etmək” və ya “qaragözlük etmə” ifadələri saxta münasibət və qeyri səmimi hərəkət qarşılığında işlənməsi qaragözlük (artistlik) sənətinin yaddaşlarda yaşayan xatirəsini yad edir.

**Kəbə (Ka’be):** Yer üzündə Allaha ibadət etmək üçün inşa olunan ilk məbəd. Qəlbin Allaha yönəldiyi yer.

Təsəvvüf əhlinə görə iki cür Kəbə vardır. Birisi Həzrət İbrahimin daşdan, torpaqdan tikdiyi və bir neçə dəfə uçurulduğu halda təkrar-təkrar təmir edilərək yenidən tikilən maddi Kəbə. İkincisi isə Allah tərəfindən bina edilən insan könlü, insan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qəlbi. Bu yıxıldığı zaman tikilməsi mümkün deyildir. Ona görə də könül yıxmamaq lazımdır.

Mütəsəvviflər qəlb qırmamağı fərz olan Kəbəyə də hac ziyarəti etmək qədər önəmli hesab edirlər.

*Bir kez gönül yıktın ise,*
*Bu qıldığın namaz deyil.* **(Yunus Emre)**

*Hacca varan kişinin,*
*Gönül yapmak işidir.*
*Gönül Hakkın beytidir,*
*Key sakın emmareden.* **(Kayqusuz Abdal)**
*Hane-i dil yapmaq eya nüktedan,*
*Kabe bina etmektir bi-güman.* **(Azer Çelebi)**

*Mansırın toxmağı, İsrafil suru,*
*Kəbənin Zəmzəmi, Musanın Turu.*
*Nitqimin güyası, didəmin nuru,*
*Sərimin sevdası ay nədən oldu?* **(Aşıq Ələsgər)**

*Kəbə qibləm, dinim Məhəmməd dini.* **(Aşıq Ələsgər)**

**Kəramət (Keramet):** Kəramət Allah tərəfindən Allah dostu evliyaya verien bir bacarıqdır. Həqiqi vəli kəramət göstərmək-dən qaçır, xoşlamır.

Peyğəmbərin əliylə meydana gelen fövqəladə hadisələrə möcüzə deyilir. Övliyanınkinə isə kerамət deyilir. Demək kə-ramət Allaha yaxın olan insanların göstərdikləri fövqəladə hadisələr nəzərdə tutulur. Məsələn:

Uzaq yolu bir anda aşmaq, dənizdə yerimək, havada uçmaq kimi möcüzələr:

*Marifeti olmayanın kerameti olmaz.* **(A. Yesevi)**

*Demə, ey ömrün itirmiş ziyadə,*
*Su üzrə yürüdüm, uçdum havadə.*
*Su üzrə yürüsən xəs olasan xəs,*
*Havadə uçsan olasan məkəs bəs.*
*Olar kim məhv bağından yemişlər,*
*Kəramət satmağa itlik demişlər.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Eşəklikdir demişlər almasına,*
*Əl uzatma, saqın kim almasına.*
*Xəbər verməyə gizlü nəsnədən həm,*
*Müəllimlik demişlər pirligə,*
*Gəl anı tərk et, ulaş birligə.*
*Özün öyməgə şeydalıq demişlər,*
*Dəxi yerməgə rə'nalıq demişlər,*
*Kəramət satmamaqlıqdır kəramət,*
*Kəramətdir denilmiş tərki-adət.* ***(Rövşeni)***

**Kibr (Kibir):** Kibr, ərəbcə bir kəlmə olub təkəbbür, lovğalanma mənasını verir. Təkəbbürlü insan özünü hamıdan üstün tutar, başqasını bəyənməz.

Allahın bəndəsinin ən üstün cəhəti təvazö olamasıdır. Mütəsəvvüflərə görə Allah kibrli insanları deyil, təvazö sahibi olanları sevər.

Əzəmət, ululuq, Allaha məxsus böyüklük "kibriya" adlanır.

*Təkəbbürlük eyləyəni Tanrı sevməz,*
*Könlünü uca tutan adamda ağıl olmaz.* ***(Dədə Qorqud)***

*Xətai der: Bir vəliyəm yol ilə,*
*Sultanın töhvəsi hər dəm qul ilə.*
*Könüldə kibr olub soyuq dil ilə,*
*Özün məhəbbətdən seçənə lənət.* ***(Xətai)***

*Həm təkəbbürlük adəm oğlunda,*
*Ki, əzim ol bəlavü afətdir.* ***(Nəsimi)***

*Əqlin bu dəryanin dərinliyi ilə nə işi var,*
*Onun eşqi kibriya dəryasının dalğıcıdır.*
***(Seyid Yəhya Bakuvi)***

**Kövsər (Kevser):** "Qurani-Kərim"in "Kövsər" surəsində Allah-Təalanın Məhəmməd Peyğəmbərə verdiyini bildirdiyi böyük ehsan. Cənnətdə Peyğəmbərimizə aid olan məşhur su. Qiyamət (hesab) günü Cəhənnəm üzərindəki Sırat körpüsü keçilmədən öncə Peyğəmbərimizin və ümmətinin başına gəldikləri məşhur hovuz.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Kukla (Kukla):** XVII əsrdə Anadoluda ortaya çıxan türk xalq teatrına verilən addır. Lakin kukla oyununun tarixinin türk xalqları arasında daha qədimlərə aid olduğunun XI əsrdə yaşamış Kaşqarlı Mahmudun «Divani-Lüğətit-Türk» əsərində görmək mümkündür. Kaşqarlı Mahmud bu əsərində qız uşaqlarının insan şəklində düzəldib oynatdıqları bu oyuncaq bəbələrə «Kudurcuk» adı verdiklərini yazır.

Anadoluda, Azərbaycanda və digər türk xalqları arasında «bəbə», «bəbək», «çömcə xatın», «çömçə gəlin», «gəlincik» kimi adlar oyuncaq kuklalara verilən adlardır.

Kukla oyunu da digər türk xalq tamaşaları kimi insanları əyləndirmək məqsədilə oynanılan oyundur. Bu oyunlarda kuklalar barmaq, ayaq və diz vasitəsi ilə hərəkət etdirilir. Fikirlər hərəkətlər vasitəsi ilə tamaşaçılara çatdırılır. Kukla oyunları səssiz göstərilir.

Kukla tamaşaları mövzusunu gündəlik həyatdan, bədii əsərlərdən, xalq dastanlarından və s. alır.

Bakıda hal-hazırda da «Kukla teatrı» adlanan bir teatrın mövcudluğu hələ də xalq teatrlarına marağın artmasının, milli-mənəvi dəyərlərin qorunub saxlanmasının bir əlamətidir.

**Küfr (Küfür):** Haqqı inkar etmək, inanmamaq. Dində bilinməsi zəruri olan anlayışları, ayinləri və dini ehkamları inkar etmək, dində hər kəsin qəbul etdiyi şeylərdən birini qəbul etməmək. İslamiyyətə əhəmiyyət verməyərək haram işlətmək, dinə zidd olan hərəkətləri etmək. Bu zidd əməllər bütün savabların hamısını yox edər. Hakkı inkar edənə kafir deyilir.

*İmanı yoxdur anın kim, oldu biəmanət,*
*Dinin itirmiş ol kim, əhdinə bivəfadır.*
*Şol əhdi ol əmanət gər səndə varsa, xoşdur,*
*Yoxsa yalan imansız, həm dinsiz ol dəğadır.*
*Küfrü şirk içində sanan özünü mömin*
*İslamü şeirü iman məxsusi-övliyadır.* ***(Nəsimi)***

**Qafiyə (Kafiye):** Misraların sonundakı sözlərin son hecaları arasındakı səs bənzərliyidir. Bu bənzəmək şeirə xüsusi gözəllik verməklə, şeirin məna və ahəng uyumunda xüsusi



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əhəmiyyət daşıyır. Çünki qafiyə həm səs, həm səs tonu, həm də şeirin bəndləri ilə əlaqədardır. «Aşıq ədəbiyyatında qarşılığı ayaqdır» (Saim Sakaoğlu).

Aşıq şeirində qafiyə, divan şeirində isə rədif önəmli ənənə hesab edilir.

*Ağlayı-ağlayı düştüm yollara,*
*Karışayım boz bulanık sellere.*
*Adı-sanı bilinmedik ellərə,*
*Gitmedikce gönül yardan ayrılmaz.*

*Ahım qaldı şu gelinin ahdinde,*
*Deremedin güllerini vaktinde.*
*Karanlık gecede kolum altında*
*Yatmayınca gönlüm yardan ayrılmaz.*
*Hadini də Karacaoğlan, hadini,*
*Aramazlar kurbet ele gedəni.*
*Ağ gögsün üstünde çakır tikeni,*
*Bitməyince gönül yardan ayrılmaz.* ***(Qaracaoğlan)***

*Göldən uçurdum sonanı,*
*Bu yerdə qoydum binanı.*
*Gündə gördüyüm cananı*
*Görməyəndə ölürəm mən.*

*Bağçalarda barım ola,*
*Alma, heyva, narım ola.*
*Bir dərd bilən yarım ola,*
*Ona qurban olaram mən.*

*Vəfası olmaz yalanın,*
*Ağlı olmaz çox gülənin.*
*Abdullayam, dərd bilənin*
*Yüz il keçsə, quluyam mən.* ***(Aşıq Abdulla)***

**Qaravəlli:** Azərbaycan folklorunda insanı güldürən, məzmunca məzəli yumorlu əsər.

Aşıqlar və nağılçılar dastan və ya nağılı söyləmədən öncə dinləyicilərinin diqqətini cəlb etmək və ya onları yormamaq



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

üçün söhbətin arasında qaravəlli deyər, sonra əsas mətləbə keçərlər. Qaravəllilər mövzu etibarı ilə şən, könülaçan, əyləncəli olurlar.

Örnək:

«Hadı idi, hudu idi».

*Hadı idi, hudu idi, bir də məndim. Getdik şikara. Bir dənə şikar vurduq,*

*Dedim: – Hadı, bıçağun var?*

*Dedi: – Yox.*

*Dedim: – Böyrüvə vurdum ox.*

*Əlimi saldım cibimə, gördüm bıçaq var, sapı var, tiyəsi yox. Sapilən başın kəsdim. Üç-dörd dağ aşandan sonra, Dedim: – Bunu harda yuyum? Gördüm üç arx var, ikisi quru, birinin də suyu yox. Suyu yoxda şikarın başını yudum.*

*Dedim: – Bunu harda bişirək?*

*Getdim gördüm üç dənə xaraba var, İkisi uçuq, birinin də üstü yox. Üstü yoxda gördüm üç nəfər adam. İkisi də canı yox.*

*Dedim: – Ey canı yox qardaş, bardağun var?*

*Dedi: – Üç bardağım var, ikisi sınıq, birinin də altı yox. Altı yoxda şikarı bişirdim, Sümüyü bişdi, əti yox. Şikarı yeyəndən sonra, hamımız yağlı əlimizi yağlı başmağa, yavan əlimizi yavan başmağa çəkdik. Qabaqlarına qatdı qovdu. Savalana çıxdım görmədim. Girdoğa çıxdım görmədim. Yaxamda bir dənə iynə vardı, Sancdım yerə, çıxdım üstünə. Gördüm cütcünün yanında gedirlər, Dedim ki, cütçü qardaş, başmaqların qabağını saxla. Cütçü qardaş başmaqların qabağını saxladı. Gördüm cütcü qardaşın gözü başmaqlardadır.*

*Dedi: – Başmaqları mənə sat.*

*Dedim: – Neçəyə.*

*Dedi: – Bir darıya, darının yarısına. Bu darını, darı parasını xarala, çuvala atdım tutmadı. Bütövü saxladım, paranı səpdim. Bitdi yekə zəmi, Biçinçiləri səslədim:*

*– Gəlin, darını biçək. Gördüm darı yoxdu. Yerində var bir palan, Sözlərimin hamısı yalan.* (Qaravəlli. «Ədəbiyyat və incəsənət» qəzeti, 1990-cı il 28 dekabr)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Qarqış (Beddua):** Folklor janrı. Azərbaycanda qarqış, bəzən də bəddua şəklində, türk folklorunda da bəddua və ya karqış şəklində işlədilir.

Bəd – əsli farsca olub pis, fəna, yaman mənasındadır. Türk xalqlarının XIX əsrə qədərki sözlüklərində bu kəlmə «qarqış», «ilenc» şəklində işlədilmişdir. Kaşqarlı Mahmudun «Divani-Lüğətit-Türk»ündə də «qarqış» şəklindədir. Qarqış lənət, bəla, qəzəb ifadə edən mənfi çağırışdır, insanın Allahdan pisliyin, zalımın cəzalanmasını istəməsindən doğan qəzəb ifadə edən sözlərdir.

Xalq arasında mifoloji və dini təsəvvürlər, gündəlik həyat və mərasimlərlə, inanclarla bağlı qarğışlar ortaya çıxmışdır.

Xalqın qədim dövrlərdəki həyatını, məişətini, əxlaqi və estetik düşüncələrini öyrənmək üçün qarqış örnəklərinin rolu böyükdür.

«Kitabi Dədə Qorqud»da «Ağzın qurusun çoban! Dilin çürüsün çoban! Qadir sənin alnına qada yazsın, çoban!», «Qonağı gəlməyən ev yıxılsa yeğ», «Yarımasın, yarçımasın», «Əlin qurusun, barmaqların çürüsün», «Tovla-tovla şahbaz atın minər olsam, mənim tabutum olsun» kimi qarqışlara rast gəlinir.

Xalq arasında «Şərə düşəsən», «Çörək tapmayasan», «Rəngin saralsın», «Allah bəlanı versin», «Allah evini yıxsın», «Çəltiyinə bit düşsün» «Ağ gün eşidəndə burnunun ucu tütüsün», «Əlin əllər görməsin», «Yurdunda bayquş ulasın» kimi qarqış örnəkləri yaşamaqdadır.

Azərbaycan bayatılarında, aşıq şeirlərində də qarqışlara rast gəlmək mümkündür:

*Ağac dibində qora,*
*Bilmədim, düşdüm tora.*
*Səni məndə ayıran,*
*İmansız getsin gora.*

*Köynəyin biçən ölsün,*
*Yaxasın tikən ölsün.*
*Mən sənə göz tikmişəm,*
*Başqa göz tikən ölsün.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Köynəyin gülü yansın,*
*Od düşsün gülü yansın.*
*Səni məndən edənin*
*Ağzında dili yansın.*

*Bu yollar asta gedər,*
*Dolanar dosta gedər.*
*Viran qalsın bu yurdu,*
*Sağ gələn xəstə gedər.* ***(Bayatılar)***

*Səni sevən qan ağlasın gözlərini yaş əysin,*
*Şad könlünün şişəsini sındırıban daş əysin.*
***(Aşıq Məhəmməd)***

*Gedənin gəlməsin, yatanın ölsün,*
*Göz-göz olsun, qabıq qoysun, soyulsun.*
*Hər yanına altmış piltə qoyulsun,*
*Nə yığıb yerini salan olmasın.* ***(Abbas Tufarqanlı)***

Türk folklorunda «Allah canın alsın», «Zehir zıkkım ola», «Sürüm-sürüm sürünsün», «Canın çıka», «Allahtan bulasın», «Adın batsın», «Ekmək atlı, sen yayan olasan», «Parça tike olasan», «Rızkın kesile», «Yüzün gülmeye», «Yerin dibine giresin», «Murat almaya» kimi qarqış örnəkləri vardır. Bu nümunələri bayatılarda (manilərdə), xalq şeirinin digər janrlarında da görmək mümkündür.

*Ayrılık yalan, yalan,*
*Ömrüme saldın talan.*
*Ayrılsın, ayrı düşsün,*
*Bize ayrılık salan.*
*Güne düşdüm,*
*Gölgeden güne düşdüm.*
*Evin yıkılsın, felek,*
*Sen dediyin güne düşdüm* ***(Mani)***

**Qazı (Kadı):** İslam hüququna görə hökm verən hakim. Azərbaycan və türk ədəbi dillərində "Qazı", ("Kadı") kəlmələri din adamlarının titulları ilə bağlıdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İstər Azərbaycan türkcəsində, istərsə də Türkiyə türkcəsində eyni mənanı ifadə edir, lakin “Qazi” və “Kadı” şəklində fərqli deyiliş və yazılış tərzləri vardır.

*Gah Hüseyinilən pustimi soydu qazilər,*
*Gah o Mənsur donuna girdim, “Ənəlhəq” dar idim.* ***(Xətai)***

*Mahkeme rüşvetçi, fetva şübeli, şahit yalan,*
*Hakkı iptal eylemekten kadılar ar eylemez* ***(Seyrani)***

*Ay həzərat, gəlin sizə söyləyim,*
*Bu dünyanın xəyanatı çıxıbdı.*
*İnsaflar azalıb, mürvət gödəlib,*
*Qazıların mazaratı çıxıbdı.* ***(Aşıq Ələsgər)***

*Seyraninin iki gözü yaş oldu,*
*Aşk-i Mevla cümle derde baş oldu.*
*Kadı mutfağında pişmiş aş oldu,*
*İcerimde fikir fikir kaynıyor.* ***(Seyrani)***

**Qazi (Gazi):** İslam dinini yaymaq üçün dinə, namusa və vətənə qarşı gələn düşməni qovmaq üçün vuruşan müsəlman din qəhrəmanı.

«Qazi» sözünün qəza edən, cihad edən, din yolunda qəzavətə, müharibəyə gedən, qalib, fateh anlamlarında olduğu lüğətlərdə qeyd edilmişdir. Din uğrunda, Allah rizası üçün savaşan, cihad edən, qəhrəman olan Qazi və Qazilik islam dininə bağlı bir kəlmədir. Qazilər islami dəyərlər uğrunda vuruşan qəhrəmanlardır.

Fuad Köprülü islamiyyətin qəbulundan sonrakı türk dastanlarında türk alp ərənlərinə alp qazi demişdir: «Seyid Battal Qazi», «Danışmənd Qazi», «Satuk Buğra xan» kimi. İslami türk dastanlarındakı Anadolunu islamlaşdırmaq üçün mücadilə edən alp qəhrəmanlar qazi tipləridir.

İslami dövr türk dastanlarında «qazi ərən» – islami dəyər daşıyan qəhrəman, Xorasan ərənləri isə islamiyyəti yayan qəhrəmanlardır. Bunların hamısı silahlı savaş etməsələr də türk



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dastan və mənkibələrinin Allah eşqi ilə yetişmiş qəhrəmanlarıdır.

«Kitabi Dədə Qorqud»da:

«Dədəm Qorqud gəlibən şadlıq etdi, Qazi ərənlər başına gəldiyini aydı verdi» – deyilir.

*Allah! Allah! diyin qazilər,*
*Qazilər, deyin şah mənəm.*
*Qarşu gəlin səcdə qılın,*
*Qazilər, deyin şah mənəm.* ***(Xətai)***

**Qədir gecəsi (Kadir gecesi): "**Qurani-Kərim"in Hz. Məhəmmədə endirilməyə başlandığı gecədir. Ramazan ayının son on gecəsindən biri. Bəzi rəvayətlərə görə Ramazan ayının 27-ci gecəsidir. Qədir gecəsinin birinci ayətində "Quran"ın bu gecədə endirildiyi bildirilərək bu gecənin önəmli bir gecə olduğu qeyd edilir. Qədir gecəsi içərisində qədir gecəsinin olmadığı min gecədən xeyirli hesab olunur.

**Qəhrəmanlıq mahnıları (Koçaklama):** Türk aşıq şeirində bir şəkil. Qoçaq (igid) sözündəndir. İgidlik, savaş, qəhrəmanlıqlarla bağlı söylənən şeirlərdir.

Aşıq Şenliyin 93 koçaklaması:

*Ehl-i islam olan eşitsin duysun,*
*Can sağ iken yurt vermeriz düşmana.*
*İsterse urus nesi varsa gelsin,*
*Can sağ iken yurt vermerik düşmana.*

*Quşanın gılıncı, geyinin donu,*
*Kavğa bulutları sardı her yanı.*
*Doğdu koçyiğidin şan almak günü*
*Can sağ iken yurt vermerik düşmana.*

*Kavğa günü namerd sapa yer arar,*
*Er olan düşmana göğsünü gerer.*
*Cem-i ervah biznen meydana girer,*
*Can sağ iken yurt vermerik düşmana.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ben Asver'dir bilin Urus'un aslı*
*Orman yabanısı, balıkçı nesli.*
*Hınzır sürüsüne dalın kurt misli,*
*Can sağ iken yurt vermerik düşmana.*

*Hele görmemiş Al'Osman'ın zorun,*
*Din gayreti olan tedarik görün.*
*At tepin, baş keçin kasağı kırın,*
*Can sağ iken yurt vermerik düşmana.*

*Asker olan bölük-bölük bölünür,*
*Sandınız mı Qars Qalası alınır,*
*Bozatlar üstünde gılıç çalınır,*
*Can sağ iken yurt vermerik düşmana.* ***(Aşık Şenlik)***

Koçaklama Azərbaycanda qəhrəmanlıq mahnıları mənasını ifadə edir. Məsələn: "Qaçaq Nəbi" haqqında olan mahnıdan:

*Nəbinin bığları eşmə-eşmədi,*
*Papağı güllədən deşmə-deşmədir.*
*Nəbinin atını bir at keçmədi,*
*Qoy sənə desinlər, ay Qaçaq Nəbi,*
*Həcəri özündən, ay qoçaq Nəbi.*

*Gün gəlibdir günortanın yerinə,*
*Nəbi qalxıb Boz atının belinə.*
*Aynalı tüfəngi alıb əlinə*
*Qoy sənə desinlər, ay Qaçaq Nəbi,*
*Həcəri özündən, ay qoçaq Nəbi.*

**Qələndər (Kalender):** Qələndərilik təriqətinə mənsub olan insan.

X əsrdə Suriya, Misir, İraq, Orta Asiya və Hindistanda yayılan bir təriqətdir. Bu təriqətə mənsub olanlara qələndər demişlər.

Qələndər qayğısız, laübali, dünya ilə əlaqəsini kəsərək, yalnız Allaha çatmaq üçün çalışan insanlar mənasını ifadə etmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qələndərlər hər şeyi xoş görürler. Qaşlarını, kirpiklərini, saç və saqqallarını qırxdırır, heç vaxt evlənmirlər. Onlar qruplar halında şəhər-şəhər gəzir və fərz ibadətlərindən başqa bir ibadət etmirlər.

**Qələndəri (Kalenderi):** Türk xalq şeirində bir şəkil. Əruz vəzninin təsiri ilə yazılan aşıq şeirləridir. Bektaşi aşıqlarından Kalender Abdalın yazdığı şeirlərə verilən ad. Kalenderilər qəzəl, mürəbbe, müxəmməs, müsəddəs kimi şeir janrlarında yazılır. Heca ölçüsünün 7+7=14 qəlibinə uyğundur. Türk aşıq şeirində ayaqlı və yedəkli kalenderilər də yazılmışdır.

Kalenderilər özəl bir hava ilə oxunur, şən, şux bir əda ilə söylənir.

Örnəklər:

Qəzəl biçimində kalenderi:

*İçtin mi canım yine mestane durursun,*
*Gamzen gibi aşıklara bigane durursun.*
*Kimden söz işittin ki, cefa hakkına dair*
*Böyle güzelim hatırı virane durursun.*
*Geç şahım otur başımın üstünde yerin var,*
*El bağlı efendim kime divane durursun.*
*Bir çift idiniz vuslat-ı devlette geçen gün*
*Nettin eşini ey peri bir dane durursun.*
*Sen al ile başımdan alıp aklımı şimdi,*
*Ey rind-i felek-meşreb edibane durursun.*
*Öldürmek ise Nuri kulun kasdına böyle*
*Çek hanceri öldür a paşam ya ne durursun.*

***(Tokatlı Nuri)***

Mürabbe biçimində kalender:

*Gönlüm seni ey şuh-i sitem-ger sever oldu,*
*Hicrin bana ah kimi neler etti, neler oldu.*
*Sensiz geceler hemdemim ah-ı seher oldu,*
*Her saat-i hicrin bana bin yıl kadar oldu.*

*Feryad u figanım bu gecə arşa dayandı,*
*Derd ü gam ile didelerim kana boyandı.*
*Firkat günü ah böyle uzandıkça uzandı*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

*Her saat-i hicrin bana bin yıl kadar oldu.*

*Rahim eyle firkat odunu söndür efendim,*
*Bir katre zülal-i lebini göndər efendim.*
*Mehcur olalı bir iki üç gündür efendim,*
*Her saat-i hicrin bana bin yıl kadar oldu.*

*Ahımla cihan gamz eder bu ne aceb ah,*
*Hicran oduna can u ciğer yandı bu şeb ah.*
*Neyse bu Gedayi kulunu terke sebep ah,*
*Her saat-i hicrin bana bin yıl kadar oldu.* ***(Gedai)***

Ayaklı Kalenderi:

*Ey gülşen-i cennette biten verd-i taravet,*
*Vey buy-i letafet.*
*Cennette mi ser çektin eya servi-i kamet,*
*Bilmem ne alamet.*

*Sen padişeh-i kişver-i mahbub-i cihansan,*
*Sultan-ı zamansan.*
*Dil mülkü senin tahta cülüs eyle adalet,*
*Ey Şah-ı velayet.*

*Benden sakınır ruyini zülfüne bürünme,*
*Ağyara görünme.*
*Hüsnündeki var bunca nezaketle sabahat,*
*Allah'a emanet.*

*Cana bu nezaket bu letafet be ne ziba,*
*Şol rev-arus asa.*
*Yoksa ki, bezetmiş seni maşşata-i kudret,*
*Vermiş sana zinet.*

*Emrah sene bülbül gibi ey ruhları gül-gün,*
*Bin can ile meftun.*
*Gel padişahim başın için eyle inayet,*
*Kıl naili vuslat.* ***(Erzurumlu Emrah)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Qələndərilik (Kalenderilik):** Qələndəri təriqətinə məxsus cəmiyyət, qələndəri təriqəti.

**Qəməri aylar (Kameri aylar):** Hicri təqvimindəki on iki ay. Bu aylara ərəbi aylar da deyilir. Qəməri ayın hesablanmasında ayın dünya ətrafında döndüyü əsas alınmışdır. Qəməri ay bəzən 29, bəzən 30 gün çəkir.

İslam dinində ibadətlər bu aya göre icra edilir. Ramazan ayı məhz hicri qəməri aylarındandır. Miladi ilə görə hər il 10-11 gün əvvəl başlayır. Ona görə də 33 ildə tam bir devr edərək ilin bütün günlərində oruc tutulmuş olur.

Hicri təqvimdə olan qəməri (ərəbi) ayların adları belədir:

1. Məhərrəm; 2. Səfər; 3. Rəbiül-əvvəl; 4. Rəhməl-axır; 5. Cəmadiyəl əvvəl; 6. Cəmaziyəl axır; 7. Rəcəb; 8. Şaban; 9. Ramazan; 10. Şəvval; 11. Zilqədə; 12. Zülhiccə.

**Qıfılbənd:** Kəlmə "qıfıl" və "bənd" sözlərinin birləşməsindən yaranmışdır.

Azərbaycan aşıq yradıcılığında bir şeir növü hesab olunur. Müəmmalı şəkildə söylənən belə şeirlərə aşıqlar qıfılbənd deyirlər. Qoşma, bayatı və başqa şeir şəklində yazıla bilər. Aşıq deyişmələrində iki aşıqdan biri qıfılbənd şəklində şeir deyir və ya yazıb göndərir. İkinci aşıq isə bu qıfılbəndi açır. Aça bilən aşıq qalib hesab olunur.

Aşıq Hüseyin və Reyhan xanımdan bir qıfılbənd örnəyi:

*Reyhan xanım:*

*Bizdən salam olsun aşıq Hüseyinə,*
*O nədi ki, ancaq bir il yaşar hey.*
*Nə kəlamdı mürəkkəbsiz yazılır,*
*O nədi ki, günü-gündən coşar hey.*

*Aşıq Hüseyin:*

*Al verim cavabın, a Reyhan xanım,*
*Səməndər quşudur, bir il yaşar hey.*
*O könüldür mürəkkəbsiz yazılır,*
*Eşqin bəhri günü-gündən coşar hey.*

*Reyhan xanım:*

*O nədi ki, nəfəsi var canı yox,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*O nədi ki, cəsədi var, qanı yox.*
*O kimdi ki, onun din-imanı yox,*
*O kimdi ki, əldə tutmuş məşər hey.*

*Aşıq Hüseyin:*
*O körükdü, nəfəsi var, canı yox,*
*Kəpənəkdi, cəsədi var, qanı yox.*
*O şeytandı onun din-imanı yox,*
*Kafirlərdir əldə tutmuş məşər hey.*

*Reyhan xanım:*
*O nədi ki , yemədilər, doydular,*
*O nədi ki, qiyamətə qoydular.*
*O kim idi, dərisini soydular,*
*O nədi ki, atəşi yox, daşar hey.*

*Aşıq Hüseyin:*
*O xəyaldı, yemədilər, doydular,*
*Xeyir-şəri qiyamətə qoydular.*
*Nəsimidi dərisini soydular,*
*Zəmzəm idi, atəşi yox, daşar hey.*

**Qırxlar (Kırklar):** Türklərin müqəddəsliyinə inandığı və çox böyük əhəmiyyət verdiyi saylardan biri qırx sayıdır. Azərbaycanda və Türkiyədə yaranan nağıllarda və dastanlarda qırx sayına tez-tez rast gəlinir: 40 alp, 40 gözəl, 40 ev, 40 igid, 40 gün, 40 gecə (toy) kimi.

Türk və Azərbaycan xalq inanclarında da qırx sayı qudsal hesab edildiyi üçün uşaq doğulandan sonra ananın və körpənin qırx gününün çıxması önəmli bir hadisə kimi qəbul edilir.

Ölən insanlar üçün qırx gün yas saxlama, ehsan olaraq qırx vermə kimi. «Qırx», «Qırxlar», «Qırxını çıxarma», «Qırxlama», «40-cı qapı», «40 düyün», «40 ayaq», «40 qazanın mayası», «40 lotu» kimi ifadə və sözlər qırx inancı ilə əlaqədar olaraq yaranmışdır.

Qırxlar adlı vəlilər zümrənin, mənəvi dünyanın idarəsində iştirak etdiyinə inanılır. Azərbaycanın və Türkiyənin bir çox yerlərində «Qırxlar» deyilən yatırlar mövcuddur ki, bu yerlər



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

günümüzdə də ziyarət edilməkdədir. Azərbaycanda söylənilən «Şirvanda pirlər, Dərbənddə qırxlar» deyimi də bu məqsədlə söylənmişdir.

Qırx rəqəmi təsəvvüf və aşıq şeirində önəm daşımışdır. Ələvi və Bektaşilər Həzrət Əlinin başçılıq etdiyi qırx kişinin məclisinə «Qırxlar məclisi» dedikləri üçün qırx sayı aşıqların şeirlərində də ifadə edilmişdir.

*Qırxlar meydanına vardım,*
*Gəl bəri ey can, dedilər.*
*İzzət ilə salam verdim,*
*Gəl, iştə meydan dedilər.* **(Xətai)**

*Məhəmməd, Əlidir qırxların başı.* **(Xətai)**

*Qırxların qəlbi durudur,*
*Gələnin qəlbi arıdır.* **(Xətai)**

*Kırklar kasesinden bade nuş ettim,*
*Gönül meskan tutdu meyhanelerde.*
*Dünyanın malını feramuş ettim,*
*Sureta kalmışım kamhanelerde.* **(Aşık Seyrani)**

*Vardım kırklar kapısına,*
*Niyaz ettim yapısına.*
*Tapışım hak kapısına*
*Evel Allah, ahir Allah.*
*Dönemem estağfirullah,*
*İmanım Amentü billah,*
*Ben diyem Allah eyvallah.* **(Davut Sulari)**

*Kırklar erş üstünde kurdular cemi .* **(Aşıq Seyrani)**

**Qırx məqam (Kırk makam) (bax: Dörd qapı):** Dörd qapıya (hər qapı ondur) bağlı olaraq qırx məqam ifadəsi vardır (şəriət, təriqət, mərifət, həqiqət qapıları).

*Dört kapıdır kırk makam, yüz altmış menzum var,*
*Ana erene açılır vilayet derecesi.* **(Yunus Emre)**

*Şeiriat, tarikat yoldur varana,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Hakikat, marifet andan içeri.*

*Süleyman kuş dilin bilir, dediler,*
*Süleyman var Süleymandan içeri.*

*Unutdum din diyanet kaldı bende,*
*Bu ne mezhebdürür dinden içeri.*

*Dinin terk edenin küfürdür işi,*
*Bu ne küfürdür imandan içeri.*

*Geçer iken Yunus şeş oldu dosta*
*Ki, kaldı kapıda andan içeri.* ***(Yunus Emre)***

*Şəriət, təriqət, mərifət haqdır,*
*Həqiqət odu var ondan içəri.* ***(Xətai)***

**Qızılbaş (Kızılbaş):** Şah İsmayıl Xətainin atası Seyx Heydər ilk dəfə başına on iki dilimli qırmızı papaq geydigi və ona tabe olanlar da bu adəti davam etdirdikləri üçün onlara qızılbaş deyilmişdir. Daha sonra Səfəvi hökmdarı Şah İsmayıl Xətainin (1486-1524) tərəfdarları bu adı davam etdirdi. Şiə məzhəbinə mənsub olan Şah İsmayıl tərəfdarları «qızılbaş» sözünü iftixarla dilə gətirmişlər:

*Lanet olsun sene ey yezid pelit,*
*Kızılbaş mı dersin, söyle bakalım.*
*Biz ol aşıklarız ezel gününden,*
*Rafizimi dersin, söyle bakalım.* ***(Pir Sultan Abdal)***

*Başına döndüyüm gül üzlü yarım,*
*Qoymaram həddini aşa dərdimi.*
*Rumun loğmanından çarə bulmadım,*
*Varın, deyin Qızılbaşa dərdimi.* ***(Ağ Aşıq)***

**Qiyamət (Kıyamet):** Əsli ərəbcə bir kəlmə olub ilk mənası ayağa qalxmaqdır. Dini əqidəyə görə ölülərin dirilib qalxacaqları gün və ya aləmin sona yetməsi ilə yenidən dirilmək nəzərdə tutulur. Sufilər ölümdən sonra əbədi həyata qovuşmaq üçün



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yenidən dirilməyi qiyamət (hesab günü) olaraq mənalandırırlar. Axır zamanda, yəni aləmin sona yetməsi ilə bütün ölülərin dirilib ayağa qalxması məhşər günü də adlanır.

Həzrəti Peyğəmbər "necə yaşayırsınız, elə də ölürsünüz, necə ölürsünüz, elə də dirilirsiniz" demişdir.

Qiyamət, aşıqların və şairlərin dilində:

*Qopdu qiyamət, quruldu mizan,*
*Həşr oldu insan bulundu yerdən.* **(Nəsimi)**

*Qiyamətdə hesabı olmayanlardandır ol qafil*
*Ki, fərq eylər firaqın şəmini sübhi-qiyamətdən.* **(Füzuli)**

*Hər kim dostdan dosta yaman qandırsa,*
*Qiyamət oduna damı da yansın.* **(Aşıq Alı)**

*Kiyametden haber sordum, dediler, bir alamettir,*
*Kişi yarindan ayrılsa hemen o gün kiyamettir.*
**(İçelli xalq ozanlarından anonim beyt)**

*Kiyamet günleri mahşeir zamanı,*
*Bizlere şefaat kıl Hasan Dede.* **(Aşık Hüseyin)**

**Qiybət (Gıybet):** Bir insanın üzünə qarşı söylədiyi zaman xoşuna gəlmədiyi, qəlbinin qırıldığı, bir sözü, bir hərəkəti onun olmadığı yerdə arxasınca söyləmək. Dedi-qodu.

"Qurani-Kərim"də buyrulur ki, bir-birinizdən qiybət etməyiniz. Sizdən hər hansı biriniz ölmüş qardaşınızın ətini yeməkdən xoşlanarsınızmı? Belə bir əti yemək sizə təklif olunarsa, diksinərsiniz. Allah Təaladan qorxub qiybət etməyin. Allah Təala qiybətdən tövbə edənlərin tövbələrini qəbul edər. O çox mərhəmətlidir. (Hücurat surəsi: 12) Peyğəmbərimiz Əshab-i Kirama: Qiybətin nə olduğunu bilirsinizmi?" buyurdu. Əshab-ı Kiram "Allah və Rəsulu daha yaxşı bilər" dedilər. Rəsuli-Əkrəm. "Qiybət qardaşını arxasından xoşlanmayacağı bir şeylə anmaqdır" buyurdu. Əshabi-Kiram "Ya Rəsulullah! Əgər söylədiyimiz şey onda varsa? – deyə soruşdular. Peyğəmbər əfendimiz: "Əgər onda varsa, bu söz qiybət olur. Əgər yoxsa böhtan, yəni iftira olur" buyurdu.

*Şah Xətaiyəm, nədir halın,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Haqqa şükür et qaldır əlin.*
*Qiybətdən kəsə gör dilin*
*Hər qala yeksan dedilər.*

*Qalxdı havalandı könlümün quşu*
*Qovğa, qiybət etmək kötünün işi.*
*Ustadın tanımaz bunda hər kişi,*
*Anın kim mürşüdü ər olmayınca.* **(Xətai)**

*Şəriəti anla, mərifəti bil,*
*Şəri-böhtan doğru yola sığışmaz.* **(Aşıq Ələsgər)**

**Qol (Kol):** Azərbaycan qəhrəmanlıq dastanlarından olan "Koroğlu" dastanında hər bir hekayəyə aşıqlar tərəfindən verilən ad. Bu hekayələr mövzu etibarı ilə bir-birinə sıxı surətdə bağlı olsalar da, hər bir qol tam bir məzmuna, sujetə malikdir. Ona görə də hər qol ayrı-ayrılıqda aşıqlar tərəfindən müstəqil bir əsər kimi ifa edilir.

Dastanın 18, bəzi mənbələrdə daha çox qolu vardır. Məsələn:

"Koroğlunun Dərbənd səfəri", "Durna teli", "Koroğlunun Bağdad səfəri" və s. kimi hər bir qol müstəqil bir sujetə malik olduğu üçün müstəqil bir əsər kimi də düşünülə bilər.

**Qopuz (Kopuz) (bax: Saz):**

**Qoşayarpaq:** Buna musammat da deyilir. Qoşma janrında yazılan şeirlərdəki iç qafiyələrə aşıqların verdiyi ad. Belə şeirlərdə hər misra öz içində bölünərək qafiyələnir. Azərbaycan aşıq şeirində qoşayarpaq qoşmanın sənətkarlıqla yazılmış örnəkləri mövcuddur:

*Salam qələm qaşlı, yanı yoldaşlı,*
*Qalmışam atəşli, mən başı daşlı.*
*Huş başımdan aşdı, dilim dolaşdı,*
*Gözlərim sataşdı, buxara düşdü.* **(Aşıq Ələsgər)**

*Ay bağı bostanım, gülü reyhanım,*
*Ay canım məstanım, tazə gülşənim.*
*Ay dini imanım, ahu əfqanım,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oduna mən yanım, sən səfa gəldin.* **(Molla Cümə)**

**Qoşma (Koşma):** Azərbaycan və türk şeirinin ən qədim, əsaslı nəzm şəkillərindən biri. Ənənəvi qoşmalar on bir hecalıdır. Hər bəndi dörd misradan ibarət olan ən azı üç, ən çox 6-7 dördlükdən ibarət olur. Qafiyələnməsi abab (və ya abcb) aaab, cccd, dddb şəklindədir. Son dördlükdə aşığın adı çəkilir ki, buna «möhürbəndi» və ya «tapşırma» deyilir.

Kaşqarlı Mahmudun «Divani-Lüğətit-Türk»ündə qoşmanın qədim nümunələri mövcuddur. Lüğətdə qoşmalar «koşuk» şəklində də ifadə edilmişdir.

İslamiyyətdən öncəki ədəbiyyatda «koşuk» yerinə «sagu» da deyilmişdir.

Qoşmalar igidlik, eşq, təbiət, gözəllik mövzuları ilə bağlı olaraq söylənmişdir. Zaman keçdikcə klassik qoşmaların yeni-yeni şəkilləri meydana gəlmişdir ki, bunlar türk aşıq şeirində «Düz koşma», «Ayaqlı koşma», «Konuşmalı koşma», «Musammat koşma», «Yedəkli koşma» adları ilə ifadə edilməkdədir.

Azərbaycan aşıq şeirindən qoşma örnəkləri:

*Qohum-qardaş yenə düşdü yadıma,*
*Dedim könül, bir səfərin var, gedək.*
*Heç görmədim əhdə peyman olanı,*
*Nadan qurdu tərlan üçün tor, gedək.*

*Onu gördüm atdım dərdi, vərəmi,*
*Mübarək dəstindən aldım salamı.*
*Götürdüm əlimə dəftər-qələmi,*
*Könlüm istər o dağlardan qar, gedək.*

*Alı təki qürbət eldə dolanır,*
*Oğrun-oğrun yar oduna qalanır.*
*Ağ əllərə toy xınası bulanır,*
*Xoryad üzdü güllü bağdan nar, gedək.* **(Aşıq Alı)**

Türk aşıq şeirində «qoşma» adı altında anladılan qoşma düz qoşmadır. Örnək:

*Ala gözlerini sevdiyim dilber,*
*Seni görmeyeli göresim geldi.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Altun kemer sıkmış ince belini,*
*Usul boylarını sarasım geldi.*

*Kiçiciksən gözel, etme bu nazı,*
*Ciyerime basdın ateşi, közü.*
*Başına sokmuşsun gülü, nergizi*
*Üzümü üzünə süresim geldi.*

*Qaracaoğlan der ki, bilirim seni,*
*Adadım yoluna kurban bu canı.*
*Koynunda beslenen ayvayı, narı*
*Çözüb düymelerin deresim geldi.* ***(Qaracaoğlan)***

**Lalə (Lale):** Qədəhi andıran qırmızı rəngli çiçək.

İran əfsanələrində lalə yaşıl bir yarpaq üzərindəki şeh damlasına ildırım düşməsi nəticəsində yarpağın alov alıb yanmasından yaranmışdır. Lalənin içindəki qara nöqtə könlündəki dağı, yanığı ifadə edir.

Lalə (Laleh) sözünün yazılmasında L. A. L. H. hərfləri, yəni iki L və bir H hərfinin olmasından hərəkət edən sufilər ona müqəddəs bir mahiyyət verirlər. (Yəni xalda Haqqı görmək)

Əbcəd hesabına görə lalə və Allah kəlimələri eyni rəqəmi verir: 66.

**Layla (Ninni):** Mənzum folklor janrı olan laylalar anaların beşik başında körpələrinə müəyyən musiqi ahəngi ilə söylədikləri nəğmələrdir.

Kaşqarlı Mahmudun «Divani-Lüğətit-Türk» əsərində layla «Balu balu» şəklində ifadə edilmişdir.

Türk folklor ədəbiyyatlarında layla «ninni» adlanır.

İstər Azərbaycan, istərsə də türk anonim xalq ədəbiyyatında «layla» və ya «ninni» adlanan şeir-nəğmələr yalnız kiçik uşaqlar üçün söylənən şeirlərdir. İlk şairi və bəstəkarı da elə analardır. Bu şeirlərdə körpələrə olan sevgi məhəbbət ifadə edilir.

Azərbaycan layları 4-6 misradan ibarət olur. Laylanın ilk 4 misrası bayatıdır, iki misrası isə hər bayatıya əlavə edilən

*Balam laylay, a laylay,*
*Gülüm laylay, a laylay – nəqarətıdır.*

Bir neçə nümunə:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Laylay, beşiyim, laylay,*
*Evim, eşiyim, laylay.*
*Sən get şirin yuxuya*
*Çəkim keşiyin, laylay.*

*Balam laylay, a laylay,*
*Gülüm laylay, a laylay*

*Laylay dedim yatınca,*
*Gözlərəm ay batınca.*
*Canım cəzana gəldi,*
*Sən hasilə çatınca.*

*Balam laylay, a laylay,*
*Gülüm laylay, a laylay.*

*Dağlarda lalam sənsən,*
*Alınmaz qalam sənsən.*
*Kimim yox, kimsənəm yox,*
*Bir şirin balam sənsən.*

*Balam laylay, a laylay,*
*Gülüm laylay, a laylay.*

Türk «ninni»lərinin də laylanın (ninninin) ilk dörd misrası manidən (bayatıdan) ibarət olur və beşinci misra nəqarət olan «Ninni, yavrum, ninni», «Uyusun da büyüsün, ninni», «E,e, e, eh» kimi musiqili sözlərlə bitir. Bəzən də yalnız 4 misrada həm də nəqarət ifadə edilir.

Nümunə:

*Hu, hu derim bir Allah,*
*Sen uykular ver, Allah.*
*Oğlum büyüsün inşallah,*
*Her kes desin maşallah.*
*Ninni, yavrum, ninni.*

*Kızım güzel qayetten,*
*Sıçrar çıkar hayattan.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Kızıma dünür geliyor*
*Sivas ilə Tokattan.*
*Ninni, yavrum, ninni.*

*Eve girsem, ev karışık,*
*Dışa gitsem, bağrım yanık.*
*Her kes uyur, sen uyanık,*
*Uyusana, yavrum ninni,*
*Ninni, yavrum, ninni.*

*Dere boyu saz olur,*
*Gül açılır, yaz olur.*
*Ben yavruma gül demem,*
*Gülün ömrü az olur.*
*Ninni, yavrum, ninni.*
*Ninni desem yakışır,*
*Mahelleyi dolaşır.*
*Mahellenin kızları*
*Oğlum ilə oynaşır, ninni…*

*Ninni benim gülüm, ninni,*
*Saçları sünbülüm, ninni.*
*Uyku verin erenlər, ninni,*
*Evimizin bülbülü, ninni.*

**Lətifə (Latife, Fıkra):** Şifahi xalq ədəbiyyatında bir janr.

Gündəlik həyatın məzhəkəli tərəfini əks etdirən və məzəli sonluqla bitən satirik qısa hekayə. Türk folklor ədəbiyyatlarında «latife» və ya «fıkra» kimi adlarla tanınır. Avropada və Rusiyada «anekdot» kimi tanınan lətifələr bir hadisə və görüşü qısaca anladan qısa və zarafatyana hekayələrdir.

Lətifələrdə xalq həcvi və gülüşü qüvvətli bir şəkildə özünü göstərir.

Uzun illər boyunca lətifələrin insanların həyatı, güzəranı və məişəti ilə əlaqədar olması və hadisələrin müxtəlifliyi, baxımından müxtəlif variantları meydana çıxmışdır.

Azərbaycanda Molla Nəsrəddin və Bəhlul Danəndə ilə bağlı çoxlu lətifələr yaranmışdır. Bundan başqa şəhərlərlə (Şə-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ki, Ordubad və s.), şəhərlərdə yaşayan insanlarla bağlı çoxlu lətifələr yaranmışdır və hal-hazırda da yaranmaqdadır.

Yeni yaranmış lətifələrdən örnək:

«İyirmi doqquz ilimi niyə kəsirsən».

Sədnik Paşa anadan olanda dayısı Abdül Kərim balaca mis kasanın üstünə ərəb əlifbası ilə yazmışdı ki, bu körpə yüz iyirmi doqquz il yaşayacaqdır.

Bir dəfə müəllimlərin iştirak etdiyi toy mərasimində bioloq Adil Rüstəmov deyir:

– Bu badələri Sədnik müəllimin sağlığına içək. Allah ona yüz il ömür versin. İstedadlı adamdır.

Sədnik Paşa gülə-gülə dilləndi:

– Adil, dostum ola-ola iyirmi doqquz ilimi niyə kəsirsən? (Bax: Sədnik Paşa Pirsultanlının lətifələri. II kitab, AGAN – 2005, s.95.)

Türk fıkralarında (lətifələrində) xalq yumoru, xalq həcvi qüvvətli şəkildə özünü göstərir. Bu lətifələr «adamın biri», «afacanın biri» «çocuğun biri» kimi sözlərlə və ya qəhrəmanın adı ilə başlayır, hadisə anladılır və sona varılır.

Xalqın milli xarakterini təmsil edən lətifə qəhrəmanları var. Türk lətifələrini təxminən aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Nəsrəddin Hoca fıkraları.
2. Bektaşi fıkraları.
3. Oflu Hoca fıkraları.
4. Böyük şəhər (İstanbul, Bursa, Ədirnə və s.) fıkraları.
5. Bölgələri və etnik zümrələri xarakterləşdirən fıkralar.

Örnəklər:

1. «Şair Baki Ədirnəyə gedir. Ona çox hörmət və ehtiram göstərirlər. Ədirnə şairləri böyük ustad üçün gəzinti ziyafəti təşkil edirlər. Yay mövsümü, hər tərəf yamyaşıl, quşlar şirin nəğmələr oxuyur… Bu zaman şairlərdən biri Bakidən soruşur:

– Ədirnəmiz necədir, əfəndim.

Baki:

– Ədirnə cənnət kimi, amma içində adam yox.

Bu cavabdan son dərəcə alınan Ədirnəli şair Emri Bakinin sivri burnuna və solğun çöhrəsinə baxıb:

– Adəm cənnətdən qovuldu, indi yerində qarğalar ötür – deyir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1. Bir gecə Hoca Nəsrəddinin evinə oğru gəlib evdəki bir çox əşyaları yükləyib gedərkən, hoca da əlinə bir xəlbir alıb oğrunun dalınca gedir. Oğru evinə girincə, Hoca da onunla evə girmək istəyir.

Oğru:

– Mənim evimdə nə işin var – deyərkən Hoca:

– Ya, biz bir evə köçmədikmi? – deyir.

**Lövh (Levh, levh-i mahfuz):** Əsli ərəbcə bir kəlmə olub yazı taxtası, lövhə, səhifə, ağıl lövhəsi kimi mənaları ehtiva edir.

Lövhün lövhi-idrak "ağıl lövhəsi" mənası olduğu kimi, lövhi-məhfuz yəni, Allahın bütün göstərişləri yazılmış kitab mənası da vardır.

Təsəvvüf şeirlərində ikinci məna daha çox ifadə edilmişdir.

*Böyle zaptetmiş görüb evsaf-ı alişanını*
*Levh-i mahfuzi Huda'da hame-i muciz beyan.* ***(Kazim Paşa)***

*Ərənlər bu yolda hazırdır, hazır*
*Müsahib lövhini dəfdərdən yazır.* ***(Xətai)***

*Kader böyle imiş, çiçek bahene,*
*Levh-i kalem kara yazmış yazımı* ***(Aşıq Veysel)***

*Qam suyuyla mayam böyle katılmış,*
*Ki levh üzre kalem böyle yarılmış* ***(Aşıq Seyrani)***

**Mahnı (Türkü):** Mahnı sözü «mani»dən əmələ gəldiyi ehtimal olunur. Əvvəllər Azərbaycan xalq mahnılarına da çox zaman türkü deyilmişdir. Sovet dönəmi illərində türkü sözü qəribliyə salınaraq söylənməsi uyğun bilinmədiyi üçün "türkülər" "mahnılar" şəklində ifadə edilmişdir. Azərbaycan xalq mahnıları ilə türk türküləri arasında əsaslı fərq görünmür. Xalq mahnıları da türkülər də xalq tərəfindən musiqi və bəzən rəqslərlə icra edilir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan mahnıları çox zaman bir neçə bəndli şeirdən və hər bənddən sonrakı nəqarətdən ibarət olur. Şeirlər müxtəlif nəzm şəklində ola bilər (bayatı, qoşma, gəraylı və s.).

«A ceyran balam», «Qara göz», «Ay bəri bax, bəri bax», «Yaralı durna», «Şuşanın dağları», «Sarı gəlin», «O xal nə xaldı», «Girdim yarın bağçasına» kimi xalq mahnılarının şeirləri də, musiqisi də anonimdir, xalqa məxsusdur.

Örnək: «Qara göz»

*Gülü baxçadan üz,*
*Saçına saçaq düz.*
*Yanıma gəlibsiz*
*Qara göz, qara göz.*

Nəqarət:

*Məni gəl məzəmmət*
*Eləmə gözəl yar.*
*Nə qədər qəşəngsən,*
*Nə qədər gözəlsən,*
*Elə bil mələksən,*
*Qara göz, qara göz.*
*Sən mənim gülümsən,*
*Gülüm, bülbülümsən.*
*Şirindil, şirin söz*
*Qara göz, qara göz.*

Nəqarət:

*Məni gəl məzəmmət*
*Eləmə gözəl yar.*
*Nə qədər qəşəngsən,*
*Nə qədər gözəlsən,*
*Elə bil mələksən,*
*Qara göz, qara göz.*

Türkü türk kəlməsindəndir. Türkə məxsus mənasına gələn türkü, musiqi ilə söylənən şeirlərdir. Türkülərdə oxunan şeirlər əsasən bayatı (mani) və qoşma tipli heca vəzni ilə söylənmiş



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şeirlərdir. Bəzən əruzla yazılan nümunələri də olur. Bayatı və qoşma şəklində söylənən bir şeir musiqisi ilə türkü olur.

Türkülərin mövzusu məhəbbət, hicran, ayrılıq, qürbət və s. əlaqədardır.

Türk türküləri mütəxəssislər tərəfindən aşağıdakı şəkildə qruplaşdırılır:

1. Əzgilərinə (musiqisinə) görə türkülər. Bunlar üsulsuzlar və üsullular deyə ikiyə ayrılır. Üsulsuz türkülərin Hoyrat, Kayabaşı, Divan, Bozlak, Çukurova kimi növləri var.

Üsullu türkülər əsasən oyun havalarıdır. Məsələn: Kırık hava (Urfada), Oturaq hava (Konyada) və s.

2. Mövzularına görə türkülər. Bunlar eşq, ayrılıq, ölüm, toy-düyün, doğum, müharibə, zəlzələ, qaçaqçılıq, cinayət, qıtlıq, xəstəlik və s. ilə əlaqədar ola bilər.

3. Quruluşlarına görə türkülər.

a) ikili türkülər
b) üçlü türkülər
c) dördlü türkülər
ç) əruzlu türkülər və s.

Türkü örnəyi:

*Yüksək ayvanlarda bülbüllər ötər,*
*Bülbülün fəqanı aləmə yetər;*
*Mənim çəkdiklərim ölümdən betər.*

*Gəl anam, gəl bacım, gəlin olasan,*
*Çarşamba gecəsi bizə gələsən.*

*Əlinin kınasın al eyləmişlər,*
*Gözünün sürməsin bol eyləmişlər;*
*Səni bir igidə yar eyləmişlər.*

*Gəl anam, gəl bacım, gəlin olasan,*
*Çarşamba gecəsi bizə gələsən.*

**Malayani:** "Ma", "la" və "yani"nin birləşməsindən əmələ gəlmiş bir ifadədir. Mənasız, boş söz kimi mənaları ifadə edir. Təsəvvüfi əxlaqda "mənasız, boş sözlərə yer yoxdur" mənasındadır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Eyleme ehl-i salâha tâ'ni*
*Söyleme cehl ile malaya'ni* ***(Taşlıcalı Yahya)***

**Mal-Mülk (Mal-Mülk):** "Mal" bir insanın və ya insanların sahib olduğu əşya, pul, ruzidir. Cəmi "emval"dır. "Mülk"də səltənət, dövlət, hökumət, ölkə, məmləkət, mülkiyyət, malikanə kimi mənaları ifadə edir.

Təsəvvüfdə dünyanın keçiciliyini anlamaq və anlatmaq üçün söylənilir.

*Mal sahibi, mülk sahibi,*
*Hanı bunun ilk sahibi.*
*Mal da yalan, mülk de yalan,*
*Var bir az da sen oyalan.* ***(Yunus Əmrə)***

*Dedim könül bacar yaxşılıq eylə,*
*Həmişə əlində ixtiyar olmaz.*
*Çox da bel bağlama dünya malına,*
*Nə mala, nə mülkə etibar olmaz.* ***(Ağ Aşıq)***

*Hey Sümmani, gönül asla tek olmaz,*
*Konar, göçer hiç kimseye yük olmaz.*
*Can emanet bir kimseye mülk olmaz,*
*Bu dünyaya gelen getmek içindir.* ***(Aşık Sümmani)***

**Merac (Mirac):** Əsli ərəb sözü olan və kəlmənin ilkin mənası «nərdivan, çıxılacaq yer, göyə çıxma» deməkdir. Mirac-ün-nəbi – Məhəmməd Peyğəmbərin Rəcəb ayının 27-si gecəsi səmaya yüksəldiyi möcüzəyə verilən addır. Peyğəmbərimiz Burak deyilən ata minib göyə yüksəldiyi möcüzə.

Yunus Əmrə bu möcüzəni belə anladır.

*Gönüllərin komşuların ismarladı Hak Resul'e,*
*Mirac gecesi dost ilə bu oldu dahi.* ***(Yunus Emre)***

*Miraca edecek sefer,*
*Ol sırrını duyan benim.* ***(Yunus Emre)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmməd peyğəmbərin Allah ilə görüşdüyü gecəyə “merac gecəsi”, bu hadisəyə isə “merac” deyilir. Merac hadisəsini anladan mənzum şeirlərə də “Meraciyyə” deyilir.

Azərbaycan və türk ədəbiyyatında Peyğəmbərin meracını anladan klassik nümunələr mövcuddur.

Nizami Gəncəvidən bir örnək:

***PEYĞƏMBƏRIN ME'RACI***

*Sən, ey mənaların meracı olan,*
*Sənin meracındır sonsuz asiman.*
*Yeddi xəzinəni açaraq bir dəm,*
*Dörd kövhər üstünə basmısan qədəm.*
*Sığmadın zamanın dar sinəsinə,*
*Ucaldın göylərin son zirvəsinə.*
*Gecə qara bayraq tutduğu zaman*
*Oldu qara atın mənzilə rəvan.*

*O vaxt qanad açdı sənin ayağın,*
*Göyün xəlvət yeri oldu dayağın.*
*Bu fani dünyada sən yüksələndə,*

*Sən Ümmi Haniyə qonaq gələndə.*
*Cəbrayıl gətirdi sənə şad xəbər,*
*Dedi:Qulluğuna hazırdır göylər.*
*Göylərdə mələklər səf-səf düzülmiş,*
*Bütün göy aləmi seyrinə gəlmiş.*
*Oyan, yuxu vaxtı deyildir, haray,*
*Sənintək Günəşə müntəzirdir Ay.*
*Yerini Ütarid bilməyəcəkdir,*
*Sənin düşərgahın daha yüksəkdir.*
*Şabaş sinəsini qaldırmış Zöhrə,*
*Deyir: «Şərq batacaq al şəfəqlərə».*
*Günəş də incəlib olmuşdur hilal,*
*Yolundan çəkilmiş sanki bir xəyal.*
*Mərrix qulluqçudur yataq evinə,*
*Üzəngidən tutan uşaqdır sənə.*
*Müştəri yoluna doğandan bəri*
*Yanıb qamaşdırır yaman gözləri.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Keyvan qulağına halqa taxaraq,*

*Qul kimi qaldırmış bir qara bayraq.*
*Bu cürə qulların köməyilə sən*
*Getdiyin yolları xoş keçəcəksən.*
*Qədr gecəsidir bu gecə, tələs,*
*Onun qədrini bil, gecikmə əbəs.*
*Bu gecə hüsnüdür əbədiyyətin,*
*Me raç gecəsidir bu Məhəmmədin.*

*O gecə nə qədər xoşbəxtdir bilsən,*
*Gündüztək parladı ilk qədəmindən.*
*Bu qara torpağa qoyub da pərgar,*
*Gəzdin göy üzünü sən diyar-diyar.*
*İldırım Buraqı mindin dünyada,*
*Sənin gedişindən yumşaldı o da.*

*O bakir yaranan taxt üstündə sən*

*Bir səadət kimi açmışdın yelkən.*
*Minib bu tək ata göylərdə çaxdın,*

*Cüt atlı ruzgarı dalda buraxdın.*
*Fələklər bağına girən zaman sən,*
*Ağlı, qırmızılı xoş meyvələrdən*
*Qapına minlərcə salxım yollandı,*
*Sənin gözündəydi eşqin son andı.*
*Qalxanda göylərin yeddi qatına,*

*Nə pərçəm, nə də bir tac qurdun ona.*
*Yırtıldı göylərin bulud qabağı,*
*Sınıb parçalandı ayın tabağı.*
*Tovuz qanadlılar çıxıb göylərdən,*
*Qarşında qol-qanad tökdülər birdən.*
*Cəbrayıl səninlə gedə bilmədi,*
*Allaha tapşırıb, yaxşı yol, dedi.*
*Mikayıl yer verdi sənə başında,*
*Israfil qul kimi durub qarşında*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Özünü kölgətək ayağa saldı,*

*O da yarı yolda yorulub qaldı.*
*Bir Rəfrəf səninlə mənzilə vardı,*
*O, Sidrə taxtına səni apardı.*
*Sidrənin üstündən keçən zaman sən*
*Hədis dəftərini yazdın əlinlən.*
*Yeddi qat göylərdən keçib yüksəldin,*
*Yüksəlib ən uca zirvəyə gəldin.*
*«Sübbuh» söyləyərək göy sakinləri,*
*Kölgəyin nurində çimdi min pəri.*
*Ərşin çadırından uçdun yenə sən,*
*Üzünü göstərdin yetmiş pərdədən.*
*Çıxdın tərəflərin zülmətlərindən,*
*Yüksəyin, alçağın zəhmətlərindən.*
*Qurtardın paltarın ağırlığından,*
*Tacı da, taxtı da atdın o zaman;*
*Xeyməni götürüb iki aləmdən,*
*Tanrı gərdəyini eylədin məskən.*
*Həm böyük allahı ziyarət etdin,*
*Həm də haqq sözünün sirrinə yetdin.*
*Sənin eşitməyin, bir də görməyin*
*Ağıldan, idrakdan uzaqdır, yəqin.*
*Açdın ürəyini sən sərii-sərin,*
*Adına layiqdir istədiklərin.*
*Verdi istəyini böyük yaradan,*
*Sən razı qayıtdın tanrı yanından.*
*Alnın nar gülütək açıldı yenə,*
*Kərəm fərmanını aldın əlinə.*
*Sənin xatirinə o böyük tanrı*

*Əfv etdi biz kimi günahkarları.*
*Şahımız, kölgəndə tutmuşuq qərar,*
*Bizim bu dünyada nə dərdimiz var!*

*Sən bizə ruh verən günəşsən artıq,*
*Daima parlasan, biz də solmarıq.*
*Vicdanın mürüvvət dənizidir, bil,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Nübüvvət göyləri sənin yerindir.*
*Sənsiz mürüvvət də, göylər hakimi*
*Xalqa görünməzdi nübüvvət kimi.*
*Səndən uzaq düşən hər kəs, hər nəfər*
*Səadət ustündən bir qələm çəkər.*

*Vəfa kəmərini belə bağlayan*
*Duşməz əbədiyyət taxtından bir an.*
*Baxıb Irəm bağı bu vüqarına,*

*Ətir xərac verir ruzigarına.*
*Göylər baratını yazıb göylərə,*
*Bir xəzinə kimi qayıtdın yerə.*
*Göyləri keçdiyin o sürətlə sən*
*Nolar, Nizamiyə bir söz söyləsən?*
*Çoxmu qalacaqsan sən bu niqabda?*
*Çoxmu yatacaqsan o rəxti-xabda?*
*Bir oyan, üzündən bu örtünü at.*
*Şahını şahmatın taxtında oynat!*
*O yük dalındakı süfrəni göstər,*
*Xəyalım aləmi pərdəsiz istər.*
*Ağ ilə qaranın rəngini sil sən,*
*Qaldır ziddiyyəti dörd təbiətdən.*
*İki vəfasızın əhdini bir et,*
*Bu dörd ayaqlını özün əlbir et.*
*Həyatı kəmalə verəndən bəri*
*Həll etdin aləmdə çətinlikləri.*
*Nafəndən küləyə bir ətir versən,*
*Bizə də pay düşər bu nemətindən.*

*Əzəl lövhəsini bilirsən əzbər,*
*Ondan bir ayə də bizimçin göndər.*
*Zəhmətsiz tapdığın elmdən bir az*
*Bizim də dəftərə öz əlinlə yaz.*

*Biz kimik, nəçiyik, aç, göstər artıq,*

*Büt qayıranmıyıq, büt qıranmıyıq?*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ey mənim işimi düzəldən qüdrət,*
*Sənsən Nizaminin qəlbinə qüvvət.*
*Könül, gəl, bununla qənaət elə!*

*O böyük Tanrıdan şəfaət dilə!*
*Ta ki bu pərdəni almasın bizdən,*
*Bu pərdə qalxmasın heç üzümüzdən.* ***(N.Gəncəvi)***

**Meyxana:** Azərbaycan folklor ədəbiyyatında bir janr. Farsca bir söz olub aşağıdakı mənaları ifadə edir:

1. Şərab dükanı, şərab içilən yer.
2. Bədahətən deyilən, bəzən həcvedici və bəzən də gülüş doğuran şeir. Xalq şeirinin bir janrı olan meyxana ikinci mənanı ifadə etməkdədir.

Meyxanada şux əhval-ruhiyyəli satira, xalq yumoru və hazırcavablığı üstünlük təşkil edir.

Meyxanalar musiqinin müşaiəti ilə, bəzən də musiqi olmadan söylənən həcvli şeir növləridir. İnsanların nöqsan və zəif cəhətləri, cəmiyyətdəki nöqsanlar, ədalətsizliklər, ailə-məişətdən tutmuş siyasi hadisələrə qədər mövzular bu şeirlərə mövzu ola bilər.

Meyxanalar daha çox şənlik, əyləncə məclislərində iki və ya üç meyxanaçı şair tərəfindən deyişmə şəklində göstərilir.

Azərbaycan aşıq poeziyasındakı deyişmə, hərbə-zorba ilə meyxanalar arasında bir yaxınlıq vardır. Aşıq deyişməsi ilə meyxana arasında oxşar cəhət hər ikisində bədahətən şeir söyləmə hünəri, hazırcavablıqdır. Fərqli cəhət isə meyxana məclislərində sazın olmaması, yerini çırtma və ya qavala verməsidir. Meyxananın şərtlərindən, cəhətlərindən biri də qafiyə tutmaqdır. Aşıq deyişmələrindəki «ayaq açmaq, ayaq vermə»yin meyxanadakı «qafiyə tutmaq»la yaxınlığı vardır.

Meyxanaların xalqın toy məclislərində oxunduğunu görkəmli səhnə ustası Hüseynqulu Sarabski «Köhnə Bakı» kitabında belə ifadə edir:

«Adamlar dağılışandan sonra toy sahibinin yaxın adamları, qohumları toyda iştirak edən şair təbiətli adamları meydana çəkərək məclisin ortasında əyləşdirir, əlinə də bir qaval verirdilər. Bəzən qavalı başqa birisi çalırdı. Belə meyxana deyənlər tək deyil, iki nəfər olmalı idi. Bunlar bir-biri ilə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

deyişməli idilər. Onların sözlərinin nəqaratı məclisə toplananlar tərəfindən xorla təkrar edilməli idi». (Bax: «Ədəbiyyat və İncəsənət» qəzeti, 1983, 25 fevral.)

Günümüzdə daha çox Bakı və onun kəndələrində yayqın olan şeirləri söyləməyin tarixi daha qədimlərə, sufi-təkkə mərasimlərinə gedib çıxıb. Bu barədə prof. Məhərrəm Qasımlının fikri belədir: «Xalq arasında yayılmış «meyxana» şeir forması, heç şübhəsiz ki, uzun zaman təriqətin xidmətində dayanmışdır. Meyxananın xüsusi avaz və çılğınlıqla ifa olunması ondan bir vasitə kimi təkkə mərasimlərində istifadə edildiyini göstərir. Çox güman ki, əvvəllər əsasən sufi mətnlərindən ibarət olan «meyxana»lar sonralar–XX yüzillikdə vulqar sosiologiyanın təsiri altında öz məzmun istiqamətini dəyişmiş və xeyli dərəcədə bəsitləşərək bayağılaşmışdır. Şeirin adı «meyxana» və ifa tərzi tarixi semantik mahiyyətin izlərini hələ də qorumaqdadır». (87, 147)

İfaedici vəsfi, acı-şirin satirik güldürücülüyü incə yumoru, bəzən də şiddətli satirası olan meyxanalar XIX-XX əsrlərdə və, günümüzdə də yazılmaqda və ifa edilməkdədir.

XX əsrin əvvəllərində Əliağa Vahid tərəfindən yazılmış meyxanadan bir neçə bənd:

*Hər kəs olur əsgər ilə zidd döyür,*
*Baş çavuş şeytanlayır, zabit döyür.*
*Zalımın oğlu elə bil it döyür,*
*Canı çıxıncan, necə bəs dolansın?*

*Desək əgər az qalıbdır ilimizə,*
*On bir aydır ət dəyməyib dilimizə.*
*Bir yekə daş bağlanacaq belimizə*
*On altı batman, necə bəs dolansın?*

*Bir kişi gördüm ki, deyir maşında,*
*Olardı əlli, əlli beş yaşında*
*Raboçilər əyləşsə iş başında,*
*Sahibi milyon necə bəs dolansın?*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Məddah (Meddah):** Türk xalq teatrında bir tamaşa növü. Məddahın mənası öymək, mədh etməkdir.

Əskilərdə saraylarda, zəngin evlərdə, qəhvəxanalarda xalq hekayələrini danışan sənətçilərə məddah deyilirmiş. Onlar bir oturaraq dinləyicilərə bir hekayə söyləyirlərmiş. Onlar bu hekayə və ya mənqibələri ya kitabdan oxuyar, ya da əzbərdən söylənərmişlər. Daha çox dini mövzuda olan Həzrət Həmzə, Battal Qazi kimi qəhrəmanlara aid mövzularda hadisələr danışırdılar. Bəzi məddahlar da əllərindəki sazları ilə mənzum dastanlar söyləyir, mədhləri sazlarında çalıb oxuyurdular.

Bir çox belə sənətkarlar da hadisələri təqlid edərək anladırdılar. Günümüzdə də Şərqi Anadoluda Ramazan gecələrində qəhvəxanalarda dastan söyləyən məddahlar vardır.

Türk xalq teatrında bir sənətçinin təkbaşına hazırlayıb oynadığı tamaşa növünə məddahlıq deyilir. Gündəlik həyatda olan hadisələr, nağıllar, dastanlar, əfsanələr məddahın repertuarını təşkil edir.

**Məhəbbət (Muhabbet) (bax: Eşq):** Məhəbbət sözünün ilk mənası ərəbcə sevgi deməkdir. İki insan arasında, ata-anaya, övlada, dosta, insanlara, təbiətə və s. olan möhkəm bağlılıq ən ali hiss məhəbbətdir. Təsəvvüfdə məhəbbətin həqiqi mənası hər şeyini sevdiyinə (Allaha) vermək, bağışlamaqdır. Pir Sultan məhəbbəti aşağıdakı şəkildə mənalandırır:

*Didar ile muhabbete doyulmaz,*
*Muhabbetden kaçan insan sayılmaz.*
*Münkir üflemekle çıraq söyünmez,*
*Tutuşunca yanar aşkın çırağı.*

*Dervişler harabat olur,*
*Hak katında hürmet olur.*
*Muhabbet baldan tatlıdır*
*Doyamazsın demedim mi.* ***(Pir Sultan Abdal)***

*Hakikat kapısın muhabbet açar,*
*Muhabbetten kaçan Haktan da kaçar.*
*İyilik el kuşudur kanatsız uçar*
*Kötüyə iyilikten ezap görünür.* ***(Seyrani)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*İqrar verdim dönməm Ələst Bəzmindən,*
*Verdiyim iqrarı imandan aldım.*
*Başqa seyran gördüm kəndi özümdən,*
*Bu məhəbbəti mən Mərdandan aldım.* ***(Xətai)***

**Məhəbbət dastanları (Halk hikayeleri):** Azərbaycan dastanlarının bir qolu. Azərbaycan dastanları məhəbbət dastanları, qəhrəmanlıq dastanları, ailə-məişət dastanları kimi üç mühüm qrupda izah edilir. Məhəbbət dastanlarının mövzusu məhəbbət və qəhrəmanlıq olmaqla, aşıqlar tərəfindən məclislərdə söylənilən dastanlardır. Belə dastanlar nəzm və nəsr hissələrindən ibarət olur. Aşıqlar nəsr hissəsini xüsusi məharətlə ifadə etməklə bərabər, nəzm hissəsini isə sazın müşayiəti ilə aşıq havaları ilə oxuyurlar. Belə dastanlar xalq məclislərində, toy-düyünlərdə üç gün, üç gecə, yeddi gün, yeddi gecə aşıqlar tərəfindən söylənmişdir. «Əsli və Kərəm», «Şah İsmayıl», «Aşıq Qərib», «Abbas və Gülgəz» kimi onlarla məhəbbət dastanları aşıq yaradıcılığının məhsuludur.

Türk xalq ədəbiyyatında Azərbaycan dastanları sırasında «məhəbbət dastanları» adı ilə bilinən dastanlar «xalq hekayələri» adlanır. Bunlar aşıqlar tərəfindən məclislərdə söylənən xalq ədəbiyyatı məhsulları kimi izah edilir. Belə dastanlar (hekayələr) nəzm və nəsrlə söylənilir. Müəllifləri bəlli deyildir. Mövzuları isə məhəbbət və qəhrəmanlıqdır. Nəsrlə söylənən bölümləri gözəl ifadə ilə nəql edilir, nəzm bölümləri – şeirlər isə sazın müşayiəti ilə havalarla (əzgi ilə) oxunur. Xalq hekayələrini aşıqlar üç gün, üç gecə, yeddi gün, yeddi gecə davam edən xalq məclislərində söyləyirlər.

Türk xalq ədəbiyyatında məhəbbət dastanlarını (xalq hekayələrini) qəhrəmanlıq dastanlarından ayıran xüsusiyyət aşağıdakı şəkildə ifadə edilir:

1. Xalq hekayələrini əsasən aşıqlar anladırlar. Hekayələrin içərisindəki şeirlər sazın müşayiəti ilə havacatla oxunur.
2. Terminoloji izahata görə dastanların ilk şəkli şeirlə yazılır. Xalq hekayələrində isə nəzm və nəsr iç-içədir.
3. Dastanlarda əsas mövzu qəhrəmanlıq, xalq hekayələrində isə məhəbbətdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

4. Dastanlar daha çox mifologiyaya dayanır, xalq hekayələrində isə mifoloji ünsürlər azdır.

Odur ki, türk folklor mənbə və ədəbiyyatlarda «Oğuz xan», «Manas», «Atilla», «Çingiz xan», «Battal Qazi» kimi əsərlər dastan, «Əsli və Kərəm», «Yusif və Züleyxa», «Leyli və Məcnun» kimi əsərlər xalq hekayəsi sayılır.

**Məhşər (Mahşeir): (bax: Qiyamət, Həşr, Ərəsət)** Həşr olunacaq, toplanıcaq yer. Qiyamət günündə bütün məxluqların yenidən dirildikdən sonra hesab üçün toplanacaqları yer, yəni Ərəsət meydanı.

İslam inancının əsaslarından biri də Həşrə imandır. Yəni hər insan öldükdən sonra hesab günü diriləcək, sonra da günahı olmayanlar Cənnətə, günahı çox olanlar Cəhənnəmə gedəcəkdir. Bunları, yerləri, göyləri, zərrələri, ulduzları, bütün kainatı yaradan sonsuz qüdrət sahibi olan Allah Təala edəcəkdir.

*Məhşər günü boynu bükük qalmamaq istərsən,*
*Cənabı Haqqa şükürdən üz çevirmə.* ***(Sədi Şirazi)***

*Həşrin günü gəldi, yuxudan dur,*
*İnanmaz isən, gözünü aç gör.* ***(Nəsimi)***

*Yuxudan oyan ki, məşhər oldu,*
*Gör neçə zaman pür şər oldu.* ***(Nəsimi)***

*Gevheri der, aşiq olan etmez ar,*
*Üz tut iyilere, igidə yalvar.*
*Mahşeir günü üç nesneden korkum var:*
*Biri sirat, biri mizan, biri sual.* ***(Aşıq Gevhəri)***

*Dövlətlilər əzrayılsız can alır,*
*Pulun sələminə ot, saman alır.*
*Əvvəlcə beş verib, sonra on alır,*
*Qiyamət günündə hallarına bax.* ***(Aşıq Alı)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Məqam (Makam):** Mənşəcə ərəb sözü olan məqam özünün ilkin mənasına görə “dayanılacaq yer, duracaq məkan” deməkdir. Sonralar qazandığı ikinci mənası mənsəb, məsul vəzifə, üçüncü mənası isə muğam deməkdir.

Din başçılarının məzarlarının və ya xatirələrinin olduğu yerə də məqam deyilir; “Məqamı İbrahim” kimi. Həzrət Mövlanənin türbəsinin girişində bu mənanı ifadə edən belə bir beyt var:

*Ka’betü’l – Uşşak başed in makam*
*Her ki nakıs amed inca şod temam.*

*Yəni:*

*Bu məqam (məkan) aşiqlərin Kəbəsidir,*
*Buraya naqis gələn tamam olur.*

Birisi bir başqa yerdə vəfat edərsə məmləkətində və ya xatirəsinin umduğu bir yerdə ruhuna fatihə oxumaq və ya onu anmaq üçün tikilən yerə də məqam deyirlər. Bektaşilərdə ocaq, baba, qayb ərənləri kimi məqamlar (məkanlar) vardır.

**Mənqibə (Menkıbe):** Din uluları ilə ermişlərin başlarına gələn hadisələrdən bəhs edən əsər. «Mənqibe»nin cəmi «Menaqib»dir. Anadoluda və Orta Asiyada islamiyyətin yayılmasında xidmətləri olan Abdulkərim Satuk Buğra xan, Seyid Battal Qazi, Məlik Danışmənd Əhməd Qazi haqqında mənqibələr mövcuddur. Bu mənqibələr bir çox milli islami dastanların (Mənaqibnamə) yaranmasının qaynağı olmuşdur. «Satuk Buğra xan», «Battalnamə», «Danışməndnamə» kimi islami dastanların yaranması kimi.

«Mənqibə», «mənakib» anlamı aşıq ədəbiyyatında da yer almışdır:

*Menakip elminden mana duymadın,*
*Dört kapıya, kırk makama uymadın.*
*Yedi kere seda geldi aymadın,*
*Her dükkanın metarından kaparsın.* ***(Hekimanlı Esiri)***

Anadoludakı əski türk şairləri başqa bir quşun şəklinə girmə ifadəsini «donuna girmək» deyimi ilə ifadə etmişlər. Əhməd



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yasəvi zaman-zaman «durna şəklinə», Hacı Bektaş Vəli «göyərçin şəklinə», Abdal Musa isə «keyik şəklinə» girmişdir. Abdal Musa ilə Hacı Bektaş Vəlinin Anadoluya gəlməsi belə anladılır.

*«Güverçin kılığıyla Uruma uça,*
*İmamlar evinin kapısın aça».*

Anadoludakı rəvayətlərə görə Hacı Bektaş Vəli «Bir göyərçin şəklinə girmiş və uçaraq Anadoluya qədər gəlmişdir».

Hacı Bektaş Vəlinin nüfuzunun böyük güc və təsirini görən Anadoludakı yerli dərvişlər onu qısqanaraq ona qarşı qüvvə toplamışlar. Bu mubarizəni göstərən bəzi simvolik rəvayətlər də mövcuddur. Söyləntilərə görə Hacı Bektaş Vəli göyərçin şəklində Anadoluya gəlincə, onu ilk qarşılayan Doğrul Baba olmuşdur. Doğrul Baba bir doğan (şahin quşu) cildinə girmiş və Hacı Bektaş Vəlini yaxalamaq istəmişdi. Hacı Bektaş Vəli isə bunu görüncə silkinərək insan olmuş və dərhal Doğan Babanın boğazından yapışaraq nəfəsini kəsməyə başlamışdı. Doğan Baba vəziyyətin təhlükəli olduğunu görüncə Hacı Bektaş Vəlidən aman istəmiş, o da Doğan Babaya aman vermişdi.(29,86)

**Mərasim nəğmələri:** Xalqın adət və ənənələri ilə bağlı olaraq yaranan folklor janrı. Bunlar bayram, mövsüm, yas, toy mərasimləri ilə bağlı olaraq yaranır və lirik parçalarda ifadə edilir.

Prof. Azad Nəbiyev mərasimlə bağlı yaranan janrı «Mərasim folkloru» adlandırır və bunu aşağıdakı şəkildə qruplaşdırır:

«Mövsüm mərasimi nəğmələri», «Çillə nəğmələri», «İlaxır çərşənbə şənlikləri», «Bayram məişəti nəğmələri», «Azərbaycan bayramları», «Novruz bayramı», «Novruzdan sonrakı nəğmələr», «Məişət mərasimi nəğmələri», «Adqoyma mərasimi nəğmələri», «Toy nəğmələri», «Yas nəğmələri».(21, 248-296)

Azərbaycandakı toy mərasimi ilə yaranan nəğmələrdə gəlinin bəy evinə köçməsi, bəy, gəlin və onların ata-anaları, qohumları, dostları dilə gətirilir, onlara xeyir-dua verilir:

*Al almağa gəlmişik,*
*Şal salmağa gəlmişik.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Oğlanın adamıyıq,*
*Qız almağa gəlmişik*
*Aparmağa gəlmişik*

və ya:

*Qızıl gülü dəstə-dəstə dərərlər,*
*Dəribən də yaylıq üstə sərərlər.*
*Aşıqlara müjgə xələt verərlər*
*Görüm ay bəy toyun mübarək olsun,*
*Sağdışına, solduşuna borc olsun.*

**Mərifət (Marifet):** İnsanı Allaha yaxınlaşdıran şəriət, təriqət, mərifət, həqiqət mərhələlərinin üçüncüsü.

Mərifət mərhələsi insanın ədəb, kindən-qərəzdən uzaq olmaq, səbirli, qənaətcil, haqsızlıqdan qorxmaq, abır-həyanı gözləmək, ümidsizliyə düşməmək, ibrət götürmək, nemətlərə hörmət, onu israf etməmək, xudbinlikdən (eqoistlikdən) uzaq olub, xoşrəftar, comərd olmaq və ariflik mərhələsidir.

İnsanların həqiqətə çatma sirlərini öyrənməsi mərifətdir.

Aşıq şeirində «mərifət» kəlməsi yuxarıda deyilən mənanı ifadə etmişdir.

*Şəriət öyrəndim min bir ad üçün,*
*Həqiqət öyrəndim eyni zat üçün.*
*Mərifət öyrəndim bu sifət üçün*
*Təriqətə xidmət etdim əzəldən* ***(Xətai)***
*Şeiriat şeirtine emel etmeyen,*
*Tarikatta bir gerçeye yetmeyen,*
*Marifet şehrinde yükün tutmayan,*
*Hakikata erişemez surəsi* ***(Hekimanlı Esiri)***

*Aşıq olub tərki-vətən olanın,*
*Əzəl başdan pürkamalı gərəkdir.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdir.* ***(Aşıq Ələsgər)***

**Mərsiyə (Mersiye):** Klassik və xalq poeziyasında şeir növü. Konkret olaraq şeir şəkli yoxdur. Ölüm, matəm və başsağlı-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ğı münasibətilə yazılmış kədərli şeirlər. Məzmunca ağıya yaxın olsa da, forma və üslub cəhətdən ağıdan fərqlənir.

Tarixin ayrı-ayrı dövrlərində mərsiyələr müxtəlif səciyyə daşımışdır. Görkəmli şəxsiyyətlər, sənətkralar, din başçıları haqqında yazılan mərsiyələr ədəbiyyat tarixində mövcuddur. Yazılı ədəbiyyatda Dəxil, Qumri, Raci, Natəvanın, M.P.Vaqifin yazdıqları mərsiyələr buna misal ola bilər. Mərsiyələrin bir qismi də yas məclisləri ilə əlaqədardır. Bu məclislərdə daha çox din xadimləri, onların ölümü, onların başına gətirilən fəlakətlərlə bağlı mərsiyələr oxunur. Həzrəti Əli, İmam Hüseyn və onun ailə üzvləri ilə bağlı oxunan mərsiyələr buna misal ola bilər. Kərbəla mərsiyələri Məhəmməd Peyğəmbərin nəvəsi İmam Hüseyin və Əhli-Beytdən 72 nəfərin İraqın Bağdad şəhəri yaxınlığındakı Kərbəlada şəhid olması ilə əlaqədar yazılmışdır. İmam Hüseyin Şümr adlı bir əleyhdarı tərəfindən hicri 61-ci il 10 məhərrəm cümə günü (miladi 18 oktyabr 680-cı ildə) şəhid edilmişdir.

Odur ki məhərrəm ayı müsəlmanların şiə məzhəbinə mənsub olanlar üçün matəm ayıdır. Türkiyədə də bu mərasim keçirilir.

Hər il məhərrəm ayının birinci və on ikinci günü arasında oruc tutulmaz, düyün-əyləncə keçirilməz, əyləncə yerlərinə gedilməz, heyvan kəsilməz, çamaşır dəyişdirilməz, saç-saqqal kəsilməz, könül qırılmaz. Bu aydakı faciə hər il canlandırılır. Əhli-beyt üçün ağılar, mərsiyələr söylənir, matəm tutulur. Azərbaycanda İmam Hüseyin haqqında çoxlu mərsiyələr yazılmış və belə mərsiyələrin müəllifləri də çox zaman da bilinmir və xalq arasında şifahi şəkildə yaşayaraq, yas, təziyyədarlıq, dini məclislərdə oxunur. Həzrəti Əli ilə İmam Hüseyn müsibəti ilə əlaqədar mərsiyələrdən örnək:

1. *Can Əli, hər yanına*
   *Qırmızı mərcan düzülüb.*
   *Qanlı meydanə oğul,*
   *Su yerinə qan süzülüb.*
   *Dur gedək Şamə, oğul,*
   *Ey Əli Əkbər oğul!*
   *Bu gecə sübhə kimi*
   *Əgər olsa bir içim su*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yatmayıb mən ağlamışam.*
*Olar sakit ürəyim.*
*Dilim, dodağım quruyub*
*Diksinib su adı gələndə*
*Yarəb, deyib sızlamışam.*
*Ana, yanır ürəyim.*
*Anamı sübhə kimi*
*Sağ yerim yox bədənimdə*
*Yatmağa mən qoymamışam.*
*Ana, sızlar ürəyim.*
*Qanlı meydanə oğul,*
*Qanlı meydanə oğul,*
*Su yerinə qan süzülüb*
*Su yerinə qan süzülüb.*

*Dur gedək Şamə, oğul,*
*Dur gedək Şamə, oğul,*
*Ey Əli Əkbər oğul!*
*Ey Əli Əkbər oğul!*

*Çünki mən içməmişəm,*
*Mətləbim var ürəyimdə*
*Bircə doyunca o sudan.*
*Əliəkbər bir oyan.*
*Anamın lay-la səsindən*
*Məni yalqız qoyub*
*Oyandım mən yuxudan.*
*Getmə oğul, bircə dayan.*
*Təşnə can verdi Əskər,*
*Mən öləndə balacan,*
*Şümr vermədi o sudan.*
*Kim məni qoyar məzara?*
*Qanlı meydanə oğul,*
*Qanlı meydanə oğul,*
*Su yerinə qan süzülüb.*
*Su yerinə qan süzülüb.*

*Dur gedək Şamə, oğul,*
*Dur gedək Şamə, oğul,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ey Əli Əkbər oğul!*
*Ey Əli Əkbər oğul!*

2. *Sən Kərbala soltanısan,*
*Nədir bu laxta-laxta qan,*
*Hümmətlərin qurbanısan.*
*Bacın Zeynəb sənə qurban!*
*Hüseynim vay, Hüseynim vay,*
*Tutubdur peymanidə qan*
*Əmir Əlmömininim vay!*
*Hüseynim vay, Hüseynim vay!*

*Mədinədə çox ağlaram,*
*Hümətləri çox ağlayır,*
*Hər il matəmin saxlaram.*
*Hər il matəmin saxlayır.*
*Ciyərimi mən dağlaram*
*Zeynəb çöllərdə ağlayır*
*Hüseynim vay, Hüseynim vay!*
*Hüseynim vay, Hüseynim vay!*

*Səni görən bir də görməz,*
*Əhli Mədinə ağlayır,*
*Ey Kəlbübəla soltani.*
*Zakir sinəsin dağlayır.*
*Yetmiş iki yavəri ölən*
*Hümətləri yas saxlayır*
*Hüseynim vay, Hüseynim vay!*
*Hüseynim vay, Hüseynim vay!*

Türkiyədə də Kərbəla müsibəti, İmam Hüseyn matəmi ilə əlaqədar yazılmış müəllifi bilinən və bilinməyən mərsiyələr vardır. Bunlardan 2 örnək.

1. *Ağla ey dide-i giryan ağla,*
*Bu Hüseyin matemidir kan ağla.*
*Daima eyle figan ebru gibi,*
*Ağla ey dide-i giryan ağla,*
*Bu Hüseyin matemidir kan ağla.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Zülmi bi-hadd ü hisab itti felek,*
*Hane-i dini harab itti felek.*
*Ehli-imanu kebab etti felek*
*Ağla ey dide-i giryan ağla,*
*Bu Hüseyin matemidir kan ağla.*

*Ya Muhammed, bu gam u mihnete bak,*
*Gel de bu şiriş-i bu vahşete bak.*
*Böyle Kur'an okuyan ümmete bak,*
*Ağla ey dide-i giryan ağla,*
*Bu Hüseyin matemidir kan ağla.*

*Ali evladına gör ne etdiler,*
*Hakkında ne hata söylediler.*
*Cümlesini teşne şehit eylediler,*
*Ağla ey dide-i giryan ağla.*
*Bu Hüseyin matemidir kan ağla.*

*Feyziya açma rumüz-i haremi,*
*Açma na-mahremi aşka bu gami.*
*Tayy-ı tomer iderek kır kalemi,*
*Ağla ey dide-i giryan ağla.*
*Bu Hüseyin matemidir kan ağla.*

2. *Çün Muharrem oldi ey dil, aşıkan ağlar bu gün,*
*Cümle mevcudat-ı alem ins ü can ağlar bu gün.*

*Kerbelanın vak'a-i dil-süzini der piş edüp*
*Ah eder ehli zemin asuman ağlar bu gün.*

*Mustafa, Haydar, Hasan, Zehra tevella zümresi,*
*O Şehidi Kerbelaya bi-güman ağlar bu gün.*

*Eşk-i çeşmi aşikan tufan-ı Nuh eyler ayan*
*Ger muhabbet var ise insan olan ağlar bu gün.*

*Vehbiya sabr eylemek mümkün değil ağla heman,*
*Çünki ervah ile zerrat-i cihan ağlar bu gün* ***(Vehbi)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Məsəl (Mesel, Deyim):** Anonim xalq ədəbiyyatında janr. Zərbi-məsəl şəklində də ifadə edilir. Hikmətli söz deməkdir. Atalar sözləri ilə eyni mənanı ifadə etməklə, ata sözü qədər müstəqil, mükəmməl və açıq fikir ifadə etməsidir. Ata sözlərindən fərqli bir yönü məsəllərdə düşüncənin yarım ifadə edilmiş şəkildə olmasıdır. Daha doğrusu, fikri qüvvətləndirmək məqsədi ilə deyilən məsəli söylərkən hadisəni anlatmaq ehtiyacı yaranır.

Azərbaycan və türk folklorunda məsəl və ya zərbi-məsəl yuxarıda söylənilən məqsədlə inkişaf etmişdir.

Azərbaycan məsəllərindən bir neçə nümunə:

«Yağışdan çıxdıq, yağmura düşdük», «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş», «Nə tüfəngə çaxmaqdır, nə süngüyə toxmaq», «Uçarda turac, qaçarda ceyran» və s.

Bu məsəllərin hər birini söylərkən hadisəni anlatmaq ehtiyacı vardır. İstər Azərbaycan, istərsə də türk dilində olan «Pulu verən zurnanı çalar» («Parayı verən düdüyü çalar») məsəli Molla Nəsrəddin lətifələri ilə bağlı olaraq deyildiyi üçün bu məsəli söylərkən lətifəni anlatmaq lazım gəlir.

Türkiyə türkcəsi ilə bu məsəl aşağıdakı şəkildə anladılır: «Hoca Nasrettin bir gün şehrə gidiyormuş. Çoçuklar hocadan bir şey almasını isterler. Fakat kimse para vermemiş. Birisi də hocaya para verip bir düdük almasını rica eder. Akşam çarşıdan dönən hoca parayı verip düdük sipariş eden çoçuğa düdüyünü verir. Diyerleri «hani bizim istediklerimiz», dediklerində, Hoca: «Parayı veren düdüyü çalar» der. Buradan da «Parayı veren düdüyü çalar» ifadəsi mesele dönüşür.

**Məzhəb (Mezhep):** 1.Gedilən yol, yer. 2.Elm və fəlsəfədə tutulmuş yol, məslək. 3.Bir dinin görüş və anlayış ayrılıqlarından yaranan böyük qollardan biri. Məcazi olaraq şəxsi görüş, inanc və elmi fikirlər əvəzində də işlədilir. Termin olaraq bir müctəhidin, dinin təfərrüatına dayanaraq, özünə xas qayda və qanunlarla əmələ gətirdiyi inanc ya da hüquq sistemini dilə gətirir. Dinin əsaslarında və əsas təməl məsələlərdə bir olmaqla bərabər, təfərrüata bəzi müxtəlif məsələlər olması səbəbiylə bir-birinden az fərqli müctəhidlərin yolları. Müctəhidlərdən, özlərinə tabe olunanların seçdikləri məslələri. Fü-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ruatta Hənəfi, Maliki, Hənbəli, Şâfii və Cəfəri; Akaiddə Mâturidi, Eş'ari ve İmamiyyə kimi...

İslamiyyətdə məzhəblərin ortaya çıxması Məhəmməd Peyğəmbərin vəfatından sonra başlamışdır.

*Məhəmməd, Əlinin qullarındanam,*
*Ali-Aba nəsli, Heydəri denəm.*
*İmami Cəfərin məzhəbindənəm,*
*Dərdimənd Xətai, dərmanə gəldim.***(Xətai)**

*Dört kitap, dört mezhep adem eşyadır,*
*Ol mehbubun ismi ruha edadır.*
*Söyleyen, söyleden nitki Hudadır,*
*Tuti misal eden kendidir kendi* **(Aşık Seyrani)**

**Mifologiya (Mitoloji, Usture-Esatir):** Yer üzündə həyatın başlanğıcı, təbiət hadisələri, əfsanəvi qəhrəmanlar, ruhlar, günəş, ay, ulduzlar və s. haqqında insanların təsəvvür və etiqadlarını anladan rəvayətlər.

Qədim yunanlar nağıla «mit» demişlər. «Mifologiya», «mifik», «mitoloji» terminləri də bu sözdən yaranmışdır.

Mifologiya yalnız millətə aid əfsanə və ya nağıl deyildir. Əslində bütün əfsanə və nağılları, inancları ələ alıb nəticələrə varmaq istəyən bir elmdir.

Bütün millətlərin içərisində miflər təşəkkül etmişdir. Türk boylarının da zəngin və qədim bir mifoloji dünyası vardır.

Türk xalqlarının dastanlarına, nağıllarına, əfsanələrinə daxil olan yüzlərlə motiv türk mifologiyasının təməlini təşkil edir.

**Mirat (Mir'at) (bax: Ayna):** Öz mənşəyinə görə əsli ərəbcə bir kəlmə olub, "ayna, güzgü" deməkdir.

Təsəvvüfdə Allahın isim və sifətlərinin təcəlli etdiyi varlıq güzgüsü, insan.

*Çün Mömінə mömin oldu mirat,*
*Miratına bak da gör onda zat.*

Bu beytin birinci misrasındakı mömin Allah, ikinci misrasındaki mömin insan deməkdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Təsəvvüfdə Miratı-dil (könül güzgüsü), Miratı-haq (Haqqın güzgüsü) izafətləri də işlənir.

Murati-dil Allahın ilhamlarının və mənəvi feyzlərinin doğulduğu qəlb, qəlbin güzgüsü deməkdir:

*Gidər sədrimdəki vəsvası, ya Rəbb,*
*Arit mirati dildən pası, ya Rəbb.* ***(Rövşəni)***

Miratı-Haq kamil insan. Haqqın insana verdiyi güzgüdür. Sufilərə görə maddə, nəbatat, heyvanlar Haqqın isim və sifətlərini əks etdirən aynalardır. Haqq ən mükəmməl şəkildə insani-kamildə və Həzrət Məhəmməddə təcəlli etmişdir. Bütün əşyalar qabiliyyət, imkan və mükəmməlliyi ilə Haqqın varlığını, kamalını və camalını əks etdirir.

*Ayinədir bu aləm hər şey Haqq ilə daim,*
*Mirati Məhəmməddə Allah görünür daim.* ***(Xaqani Şirvani)***

XIX əsrdə yaşamış Abbasqulu Ağa Bakıxanovun da “Miratül Cəmal” (Camalın güzgüsü) adlı əsəri vardır.

**Miskin (Miskin):** Sözün əsli ərəb dilindən alınmış bir kəlmə olan miskin “füqara, yoxsul, bacarıqsız, aciz” deməkdir. Azərbaycan və türk aşıq şeirində «miskin» sözü bu mənada işlənmişdir. Bir çox aşıq «Miskin» ləqəbi götürərək şeir yazmışdır. Məsələn: Miskin Abdal. Bəzən də şeirdə «miskin» sözü ləqəblə əlaqədar deyil, sadəcə kasıb, yoxsul, aciz mənasını ifadə etmişdir:

*Miskin Yunus biçareyim*
*Baştan ayağa yareyim.*
*Dost elindən avareyim,*
*Gel gör beni aşk neyledi.****(Yunus Emre)***

*Bir miskini gördün ise, bir eskice verdin ise,*
*Yarın orda sana gele Hakk şeirabın içmiş gimi.*
***(Yunus Emre)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Misra (Mısra):** Vəznindən və qafiyəsindən asılı olmayaraq şeirin hər sətrinə verilən ad. Klassik və aşıq şeirində elə misralar vardır ki, onlar ayrılıqda dolğun bir fikri ifadə edir. Belə misralara şah misra deyilir. İstər Azərbaycan, istərsə də türk ədəbiyyatında ən mükəmməl misra örnəkləri mövcuddur.

Türk aşıq şeirində:

*«Dünya kimseye kalmaz»* ***(Yunus Emre)***

*«Koç iyide emi, dayı, el gerek»* ***(Dadaloğlu)***

*«Bir karış toprağı yada vermerik»* ***(Aşıq Şenlik)***

*«İçsem öldürerler, içmesem öllem»* ***(Qaracaoğlan)***

*«Temelinden söktün daşımı felek»* ***(Aşıq Fərrahi)***

*«Bilen bilmeyene kul oldu gitti»* ***(Yusufelli Huzuru)***

*«Beni Mecnun eden ateş-qor bendə»* ***(Aşıq Veysəl)***

*«Aslı ham demirdi, cevahir olmaz»* ***(Dəli Boran)***

Azərbaycan ədəbiyyatında:

*«Sirr vermə nadana, sir vermə pisə»* ***(Xəstə Qasım)***

*«Göy söyüddə heyva olmaz, nar olmaz»* ***(Xəstə Qasım)***

*«Şükür Haqqa, əməllərim düz oldu»* ***(Aşıq Alı)***

*«Əllini ötürdün, yüzə nə qaldı?»* ***(Aşıq Alı)***

*«Elin sözü əvvəl-axır düz olur»* ***(Aşıq Ələsgər)***

**Motiv (Motif):** Eyni əsərdə və ya başqa əsərlərdə kiçik fərqlərlə təkrarlanan parça deməkdir. Türk və Azərbaycan dastanlarında, nağıllarında və ya digər xalq ədəbiyyatı məhsullarında ağac motivi, işıq motivi, röya motivi, qırxlar motivi, ox və



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yay motivi, Xızır motivi, mağara motivi, at motivi, qurd (canavar) motivi, aslan motivi və digər motivlər sıx-sıx işlədilmişdir.

**Möcüzə (Mu'cize):** Möcüzə əsli ərəb dilindən alınmış bir kəlmə olub, fövqəladə, qeyri-adi mənasını ifadə edir. Cəmi "Möcüzat"dır

Allah Təalanın peyğəmbərlərinə, peyğəmbərliklərini isbat etmələri üçün ehsan etdiyi xarqüladə, qeyri-adi işlər nəzərdə tutulur. Övliyanın göstərdiği bu kimi işlərə isə kəramət deyilir.

Allah hər peyğəmbərə zamanlarında önəmli hesab edilən möcüzə ehsan etmişdir. Musa Peyğəmbərin zamanında sehirbazlıq yayqın idi. Allah Təala ona əsa möcüzəsini bəxş etdi. Musa Peyğəmbərin əsası böyük bir ilan olub sehirbazların sehir alətlərini uddu, beləcə də, bu möcüzənin insan gücündən üstün fövqəladə bir hadisə olduğunu anlayaraq Musa əleyhissalama iman etdilər.

İsa Peyğəmbərin zamanında da tibb elmi inkişaf etmişdi. Təbiblər bacarıqları ilə öyünürdülər. Allah Təala İsa əleyhissalama ölüləri diriltmə və anadan kor doğulanların gözlərinin açılması möcüzəsini ehsan etdi. Təbiblər bu möcüzə qarşısında aciz qaldılar.

Məhəmməd Peyğəmbərin zamanında isə Ərəbistanda şairlik və bəlağət sənəti yüksək dərəcəyə çatmışdı. İnsanlar yazdıqları və oxuduqları şeirlərlə öyünürdülər. Allah Təala peyğəmbərə ən böyük möcüzə olaraq "Qurani Kərim"i göndərdi. "Qurani Kərim"in kəlamları qarşısında şairlər aciz qaldılar. Onların bir qismi bunların Allah kəlamı olduğunu anlayaraq müsəlman oldular.

Peyğəmbərin möcüzəsi isə mindən çoxdur. Bunların bir neçəsi: Merac möcüzəsi, Şəqqül-qəmər (ayın ikiyə bölünməsi), barmaqlarından su fışqırması möcüzəsi, Kəbənin içindəki bütlərin barmağının işarəti ilə üzü üstə düşməsi möcüzəsi, ölülərin dirildilməsi möcüzəsi, yaralılara və xəstələrə şəfa vermə möcüzəsi və s.

**Möhürbəndi:** Aşıq yaradıcılığının qoşma, gəraylı, divani, müxəmməs kimi şeir şəkillərində müəllifinin adının və



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

təxəllüsünün olduğu sonuncu bəndə «möhürbəndi» deyilir. Möhürbəndinə «tapşırma» da deyilir.

Örnək:

*Nə həkim, nə loğman, nə cərrah qaldı,*
*Mənim bu dərdimi bilən olmadı.*
*Qohumdan, qardaşdan, dost-müsahibdən,*
*Bağlandı yolları gələn olmadı.*

*Alçaqlı, ucalı dağlar görmüşəm,*
*Süsənli, sünbüllü bağlar görmüşəm.*
*Dünyaya gələli ağlar görmüşəm,*
*Dili deyib, üzü gülən olmadı.*

*Görüm xarab olsun belə zamana,*
*Dərdi-möhnət məni gətdi amana.*
*Axdı eynim yaşı döndü ümmana,*
*Ağlar Aşıq Alı, silən olmadı.**(Aşıq Alı)***

**Mövlana (Mevlana):** Əsli ərəb dilinə məxsus bir kəlmə olub "bizim ağa", "sahibimiz, əfəndimiz" mənasındadır. Şərqdə din xadimlərinə və şairlərə verilən ad. Bu kəlmə təkbaşına söylənincə Mövləvi təsəvvüf məktəbinin başçısı Mövlanə Cəlaləddin Rumini yada salır. XIX əsirdə Kürdəmirli Mevlana İsmayıl Şirvani Nəqşibəndilik təriqətini Azərbaycana gətirən şəxsdir.

**Mövləvilik (Mevlevilik):** Mövlanə Cəlaləddin Ruminin (1207-1273) qurmuş olduğu sufi təriqəti. Həmin təriqətə mənsub olan dərvişlərə mövləvilər deyilirdi.

XIII-XIV əsrlərdə Anadoluda təsəvvüfün ən öndə gedən təmsilçilərindən biri Mövlanə olmuşdur. Onun düşüncələri hələ də türk xalqlarının diqqətini məşğul etməkdədir.

Mövlanənin özdeyişlərindən (hikmətlərindən):

*«Bilirsən, mən bölməyə deyil, birləşdirməyə gəldim».*
*«Gəl! Gəl». Nə olursan, ol gəl!*
*Kafir, atəşə tapan, mecusi olsan da gəl!*
*Bizim qapımız umud qapısıdır, yine gəl!»*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*«Anamız eşq, atamız eşq, Eşqdən doğduk eşksiz biz. Bütün eşklər ilahi eşqə köprüdür».*

*«İnsanı sevmək Allahı sevməkdir».*

Yunus Əmrənin Həzrət Mevlanə haqqında söylədikləri:

*Mevlane Hüdabendiyar bize nazar kılalı*
*Anın görklü nazarı gönlümüz aynasıdır.*

**Mövlüd (Mevlid):** Doğum günü. Peyğəmbərimizin anadan olduğu günə raslayan və Rəbiüləvvəl ayının on ikinci günü keçirilən mərasim. Məhəmməd Peyğəmbərin doğum gününə yazılan nəzm şəklindəki əsərlərə də mövlüd deyilmişdir.

Süleyman Çələbinin yazdığı "Vəsilətün Nicat" adlı mövlüd çox məşhur olmuş və əsrlərlə Türkiyədə və Azərbaycanda oxunmuşdur.

**Muğam (Makam):** Mənşəcə ərəb dilindən alınmış "yer, məkan" deməkdir. Muğam şifahi ənənəyə malik Azərbaycan klassik musiqisinin ən iri janrı.

Ərəb və türklərdə bu janra "makam", türkmən və uyğurlarda "mukam", özbəklərdə "makom" deyirlər.

Azərbaycanda işlənən "Muğam" termini mənşəinə görə "məqam"la bağlıdır. Orta əsr şərq musiqisinin məqam əsaslarını ilk dəfə Səfiəddin Urməvi sistemə salmış, onlar Əbdülqadir Mərağai tərəfindən təkmilləşdirilmişdir. Bu sistemin əsasını "dövr" adlanan 12 əsas məqam, 6 avaz və 24 şöbə kimi törəmə məqamlar təşkil edirdi. Orta əsrlərdə bu və ya digər məqamlar əsasında təqsim, pişröv, şərqi, əməl, sövt, bəstə, nəqş, təranə, simai, mani və s. vokal və yaxud instrumental janr və formalar mövcud idi.

Muğamların nəzəri baxımdan öyrənilməsinə 19-cu əsrin axırlarında başlanılmışdır. M. M. Nəvvabın "Vüzuhül-ərğam" (1883-1913-cü illərdə nəşr edilmişdir) traktatı bu sahədə yazılmış ilk əsərlərdəndir. Üzeyir Hacıbəyov 1945-ci ildə yazdığı "Azərbaycan xalq musiqisinin əsasları" əsəri ilə Azərbaycan muğamlarının tədqiqinin əsası qoymuşdur.

Azərbaycan muğamları XX əsrin əvvəllərində bir sıra görkəmli xanəndələrin ifasında qramafon valına yazılmış, 1930-cu



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

illərdə Niyazı və Qara Qarayevin muğamların nota salınmasında xidmətləri olmuşdur.(28, 83-84)

**Mübaliğə (Mübalağa):** Məcazlardan biri. Təsvir və ya tərənnüm edilən hadisənin, əşyanın vəziyyətini, mənasını, gücünü, ölçüsünü bilərəkdən hədsiz dərəcədə artıran məcazi ifadə. Bədii əsərlərdə, gündəlik həyatda işlənən ifadələrlə bərabər Azərbaycan nağıllarında, dastanlarında bayatılarda və folklorun digər janrlarında da mübaliğə vacib yer tutur. Bunlardan bir neçə nümunə:

*Kor oldum ağlamaqdan,*
*Qəm yükü bağlamaqdan.*
*Çöldə yarpaq qalmadı*
*Yaramı bağlamaqdan.* ***(bayatı)***
*Əzizim hər aylar,*
*Hər həftələr, hər aylar*
*Dəryada bir gül bitib,*
*Su, su deyə haraylar.* ***(bayatı)***

*Bir balaca boyu var,*
*Dam dolusu toyu var.* ***(tapmaca)***

«Az getdik, üz getdik, dərə-təpə düz getdik, iynə yarım yol getdik» (nağıllarda); «Qarışqa şıllaq atdı, dəvənin boynu batdı; Milçək mindik, çay keçdik, yabaynan dovğa içdik» (nağıllarda); «Ərənlər ərəni Qaraca Çoban sapanın arasına daş qoyub atdı. Birini atanda ikisini, üçünü yıxdı. İkisini atanda üçünü, dördünü yıxdı, kafirin gözünə qorxu düşdü. Qaraca Çoban kafirin üç yüzünü sapan daş ilə yerə yıxdı. («Dədə Qorqud» dastanından)».

Mübaliğə Türkiyə ədəbiyyatında da Azərbaycan ədəbiyyatındakı mənaları ifadə edir.

Örnəklər:

*Biz bülbül-i mührik-demi gülzari firakız,*
*Ateş kesilir getse saba gülşenimizden* ***(İkinci Səlim)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

«Dinledim, coştum, sıçradım denize düşdüm. Tutdum denizde bir balıq» (nağıllardan). «O yalan, bu yalan, fili uddu diri ilan, budamı yalan» (nağıldan).

**Müəmma (Muamma):** Aşıqların məclislərdə söylədikləri mənzum tapmacalar müəmma adlanır. Onlar bir-birinə müəmmalı şeirlər deyib, onun açmasını tələb edirlər. Müəmmaların açılması böyük ustalıq tələb edir. Bu müəmmalarda xalqın ədəbiyyatı, sənəti, fəlsəfəsi ustalıqla dilə gətirilir.

Azərbaycan və türk şeirindən müəmma örnəkləri:

*Mən aşıq ikisini,*
*İki dal, iki sini.*
*Bir ağacda beş alma,*
*Gün vurmuş ikisini* ***(Sarı Aşıq)***

*Mən aşıq bir ata,*
*Bir oğuldu, bir ata.*
*Qırx dəvə, səksən qatır,*
*Yüklənibdi bir ata.* ***(Sarı Aşıq)***

*Bir ecep oğlan yaratmış o ilah,*
*Padişahlar eli olmuş bahtı dah.*
*Beş babası var, veli anası yok,*
*Bu acibdir yetmiş iki dil bilir.*

*İki dili vardır ağzı, yok,*
*Bu cihan halkına anın nefi çok.*
*Anası karnına gündə ey necep*
*Belki yüz kere olur girer çıkar.*

*Söyledikce müjdeler canlar bulur,*
*Söylemece tabuta girer ölür.*
*Bu müammasını Seyfinin eger,*
*Bilmez isen bir hesab var ey necep.* ***(Seyfi)***

**Müxəmməs (Muhammes):** Heca vəznli şeir şəkillərindən biri. Klassik şeirdə nümunələri olduğu kimi aşıq poeziyasında da örnəkləri mövcuddur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hər bəndi beş misradan ibarət olan müxəmməsdə bəndlərin sayı müxtəlifdir. Qafiyəsi isə a.a.a.a; b.b.b.a; d.d.d.a.; c.c.c.a. və s. şəklində olur.

Azərbaycan və Türkiyə aşıq poeziyasında klassik örnəkləri mövcuddur.

Azərbaycan aşıq şeirindən örnək.

*Nə əcəb xub yaradıb hüsnünü tarı bu qızın,*
*Nə əcəb gülşənə bənzər gül üzarı bu qızın,*
*Nə əcəb müstlənib çeşmi xumarı bu qızın,*
*Nə əcəb tazə bitib hayvası, narı bu qızın,*
*Nə əcəb çiçəklənib fəsli baharı bu qızın.*

*Nə əcəb tağ müqəvvəs çəkilib qaşı kəman,*
*Nə əcəb xoş danışır ləzzət ilən tuti zəban,*
*Nə əcəb xətləri reyhandı və həm püstə dəhan,*
*Nə əcəb gərdəni mina, nə əcəb incə miyan,*
*Nə əcəb bal ləbindən olu carı bu qızın.*

*Nə əcəb inciye dürdanə kimi ağ dişi var,*
*Nə əcəb badi səbadən telinin cünbişi var,*
*Nə əcəb naz edübən işvə ilə gərdişi var,*
*Nə əcəb əhdü-peymanə müvafiq işi var,*
*Nə əcəb göyçək imiş tutduğu karı bu qızın.*

*Nə əcəb əhmər gül, lalə yanağın gördüm,*
*Nə əcəb cənnət içində belə bağın gördüm,*
*Nə əcəb fürsət ilə xəlvət otağın gördüm,*
*Nə əcəb dişləməli, öpməli çağın gördüm,*
*Nə əcəb eliyib allah məni yarı bu qızın.*

*Nə əcəb söhbəti var, xırda məqalat, nə əcəb,*
*Nə əcəb dərdi dilə verdi kifayat, nə əcəb,*
*Nə əcəb düşmüş imiş nəqşi xəyalat, nə əcəb,*
*Nə əcəb istər imiş busə visalat, nə əcəb,*
*Nə əcəb Qurana rast gəldi bazarı bu qızın.*

***(Molla Cümə)***

Türk aşıq şeirindən örnək:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bahr-i aşka Hazreti Nuh'un dalmadı,*
*Hak bela tufanına ehl-i necatı salmadı,*
*Aşkımın sazı bozulmuş bir makamı çalmadı.*
*Yar başımdan aklım aldı gönlümü hiç almadı,*
*Yaktı canım bir güzel tamuya hacet kalmadı.*

*Zevk-i aşk biçare Mansur'u "enel-hak" darına,*
*Etti berdar işte meydanda ziyanı karı ne.*
*Aşkın rüsvalığı maşuk olanın arına,*
*Gelse yakmadı beni böyle firakın narına,*
*Yaktı canım bir güzel tamuya hacet kalmadı.*

*Aşıka dilber muti olmaz söz ile saz ile,*
*Perçeminde gezmedim hiç dilber-i mümtaz ile.*
*Çehreme gülmez ümid bu tali-i nasaz ile,*
*Aşık Seyran'in ömrün tüketti naz ile,*
*Yaktı canım bir güzel tamuya hacet kalmadı.*

***(Aşık Seyrani)***

**Münacat (Münacat):** Öz mənşəyi etibarı ilə dilimizə ərəb dilindən keçən bu sözün ilkin mənası gizli söhbət, gizli müsahibə deməkdir. Münacat dedikdə beləliklə insanın Allahla söhbəti, müsahibəsi, Allaha dua etməsi nəzərdə tutulur.

Klassik ədəbiyyatda Allaha xitabən yazılmış şeirlər "Münacat" adlanmışdır. Şairlər divanın əvvəlində bir münacat, sonra nət yazarlar, ardınca qəzəl və qəsidələri əlavə edərlər.

## *Minacat*

*Bəndənin ümidi sənsən, ilahi,*
*Yoxdur səndən başqa onun pənahı.*
*Olmuş-olacağı sənsən yaradan,*
*Sənin kərəminə möhtacdır insan.*
*Lütf elə, əlini mənə də uzat,*
*Mənə öz nəfsimdən özün ver nicat.*
*Sənsən, pərvərdigar, hər bir muradım,*
*Səndən hasil olar hər bir muradım.*
*Mərhəmət görərsə səndən bir insan,*
*Nə göydən qorxar, nə də ulduzdan.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sən varkən, ehtiyac yoxdur göylərə,*
*Asiman var ikən kim baxar yerə.*
*Yaranmış dünyada hər cürə büsat,*
*Behiştdə nə üçün axtaraq həyat?!*
*İnanma ki, cənnət burdan şən olsun,*
*Deyirsən yaxşıdır,– sən deyən olsun.*
*Bizə də behiştdə bir yer ayır sən,*
*Sil pis naxışları düşüncəmizdən.*
*Biz öz çarəmizi bilmirik əsla,*
*Hansı yol yaxşıdır apar o yola.*
*Səni ümid ilə hey axtarmada*
*Kimisi qarada, kimisi ağda.*
*Bir meyvə dərməkçin sənin bağından,*
*Hərə bir qapıda eyləyir fəğan.*
*Məndə cəsarət yox sənə söz deyim,*
*Onu ver,– deyərək, bir şey istəyim.*
*Diləyim yerinə yetsə hər kəsdən,*
*Görürəm o deyil, sənsən lütf edən.*
*Sənin mövcudata yox ehtiyacın,*
*Onların hamısı sənin möhtacın.*
*Sən ki, dostluq ilə çıxdın qarşıma,*
*Biganəlik külü tökmə başıma.*
*Feyzindən işıq ver gözlərimə sən,*
*Asudə olum qoy özgə gözlərdən.*
*Pərvanə olmuşam şəbçırağına,*
*Bir quşam, qonmuşam sənin bağına.*
*Bu kiçik bəndəni gözündən salma,*
*Böyüksən, kömək et, kərəmsiz olma.*
*Mən nəyəm, bir zərrə – gözlə görünməz,*
*Səndən nur almışdır o zərrə – sönməz.*
*Sənin qüdrətinlə aşkar olmuşam,*
*Hər bir xəzinəyə açar olmuşam.*
*Köhnə hekayəti çatdırdım sona,*
*Başlasın təzə söz indi cövlana.*
*Saldın ilk sözümü sən dildən-dilə,*
*Bu son addımı da yetir mənzilə.*
*Ziya saç, qoy qəlbim işıqla dolsun,*
*Incə mətləblərə o, güzgü olsun.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bu çətin yollarda budur məqsədim –*
*Sənin bəyəndiyin bir yolla gedim.*
*Elə kömək et ki, işlərimə sən,*
*Özün şad olasan dediklərimdən.*
*Mən öz xoşum ilə qovuşum sənə,*
*İtaət eyləyim peyğəmbərinə.* ***(Nizami Gəncəvi)***

## *Münacat*

*Sen ey varlıkların vahid penahı,*
*Külli alemlerin şeiriksiz şahı!*
*Nihandır beşeirçün münezzeh Zatın,*
*Heç kes açabilmez o sırrın katın.*
*Cem ola melekler, beşeir yığıla,*
*Yene Zatın Senin gelmez ağıla.*
*Çekmişsen ilminle zekaya perde,*
*Ne Göyde gören var Seni, neki Yerde.*
*Ne derk olunansan sonacan, Sen ne*
*Sığansan beşeiri kamala, zenne,*
*Bilmirik necesen, bilirik varsan,*
*İdrak imkanından hayli kenarsan.*
*Ezelden ezelsen, uludan ulu,*
*Sene aparan yol min min sırr dolu.*
*İntişar eyleyir âlemde nurun,*
*Sonsuz azemetin, sınmaz gururun.*
*Zahirdir amelin, nihansan Özün,*
*Her yerde her zaman görünür izin.*
*Senin eserindir küll-i kainat,*
*Koymusan beşeiri kudretine mat.*
*Sırdır hilket üçün âlemin yaşı,*
*Alimin işinden baş açmaz naşı.*
*Yok idi ulduzlar, bu Güneş, bu Ay,*
*Yok idi payız, kış yok idi yaz, yay.*
*Söz ile Sen açdın varlığa imkan,*
*Doğuldu kelmenden zamanla mekan.*
*Senin buyurduğun birce kelme "ol"!*
*Heçdən yaranışa açdı yol.*
*Sen mutlak varlıksan, biz nisbilerik,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Senden kerem umub, rahmet dilerik.*
*Yokdur Sene kadir, Sene tay olan,*
*Cümle alemlere mülkü pay olan!*
*Olsa da başında kızıldan tacı,*
*Rahminden şahın da var ihtiyacı.*
*Zalim da lütf umur Senden, adil de,*
*Sene hemd eleyir ürek de, dil de.*
*Çağırır zirek de Seni, fağır da,*
*Eli boş olan da, yükü ağır da.*
*Seni hemdem bilir kor da, gözlü de,*
*Nutku lal olan da, dili sözlü de.*
*Ezel kelmesisen her ülu'l-e'zmin,*
*Her helal süfrenin, her ali bezmin.*
*Nece lamekansan ki, her yandasan,*
*Her dövr ü zamanda, cism ü candasan!!!*
*Tek Sene mahsusdur secde de, hamd de,*
*Haraya üz tutsak, Sensen o semtde!*
*Varlığın bizden de yakındır bize,*
*Bu nece hikmetdir, bu ne mö'cüze!*
*Raufsan, Alimsen, Bakisen, Birsen,*
*Fakat, evvel-ahır sirsen ki, sirsen!!!"*
***(Nizami Zöhrabi)***

**Münafiq (Münafık):** İnanmadığı halda müsəlmanları aldatmaq üçün özünü inanan kimi göstərən şəxs. Həzrəti Məhəmməd deyir ki: "Dörd şey münafiqlik əlamətidir. Əmanətə xəyanət etmək, yalan söyləmək, vədinə əməl etməmək, (əhdinə vəfa göstərməmək, verdiyi sözə əməl etməmək) və məhkəmədə doğrunu söyləməmək.

*Cahil olan söylər, sözünü bilməz,*
*Meydana gəlincə özünü bilməz.*
*Dörd şey vardır cənnət üzünü görməz,*
*Bir münkir, münafiq, bir Yezid, qanmaz.* ***(Xətai)***

*Seyyid Nizamoğlu tek dur*
*Münafikin işi şektir.*
*Evvel ahır dönmek haktır,*
*Ya ben nice dönmeyeyim.* ***(Seyyid Nizamoğlu)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Munafık karnını sevici olur*
*Sabr etməz her işte ivici olur*
*Çarığın sırımın geveci olur*
*Karnın kiraz ovasına dönderir* ***(Aşıq Seyrani)***

**Münker – Nekir:** Vəfat edən insanları qəbirdə sorğu-suala çəkən məlaikələrə verilən ad.

Münkir: İnkar edən, qəbul etməyən. Dərvişlər arasında təriqət və dərvişliyi kiçik görən, sufiliyə məxsus rəftar tərzini (suluk) göstərməyənlərə qarşı işlədilən bir ifadə. Bektaşilərdə, Qızılbaşlarda, Batinilərdə bu ifadə onların yolunda olmayanlar haqqında söylənilir.

Münkir ədəbi salnamədə:

*Nəsiminin sözü həqdir, gətir iqrar, ey münkir,*
*Kitabi-vəch ilə, üştə, dəlil atəti-sabe'dir.* ***(Nəsimi)***

*Şah Xətai söylər sözü özündən,*
*Dərvişlərin sakınıbdır sözündən.*

*Olur-olmaz münkirlərin sözündən,*
*Əriyib könlümüz fariyıb gedər.* ***(Xətai)***

*Torunuyuz bir dedenin,*
*Tohumuyuz bir bedenin.*
*Münkir ilə ceng edenin*
*Silah olsam ellerine* ***(Aşık Seyrani)***

*Münkir münafıkın soyu*
*Yıktı harap etti köyü*
*Mezarına bir taş suyunu*
*Dökenin de anasını* ***(Kazak Abdal)***

*Abdal Pir Sultanım er Hak'sın er Hak*
*Münkir kullarından ıraksın ırak*
*Kurdun işi namert lokması yemek*
*Hak için adanan kurbana neyler.****(Pir Sultan Abdal)***

*Münkirlere zülmet ola, mehbublara qüvvet ola,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Taliblerin ta'tini Hezretde makbul eyleye* ***(Kaygusuz Abdal)***

**Mürəbbe (Murabba):** Bəndləri dörd misralı olan şeir şəklidir. 5-7 bənddən ibarət olan belə şeirlərdə hər bəndin dördüncü misrası bütün bəndlərdə təkrar olur. Sonuncu bənddə müəllifin təxəllüsü olur.

Yazılı ədəbiyyatda mürəbbenin mükəmməl nümunələri mövcud olduğu kimi, türk və Azərbaycan aşıq şeirində də mürəbbe nümunələri yazılmışdır.

Türk aşıq ədəbiyyatından örnək:

*Rəhmeylə bu fırkat odunu söndür efendim,*
*Bir katre zülali lebini dönder efendim.*
*Mahcup olalı bir, iki, üç gündür, efendim,*
*Her saati hicrin bana bin yıl kadar oldu.*
*Ahımla cihan qamzeder bu ne əceb ah,*
*Hicran oduna canu ciyər yandı bu şeb ah.*
*Neyse bu Gədayi kulunu terke səbep ah,*
*Her saati hicrin bana bin yıl kadar oldu.****(Aşık Gedayi)***

**Mürebbi:** Mürşid, şeyx, rəhbər kimi təriqət böyüklərinə tərbiyəedici anlamına gələn «mürəbbi» deyilir. Bektaşilərdə təkkə olmayan yerlərdəki zaviyələrdə (kiçik təkkələrdə) baba tərəfindən oradakı insanlara rəhbərlik etmək üçün bir dərviş göndərilir. Mürəbbi adı verilən bu şəxsə Bektaşilər «dikmə» deyərlər.

**Mürid (Mürit):** Şeyxlərin, mürşidlərin ardınca gedən dərvişlərə verilən adlardan biri. Mürşidlərin təriqətini davam etdirən şagird. Bektaşilərin tac geyərək təkkədə xidmət edən dərvişə verdikləri ad.

**Mürvəti gəraylı:** Azərbaycan aşıqlarının dilində işlənən «Mürvəti gəraylı» ifadəsi gəraylı şeir növü ilə əlaqədardır. Şeirin hər misrası gəraylıda olduğu kimi 8 hecalıdır. Digər gəraylılardan fərqi isə bəndlərin beyt şəklində olmasıdır. Beytlərin sayı istənilən qədər ola bilər. Bəndlərdə olan ikinci misralar bir-biri ilə həmqafiyə olur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Örnək:

*Söylə löydənmi gəlirsən?*
*Yollarına qurban olum.*
*Ağçınqıldan gül dərdinmi?*
*Əllərinə qurban olum.*
*Daşbulaqdan su içdinmi?*
*Dillərinə qurban olum.*
*Bəzənibmi Tamaşalı?*
*Göllərinə qurban olum.*
*Açıbmı maral çiçəyi?*
*Güllərinə qurban olum.*
*Tərtərim qan-qan deyirmi?*
*Sellərinə qurban olum.*
*Dağlara bahar gəlirmi?*
*İllərinə qurban olum.* ***(Aşıq Bəsti)***

**Müsəlla (Yağmur duası):** Müsəllah bir folklor janrıdır. «Müsəlla» mənşə etibarı ilə ərəbcə bir kəlmə olub aşağıdakı mənaları ifadə edir.

1. Namaz qılmağa, dua oxumağa məxsus yer.
2. Quraqlıq zamanı Allahdan yağış istəmək məqsədi ilə açıqlıqda, çöldə icra edilən dini mərasim.

Xalq arasında «müsəllah» kimi işlənən bu sözə «yağmur duası» da deyilir.

Quraqlıq zamanı yağış yağdırma mərasimi üçün oxunan «müsəllah» və ya «yağmur duası» müsəlman türk xalqları arasında islamiyyətdən sonra geniş yayılmış bir mərasim olmuşdur. Quraqlıq zamanı Allaha dua edilərək yağış yağdırması üçün keçirilən bu törənlər Azərbaycanda həftənin cümə axşamı və cümə günləri keçirilirdi. Mərasim aşağıdakı şəkildə icra edilirdi.

«Kəndin ağsaqqalları və yaşlıları hacət namazı qılır və dua oxuyurlar. Əhali də yağış yağdırması üçün Allaha yalvararaq deyirdilər: «Xudavəndi-aləm, sən bizi yaratmısan, bizim ruzimizi də ver, bizə rəhm eylə. Bizə yağış göndər. Əkinlərimiz əldən gedir. Bizim günahımızdan keç. Bizə rəhm et».



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mərasimə ətrafda olan bütün əhali yığılırdı. Toplanan pula heyvan alıb qurban kəsirdilər. Əhaliyə qurban ətini paylayır və ya bişirib verirdilər.

«Yağmur duası» mərasimi Türkiyədə də eyni şəkildə icra edilirdi. Türkiyədə yağış yağdırmaq üçün uşaqlar «çömçə gəlin» oyunu ilə qapı-qapı gəzib söyləyirdilər:

*Təknede hamur,*
*Tarlada çamur.*
*Ver Allahım, ver,*
*Bol sulu yağmur.*

*Yağmur yağıyor,*
*Sellər akıyor.*
*Arab kızı*
*Camdan bakıyor.*
*Ver, Allahım, ver,*
*Sicim kimi yağmur.*

**Nağıl (Masal):** Folklorun nəsr janrlarından biri. Əsli ərəb dilindən alınmış «nəql, naqil» sözündəndir. İnandırma iddiası olmayan, cərəyan edən hadisələri çox zaman gerçək məkanda olmayan, qəhrəmanları fövqəladə xüsusiyyətlərə malik olan nəsr əsəri.

Nağıllar folklorun ən qədim və yayqın şəklindən biri olub, nəsildən-nəsilə ötürülərək yaşamışdır.

Azərbaycan nağılları mövzu etibarilə «qəhrəmanlıq nağılları», «sehirli nağıllar», «heyvanların həyatına dair nağıllar» şəklində təsnif edilir.

Azərbaycan nağılları dəfələrlə toplanıb nəşr edilmişdir. «Ağ atlı oğlan», «Daşdəmir», «Məlikməmməd», «Tıq-tıq xanım», «Nardan xatun», «Göyçək Fatma» kimi yüzlərlə nağıl nümunələri mövcuddur.

Nağıl türk folklor ədəbiyyatlarında «masal» şəklində ifadə edilir. Mahiyyət, mövzu və süjet etibarilə türk və azərbaycan nağılları arasında əsaslı bir fərq görünmür. Türk nağılları da mövzu etibarilə «Kəloğlan masalları», «Kosa masalları», «Padişahın üç qızı, dörd oğlu masalları», «Cin pəri masalları» kimi təsnif edilir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk masalları üçün «zincirləmə masal», «yapma masal» ifadələri də işlədilir.

Zincirləmə nağıla «masal içində masal» da deyilir. (Min bir gecə nağılları kimi) Belə masalların biri bitərkən o biri başlayır.

Yapma masal isə yazıçıların bir nağıl əsasında yazdığı əsərə deyilir. Azərbaycan ədəbiyyatında da folklorun ədəbi prosesə təsiri nəticəsində nağıllar əsasında yazılmış ədəbi nümunələr çoxdur.

İstər Azərbaycan, istərsə də türk nağılları əsasən təkrarləmələrlə başlayıb, xeyir-dua ilə bitər.

Azərbaycan nağıllarından örnək:

«Üç arvadlı».

Gün o gün idi, zaman o zaman idi, qıl qılınc idi, sərçə pəhlivan idi, yaylıq ağaca dırmaşırdı. Kəpənək saz çalırdı, tısbağa da xalı toxuyurdu. Belə bir gündə bir kişi var idi, üç arvad almışdı. Hər gün bir bəhanə qabağa gətirib arvadlar bir-birilə, ha belə kişi ilə savaşırdılar.

Bir gün kişi istədi onların məhəbbətini cəlb etsin, onları tək-tək çağırdı. Birinci arvada üzük verib dedi, o biri xanımlara deməsin. O da vədə verdi deməsin. İkinci arvada bir cüt sırğa verib dedi, mən səni çox istəyirəm, o biri xanımlara deməsin, bu sırğanı tək sənə almışam. O da vədə verdi. Sonra üçüncü arvadı çağırıb bir qolbaq verdi və tapşırdı ki, o biri arvadlara deməsin. O da vədə verdi, deməyəcək.

Səhər tezdən birinci arvad həyətə gəlib üzüyünü barmağında dolandırıb dedi: «Nə üçün həyəti süpürməyibsiz?».

İkinci arvad üzüyü görüb gəldi həyətə, yaylığını o yan bu-yan çəkib, başını tərpədib dedi: «Sən deməmişdin».

Üçüncü arvad üzüyü və sırğanı görüb tez gəldi həyətə, qolunu çırmalayıb qolbağını göstərərək dedi: «Bu həyət süpürülmək istəmir».

Xülasə, hər üçü bildilər kişi onları aldadıb. Üçü cəm olub kişini doyunca döydülər.

Yedilər, içdilər, onlar muradlarına yetişdilər. Siz də yeyib, içib muradınıza yetişəsiniz. Göydən üç alma düşdü, biri mənim, biri nağıl deyənin, biri də özümün.

Türk nağıllarından örnək:

«Kara Fatma».



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Var idi, yok idi, yeryüzündə bir Kara Fatma var idi. Kocası ölmüş bu Kara Fatma, bir gün evinin odasını süpürken bir mangır, eşiği süpürürken de bir mangır bulur. Bu iki mangırın biri ile allık, digeri ile de pudra alır. Bunları yüzünə sürüp, süslendikten sonra, kocaya varmak için dışarı çıkar. Yolda bir bağcıya rastlar.

Bağcı kendisine:

– Nereye böylə Kara Fatma? diye sorar.

Kara Fatma:

– Ağzına kızılkurt, hadi ordan! Ne demək Kara Fatma? diyerek hiddetlenir. Bunun üzerine bağcı:

– Peki senin adın ne koyalım?– der. Kara Fatma:

– Benim adım Kara Fatma hatun, saçbağı kıvırcık hatun. Bu hatun nereye gidiyor, kocaya varmağa gidiyor, cavabını verir.

Bağcı:

– Gel benimle evlen, der.

Kara Fatma:

– Pekiyi seninle evlenirsem, sinirlendiğin zaman beni nasıl döversin? diye sorar. Bağcı:

– Seni bu elimdeki kürekle döverim, cevabını verir.

Kara Fatma:

– O kürekle bana bir defa vurusan ölürüm, der. Böylece Kara Fatma yoluna devam eder. Yolda bir çifçiye rastlar. Kara Fatma'yı görünce:

– Hayrola Kara Fatma, nereye gidiyorsun? diye sorar.

Kara Fatma:

– Ağzına kızıl kurt, hadi ordan! Ne demək Kara Fatma? diyerek hiddetlenir.

Çifçi:

– Peki senin adın ne koyalım? der.

Kara Fatma:

– Benim adım Kara Fatma hatun, saçbağı kıvırcık hatun. Bu hatun nereye gidiyor,

– Kocaya varmağa gidiyor, cevabını verir.

Çifçi:

– Gel benimle evlen, der.

Kara Fatma:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

– Pekiyi seninle evlenirsem, sinirlendiğin zaman beni nasıl döversin? diye sorar. Çifçi:

– Seni sabanımla döverim, cevabını veriri.

Kara Fatma:

– Sabanınla döversin, hemencecik ölürüm, diyerek uzaklaşır. Sonra küllükte oynayan bir fareye rastlar.

Fare:

– Nereye böyle Kara Fatma? diye sorar.

Kara Fatma:

– Benim adım Kara Fatma hatun, saçbağı kıvırcık hatun. Bu hatun nereye gidiyor, kocası ölmüş, yeni bir koca bulmaya gidiyor, der.

Fare:

– Gel benimle evlen, der.

Kara Fatma:

– Pekiyi seninle evlenirsem, sinirlendiğin zaman beni nasıl döversin? diye sorar. Fare:

– Kuyruğumun bir tarafını yağa, o bir tarafını da bala banarım. Getirip o güzel gözlerine sürerim, der.

Kara Fatma:

– Pekiyi öylese ben seninle evlenirim, der. Günlerden bir gün Kara Fatma kocası fareye:

– Çamaşırlarını ver götürüp yıkayayım, der. Fare de çamaşırlarını yıkaması için, Kara Fatma'ya verir. Kara Fatma bir menegic, bir ceviz bir de badem kabuğu görür. Bu kabuklardan birer tane alıp, suyun kenarına gider. Badem kabuğunu camaşır leğeni, ceviz kabuğunu tencere, menengic kabuğunu da tas olarak kullanır. Sudan leğene doldurmak isterken, ayağı kayar və Kara Fatma suya düşeir. Sudan çıkabilmek için, el ayak atarak bir hayli çırpınır. Ancak sudan çıkamaz. O esnada iki üç atlının geçtiğini görünce, seslenmeye başlar:

– Atlılar atlılar, yakası beratlılar. Ali Bey'in (yani farenin) evine gidiyorsunuz. Söyleyin Ali Bey'e, yakası telli beye, küdümünü döverek askerin önüne düşsün. Binsin altın atına, yetişsin Kara Fatma hatun'a, denizden çıkarsın…der. Ali Bey, yani fare, Kara Fatma'ya ulaşır.

Fare elini uzatarak:

– Hadi ver elini çekeyim, seni sudan çıkarayım, der.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kara Fatma:

– Elimi sana uzatmayacağım, ben sana küskünüm, der. Fare bir daha söyler, ancak Kara Fatma cevabını vermez. Fare de bir tekme vurur, Kara Fatma'yı suyun dibine daldırır. Gidip kendisine bir başka Kara Fatma alır.

**Namaz (Namaz):** Bu kəlmə tarixən fars dilindən dilimizə keçən kəlmələrdəndir. Ərəbcəsi "səlat"dır. Müsəlmanların gündə beş vaxt müəyyən qaydalar üzrə icra etməli olduqları ibadət.

Namaz islamın əsas şərtlərindən biridir. Beş vaxtla icra edilər. Allah aşıqları sufilər davamlı namazdadırlar. Yəni namazdan sonra da namazın içində imiş kimi Allahı təfəkkür halında Onun haqqında düşünürlər. Namaz ruhun Allaha müraciətidir.

*Havalanma dəli könül, zorunan işin nədir,*
*Mənsur təki Hələbdə darınan işin nədir.*
*Oruc tut, namaz qıl, şükür et Allaha,*
*Yoxsulsan, alçaxdan yeri, varınan işin nədir.**(Aşıq Alı)***

*Tut orucun, qıl namazın,*
*Şükür eylə Allaha.*
*Qul olma dünya malına,*
*Qalacaxdı dünyada.* ***(Aşıq Ələsgər)***

**Nanay:** Əskidən Azərbaycan türklərində 40 gün 40 gecə sürən toy mərasimi keçirmək ənənəsi də olmuşdur. Toydan bir neçə gün əvvəl qız və gəlinlər bir araya gələrək türkülər söylər, əl-ələ tutuşaraq şənlik əlaməti olaraq rəqs edərdilər. Bu mahnı və rəqslər yerlərə görə «Halay», «Nanay», «Haxışta» kimi adlarla ifadə edilmişdi.

M.Şəhriyar bu milli ənənəni, "nay-nay" şəklinə belə ifadə edir:

*Gah toyuvu yada salıb*
*Mən dəli "nay–nay" demişəm*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Nazlama. (bax: Oxşama):** Azərbaycan folklor janrı. Kiçik yaşlı uşaqlara sevgi ilə söylənmiş şeir və mahnılardır.

Örnəklər:

*Balama qurban ağ atlar,*
*Balam haçan çay adlar.*
*Balama qurban xalası,*
*Balam qızıl parası.*

*Göydə ulduzlar,*
*Şaxtalı buzlar.*
*Cehizsiz qızlar,*
*Bu balama qurban.*

*Cürü cürülər yarpağı*
*Astanalar torpağı.*
*Balamı istəməyənin*
*Gözünə bibər yarpağı*
*Dağda çobanlar,*
*Qoyun sağanlar,*
*Qaçdı yağışdan*
*Durdu yatanlar.*
*O balama qurban.*
*Bu balama qurban.*

*Dağın maralı,*
*Gözlər qaralı,*
*Ovçu görəndə*
*Qalmaz qaralı.*
*O balama qurban,*
*Bu balama qurban.*

*Süd dibi, qaymaq dibi*
*Qurbanın olsun bibi.*
*Süd yala, qaymaq yala,*
*Qurbanın olsun xala.*

*Tuluq, səni asaydım,*
*Yağun tasa basaydım.*
*Oğlum böyük olanda,*
*Qulplu qazan asaydım.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Çalxan çalxan yağ olsun.*
*Oğlum yeyib sağ olsun.*

**Nəfəs (Nefes) (bax: İlahi):** Dini mövzulara bağlı aşıq şeirində bir şəkil.

Ələvi – Bektaşi aşıqları yazdıqları ilahilərə nəfəs demişlər. Belə şeirlərin müqəddəs bir ilhamla söylədiyinə inanıldığı üçün bu şeirlərə nəfəs adı vermişlər.

"Nəfəs"lərin mövzusu əsasən təsəvvüf, təsəvvüfdəki vəhdəti-vücud, təriqət qayda-qanunları ilə bağlı olur.

XIII əsrdə Xorasandan Anadoluya köç edən mütəsəvvüf Hacı Bektaş Vəli 1337-ci ildə vəfat etdikdən sonra ona bağlı olanlar onun ölümündən sonra da Kırşehrin Suluca Karaköyük kəndində Bektaşilik təriqətinin qayda-qanunlarını ifadə edən məclislər qurmuşlar. Şah İsmayıl Xətai bu yola bağlılığını bir sıra şeirlərində ifadə etmişdir. Xətainin söylədiyi nəfəslər əsrlər boyu Anadolu İstanbul və Rumelindəki Bektaşi təkkələrində bəstələnib oxunmuşdu. Həmin nəfəslərdən bir örnək:

*Bir nəfəscik söyləyəyim,*
*Dinləməzsən, neyləyəyim.*
*Eşk dəryasın boylayayım*
*Ümmana dalmağa gəldim.*

*Eşq xırmanında savruldum,*
*Həm ələndim, həm yoğruldum.*
*Qazana girdim, qovruldum,*
*Meydana yanmağa girdim.*

*Mən Haqqa oldum aşina,*
*Qalmadı könlümdə nəsnə.*
*Pərvanəyəm atəşinə*
*Şəminə yanmağa gəldim.*

*Şah Xətai der: Özümdə,*
*Heç xilaf yoxdur sözümdə.*
*Əksiklik mənim özümdə,*
*Darına durmağa gəldim.* ***(Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

7,8,11 heca ölçüsü ilə yazılan nəfəslər Ələvi – Bektaşi məclislərində özünəməxsus bir bəstə ilə sazın müşayəti ilə oxunur. Örnək:

1. *Bir kişi pirinin yüzünü görse,*
*Ay ile güneşi görmüş gibidir.*
*Aşk ile şevk ile niyaz eylese,*
*Yetmiş kez Kabeye varmış gibidir.*
*Haram lokma ile pişeirse aşı,*
*Onun beladan ayrılmaz başı.*
*İkrarını inkar eyleyen kişi*
*İblise imanın vermiş gibidir.*

*Yurt tutup ladenle konup kalkarsa,*
*Komşu olup, kem yüzüne bakarsa,*
*Bizi dinlemeyip yoldan çıkarsa,*
*Cehennemi önüne sermiş gibidir.*

*Hasan Dedem diler insafa gelse*
*Her kes eksikliği özünde bilse*
*Yol eri kızını aşi'ye verse*
*Evliye gönlünü kırmış gibidir.*

2. *Evvel Allah! Ahir Allah!*
*Andan ulu gelmemişdir*
*Hem Muhammed Ali gibi*
*Sevgili kul gelmemişdir.*

*Şahi Merdan idi adı*
*Comert sofrasını kodu*
*Ali'ye arslanım dedi*
*Gayrı Ali gelmemişdir.*
*Muhammed Peyğember geldi*
*Ali ilkin islam oldu*
*Veli'lik Ali'de kaldı*
*Daha büyük gelmemişdir.*

*Ali'yi severim candan*
*Ali'nin ahlakı Kur'an*
*İlmin başı Şahı Merdan*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Daha alim gelmemişdir.*

*Od düşdüğü yeri yakar*
*Muhanet bize kem bakar*
*Nizam intizamdan çıkar*
*Doğru yola gelmemişdir.*

*Hasan Dedem arzı didar*
*Fani dünya böyle gider*
*Kem kişi bize kem eder*
*Demden iyi gelmemişdir.* **(Hasan Dede)**

**Nəkşibəndiyyə (Nakşibendiyye):** NəqşibəndiyyəTürkistanda qurulmuş və bütün Türk – İslam dünyasında yayılmış böyük sufi məktəblərindən olub, Yusif Həmədani və təriqətə adını verən Bəhaəddin Nəqşibəndi tərəfindən yaradılmışdır.

Nəqşibəndi təriqəti, Bəhaəddin Nəqşibəndinin xəlifələrindən Əlaəddin Əttar, Zahid Bedahşi və Məhəmməd Parsa tərəfindən çox geniş əraziyə yayılmışdı. Yasəviyyə təriqətinin olduğu yerlərdə çoxlu tərəfdar qazandı. Xüsusən də İmam Rəbbaninin oğlu Məhəmməd Məsum da ciddi bir tədris dəzgahından keçərək, atasının təsəvvüf yolunu davam etdirdi. Oğlu Şeyx Seyfəddin, xəlifəsi Seyid Nur Məhəmməd Bedvani ilə təriqət həm təsəvvüfi, həm də dəqiq elmlər tədris edən bir mədrəsə, bütün xalqa açıq olan bir müəssisə halına gəldi.

XIX əsrdə Mövlana Ziyaəddin Bağdadi ilə təriqət, həm genişləndi həm də möhkəmləndi. Orta Şərq, Uzaq Şərq, Anadolu, Balkanlar, Qafqaz, Afrika və Avropaya yayıldı. Bu gün də fəal olan Nəqşilik, müsəlmanlar arasında ən çox yayılan təriqət olaraq qalmaqdadır.

Azərbaycanda Nəqşibəndiyyə təriqətinin təmsilciləri XV əsrdən məlumdur. Bunların tanınmış şəxsiyyətlərindən biri Nemətullah Naxçivani idi. O, Nakşibəndi təriqətinin Azərbaycanda ilk təmsilcisi olan Xacə Məhəmmədin tələbələrindən olmuşdu. Naxçıvanda anadan olan Nemətullah bir çox elmləri öyrəndikdən sonra təsəvvüfə bağlamışdır. Hicri 904–cü ildə Naxçıvandan ayrılıb islam dünyasının bir çox önəmli yerlərini gəzmiş, bir müddət Təbrizdə qalaraq, zamanın böyük Xəlvəti şeyxi Dədə Ömər Rövşəni ilə burada görüşmüşdür. Daha



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sonra Anadoluya getmiş, Akşehirdə yerləşmişdir. O, təsəvvüf sahəsində mühüm əhəmiyyəti olan “Əl–Fəvatihu–İlahiyyə vəl Məfatih–i Qeybiyyə” əsərinin müəllifidir. Naxçıvani Akşehirde 1515–ci ildə vəfat etmişdir Xoca Məhəmmədin müridlərindən biri də Hacı Nəcməddin Berkbafdır. Təbrizdə yaşamış və 1506–cı ildə orada vəfat etmişdi. M.Ə.Tərbiyətin məlumatına görə qəbri Keçil qəbristanında Şeyx Şəmsəddin Təbərinin məzarı yanındadır.

XIX əsrdə Azərbaycanda təsəvvüf tarixində önəmli şəxsiyyətlərdən biri də Kürdəmirli İsmayıl Şirvanidir. 1817–ci ildə Bağdadda Mövlana Xaliddən icazə alaraq Kürdəmirə getmiş, 1826–cı ildə Çar Rusiyasının təsiri ilə Azərbaycandan çıxarılanadək Nəqşibənd təriqətində fəaliyyət göstərmişdir. Nəqşibəndilik İsmayıl Kürdəmirinin davamçıları tərəfindən Qafqaza yayılmış və Qafqazda müridizm hərəkatına təsir etdiyi üçün, Çar Rusiyasını narahat etmişdir. İsmayıl Kürdəmirinin Azərbaycanda Seyid Həmzə Nigari, Molla Xas Məhəmməd Şirvani, Məhəmməd Yaraqlı, Cəmaləddin Qaziqumuqi kimi davamçıları olmuşdur.

Azərbaycanda sovet hakimmiyyəti illərində ateizim rəsmi ideologiya olduğu üçün bütün dini fəaliyyətlər qadağan olmuşdur. İsmayıl Kürdəmirinin davamçıları olan şeyxlər və müridlər də fəaliyyətlərini gizli şəkildə davam etdirmişlər.

**Nəqərat (Nakarat):** Şeirdə, özəlliklə şərqi, türkü kimi oxunan şeirlərdə hər bəndin sonunda təkrar edilən bir və ya bir neçə misralıq bölüm. Bu misra və ya misralardakı məqsəd əsil fikir və duyğunu daha qabarıq şəkildə ifadə etmək məqsədini güdür.

Örnəklər: Azərbaycan türkcəsi ilə:

*Ay qız, kimin qızısan,*
*Almadan qırmızısan,*
*Atan, anan bəsləmiş,*
*Böyüyəndə bizimsən.*

Nəqarət:

*Al bıçağı,*
*Aç xurcunu,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Kəs almanı*
*Ver yara dilim, dilim.*

*Alma versəm almazsan,*
*Sən almadan qalmazsan.*
*Hansı bağın gülüsən,*
*İylədikcə solmazsan.*

Nəqarət:

*Al bıçağı,*
*Aç xurcunu,*
*Kəs almanı*
*Ver yara dilim, dilim. (Azərbaycan)*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

2. Türkiyə türkcəsi ilə:

*Yeşil ördək gibi daldım göllərə*
*Sen düşürdün beni dildən dillərə.*
*Başım alıb gedim kürbət ellərə*

Nakarat:

*Ne sen beni unut, ne de ben seni.*
*Nə sen beni unut, ne de ben seni.*

*Sevdiyim cemalın güneşim, ayım,*
*Seni seven aşik çeker ezvahı*
*Getir el basayım Kelamullahı*

Nakarat:

*Ne sen beni unut, ne de ben seni.*
*Ne sen beni unut, ne de ben seni.*

**Nət (Na't):** Lüğəti mənası tərifdir. Ədəbiyyatda Məhəmməd Peyğəmbərin şəninə deyilmiş şeirlər – mədhiyyələr.

İstər türk, istərsə də Azərbaycan klassik ədəbiyyatında çoxlu nətlər yazılmışdır. Yunus Əmrədə, Nizamidə, Füzulidə, Nəsimidə nətə aid mükəmməl örnəklər vardır. Füzulinin "Su qəsidəsi" Nət janrının ən məşhurlarındandır.

Nət örnəkləri:

*Canim kurban olsun senin yoluna,*
*Adı güzel, kendi güzel Muhammed.*
*Gel şefaet eyle kemter kuluna,*
*Adı güzel, kendi güzel Muhammed.*

*Yedi kat göyleri seyran eyleyen,*
*Çıkıb arş üstünde cevlan eyleyen.*
*Miracında ümmetini dileyen,*
*Adı güzel, kendi güzel Muhammed.*

*Mümin olanların çoktur cefası,*
*Ahiretde vardır zevqi– sefası.*
*On sekiz bin alemin Mustafası,*
*Adı güzel, kendi güzel Muhammed.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Aşık Yunus nitsün dünyayı sensiz,*
*Sen Hak Peyğambersin şeksiz, gümansız.*
*Sana inanmayan geder imansız,*
*Adı güzel, kendi güzel Muhammed.* ***(Yunus Emre)***

## ***Nət***

*Ey səmavi neməti Xəllaqdən Quran olan!*
*Ey İlahi iltifatı şəninə şayan olan!*
*Vüsəti elmi bütün elm əhlinə darülfünun,*
*Qibleyi– imanü şəhri– hikmətü ürfan olan!*

*Ey zəkavü ismi hikmət əhlinin sərdəftəri!*
*Hər iki aləmdə əcri– xeyri bipayan olan!*

*Övci– hatifdən gəlib haqqın kəlamı guşinə,*
*Xaki– payi nöhfələklər başına mərcan olan!*

*Ey çıxan pişvazına meracda xurşidü mah,*
*Gündən– aydan fəzlə ey fürqanı nurəfşan olan!*

*Əhli– hikmət dərs alır ümmülkitabından sənin,*
*Efmi– küllü, iftixari– ümmətü ədyan olan!*

*Dinü– dinsiz kəslərə düz göstərən haqqın yolun,*
*Hər mərizi– cəhlə cümlə dəhrdə Loğman olan!*

*Dində manəndi– misalın bir peyqəmbər varmıdır?*
*Əmbiya xətmində mislən bibədəl insan olan!*

*Elmdə Sənsən Mədinə, Məkkə xaki– məqdəmin,*
*Asitanında Xuda– Şiri Əli dərban olan!*

*Oldu bayraqdar Sənin dinində ol Şiri– Xuda,*
*Düşməninin Zülfiqar ilə evi viran olan!*

*Min Qəni qurbanın olsa, xaki– payınca deyil,*
*Min– min əhli– qədr ümmətdir Sənə qürban olan!*
***(Həkim Qəni)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Nəzər (Nazar):** Ərəbcə bir mənası da “baxma”, “baxış”, “göz yetirmə”dir.

Təsəvvüfdə mürşidin müridinə mənəvi yolla baxışı deməkdir.

Mövləvilərdə nəzər bu şəkildədir. Ayin zamanı dərvişlər qarşı– qarşıya durub baxışdıqdan sonra niyaz edər, ardından yenə bir– birlərinə nəzər eyləyər. İnanca görə şeyxin bu baxışı müridi çox qısa zamanda yetişdirir. Nəzər etmək birini hal əhli etmək mənasına gəlir. Saf nəzər təmiz baxışdır. Baxışı ilə insanı yetişkənliyə çatdırmaq gücünə sahib olanlara sahib– nəzər deyərlər.

Nəzər, xalq arasında bəzən mənfi mənada istifadə edilir. Baxışı ilə dərd, bəla və zərər verməyə də nəzər deyilir. Buna bədnəzər və yaxud “gözdəymə” də deyilir.

*Mevlana Hudavendiyar bizə nəzər kıldı,*
*Anın görklü nazarı gönlümüz aynasıdır.**(Yunus Əmrə)***

*Aqil gəl bəri, gəl bəri,*
*Gir könülə nəzər eylə.*
*Görür göz, eşidir qulaq,*
*Söylər dilə nəzər eylə.*

*Başdır gövdəni götürən,*
*Ayaq – mənzilə yetirən.*
*Dürlü məsləhət bitirən,*
*İki ələ nəzər eylə.*

*Sufi isən, alıb satma,*
*Halalına haram qatma.*
*Yolun əyrisinə getmə,*
*Doğru yola nəzər eylə.*

*İki əlim qızıl qanda,*
*Çox günahlar vardır məndə.*
*Ya İlahi, kərəm səndə,*
*Düşgün qula nəzər eylə.*

*Xətai eydür: ya Qani*
*Verən Mövla alır qanı.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əvvəl kəndi–kəndini tanı,*
*Sonra elə nəzər eylə. **(Xətai)***

**Nitq (Nutuk):** Şifahi və yazılı ədəbiyyatda işlənən bir termindir.

"Nitq" kəlməsi danışıq qabiliyyəti, danışan adamla bağlı olaraq işlədilir. Bu kəlmə bir xitab növüdür. Odur ki, nitq söyləyənlərə də "xatib" deyilmişdir. "Nitqin lüğəvi mənası dinləyicilərə xitab edən sözdür" (Ahmet Kabaklı). Gözəl nitq söyləyən insanlara natiq deyilir.

Türkiyə türkcəsində "natik", "nitk", "nutuk" şəklində də ifadə edilir.

İki çeşid natiq vardır.

I. Sahibi olan nitqlər

Türk milləti çox böyük natiqlər yetişdirmişdir. Mustafa Kamal Atatürkün, Heydər Əliyevin, Sultan Səlimin, Şah İsmayıl Xətainin, Fateh Sultan Məhəmmədin nitqləri örnək ola bilər.

"İçinizdə ər olanlar mənimlə gəlsin. Ər olmayanlar qarısının yanına dönsün, heç biriniz gəlməsəniz mən düşmənin üzərinə təkbaşına getməyi də bilirəm" (Yavuz Sultan Səlim)

"Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim torpaqlarımızın azad olmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu amal ətrafında birləşməlidir". (Heydər Əliyev)

II. Təsəvvüfi xalq ədəbiyyatında bir şeir növünə də "nutuk" deyilir.

Nutuklar pirlərin və ya təriqət başçılarının təriqətə yeni girən dərvişlərə təriqət ədəbini öyrətmək üçün söylədikləri öyüdverici didakdik mahiyyətdəki şeirlərdir. Belə şeirlərin nəğməsi və bəstəsi olmayıb sazsız söylənilir.

Örnek:

*Qam yeme divane gönül,*
*Her kes etdigini bulur.*
*Kimseye hilə eyleme,*
*Etdiyin yoluna gelür.*

*İnsan Hak'kı bulmayınca,*
*Hakdan kerem olmayınca.*
*Ya ölmedən ölmeyince,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Her kişi də kulmu olur.*

*Aşk atına binmeyince,*
*Aşk meyinden içmeyince.*
*Gül ağacı olmayınca,*
*Her çali da gülmü olur.*
*Aşık olan serden keçer,*
*Arif olan akı geçer.*
*Her kuş zümresiyle uçar,*
*Karğadan bülbül mü olur.*

*Derviş Mehmedim huzular,*
*Aşk ile sinem sızılar.*
*Gerçeyi tanır qaziler,*
*Şahdan gayri pir mi olur.* ***(Derviş Mehmet)***

**Novruz (Nevruz):** Novruz yeni gün deməkdir. Qədim türklər gecə ilə gündüzün bərabərləşdiyi 22 martı yeni ilin başlanğıcı, təbiətin canlanması kimi görərək, bu münasibətlə şənliklər, ayinlər, mərasimlər keçirmişdir.

Novruz türk milli mədəniyyətinin mühüm bir ünsürü olmaqla bərabər türk ortaq mədəniyyətini yaşadan bir bayramdır. Türklər bu bayramı bolluq, bərəkət və rəfahın simvolu kimi qəbul etmiş və bu münasibətlə bir çox şənliklər icra etmişlər. İlk baharın gəlməsi və qışın yerini bahara verməsi ilə bağlı olan bu şənliklər Orta Asiyadan Qafqaza, Anadoluya, Sibirdən Hindistana qədər bir çox ölkədə sevinc və şənliklər, ayin və mərasimlərə səbəb olmuşdur.

Türk boylarının milli ənənələrindən olan novruz mərasimi hər il mart ayının 20–21–22-nə təsadüf edir. İlin bu günündə gecə və gündüz bərabərləşir. Novruz mərasiminin qədim türklərdən iranlılara onlardan da ərəblərə keçdiyi söylənilir.

Türklərdə Novruz bayramının ən önəmli mənalarından biri də “Ergenokondan çıxma” “Ergenekon dastani”dan məlum olan İstiqlal günüdür.

Bilindiyi kimi, “Ergenekon dastanı” türklərin böyük bir fəlakətdən sonra ətrafı dağlar olan vadidə 400 il yaşayıb çəkdiyi min bir əzabdan sonra dəmirdən dağı əridərək düyaya yayılmasından və düşməndən intiqam almasından bəhs edir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu yerdən qurtuluş və türkün İstiqlal günü sayılan Novruz ənənəsi milli, tarixi, siyasi hadisə və milli mədəniyyətlər vasitəsi ilə nəsildən-nəsilə keçərək günümüzə qədər yaşamışdır. Türk dünyasında "Sultan Novruz" deyə anılan Novruz–Ergenekon bayramı haqqında çoxlu əfsanə, rəvayət və inanclar mövcuddur.

Novruz türklərdə təqvimdir. Kaşqarlı Mahmud "Divani lüğət-et-türk" əsərində yazılır: "Türk xalqlarından birisi özündən qabaq baş vermiş bir müharibənin tarixini öyrənmək məqsədilə bu barədə saray adamlarına sual vermiş, lakin onlar döyüşün vaxtını deməkdə yanılmışlar. Buna görə türk xaqanı öz ulusu ilə geniş məşvərət aparmaq ücün qurultay cağırır və deyir: «Biz bu tarixdə necə yanıldıqsa, bizdən sonra gələcək olanlar da yanılacaqdırlar. Belə isə biz indi səmanın 12 bürcü və 12 ay sayısına hər il bir ad qoymalıyıq. Hadisələri bu illərin keçməsilə başa düşməliyik. Bu, aramızda unudulmaz bir xatirə kimi qalsın. Ulus xaqanının bu sözü qurultayda iştirak edənlərə xoş gəldi. Xaqan ova cıxmalı olur. Əmr edir ki, vəhşi heyvanları "İlisu"ya doqru qovsunlar, əhali bu heyvanları sıxışdıraraq «İlisu»ya doğru hürküdüb qovur. Heyvanlar suya atılır. Onlardan on ikisi suyu kecir. həmin sudan kecən heyvanlardan hər birinin adını 12 ildən birinin adına qoyurlar. Suyu kecən heyvanlardan birincisi siçan idi. Buna görə də ilk ili «Sican ili» adlandırmışlar. Bundan sonra türklər bu illərin hər birində bir hikmət yozaraq fal tutur, uğur sayırlar». Mahmud Kaşqarlı yazır ki, məsələn, öküz ili başlayanda savaş coxalırdı. Cünki öküzlər bir–birilə vuruşur, yürüşür, toz qoparırdılar. Toyuq ilində ərzaq mallarının cox olacağı, insanlar arasında qarışıqlıq düşəcəyi gözlənilirdi. Cünki toyuq dən tapmaq üçün cör-cöpləri bir-birinə qarışdırır. Əjdaha suda yaşadığına görə həmin ildə yağmur, donuz ilində isə şiddətli soyuq, qar olacaqı gözlənilir. Həmin tarix ilə də uşaqlarının yaşlarını, müharibə tarixlərini, digər hadisələri bu illərin dönməsilə hesab edirdilər. Kaşqarlı Mahmudun yazdığına görə türklərdə həftə adları yox idi. Cünki həftə deyilən şey islamiyyətdən sonra meydana gəlmişdir.

Azərbaycanın məşhur astronomu, riyaziyyatcısı, filosofu Xacə Nəsirəddin Məhəmməd Tusinin «Zeyci Elxani» əsərində Çin və Uyğur alimlərinin icad etdiyi türk tarixindən bəhs olunur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

XVII əsrdə fransız səyyahı Şarden İran və Azərbaycanda olarkən bu yerlərdə tarix və maliyyə haqq – hesabında 12 illik bir dövrü əks etdirən türk təqvim istifadə edildiyini bildirir. Çox ehtimal ki, 12 heyvan adı ilə adlanan təqvim ilk dəfə çinlilər tərəfindən həyata kecirilmiş, sonralar uyğurlara kecmişdir. Monqollar Azərbaycanı işğal etdikdən sonra [XIII əsrin əvvəllərində] Hülakü dövründə həmin təqvim Azərbaycanda da işlənilmişdir. Elxanilər dövləti dövründə hicri–qəməri illə yanaşı bu təqvimdən də istifadə edilmişdir. Kecmiş vaxtlarda da monqollar arasında tale görmək, qabaqcadan bir şeyi demək, fala baxmaq bir qayda idi. Lakin onlar səmadakı 12 bürcdən istifadə edirdilər. Sonralar bu bürclər heyvan adları ilə əvəz olunur və hər bir heyvanın xüsusiyyətlərinə əsaslanaraq ilin necə keçəcəyi barədə fikir yürüdürdülər. Səfəvilər, xüsusilə I Şah Abbasın (1587–1629) tarixçisi İsgəndər bəy Türkmən (1560–1633) Türk təqvimini də işlətmişdir.

Türkiyədə Atatürkün zamanında 1926-cı ilin yanvarından etibarən mart ayı maliyyə ilbaşı olmuş, bu bir müddət davam etmişdir.

**Nuh Tufanı (Nuh Tufanı):** Həzrət Nuh (a.s.) müqəddəs kitablarda adı çəkilən peyğəmbərlərdəndir. Həzrəti Nuhun qövmü günahlarına görə tufanla cəzalandırılmışdır. Ədəbi mətnlərdə Nuh Tufanı ifadəsinə tez–tez rast gəlinməkdədir. Aşıqların dilində Nuh Tufanı ifadəsi:

*Behri aşka Hezreti Nuhun dalmadı,*
*Hak bəla tufanına ehli– necatı salmadı.**(Aşıq Seyrani)***

*Öz əlimlə Nuh Tufanı*
*Sallam yalvara- yalvara.**(Molla Cümə)***

**Nur (Nur):** Bu söz əslən ərəb dilinə məxsus olub, mənası aydınlıq, işıq, parlaqlıq, şərəf, şan deməkdir.

“Quran” surələrindən birinin adı da “Nur”dur. Allah Təala göylərin və yerin nurudur. (“Nur” surəsi, 35.)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Allah Təalanın nur verməmdiyi insanın nuru olmaz.” (“Nur” surəsi, 40) Nur həm də Allahın Əsma – Hüsnasından, yəni gözəl isimlərindən biridir.

*Her matem ayında kanlar saçarlar,*
*Uyandırıp Hak çırağın yakarlar.*
*Demine hü deyip gülbeng çekerler,*
*Nurlar gelir şahım Abdal Musaya.* ***(Kaygusuz Abdal)***

**Oxşama. (bax: Nazlama):** Azərbaycan folklor janrı. Məzmunca laylaya yaxın olsa da, laylalardan fərqli cəhətləri vardır. Layla beşik başında uşağı yatırtmaq üçün söylənirsə, oxşama uşaq yuxudan oyandıqdan sonra uşağın şən, nəşəli zamanında ona sevgi, məhəbbət ifadəsi olaraq analar tərəfindən söylənilir. Bu səbəbdən də oxşama adı verilir.

Örnəklər:

*Tüstüsüz damlar,*
*Sarı badamlar.*
*Tənbəl adamlar*
*Bu balama qurban.*
*Dağın maralı,*
*Gözü qaralı*
*Dünyanın malı*
*Bu balama qurban.*

*Atım, tutum mən səni,*
*Şəkərə qatım mən səni.*
*Atan evə gələndə,*
*Qabağa tutum mən səni.*

**On dörd məsum (On dörd masum):** Farsca Çardeh–i Ma’sum–i Pak” şəklində ifadə edilir. Təsəvvüfçülərə, o cümlədən Bektaşilərə görə on dörd məsum Həzrət Əli, Həzrət Fatima və on iki imamdır. (bax: on iki imam)

**On iki imam (On iki imam):** Şiələrdə on iki imamı anladan bir ifadədir. Təkkə ədəbiyyatında on iki imamın adının çəkildiyi şeirlərə “Duvaz” ya da “Duvazdeh imam” deyilir. Şiələrin inandıqları on iki imam bunlardır:



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1. İmam Əli (Mürtəza)
2. İmam Həsən (Müctəba)
3. İmam Hüseyin (Şəhid)
4. İmam Əli (Səccad və ya Zeynalabidin)
5. İmam Məhəmməd (Baqir)
6. İmam Cəfəri Sadiq
7. İmam Musa Kazım
8. İmam Əli Rza
9. İmam Məhəmməd Taqi
10. İmam Əli Naqi
11. İmam Həsən Əskəri
12. İmam Məhəmməd Mehdi

On iki imam aşıqlarının dilində:

*Pir Sultan Abdal coşkuna,*
*Gel otur gönül köşküne.*
*On iki imam aşkına,*
*Ben bu seri vere geldim.* ***(Pir Sultan Abdal)***

*Kul Veliyim Hakka niyaz ederim,*
*Hakkın buyurduğu yolla gederim.*
*Dinim Hakdır Hak kelamı söylerim,*
*On iki imamlara ereyim deyü.* ***(Aşıq Veli)***

*Pir Sultan Ali şahımız*
*Hakka ulaşır rahımız*
*On iki imam penahımız*
*Yütemezsın, demedimmi?****(Pir Sultan Abdal)***

*Ömür oldu tamam, gün oldu tamam,*
*Götürün çevirin qibləyə məni.*
*Dursun namazıma on iki imam,*
*Yetirin cənnəti– əlayə məni.* ***(Ağ Aşıq)***

**Ortaoyunu:** Türk xalq teatrının bir növü.

Ortaoyunu teatrı meydanlarda oynanılır. Əsasən şəhərlərdə oynandığı üçün bir şəhər xalq teatrı olmuşdur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Meydanda çalğı, mahnı, rəqs, təqlid, söhbət – hamısı bir arada teatr meydnında ifa olunur.

Oyunun musiqisini davul, zurna, qoşa nağara (çifte nare) təşkil edir. Musiqiçilərin, şərqiçilərin, rəqqasların (cəngi, köşək, rəqqas və s.), hoqqabazlar, gözbağlayıcılar, heyvan oynadanlar, güldürücülərin çıxardıqları oyunlar dramatik oyunlar halına gəlir.

Oyunun əsas aparıcı qəhrəmanları "Peçəkar" və "Kavuklu"dur. Ortaoyununda mövzular teleqrafçı, bazarçılar, Qanlı Nigar, Fərhad və Şirin kimi mövzular olur. Ortaoyunu xalq teatrı Türkiyədə XV əsrdən inkişaf etməyə başlamış; formalaşıb təkmilləşdiyi dövr isə XIX əsrin ikinci yarısı ilə XX əsrin ilk rübünə təsadüf edir. XIX əsrin ikinci yarısında yazıya alınmışdır. Prof. Cevdet Kudret Türkiyədə Ortaoyunu teatrı materiallarını dərləyib yayınlatmışdır. (Cevdet Kudret. Ortaoyunu. İstanbul, 1973. II cilddə)

**Ovsun:** Azərbaycanda inancla bağlı olan, xalq arasında çox da geniş yayılmayan bir folklor növü. Fala baxma, heyvan ağzı bağlama, bəxt açma, bəxt bağlama kimi işlərlə məşqul olanların bu işləri görmək əsnasında insanlara söylədikləri şeir parçalarıdır. Bu parçaları söyləyən insanlar etdikləri ovsunun gerçəkləşəcəyinə inanır və inandırmağa çalışırlar.

Bir neçə ovsun örnəyi:

*1. Əqrəb– əqrəb ahınca*
*Çaxmağını çalınca.*
*Əqrəb oldu bir kişi,*
*Bağladı qurdu, quşu.*
*Süleyman Peyğmbərin bıçağı,*
*Fatma nənənin qurşağı*
*uf...........uf............uf*

*2. Ey şeytanlar, şeytanlar,*
*Bu ciyəri alınız.*
*Buna qənaət ediniz,*
*Bu qadını öldürməyin,*
*Zərərinizi toxundurmayın.*
*Qoyun ciyəri sizə kafi deyilmi?*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bu qoyun ciyərini ciyər ad etmirsinizmi?*
*Əgər belə isə əlimə qılınc alaram*
*Hesabsız ruhlarımla sizə hücum edərəm.(138, 8-9)*

**Ozan (Ozan) (bax: Aşıq):** Aşıqların qədim adlarından biri. İslamiyyətdən öncə və sonra xalqın şair və idrak sahibi, ağıllı və xeyirxah insana verildiyi ad. Ozanlar oğuz elinin ağsaqqalı, bilicisi, ağıl və öyüdvericisi olmuşlar. Ozanlar xalq arasında böyük nüfuza sahib olmuş, onların haqqında şeirlər belə meydana gəlmişdir:

*Evimizə ozan gəlibdir,*
*Pərgar pozan gəlibdir.*
*Gündüz olan işləri*
*Gecə yozan gəlibdir.*

*Qızım, qızım qız ana,*
*Qızımı verim ozana.*
*Ozan axça qazana,*
*Qızım geyə, bəzənə.*

Ozanlar oğuz ellərində böyük nüfuz qazanmış, "Oğuznamələr" söyləyən əli sazlı aşıqlar olmuşlar. XI əsrdə Anadoluya gələn oğuz türkləri arasında olan ozanlar saraylarda, ordugahlarda bəylər, sultanlar yanında çox böyük hörmət və ehtiram sahibi olmuşlar.

"Dədə Qorqud" dastanlarında ozanların ümumiləşdirilmiş xarekterik tipi Dədə Qorquddur.

Qədim türklərin ən ulu və geniş yayılan bədii yaradıcılığı daha çox ozan sənətində qorunub yaşamışdır. Ozan sənəti çoxşaxəli bir xalq sənətinin bir neçə növünü özündə birləşdirir. Ozan çalğıçı, bəstəkar, şair, ifaçı, rəqs edən, nağıl söyləyən, dastan söyləyən, insanlara ağıllı, işıqlı yol göstərən, onların gələcəyindən xəbər verən müdrik, bilici, nəhayət, xəstələrə şəfa verən bir loğmandır.

Azərbaycan və Türk aşıq ədəbiyyatının şeir ənənəsinin bünövrəsi ozanlar tərəfindən atılmışdır. XI əsrə qədər ozan adı ilə tanınan saz şairləri XV–XVI əsrdən etibarən aşıq adı ilə şöhrət tapmağa başladılar.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Öcəşmə:** Azərbaycan folklorunda bir şəkil. Çox zaman "sataşma" da deyilir. Əsasən uşaqların bir–birini söz tələsinə salması. Belə məzəli düzüb–qoşmalar Azərbaycanın bütün bölgələrindən dərlənib yayınlanmışdır. Prof. Mürsəl Həkimovun "Padar Yusifin məzələri" adlı kitabı da bunlardan biridir. Kitabdan bir neçə örnək:

*– De: Abır-həya*
*– Abır- həya*
*– Başına düşsün bir qara qaya*
*– De: Ahıl!*
*– Ahıl!*
*– Üzün gülməsin, paxıl*

*– De: Vəli!*
*– Vəli!*
*– Başına at təpsin, olasan dəli!*

*Deynən Ağa*
*– Ağa*
*– Dırmaşasan dağa*

*Deynən Ayaz*
*– Ayaz*
*– Ağlın olsun dayaz.*

*Deynən Alaca*
*– Alaca*
*– Boyun qalsın balaca*
*Deynən ahıl*
*– Ahıl*
*– Adın olsun cahil*

*Deynən yaba*
*– Yaba*
*– Qarnına batsın yaba*

*Deynən bardaq*
*– Bardaq*
*– Başına düşsün çardaq*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Övliya (Evliya) (bax: Vəli):** Övliya – vəli kəlməsinin cəmidir. “Dostlar” mənasını ifadə edir.

Təsəvvüfdə “Allahın dostları. Təsəvvüf yolunun başçıları, böyükləri yəni – mürşidi-kamil mənalarını ifadə edir.

Seyid Yəhya Bakuvi (XV əsr) övliya – vəlinin mahiyyət və xüsusiyyətləri haqqında demişdir: “Haqq–Təala övliyaları qoruyur. Onlar sözlərini haqqdan alırlar. Dilləri sirrlər söylər, nəfəsləri ziyan olmaz. Bunlar yardımı Allahdan tapırlar. Onların həqiqətlərini qəlb sahibi olanlar bilir. Onlar Allahın vəli qullarıdır. Nə bilsələr, hər şeyi Allahdan anlar və bilərlər. Əgər lütf etsələr, Allaha minnət qılarlar. Əgər uqubət (cəza, bəla, xəta) etsələr, öz nəfslərinə nəzər salıb üzr ilə məşğul olarlar. Əgər məzəmmət olunsalar, buna məhəbbətlə baxarlar. “Allah üçün yol gedər, süluk edərlər. Yaradanın yaratdığına baxır və ibrət alırlar. Haqqa doğru gedərlər. Allaha doğru qaçın” ifadələrinə pənah apararlar. Sifətə nəzər qılar və nəhayətsiz mövcudat – Allahın əsərlərini görürlər. Mövcudatda sifət görürlər, heç bir bənzəri olmayan nəhayətsiz zat görürlər. (Seyid Yəhya Bakuvi)

**Öyüdləmə:** Öyüdverici tərzdə yazılan şeirlər. Yazılı ədəbiyyatdakı nəsihətnamələr. Aşıq tərzində yazılan şeirlərdə daha çox “Öyüdləmə” (öyüd, nəsihət) kəlməsi işlədilir. Öyütləmələr dastanların əvvəllərində söylənən ustadnamələri xatırladır. Belə şeirlər yaranan yeni dastanlarda bir ustadnaməyə də çevrilə bilər.

Örnək:

*Gəl çəkic– baltanı vurma havayı,*
*Hər hörgü çəkəndən sənətkar olmaz.*
*İncidən qurulur sənət sarayı,*
*Hər yetən o yerdə bərqərar olmaz.*

*Korlayır sənəti utanmır üzlər,*
*Şairlə dolubdu dərələr, düzlər.*
*Onların yazdığı cəfəngi sözlər,*
*Bu gündən sabaha yadigar olmaz.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əcaibəm, oldum tufanlı bir yel,*
*Keçdim neçə dəniz, keçdim neçə el.*
*Hər igid Koroğlu, hər yurd Çənlidel,*
*Hər şair yazmaqla Bəxtiyar olmaz.*
***(Aşıq Qiyas Əcaib)***

**Öyüdverici şeir (Eğitici şiir, didaktik şiir):** Tərbiyəvi cəhəti çox olan şeir növü. Azərbaycan və Türk ədəbiyyatşünaslıq terminologiyasında qarşılığı «nəsihətnamə», «didaktik şeir»dir. Azərbaycan yazılı ədəbiyyatında Nəsrəddin Tusinin «Əxlaqi Nasir», Şah İsmayıl Xətainin «Nəsihətnamə», Abbasqulu Ağa Bakıxanovun «Nəsihətnamə», Türk ədəbiyyatında Hacı Bektaş Vəlinin «Vilayətnamə», Aşıq Paşanın «Qəribnamə» kimi əsərləri didaktik əsərlərdir.

Aşıq ədəbiyyatında öyüdverici xarakterdə olan şeirlərə çox zaman «Nəsihətnamə» də deyilir. Belə şeirlərdə dərin mənalı sözlər vasitəsi ilə öyüdverici fikirlər ifadə edilir.

Nəsihətamiz şeirlərin ən gözəl örnəkləri «Dədə Qorqud» dan başlayaraq ozan – təkkə ədəbiyyatında kamala çatmış, sonrakı aşıq ədəbiyyatına dastanlara təsirini göstərmişdir.

Yaxşılıq-pislik, igidlik-namərdlik, riya, yalan, comərdlik, haqq-nahaq, dost-düşmən kimi mövzular öyüdverici şeirlərin əsas mövzularıdır.

İstər Azərbaycan, istərsə də Türk xalq poeziyasında öyüdverici şeirlərin ən gözəl nümunələri mövcuddur:

Azərbaycan:

*Özündən böyüyün saxla yolunu,*
*Düşən yerdə soruş ərzi– halını.*
*Əmanət saxla sən qonşu malını*
*Qonşunu yox bilən özü var olmaz.*
***(Aşıq Abbas Tufarqanlı)***

*Ulğum cuşa gəlsə, köpük yağ olmaz,*
*Söyüd bar gətirsə, bağça– bar olmaz.*
*Zibil təpə olsa, küllük dağ olmaz,*
*Yel əsəndə alçaqlara endirər.* ***(Aşıq Abbas Tufarqanlı)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk aşıq poeziyasından örnəklər:

*Oğul, sene budur öğüt,*
*Öz derdini özün üyüt.*
*Alma, ayva vermez söyüt,*
*Peyvend verib calasan da.* ***(Aşık Şenlik)***

*Tut atalar sözün, kalbi selim ol,*
*Gönülden– gönüle yol var demişler.*
*Gide yavuzluğun, tab'i halim ol,*
*Sert sirke qabına zerer demişler* ***(Levni)***

*Aslı pozuk olan aslına çeker,*
*Katranı qaynatsan, olurmu şeker.*
*Meyvesiz ağaclar tez yaprak töker*
*Bakın ne söyleyir ata sözleri* ***(Aşık Yaşar Reyhani)***

*Qoyunu güttüren sütü, etidir,*
*Gözeli sevdiren nezaketidir.*
*Kişini saydıran marifetidir,*
*Arının deyəri balından gelir.* ***(Aşık Halil Karabulut)***

**Özdeyiş:** Seçmə ifadələr və ya hikmətli sözlər. Ata sözlərində və öyüdnamələrdə olduğu kimi duyğu və düşüncənin qısa və məntiqli şəkildə anladılması. Buna türk folklor terminolojisində "özsöz" də deyilir. Bunların atalar sözündən fərqi özdeyişdə misraları söyləyənlərin bəlli olmasıdır.

Hacı Bektaş Vəlidən Özdeyişlər: Yunus Əmrədən özdeyişlər:

*"Asıl kor nankördür";*
*"Göze nur gönüldən gelir";*
*"Dinine dizinle deyil, kalbinle bağlan";* ,
*"Ölü canından habersiz olandır";*
*"Aşk meydanı erenlerin ve bilenlerindir";*
*"Doğruluq dost kapısıdır".*
*"Ən yüce servet ilimdir"*
*"Gelin tanış olalım,*
*İşi kolay kılalım.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sevelim, sevilelim*
*“Yaradılanı hoş gör,*
*Dünya kimseye kalmaz”.*
*Mal sahibi, mülk sahibi,*
*Hanı bunun ilk sahibi”.*
*Yaradandan ötürü”.*
*“Bir kez gönül yıkdınsa,*
*Bu qıldığın namaz deyil”.*

Aşıq Seyranidən özdeyişlər:
*“Seyrani der ki, Hakk menim arkam,*
*Hakk benim arkam da ben kimden korkam?”*

Aşıq Veysəldən özdeyişlər:
*“Kuş olsaydın kurtulmazdın elimden,*
*Eger görse idim, göz ilen seni.”*

**Pelheng (Teslim taşı):** Sözlük anlamı “ip”, “kəmənd” deməkdir. Bektaşilər kəmərin üstünə on iki güşəli bir daş bağlayırlar. Həmin daş “Pəlhəng” adlanır. Dərvişlər kəmər üstünə bağlanan bu daşın Allaha bağlanmaq üçün bir vəsilə olduğuna inanırlar.

Bu düşüncə Yunus Əmrənin dilində belə ifadə edilir:

*Yunus var indi tövbe qılsan sende iken et emel,*
*Aşık isen kuşanı gör dervişlerin pelhengini.*

**Pir (Pir):** Pir əsli fars dilindən alınan bir kəlimə olub mənası yaşlı, ixtiyar adam deməkdir.

Təriqətdə və ədəbiyyatda aşağıdakı mənaları ifadə etmişdir.

1. Bir təriqətin və ya sənətin ilk qurucusu, başçısı.
2. Müqəddəs yer.
3. Ocaq, ziyarətgah, yatır, övliya .
4. Pirlik – nuranilik, ixtiyarlıq.

Ədəbiyyatda pir yaşlı adam, təriqətin qurucusu, başçısı mənaları ilə bərabər bir inanc sistemini də ifadə etmişdir. Pir Azərbaycan aşıq ədəbiyyatında və xalq inanclarında yuxarıda söylənilən bütün anlamları ifadə etmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*“Bir olsun, pir olsun.”* **(Xalq deyimi)**
*“Ərənlərin piri yanında gərək.”* **(“Koroğlu dastanı”ndan)**

*Qırxlar piri özün yetiş dadıma,*
*Bir də yetir məni yar ayağına.*
*Üzün görüm, könül alsın təsəlli,*
*Xınatək yaxılam əl– ayğına.* **(Tufarqanlı Abbas)**

*Pirim Şahı– Mərdan, Həzrəti–Kərrar,*
*Dadıma yetişsin Əhmədi–Muxtar.*
*Aşıq Alı üzüqara, günahgar,*
*Cəhənnəm odunun güllərinə bax.* **(Aşıq Alı)**

*Hansı iyid dara düşsə,*
*Nəzir deyib yada salır.*
*Yeddi kralın qaçağı,*
*Pənahlanıb səndə qalır.*
*Kor gəlsə, şəfa tapır,*
*Müztər gəlsə, mətləb alır.* **(Aşıq Ələsgər)**

Anadoluda pirlər kimi tanınan müqəddəs yerlər, yatırlar. Azərbaycanda olduğu kimi ziyarət edilməklə bərabər və pir sözü daha ziyadə ulu insan, yaşlı, möhtərəm zat mənasını da ifadə edir:

*Muhəmmed Mustafa, Murtuza Ali’nin,*
*Dostuna dost, düşmanina düşmanım.*
*Pirim Hünkar Hacı Bektaş Velinin,*
*Dostuna dost, düşmanına düşmanım.* **(Aşıq Ali)**

*Pir elindən dolu içtim,*
*Erenler diline düştüm.*
*Ak cenneti gördüm, coştum,*
*Pirim Hacı Bektaş Veli.* **(Dertli)**

*Dost senin yüzündən özge,*
*Ben kibileyi can bilmezim.*
*Pirin hüsnünü severim,*
*Ben gayri iman bilmezim.* **(Kayqusuz Abdal)**



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Pir Sultan Abdal, köçelim,*
*Pirindən bade içelim.*
*İnkar olandan kaçalım,*
*İnkar bir gün paralanır.* ***(Pir Sultan Abdal)***

*Hak yoluna gedenlerin,*
*Asa olsam ellerine.*
*Er, pir vasfin edenlerin,*
*Kurban olsam dillerine.* ***(Aşık Seyrani)***

**Piri–dastan (bax: Dastan):** "Şahnamə"də Rüstəmin atasının bir ləqəbi də "Dastan" dır. Dastanın oğlu mənasına gələn "Piri – dastan" Rüstəmin ləqəblərindən biridir.

**Piri muğan (Piri muğan):** 1.Mug "məcusi, atəşə tapınan, Zərdüşt dinindən olan" deməkdir. Ayrıca meyxanəyə davamlı gedənlər üçün də bu ifadə işlədilir.

"Mug" sözünün cəmi "Muğan"dır. "Zərdüştlüyün tərəfdarlarını bildirən" deməkdir. (28, 83)

Piri–muğan şairlərin dilində "meyxanaçı", sufilərin dilində isə "mürşid"dir. Bəzən də hər iki mənada ifadə edilir. Təsəvvüfi ədəbiyyatda Piri–muğan daha çox təriqət piri, başçısı, qurucusu mənasını ifadə edir.

*Bilmeyen farkini meyhane ile hanikanın*
*Acaba Piri– muğandan nece işaret ister.****(Şeyh Yəhya)***

*Ne vefasın gördüm bezmi cihanın,*
*Kan ilə pür olsun peymaneleri*
*Nə lütfunu gördüm piri– muğanın,*
*Başına yıkılsın meyhaneleri.****(Aşık Emrah)***

*Bəzmdən tışra qomaz piri muğan hüşyarı* ***(M.Füzuli)***

*Əzbəs ki, mana şəfqəti var piri– muğanın,*
*Camım doludur gör necə peymanələr içrə.*
***(Qasım Bəy Zakir)***

*Pirimiz piri– muğandır, xadimi meyxanəyik,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Rindlər zövqün görüb, divanələrdən çıxmışıq.**(Əliağa Vahid)***

**Pişrov. Təkərləmə. (Tekerleme):** Folklorun bir janrı. Azərbaycan folklorunda «pişrov», «düzgü», «təkərləmə» nağıllarda, oyunlarda söylənən sərbəst, qəlibləşmiş söz və ifadələrdir. Şirinsöhbətli insanların nağıl söylərkən, söhbət edərkən, ətrafdakı adamları əyləndirmək, güldürmək üçün söylədikləri qafiyəli, qəliblənmiş cümlə və ifadələr. Düzgü deyilən pişrovlar (təkərləmələr) daha çox uşaq oyunları, türküləri kimi də söylənilir.

Örnəklər:

1. *Hamam hamam içində,*
   *Xəlbir saman içində.*
   *Dəvə dəlləklik eylər*
   *Köhnə hamam içində.*
   *Qarışqa şıllaq atdı,*
   *Dəvənin budu batdı.*
   *Hamamçının tası yox,*
   *Baltaçının baltası yox.*
   *Orda bir tazı gördüm,*
   *Onun da baltası yox.*
2. *Günlərin bir günündə,*
   *Məmmədnəsir tinində,*
   *Göy təpənin belində.*
   *Şah Abbas cənnətməkan*
   *Tərəziyə vurdu təkan,*
   *İki qoz, bir girdəkan.*
   *Milçək mindik, çay keçdik,*
   *Yabaynan dovğa içdik. və s.*

3. *Həsən Ağa*
   *Doldu yarağa.*
   *Mindi ulağa,*
   *Sürdü bağa.*
   *Bir quş tutdu,*
   *O da qurbağa.*
   *Özü yemədi,*
   *Bizə vermədi.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Yedi qurbağa,*
*Düşdü yatağa.*
*Hədiydi, hüdüydü,*
*Sənin yerin gediydi.*
*Al başına, kül başına,*
*Ət taxtasın vur başına.*

Pişrovları – təkərləmələr əsasən nağıllarla əlaqədar ifadə edilir.

Azərbaycan nağılları pişrovlarla (nağıl təkərləmələri ilə) başlayır, nağıl sonluqları ilə bitir. Pişrovlar – yəni təkərləmələr nağılın əvvəlində, ortasında və sonunda söylənən qəlibləşmiş sözlərdir.

Nağılın əvvəlində: «Biri vardı, biri yoxdu, zalımların zülmü çoxdu…». «Biri vardı, biri yoxdu, bir zalım padşah vardı…»

Nağılın ortasında: «az getdi, üz getdi, dərə – təpə düz getdi, iynə yarım yol getdi», «Dərələrdən sel kimi, təpələrdən yel kimi».

Nağılın sonunda: «Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl söyləyənin», «Onlar yeyib – içib yerə keçdilər, siz də yeyib – içib dövrə keçəsiniz».

Türk folklorunda olan təkərləmələri belə sıralamaq olar:

1. Masal (nağıl) təkərləmələri;
2. Çocuq oyunu (uşaq oyunu) təkərləmələri;
3. Törən təkərləmələri;
4. Sərbəst təkərləmələr.

Masal (nağıl) təkərləmələri nağılın əvvəlində, ortasında və sonunda deyilən bir neçə qəlibləşmiş sözlər və cümlələrdir.

Nağılın əvvəlində: «Bir varmış, bir yokmuş», «Bir varmış, bir yokmuş, bir büyük dev vardı, bu devdən büyük dev yoktu», «Evvel zaman içində, kalbur saman içində, develer tellal iken, sinek berber iken, ben anamın-babamın beşiyini tınqır-mınqır sallah iken…»

Nağılın ortasında: «Tepelerden yel gibi, derelerden sel gibi aşarak gider», «Az gitmiş, uz gitmiş, dere-tepe düz gitmiş, gide-gide ağızla burun arası kadar yol gitmiş».

Nağılın sonunda: «Gökten üç elma düştü, biri benim, biri senin, biri də masal söyleyenin. Onlar yemiş, içmiş, muratlarına ermişler. Biz de keçelim kerevetine» və s.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Uşaq oyunu təkərləmələri:

*«Ali, Ali,*
*Hurma dalı.*
*Yemə beni,*
*Yerim seni.*
*Atma taşı,*
*Yarma başı».*

*«Evli evine,*
*Köylü köyüne.*
*Evi olmayan*
*Sıçan deliyine».*

*«Habbel, Hubbel,*
*Sen gir, sen çık» və s.*

**Rədif (Redif):** Şeirdə hər bəndin sonunda eynən təkrarlanan sözlərdir. Heca vəzni ilə yazılmış Azərbaycan və Türk aşıq şeirində rədif eyni mənanı ifadə edir.

Azərbaycan ədəbiyyatından örnəklər:

*Xəbər almaq ayıb olmaz,*
*O nədi pəri, qoynunda?!*
*Öldürərsən mən yazığı,*
*Saxlarsan narı qoynunda.*

*Otağına qədəm basdıq,*
*Söhbətinə qulaq asdıq.*
*Sinən döşək, döşün yasdıq,*
*Sal yataq yeri, qoynunda.*

*Sənmi yarından doyubsan,*
*Bağrımın başın oyubsan.*
*Hüseyni yetim qoyubsan*
*Qalib əllərin qoynunda.* ***(Aşıq Hüseyn Şəmkirli)***

*İki kaşları karanın*
*Ah elinden, vah elinden.*
*Siyah perçem mahparenin*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Dad elinden, vah elinden.*

*Ak elleri nakışlının,*
*Akça ceylan bakışlının,*
*Vurub bağrım yıkışlının*
*Ah elinden, vah elinden.*
*Ak elleri kınalının,*
*O gözleri sürmelinin,*
*Emrah eydür şu sunanın,*
*Dad elinden, ah elinden.* ***(Aşık Emrah)***

**Rəvayət (Rivayet):** Tarixi şəxslər, padişahlar, şairlər, qazilər və başqa şəxslər haqqında nəsildən-nəsilə keçən sifahi söyləntilər.

Rəvayətlər nağıl və əfsanəyə yaxındır.

Azərbaycanda və Türkiyədə yer adları, tarixi şəxslər və s. Haqqında çoxlu rəvayətlər mövcuddur. Bunların bir qismi də işğalçı Makedoniyalı İsgəndər haqqındadır. Azərbaycanda söylənilən bir rəvayət:

“Deyirlər İsgəndər dünyadan köçəndə əli açıq qalmışdı. Onun sol əlini nə qədər qatlayıb tabuta qoysalar da, on addım getməmiş əl tabutdan çıxır, həndəvərində gedənlərin qabağına dilənçi pay istəyən kimi açılırdı. Bundan izdiham lərzəyə gəlirdi. Cənazə kəndin birindən gəlib keçəndə bir qoca irəli çıxıb öndə gedən kahinlərə dedi:

– Hökmdarın əlinə torpaq qoyun.

Kahinlər İsgəndərin əlinə torpaq qoydular. Hökmdarın əli öncə titrədi, sonra da ovcundakı torpağı möhkəm– möhkəm sıxıb əbədilik baglandı və bir daha tabutdan kənara uzanmadı. (Bax: Azad Nəbiyev. İlaxır çərşənbələr. Bakı 1992. s.56)

Həm Azərbaycanda, həm də Türkiyədə yayqın olan “İsgəndərin buynuzu var” rəvayəti Türkiyə türkcəsi ilə:

“Rivayete göre Makedonyalı İsgender’in boynuzu varmış və bu sırrı onun özel berberinden başka kimse bilmezmiş. Lakin sır berberi rahatsız etdiği için birilerine söylemek ister, İskenderden korktuğu için susarmış. Berber bir kuyu başına gelip “İskenderin boynuzu var boynuzu” demış. Bundan bir müddet sonra İskender savaşdan dönerken bir çobanın kuyu başında kaval çaldığını ve kavaldan “İsgenderin boynuzu var



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

boynuzu", sözünü açıkca duyar bunun ne olduğunu çobana sorar. Çoban kavalın kuyu kenarındaki bir kamışdan olduğunu söyler. İsgender de kuyu kenarındaki kamışdan bir kaval yapar ve çobanın kavalındakı cümle de bu kavalda yankılanır. İsgender, berberi çağırır ve meseleyi sorar. Berber olanları olduğu gibi söyler. İsgender bundan sonra sır saklamanın zor olduğunu anlar." Bu rəvayət eynilə Azərbaycanda da söylənilir. Təkcə bir fərqlə: Azərbaycan variantında quyudan çıxan qamışdan düzəldilən tütək "İsgəndərin buynuzu var, buynuzu" xəbərini çatdırır.

**Saqu (Saki) (bax: Ağı):** "Saqu" və "ağı"nın divan ədəbiyyatında qarşılığı mərsiyədir. Azərbaycan folklor ədəbiyyatında daha çox "ağı" şəklində, türk folklor ədəbiyyatında isə "ağıt" şəklində ifadə edilir. Müqayisə edək: ağlamaq sözünün fel kökündə də həmin şəkil və məna saxlanılmaqdadır.

"Saqu" termininə Kaşqarlı Mahmudun "Divani lüğətit – türk"ündə rast gəlirik. Mahmud Kaşkarlı islamiyyətdən öncəki türk şeirlərində vəfat edən insanların ölümündən duyulan ağıları bildirən şeirləri "saqu" deyə ifadə etmişdir və ünlü türk qəhrəman Alp Ər Tunganın ölümündən duyulan kədəri ifadə edən aşağıdakı saqunu örnək vermişdir:

*Alap Er Tunqa öldü mü?*
*Issız öksüz kaldı mı?*
*Ödlek öcün aldı mı?*
*İmdi yürək yırtılır.*

**Samanyolu, Kəhkəşan (Samanyolu):** Türk mifoloji mənbələrdə bir motiv. Bir çox əfsanələrdə "Tanrıya gedən bir yol"dur.

Türk mifologiyasında samanyolu belə ifadə edilir: "Allah yerüzünü yaratmaq istərkən, bir müddət yerüzündə gəzməli olur. Göyüzündə gözəl bir kürə kimi parlayan Samanyolu Tanrının o zamankı ayaq izlərindən başqa bir şey deyilmiş".(29,87)

Anadoluda "samançı yolu, samanlıq yolu" , "Gök yaruğı" , "Gök kapusu" deyilir. Bu deyimlər əski türk inamlarının izlərini daşımışdır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Yaqut saka türklərinin bəzi əfsanələrində Samanyolu "Göyün tikiş yeri", "Tanrının ayaq izləri" kimi göstərilmişdir.

Qırqız türklərinə görə "Kuş Yolu", türkmənlərə görə "kuşlar yolu", kazak türklərinə görə "kiyik kaz yul", "kaban kaz yolu"dur. (27, 89)

İran mifologiyasında isə bu yola "Kehkeşan" yəni "süd yolu", "Hacılar yolu" deyilir. İran əfsanələrinə görə Samanyolu göydə saman çəkilərkən, yerə düşən saman tozlarından meydana gəlmişdir. (27, 86)

İslamiyyəti qəbul edən türklər bu yolun gündoğana, yəni Məkkəyə doğru getdiyini görərək buna "Hacılar yolu"və ya "Hac yolu" demişlər.

**Sanama:** Azərbaycan folklor janrı. Kiçik yaşlı uşaqların zehni qabiliyyətini inkişaf etdirmək məqsədini daşıyır. Tapmacalara yaxındır. Ancaq tapmaca deyildir. Sanama daha çox uşaq oyunlarında istifadə edilir. Saymaq sanamanın əsl özəlliyidir. Məsələn: "Barmaqlar" adlı sanamada məqsəd 5–ə qədər saymağı öyrətməkdir:

Barmaqlar:

*Baş barmaq – I barmaq*
*Başala barmaq – II barmaq*
*Uzun hacı – III barmaq*
*Çil turacı – IV barmaq*
*Xırdaca barmaq – V barmaq*

Bir – ikirəqəmi ilə əlaqədar:

*Bir, iki – bizimki.*
*Üç, dörd – qapını ört.*
*Beş, altı – daşaltı.*
*Yeddi, səkkiz – Firəngiz.*
*Doqquz, on – qırmızı don.*

**Satranç. Sətrənc (bax: Gözəlləmə):** Divan şeirinin təsiri ilə türk saz sairlərinin yazdıqları şeir növüdür. Həm heca, həm də əruz vəzni ilə yazılmış örnəkləri vardır. Heca vəzninin 8+8=16 qəlibinə yazılır və 8 hecalı dördlüklər yaranır. Əruzun isə "müftəilün" qəlibi ilə yazılır. Şeir sətrənc– şahmat kimi xa-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nələrə böləndüyü üçün sətrənc adlanır. Şeirlərin mövzusu gözəllik və eşqdir. Özəl bir bəstə ilə oxunur. Eyni şeiri həm əruz, həm də heca qəlibi ilə oxumaq mümkündür.

Əruzun qəzəl şəklində yazılmış 16 hecalı aşağıdakı şeir öz arasında 8+8 heca bölgüsü ilə də yazılıb oxuna bilir.

Örnək:

*Medhine meddah olalım Hüsrev– i huban güzele,*
*Vasfına sözler bulalım dinleye yaran güzele.*

*Benzemeye hür i melek hidmetine çektik emek,*
*Dişleri zer şane gerek zülfü perişan güzele.*

*Dayanamam nazlarına tuti gibi sözlerine,*
*Çekme ceza gözlerine kuhl– i Sufahan güzele.*

*Söyleme diller dolaşır bakmaya gözler kamaşır,*
*Sırmalı kaftan yaraşır serv– i hıraman güzele.*

*Yüzüne zer hızma ile cebhe zeheb düzme ile,*
*Başta oya yazma ile yakışır elvan güzele.*

*Ruhları gül konça femi kendi aşiret Hatem'i,*
*Gezseler Rumu Acem'i olmaya akran güzele.*

*Servi sehi kametine kameti kiyametine,*
*Gelse eğer davetime kesmeli kurban güzele.*

*Emrine taat edelim cevrine gayret edelim,*
*Hanei halvet edelim bir gece mihman güzele.*

*Cam ile süzdürelim bezme şeker ezdirelim,*
*Seyrederek gezdirelim bağ ile bostan güzele.*

*Derdli efkendeleruz vasfını güyendeleruz,*
*Can baş ile bendeleruz şimdi a'l– i–şan güzele.* ***(Aşık Dertli)***

Eyni şeirin hər beyti dördlük kimi də yazıla bilər. Belə dördlüklər Azərbaycan və Türk aşıq şiirindəki gözəlləmələrə bənzəyir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Medhine meddah olalım,*
*Hüsrev– i huban güzele.*
*Vasfına sözler bulalım*
*Dinleye yaran güzele.*

*Benzemeyen hür i melek*
*Hidmetine çektik emek.*
*Dişleri zer şani gerek*
*Zülfü perişan güzele.*

*Cam ile mey süzdürelim,*
*Bezme şeker ezdirelim.*
*Seyrederek gezdirelim*
*Bağ ile bostan güzele və s.*

Azərbaycan türkcəsiylə yazılmış şeirlərin bir qismində də "satranç divani" şeir növünə rast gəlinir. Bu şeirlərdən biri Azərbaycan dilində yazan bir erməniyə istinad edilir. Görünür 1813–cü ildə Azərbaycan Rusiyaya ilhaq olunduqdan sonra Azərbaycana köçürülən bəzi ermənilər Azərbaycan aşıq sənətinə də meyl edərək, aşıqların yan-yörəsində dolaşaraq saz çalmağı öyrənmiş, bu dildə şeir yazmağa da çalışmış, bəlkə də o zaman yazıya alınmayan bir çox şeirləri erməni xislətinə uyğun olaraq öz adlarına aid edib oxumuşlar. Onlar bu gün də dünyanın bir çox ölkələrində onların ədəbiyyat və mədəniyyət tarixində izi və kökü olmayan bir çox şeir və musiqi nümunələrini öz adlarına çıxıb qondarma bir mədəniyyət nümayiş etdirmək xülyası ilə dəridən – qabıqdan çıxırlar.

Divani şəklinədə yazılan satranc nümunəsi belədir:

*Bir kamandar atdı müjgan, etdi bağrım səd–parə,*
*Atdı müjgan, etdi bağrım sad– parə, seyr et zarə.*
*Etdi bağrım səd narə , seyr et zarə, qıl bir çarə,*
*Səd narə, seyr et zarə, qıl bir çarə, inlər yarə.*

(Şeir Yusif Ramazanovun "Azərbaycan dilində yazıb yaradan erməni aşıqları" kitabından götürülüb. Bakı.1977, s.29)



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Sayaçı sözləri:** Azərbaycan folklorunda bir janr. Heyvandarlıqla bağlı olaraq təşəkkül etmiş şeirlərdir. 3,4,5, hecalı, 6 və daha çox misralı belə şeirlərə sayaçı nəğməsi də deyirlər.

Məsələn:

*Nənəm, nənəm*
*Səni sağan*
*Mənəm, mənəm.*
*Göz muncuğum*
*Boynundadır.*
*Məmələrin*
*Qoynundadır.*
*Quyruğunu*
*Farağat qoy.*
*Ayağını*
*İrahat qoy.*
*Buynuzunda*
*Üzərriyim.*
*Ev–eşiyim*
*Bəzərriyim.*
*Nənəm, nənəm*
*Səni sağan*
*Mənəm, mənəm.*

*("Azərbaycan folklor antologiyası" I kitab, s. 246– 247)*

**Saz (Saz) (bax: Baqlama, qopuz):** Azərbaycan və Türk milli çalğı aləti.

Ozan ədəbiyyatında "qopuz" və "bağlama" adlanır "Kitabi–Dədə Qorqud"da bu alət "qopuz" adlanır. Türk və Azərbaycan sazlarının 3 tellidən 12 telliyə qədər nümunələri vardır. Bunlara Türkyə və Azərbaycanda müxtəlif adlar verilir. Saz (3 telli), "Cura", "Cürə"(4 telli və həcmcə kiçik saz), Bağlama (5 telli saz) Bozuk (6 telli saz), Meydan sazı (8 qalın telli), Çögür (12 telli saz).

**Saz şairi. (bax: Aşıq):** Türkiyədə aşıq ədəbiyyatına əsər verən şairlərə və aşıqlara deyilir. Saz çalıb oxuyan və şeir də yazan aşıqlar özlərinə saz şairi deyirlər. Ozan, xalq şairi, saz şairi terminləri aşıq termini ilə təxminən eyni mənadadır. Yalnız



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bəzi şairlərə saz çalmasa da aşıq tərzi şeirlər yazdığı üçün “saz şairi” deyirlər.

**Seyfül–mülk:** Türk təsəvvuf ədəbiyyatında qeyri müsəlmanları İslama dəvət edən, İslamiyyət uğrunda divlərlə, tilsimçilərlə mübarizə aparanların başına gələn hadısələrdən bəhs edən hekayələr.

**Seyri–sülük:** Seyr sözünün lüğəvi mənası “gəzmək” deməkdir. Təsəvvüfdə isə cəhalətdən elmə, əxlaqi zəmindən, əxlaqi təfəkkürə, öz vücudundan Haqqa doğru seyr və hərəkət nəzərdə tutulur. “Sülük” vahidinin lüğəvi anlamı “girmək və getmək”, təriqət əhlinə isə saliki yəni təsəvvüf yoluna girən adamı vüsala hazırlayan əxlaq tərbiyəsi, davranışıdır. İfadə etdikləri mənalar baxımından bir-birinə çox yaxın olan bu iki termin təriqətə girən şəxsin bir şeyxin nəzarətində Allaha qovuşmaq üçün bütün mənəvi dərəcələri tamamlayanadək keçirdiyi mənəvi yolculuğa verilən addır.

**Səadət (Saadet):** Əsli ərəbcə olan bu kəlmənin mənası olub “sevinc, bəxtiyarlıq” deməkdir.

Təsəvvüfdə isə daha əhatəli olaraq ilahi nemətlərə, feyzlərə çatmaq və bu şəkildə dünyada və axirətdə yüksək məqamlara çatmaq mənaları daşıyır.

Allaha qulluq səadət, üsyan isə şikayətdir. Odur ki, Allahın rızasına nail olmuş insana said (xoşbəxt), olmayanlara şaki (şikayətçi) demişlər.

*Əya, mö'min, gər istərsən səadət,*
*Özünə peşə qıl daim səadət.*
*Əvvəl təb'i–lətifu xülqi–niku,*
*İkinci həm kərəm, cudü səxavət.*
*Üçüncü, olma hərgiz bivüzu sən,*
*Yeri, həq buyruğun tut, qıl ibadət.*
*Xoşa ol mömini–pakü müvəhhid*
*Ki, ola anda həm bu üç xəsalət.*
*Həyadır birisi, biri ədəbdür,*
*Biri dəxi nədir: xövfı–qiyamət.*
*Dəxi üç nəsnə könlü rövşən eylər,*
*Həqiqət bil sən əz ruyi– iradət.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Biri müshəf, biri axar su derlər,*
*Bu iki nəsnəyə baxsan kifayət.*
*Üçüncü, sün'i–həqdi hüsni– ziba,*
*Təsərrüfsüz təfərrüc qıl fərağət.*
*Nəsimi, sən yəqin əhli– nəzərsən,*
*Bu üç nəsnəyi qıl kəndunə adət:*
*Biri lütfü kərəm, həm xülqi– niku,*
*Biri – heç kimsəyə baxma həqarət.*
*Bu sözlər xoş nəsihətdür bilənə,*
*Səadətdir, vəli eyni– səadət.* ***(Nəsimi)***

**Səccadə (Seccade):** Namaz qılmağa məxsus dördkünc şəklində kiçik ölçülü sərgi, canamaz. Şəriət, təriqət və həqiqəti göstərir. Bu üçünü tam olaraq gerçəkləşdirən dərvişə səccade verilir.

**Səcdə (Secde):** Səcdə etmək. Allaha dua üçün üzü yerə qoymaq. Namazda üzün yerə qoyulması. İslam inancına görə Allahdan başqasına səcdə edilməz.

*Allah, Allah deyin qazilər,*
*Qazilər deyin şah mənəm.*
*Qarşı gəlin səcdə qılın,*
*Qazilər, deyin şah mənəm.* ***(Xətai)***

*Parçalandı gəmim qaldı dərində,*
*Mən qərq dənizində, dərində.*
*Qismət olsa o Mövlanın dərində,*
*Üz döşəyək, səcdə qılaq üzhaüz.* ***(Xəstə Qasım)***

**Səlis:** Əsli ərəbcə bir kəlmə olan selis (səlis) rəvan, axıcı mənasına gəlir. Azərbaycan dilində də səlis bu mənanı ifadə edir.

Səlis türk aşıq şeirində bir şeir növüdür. XIX əsrdə divan seirinin təsiri ilə saz şairlərinin yazdıqları şeirə verilən addır. Divan şeirinə görə dili daha rəvan olduğu üçün ona bu ad verilmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Səlislər qəzəl, mürəbbe, müxəmməs və müsəddəs şeir şəklində yazılır. Ən özəl cəhəti özünəməxsus bir avaz ilə oxunmasıdır.

Örnək:

*Yine aldı gam– ı efkar dili dağ– ı tenim,*
*Acımaz mı yüreğin, merhametin yok mu senin?*
*Ne reva cevri ola qonçaya serv– i semenin*
*Acımaz mı yüreğin, merhametin yok mu senin?*

*Bunca cevrettiğini kimseler, ey gül, edemez,*
*Ben gibi nale vü namişleri bülbül edemez.*
*Ah u fiqanıma kafir de tahammül edemez,*
*Acımazmı yüreğin, merhametin yok mu senin?*

*Çünçi göğsünde yok insafın a zalim ne deyim?*
*Varayım başım alıp özge diyara gidelim.*
*Sen git ağyar ile oyna da ben zar ideyim*
*Acımazmı yüreyin, merhametin yok mu senin?*

*Derd– i aşkın komadı Nuri, mecalim yetişir,*
*Bu kadar çekmeye de kalmadı halim yetişir.*
*Yetişir çekdiceyim gayrı a zalim yetişir,*
*Acımazmı yüreyin, merhametin yok mu senin?*

***(Aşık Tokatlı Nuri)***

**Səma (Sema):** Mövləvilərin səma ibadətləri. Onların qollarını iki yana açıb dönərək etdikləri zikir ibadəti.

Fələklər "hərəkəti– şövqiyə" ilə necə dönürlərsə, onlar da elə dönürlər.

**Səmah:** Səmah Ələvi – Bektaşilərin ibadəti olan Cəmin bəlli bir mərhələsində saz–bağlamanın müşaiyəti ilə qadın və kişilərin (bacı və qardaş) çalınan havaya uyğun oynadıqları rəqslərdir. Səmah dönmək Cem ayini içindeki 12 xidmətdən biridir.

Ələvi–Bektaşi inancında Cəm ayinində olduğu kimi səmahın da Həzrət Məhəmmədin merac zamanı uğradığı qırxlar cəmindən qaynaqlandığına inanırlar.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Səmah dini bir rəqsdir, əyləncə musiqisi deyildir. Səmah zamanı bir tərəfdə oturan mürşidə əsla arxa çevrilməz. (Mərasimlərdə mürşidi saz çalanlar təmsil edərlər). Çünki mürşid yol göstərən və öyrədəndir.

Səmahda əsas fiqurlar əl və ayaqdır. Əllər və qollar durnanın uçuşunun simvoludur. Ən çox görülən və təkrarlanan fiqur isə sağ əlin yuxarı, sol əlin aşağı olmasıdır. Bunun anlamı isə "Haqdan alıb, xalqa vermək, torpaqdan hasil olub, Haqqa vasil olmaqdır. Səmahlar bir neçə qrupa ayrılır. Əsas səmahlar bunlardır:

1. Ərən, Övliya, Pir adına görə: Hacı Bektaş səmahı, Əli Nur səmahı, Məhəmməd Əli səmahı, Cəbrayıl səmahı, Zeynal Abidin səmahı, Çoban Baba səmahı, Sarı Qız səmahı.
2. Sevilən və müqəddəs sayılan heyvan adlarına görə: Qır At səmahı, Durnalar səmahı və s.
3. Yer adlarına görə səmahlar: Alacam səmahı, Ərzincan səmahı, Şorlu səmahı, Fəthiyə səmahı, Ladik səmahı, Malatya səmahı, Tokat səmahı və s.
4. Digər səmahlar: Qırxlar səmahı, Könüllər səmahı, Novruz səmahı, Dəm gəldi səmahı, Çarx səmahı, Çarpaz səmahı, Ərkan səmahı, İllallah səmahı və s.

**Sınama. (bax: İnanc):** Folklorun bir janrı. Azərbaycan folklorunda inanc və sınama terminləri arasında əsaslı bir fərq yoxdur. Sınamalar uzun illər boyu insanların həyat təcrübəsinə əsaslanan inandıqları hadisələrdir. İslamiyyədən əvvəlki dövrlərə aid olan mədəniyyəti də əhatə edən sınamalar xalqın etnoqrafiyasını, mərasimlərini, adət-ənənələrini, həyata baxışlarını əks etdirir.

Sınama örnəkləri:

"Ayağının altı qaşınsa yol gedərsən". "Axşam şər vaxtı evi süpürməzlər. Süpürəndə də "toy evi süpürüm" deməli, zibili küncə yığıb saxlamalı, sabah atmalısan, yoxsa evin bərəkəti qaçar" "Boynu çökək adam deyirlər xain olar" "Qaşın üstü qaşınca, səni sevindirəcəklər" "İlin axır çərşəmbəsində eşidilən söz düz çıxar" "Ovçu cənazə aparanlara rast gəlsə, geri qayıtmalıdır, yoxsa, ovu uğurlu olmaz" "Sınıq qabda xörək yesən şərə düşərsən" "Toxumluğa haram qatsan, bitməz" "Tutun



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

altında kabab bişirsən, ağac quruyar” “Aya çox baxanın yuxusu qaçar” “Körpənin boynundan öpsən, hirsli, küsəyən olar” “ Gec dil açan uşağa göyərçin yumurtası yedirtsən, tezliklə danışar” “Uşaq güzgüyə baxsa, gecə yuxusu qaçar” “Uşağin sağ çiyninə gözmuncuğu tiksən,ona göz dəyməz” “Yuxuda ayaqqabı görsən, bədxəbər xəbər eşidərsən” “Yuxuda görsən çimirsən, deməli, işlərin düz gedəcək” “Yuxuda göyərçin görən qıza tezliklə elçi gələr” “Yuxuda güzgü görənin işi uğurlu olar” “Uşağın qırxı çıxana qədər evə kənar adam gəlsə, uşağı bayıra çıxarıb gələn adamı içəri buraxarlar. Yoxsa uşaq çiləyə düşər” “Arılar pətəyin dövrəsində uçuşub şirə toplamağa getmirlərsə, deməli, yağış yağacaq” “Qışda qarğalar yol üstə qonsalar, deməli, havalar istiləşəcək” “Mal – qara az su içsə, deməli, az yağış yağacaq” (Nümunələr Bəhlul Abdullanın “Göyər səməni, göyər” kitabından götürülmüşdür. Bakı, 1993, s. 167– 174)

**Sırat körpüsü (Sırat köprüsü):** Axirətdə insanların üzərindən keçəcəkləri inanılan körpünün adı. Buna xalq arasında “qıl körpü” də deyilir.

İslami inanclara görə bu körpü üç min illik yoldur. Min il yoxuş, min il düz, min il enişdir. Qıldan incə, qılıncdan kəskindir.

Cəhənnəmin üzərində qurulan və üzərindən keçilməsi çətin olan bu körpüdən Allahın günahsız bəndələri çox asanlıqla keçirlər. Asanlıqla keçənlər bir şimşək çaxar kimi bu körpünü adlayıb Cənnətə gedirlər. Kafirlər və Allah tərəfindən bağışlanmamış günahı olan insanlar isə bu körpüdən keçə bilməyib Cəhənnəmə düşürlər.(92, 234)

Dini təsəvvuf ədəbiyyatında sırat köprüsü ifadəsi ilə insanların doğruluq yolunda yaşamağı təlqin edilir. Sirat və ya qıl körpü Azərbaycan və Türk xalq şeirində müxtəlif anlamlarda dilə gətirilir.

*Dəstur almayınca mən açamadım*
*Qıldan incə körpü yaratmış mən keçəmədim.*
*Ağlayıb gülünü mən seçəmədim*
*Daha ondan gayrı çox müşkülü var.* ***(Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Qıl körpüdən çünki sürşər ayağın,*
*Cəhənnəm xofundan yarılar yağın.*
*Qorxma yenə Əli olur dayağın,*
*Əcəb anıb həşrü çahar ağlarsan.* ***(M.P.Vaqif)***

*Aşıq Alı mindi şəcərdən atı,*
*Oxundu üzünə əcəl baratı.*
*Qıldan çox nazikdir, qılıncdan iti,*
*Sırat körpüsündən keçirəm bu gün.* ***(Aşıq Alı)***

*Günahkardı nə ki yoldan azan var,*
*İki mələk xeyri, şəri yazan var.*
*Qiyamət var, kıl körpü var, qazan var,*
*Rövşən yollarını tar eyləməynən.* ***(Aşıq Ələsgər)***

*Sırat kıldan incedir,*
*Kılıçdan geçincedir.*
*Varup onun üstüne*
*Köşkler yapasım gelir.* ***(Yunus Emre)***

*Bir köprü yaratmışsın, kıldan incedir dersin,*
*Kamuya sala ettin mahlukat cümle geçsin.*
*Geç dediğin kulların biri benim, eksikli*
*İzzin hakkı geçmezem, hazzı olanlar geçsin.* ***(Yunus Emre)***
*Cennet alayı nasip et bana,*
*Sırat köprüsünde yolum bağlama.* ***(Karacaoğlan)***

*Abdal Pir sultanım göğe süzüldü,*
*Sırat'ın üstünde nizam kuruldu.*
*Mümin olan gaflet gillet yazıldı*
*Dört kapı içinde Kur'an'a benzer.* ***(Pir Sultan Abdal)***

*İlletliler kıl köprüyü geçmeye*
*Gayri yolum yoktur dönüp kaçmaya.*
*Uçmaklık olanlar gitti uçmağa*
*Günahkar ateşe yansa gerektir.* ***(Karacaoğlan)***

*Boran der Hakk'ın muradı*
*Sözün özüme yaradı*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Olsan cennetin sıratı*
*Geçmem seni şimden kelli.* ***(Deli Boran)***

**Sicilləmə (Sicilleme):** Anonim xalq şeirində bir növ. Həm mərasim nəğmələrində, həm də aşıq tərzi şeirlərdə bu örnəyə rast gəlmək mümkündür.

Sicillərmələrin bəlli bir şəkli yoxdur. Şeirin misralarını istənilən qədər uzatmaq olar. Şeir bir fikirdən o birinə keçərək uzanır, yəni uzandıqca uzanır. Başqa bir ifadə ilə desək, sicillənir.

Örnək:

*Üşüdüm ha üşüdüm,*
*Dağdan alma daşıdım.*
*Almacığım aldılar,*
*Məni cürüm saldılar.*
*Mən cürümdən bezaram,*
*Dərin quyu qazaram.*
*Bu quyuda boz keçi*
*Hanı onun erkəci.*
*Erkəç quyu dibində,*
*Quyu Şirvan düzündə.*
*"Hoş" eylədim gəlmədi,*
*Çiyid verdim yemədi.*
*Çiyid qazanda qaynar,*
*Qəmbər yanında oynar.*
*Qəmbər getdi oduna,*
*Qaycı batdı buduna................ və s.*

Sicilləmələr mövsüm mərasimləri, eləcə də toy mərasimlərində də oxunur. Mövsüm mərasimlərində oxunan sicilləmələrdə özəlliklə ilk bahardakı xalq nəğmələrindən danışılır və xalq oyunlarının izi hiss olunmaqdadır. Belə sicilləmələr bəstə ilə oxunur. Sözün mənasına o qədər diqqət edilmədiyindən misralar musiqinin ritminə uyğun olaraq uzadıla bilir,yəni sicillənir.

Toy mərasimlərindəki sicilləmələr əsasən xınayaxma mərasimində söylənilir və qızlar əllərinə xına yaxarkən oxunan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şeirlərdə şeirin içərisinə zarafat şəklində cümlə və misralar da daxil edirlər:

*Əllərə xına yaxarlar,*
*Gözlərə sürmə çəkərlər.*
*Çəkil burdan, ay oğlan,* (haramzada)
*Pəncərədən baxarlar.*

*Ay arxalığı göndərən,*
*Əllərə xına yaxarlar.*
*Ay onu necə göndərəm?*
*Əllərə xna yaxarlar:*
*Ay yara namə yazmışam,*
*Əllərə xına yaxarlar.*
*Ay pulum yoxdu göndərəm*
*Əllərə xına yaxarlar.........və s.*

Türk aşıq şeirində sicilləmələrə əsasən aşıq qarşılaşmalarının (deyişmələrinin) bağlama – müəmma bölümündə rast gəlinir. Bir aşıq qarşıdakı aşığın zəifliyini, bacarıqsızlığını hiss etdiyi zaman aşığı mat etmək üçün onu tənqidi sözlərlə həcv edər.

Örnək:

*Maadem dilin lal ise,*
*Ne üçün alırsan sazı.*
*Derununda derc eyleyib,*
*Sonra söyleyeydin sözü.*
*Hozanda siçan əzersin,*
*Topraqda izlerem izi.*
*Gezişin kuzey tilkisi,*
*Cesaretin arap qazı.*
*Yüzün çevir bu yana,*
*Kalbi kirli salahana.*
*Seni qatar ol tayfana,*
*Nafakanı yal ederim.* ***(Aşıq Şenlik)***

Türk folklor ədəbiyyatlarında sicilləmənin ikinci adı "şeki" dir. Şeki (sicilləmə) uzun bir nəzm şəkli olub, hər hər xanənin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bütün sətirləri bir-biri ilə qafiyələnir. Xanədəki sətir sayı ən azı on, xanə sayı üçlə doqquz arasında olur.

Göründüyü kimi, sicilləmə həm Azərbaycan, həm türk şeirində eyni mənanı və məzmunu ifadə edən şeirlərdir.

**Silsilə (Silsile):** Təriqət şeyxlərinin Hz. Məhəmmədə qədər uzanan mürşidlər zəncirinə verilən addır. Təsəvvüfi bilgi və tərbiyə mürşidlə müridin birlikdə olma yolu ilə meydana gələn mənəvi təsirlənmə əsasında gerçəkləşən hal və duyğuların nəqli demək olduğu üçün mürşid və rəhbərə ehtiyac vardır. Bu elmin Məhəmməd peyğəmbərin mənəvi nüfuzunun davamı şəklində bir özəlliyə sahib olması, bu yolun rəhbərlərində mənəvi bir silsilə axtarılmasını zəruri etmişdir. Təsəvvüf yollarının hamısında son mürşiddən Hz. Peyğəmbərə qədər uzanan bir mənəvi zəncir mövcuddur. Bu zəncirin tarixi baxımdan kamil olması təsəvvüfi feyz və bərəkətin nəsillərə ötürülməsində çox önəmlidir. Bir təsəvvüf yolunun sağlamlığının ən böyük dəlili onun sağlam bir silsiləyə sahib olmasına bağlıdır.

Təsəvvüfdə «Allaha gedən yollar məxluqatın nəfəslərinin sayı qədərdir» anlayışı səbəbi ilə təriqət sayında bir hədd yoxdur. Etiqadi baxımdan kitab və sünnəyə bağlı, ibadət və müaməlatda islamın təməl əsaslarına riayət edən və mənəvi bir silsiləyə sahib mürşidlər tərəfindən təmsil edilən təriqətlər həqiqi olaraq qəbul edilmişdir. Silsilənin təsəvvüfi önəminə uyğun olaraq bütün təriqətlər icazənamə və silsilənamə ilə öz yollarındakı ruhani axarı qeydlərə bağlayaraq müəyyənləşdirmişlər. Təsəvvüf istilahında bu mövzuda yazılmış ədəbiyyata «tomar» da deyilir.

Bütün təriqətlərdə silsilə vardır. Ancaq silsilədə yad olunan hər şeyxin bir öncəki şeyxdən həqiqətən tərbiyə görməsi, bir sonrakı şeyxi də həqiqətən irşad etməsi bəzi hallarda tarixi olaraq mümkün görünmür. Bu halda bir şeyxin digərini mənən, yəni ruhən tərbiyə etdiyinə inanılır ki, buna «üveysilik» deyilir.

Hz. Əlinin sahib olduğu mövqeyə görə təriqətlərdə ona və onun nəslindən gələnlərə böyük sevgi və hörmət bəslənilmişdir. On iki imamdan bir və ya bir neçəsinin yer aldığı silsilələr



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

də vardır. Bunlara qızıl silsilə mənasında «Silsilətüz – zəhəb» adı verilmişdir.

Bütün təriqətlərdə silsilələrini müəyyən edən ədəbi əsərlər qələmə alınmış və bunlara "Silsilənamələr" deyilmişdir.

**Simurq (Simurg) (bax: Ənqa):** Azərbaycan və türk nağıllarında adı çəkilən quş. Simurq və ya Ənqa adlanan, əfsanələrə görə Elbrus (Əlburz) dağında yaşayan bir quşun adı.

Əlburz Xəzər dənizi ilə İran sahələrini ayıran dağlar silsiləsidir. Onun Lənkəranın qərbindən şərqə tərəf uzanan Talış dağları silsiləsinə aid bir hissəsi Qafqaz dağları ilə əlaqədardır. Bir hissəsi Dəmabənd dağına, bir hissəsi isə Paronomis dağ silsiləsinə birləşir. Bəzi yerlərini six meşəliklər bürüyən, yüksək zirvələrini qarlar örtən bu dağ haqqında onun ətrafında yaşayan tayfalar bir sıra əfsanələr, rəvayətlər uydurmuşlar. Əsatirə görə Rüstəm pəhlivanın, onun atası Zalın, babası Samın və Samın atası Nərimanın himayəçisi və havadarı olan əfsanəvi Simurq (Zümrüd) quşunun məskəni bu dağın ən uca zirvəsi sayılan Qaf dağıdır. (Məlumat "Yis və Ramin" əsərinə yazılmış əfsanəvi, tarixi və coğrafi adların izahından götürülmüşdür. Bakı, 1968. səh. 463)

Folklorda rəvayətləşən Qaf dağı kimi Heydər baba dağını da əfsanələndirdiyini Şəhriyar qürurla ifadə edir:

*Bax ki, Heydərbaba əfsanə tək olmuş bir,*
*Mən kiçik bir dağı sərmənzili– ənqa etmişəm.*

"Səhəndiyyə" şeirində isə Səhəndi Simurq (Ənqa) quşu qədər əfsanələşdirərək:

Ad alıb səndən o şair ki, sən ondan ad alarsan,
Baş ucaldıqca Dəmabənd dağından bac alarsan.
Şir əlindən tac alarsan.
O da şeirin, ədəbi Şah dağıdır şanlı Səhəndi,
O da sən tək atar ulduzlara şeir ilə kəməndi,
O da Simurqdan almaqdadı fəndi

**Sofu, (Sofu):** Sözün əsli "Sufi"dir. Dilə "Sofu" şəklində keçmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1. Sofi təsəvvüflə məşğul olan adam deməkdir.
2. Sofi zahid mənasını ifadə edir.
3. Ərdəbil sufisi və ya Ərdəbil sofusu. Özləri Ərdəbilli olduqları üçün bu adamların tərəfdarlarına belə ad vermişdilər. Şeyx Səfiəddinin adından Səfəvi ləqəbini alan və o adda dövlət quran Şah İsmayılın ləqəbi. Anadoludakı Qızılbaşlar özlərinə sofu ünvanını verərək Şah İsmayıla və onun dövlətinə olan bağlılıqlarını ifadə etmişlər.

Xalq şeirində sofi və sofu yuxarıda adları keçən mənaları ifadə etmişdir.

*Sofulara söhbet gerek,*
*Ahlərə ahret gerek.*
*Mecnunlara Leyla gerek,*
*Bana seni gerek, seni.***(Yunus Əmrə)**

*Sofilikden nişan budur qaziler,*
*Sofu bir ikrara durmalı imiş.*
*Heç bir adem iblis üçün yürümez,*
*Adım- adım Hakka varmalı imiş.***(Pir Sultan Abdal)**
*Pir Sultan Abdalım bu sözüm haktır,*
*Vallahi sözümün hatası yoktur.*
*Şimdiki sofunun Yezit'i çoktur*
*Ali'm ne yatarsın günlerin geldi.***(Pir Sultan Abdal)**

*Sofular secde ederler.*
*Mescidin mehrabına,*
*Yar eşiyi secdegahım.*
*Yüz sürterim kime ne?***(Kul Nəsimi)**

**Sufi (Sufi):** Sufi insanlardan uzaqlaşaraq qəlbini kədərdən təmizləyəndir. Qızıl və palçığı eyni dəyərdə görən şəxsdir. Sufi adı ala bilmənin asan bir şey olmadığını bildirən Seyid Yəhya bu adı istifadə edə bilmək üçün aşağıdakı keyfiyyətlərə malik olmanın vacibliyini bildirir:

Nəfsini mücahidə ilə həva (nəfsi arzular), riya və sumadan bütün sifətləri ilə təmizlənmək; Bütün işləri Haqqdan bilmək, Haqqdan qeyrisindən qorxmamaq, bütün ümidini Haqqdan gözləmək, etiqadını doğru tutmaq, elm, təfəkkür, mürşid, saf



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qəlb və tabı – müstəqimin şərt olduğunu bildirmək.

**Sührəverdilik:** Qurucusu Əbu Həfs Ömər Şəhabəddin Sührəverdidir. Şeyx Əbdülqahir Sührəverdinin qardaşı oğludur. 539/1144-cü ildə Azərbaycanın cənubunda – Zəncana bağlı Sührəverddə doğulmuş, 632/1234-cü ildə məhərrəm ayında vəfat etmişdir. Əmisi böyük alim Əbu Nəcib Əbdülqahir elm öyrənməsi üçün onu Bağdada aparmışdır. Burada bir çox dini elmləri öyrənən Şəhabəddin Sührəverdi təsəvvüf elmlərini də əmisindən öyrənmişdir. Əbu Həfs Sührəverdi fəqih, fazil, sufi, zahid, arif, həqiqət elmində zamanın şeyxi idi. Çox ibadət edərdi. Əlinə keçən malı, mülkü kasıb və möhtaclara paylayardı. Mənbələr onun Bağdaddakı bütün təkyələrin irşadda ən yetkin mürşidi sayıldığını qeyd edirlər. Şəhabəddin Sührəverdiyə «Şeyxüş–şüyux», «Şeyxül–islam», «Şeyxül–Iraq» ünvanlarının verildiyini nəzərə alsaq, onun öz zəmanəsindəki şöhrəti aydınlaşar. Onun sözlərinin təsiri ilə günahkarlar dərhal tövbə edərdi. Şəhabəddin Sührəverdi bir çox tələbə yetişdirdi. Sultanlar yanında da böyük bir etibarı olan Sührəverdinin sahib olduğu mövqe və hörmətə başqa kimsə nail olmadı. Abbasi xəlifəsi tərəfindən qonşu islam dövlətləri ilə münasibətləri gücləndirmək və ya sülhü qorumaq məqsədi ilə ona səfir vəzifəsi də verilmişdi.

Sührəverdi ərəb dilində təsəvvüf və təriqətin əsaslarını açıqlayan əsərlər yazmışdır.

**Sülük:** Mənşəcə ərəb dilinə məxsus bir kəlmə olub “yola getmək, yol almaq” mənasındadır. Təsəvvüfdə bir şeyxə bağlanan insanın məlum bir üsulla Allaha doğru, yəni kamala doğru mənəvi yolçuluğuna sülük deyilir. Sülükün sonunda “Allahı sevmək” təfəkkürü (murakabe–i muhabbet) verilir. Ondan sonra “fəna” və “beka” kimi hallar ortaya çıxır. Bir bəndə ən mükəmməl varlıq olan Allah olmayacağı üçün gerçək mənada sülükün sonu yoxdur.

**Sünnə (Sünnet):** Sünnə dedikdə yol, qanun, adət. Peyğəmbərimizin kəlamları, işləri. Dində qaynaq olan dörd təməl dəlildən biri. Hədisi şəriflər nəzərdə tutulur. Hz. Məhəmməd Peyğəmbərin hərəkət və əməlləri, onun dedikləri. Peyğəmbər



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tərəfindən söylənilən və müsəlmanlar üçün müqəddəs sayılan rəvayətlər buraya daxildir.

**Sünni (Sünni):** Etiqadda (inanılmalı şeylərdə) və ibadətlərdə Peyğəmbər əfəndimizin və onun dostlarının və sonra gələn İslam alimlərinin yolunda olan müsəlmanlar. Sünnilər Hz. Məhəmməd Peyğəmbər ümmətinin başına gələcək işləri bildirərkən; Bəni İsrail yetmiş iki yerə ayrıldı. Ümmətim də yetmiş üç yerə ayrılacaqdır. Bunlardan yalnız biri xilas olacaq, o birilərinin hamısı Cəhənnəmə gedəcəkdir." Eshabı kiram bunu eşidən kimi "O hansıdır ya Rəsulallah" dedilər. "Mənim və Əshabımın yolunda olanlardır" deyə buyurdu. İslam alimləri bu hədisi şərifdə bildirilən tək qurtuluş firqəsinin Əhli sünnət olduğunu yazırlar. Əhli sünnət olanlar etiqadda Maturidi və Eşari məzhəblərində, əməldə isə dörd məzhəbdə: Hənəfi, Maliki, Şafi, Hənbəli məzhəblərində toplanmışlar.

**Şahbeyt (Şahbeyit):** Bir şeirin ən gözəl beyti.

Divan şeirində olduğu kimi Türk və Azərbaycan aşıq şeirində də şahbeyt ata sözləri kimi tez yayılıb əzbərlənən misralardır.

Türk təsəvvüf və aşıq şeirindən nümunələr:

*Biz dünyadan gedər olduq,*
*Qalanlara salam olsun.* ***(Yunus Əmrə)***

*Seyrani der ki, Hak benim arkam,*
*Hak benim arkam da, ben kimden korkam* ***(Aşıq Seyrani)***
*Hüsnü Yusuf olsa, ecel sevilmez,*
*Öpərkən ısırıp dişləməsi var.* ***(Aşıq Seyrani)***

*Gözelliyin on para etməz,*
*Bu bendəki aşk olmasa* ***(Aşıq Veysəl)***

*Böyledir kaide dağdan gelenler,*
*Bağda olanları kovar demişler.* ***(Levni)***

Azərbaycan aşıq şeirindən nümunələr:

*Sərv ağacı hər ağacdan ucadır,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Əsli qıtdır budağında bar olmaz.* **(Abbas Tufarqanlı)**

*Axtarsan da yerin yeddi qatını,*
*Hər kəs göstərəcək öz isbatını.* **(Ağ Aşıq)**

*Bir gün eşidərsən Alı da köçdü,*
*Sındı telli sazı təzanə qaldı.* **(Aşıq Alı)**
*Dedi nişanlıyam özgə malıyam,*
*Sındı qol qanadım yanıma düşdü.* **(Aşıq Ələsgər)**

*Yaxşılıq, yamanlıq borcdur dünyada,*
*Mərdanəsən, gəl yaxşılıq elə sən.* **(Aşıq Abdulla)**

**Şairnamə (Tezkire, Şairname):** "Şairnamələr, ümumiyyətlə, ustad aşıqların tərcümei-halına işıq tutacaq məlumatları əhatə edən mənzumələrdir. Bu mənzumələr heca vəzni ilə söylənmiş və yazılmış əsərlərdir. Şairlərin müasirləri ilə özlərindən əvvəl yaşayan sənətkarların adlarına, sənətlərinə,dövrlərinə, məmləkətlərinə, mənsub olduqları təriqət, zümrə və ya siniflərə dair məlumatlarla süslənən bu şeirlər, bir növ divan ədəbiyyatımızın təzkirələrini xatırladır" (Şükrü Elçin)

Şairnamələrdə adı keçən aşıqlara aid verilən məlumatlar bir araya gətirildikdə, aşığın yaşadığı dövr, müasirləri, onun bəzi özəllikləri haqqında məlumat almaq mümkündür. Türk aşıq ədəbiyyatında şairnamə kimi bilinən bu ədəbi növ Azərbaycan ədəbiyyatı tarixində yazılan təzkirələri xatırladır. Bunların fərqi şairnamələrin aşıqlar tərəfindən şeirlə ifadə edilməsidir. Türk aşıq ədəbiyyatında təsadüf edilən şairnamələr əsasən on bir hecalı şeir ölçüsü ilə yazılmışdır. Türkiyə türkcəsi ilə yazılmış bir şairnamə örnəyi:

*Ben aşıkım deyu ah etme gönül,*
*Dağlarda duman var sen n'olacaksın.*
*Çağlar Hak dilince Hak'ka çağırır*
*Şad <u>Murad Umman</u> var, sen n'olacaksın*

*<u>Yazıc' oğlu</u> yanmış evrak elinde,*
*<u>Mecnun</u> Hakk'a yetmiş Leyla dilinde.*
*<u>Ferhat</u> canı vermiş Şirin yolunda*
*<u>Fizuli</u> sultan var sen n'olacaksın?*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Aşk ile kül olmuş yanmış Niyazi,*
*Eşrefoğlu gezmiş Şam'ı Şiraz'ı.*
*Yunus meleklerden olmuşdu razı*
*Bekaya bulan var sen n'olacaksın?*

*Arınmış Kuddusi hep masivadan,*
*Emrah göçün çekmiş dar–ı fenadan.*
*Mansuri kendini asmış semadan*
*Canına kıyan var sen n'olacaksın?*

*Aşık Ömer gelmiş çok yazmış ebyat,*
*Kamili dünyada almamış murad.*
*Nazimoğlu, Dertli çok kılmış feryat*
*Bekayı bulan var sen n'olacasın.*

*Aşık Garip sazın asmış duvara,*
*Kerem yana yana dönmüş fenere.*
*Kusuri'nin gözü benzer pınara*
*Ene'l– Hak diyen var sen n'olacasın.*

*Ben aşıkım deyu çok kılma zarı,*
*Otur bir köşeye edip kararı.*
*Ne sultanlar gelmiş Adem'den beri*
*Feryad ü fiqan var sen n'olacasın.*

*Bazı aşık vardır sürer savurur,*
*Mahbubi aşkından dağı devirir.*
*Altmışbeş yaşında çalar çağırır*
*Mesleki suzan var sen n'olacasın.*

*Ben değilim Hak söyletir dilimi,*
*Bade içdim kimse bilmez halımı.*
*Şu yalan dünyadan çekdim elimi*
*Meftuni nihan var sen n'olacasın.*

*Nice aşık gelmiş, nicesi geçmiş,*
*Nice sır saklamış nice sır açmış.*
*Nicesi bu yolda serinden geçmiş*
*Ummana dalan var sen n'olacasın.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bilir misin aşıklığın sırrını?*
*Cümlesi bu yolda vermiş serini.*
*Daha öldürmedim nefsin birini*
*Ruhsatı külhan var sen n'olacsın.*

**Şaman (Şaman):** Əski türk dinlərindən olan şamanizmdə din adamına verilən ad.

Şaman sözünün sanskritcə "Şrama– na"dan gəldiyinin və türkcə qarşılığının "Kam" olduğu yazılmaqdadır. Din adamı olan Şamanın söylədiyi şeir parçalarına "Kam katukani" deyilmişdir. Şamamların ruhlarla bağlı olduğuna inanılır. Şamamlar qurban kəsmə, ruh çağırma, şeytan qovma mərasimlərində rol oynamaqla bərabər xəstələri də müalicə edərlər.Türkəçarə və falçılıqla birlikdə şeir qoşma, nağıl söyləmə, bir məclisdə xoş vaxt keçirmə kimi ənənələri də vardır. Şamanlar Altayların və Yaqutların yas mərasimlərində qurbanın ruhunun göyə çıxdığını və bununla da Tanrıdan dilədikləri istəyin qəbul edilib – edilmədiyini camaata bilbirirdilər.

Şamanlara aid inanclar hələ də Sibir və Altay türkləri arasında yaşayır.

**Şamanizm (Şamanizm):** İslamiyyətdən öncə türklərin tabe olduqları dinlərdən biri. Şamanizmə görə iki böyük Tanrı vardır. Göy Tanrısı Ülgen, Yer Tanrısı Erlik.

Şaman adı verilən din adamları böyük Tanrı Ülgenə qurbanlar kəsər, ayinlərdə ölən ruhlara dua edərdilər ki, onları cəhənnəmdən qurtararaq göyə çatdırsın, huzura yetirsinlər.

Şamanizmə görə göy doqquz qatlı cənnət, yer doqquz qatlı cəhənnəmdir. İnsanların yaşadığı dünya yerlə göy arasındadır. Ölüncə günahsız ruhlar cənnətə, pis ruhlar isə cəhənnəmə gedir. Şamanlıqda cin və pərilərə, dağların, suların ruhuna, bütün canlıların, ölülərin ruhuna inanılır. Şamanizmə görə cənnət–pərilər məkanı, fani dünya qullar məkanı, cəhənnəm isə cinlər, şeytanlar məkanıdır. Şamanlar ətrafdakı ən yüksək dagı, əsasən Altayı qoruyucu ruh, hətta özlərinin törədiyi bir ata saymışlar. Şamanizmdə bəzi seçmə insanların fövqalədə gücə malik olduğuna inanılır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şaman dininə inananların nə dini kitabları, nə də dini qanunları izah eden müqəddəs kitabları vardır. Amma onlar özlərinə xas bir dini görüşlərə malikdirlər.

Orta əsrlərdə islam dini ilə qarşılaşan şamanizm yox olarkən ələvilik kimi bəzi təriqətlərə təsir göstərmişdir.

**Şathiyə:** Türk dini təsəvvüfi xalq ədəbiyyatında yumorlu şeirlərə deyilir.

Şathiyələr təsəvvüfi görüşə malik olan aqillərin söylədiyi insanı çaşdıran yumoristik, amma dərin mənalı şeirlərdir.

Örnəklər:

*Bir sinek bir kartalı kaldırıp vurdu yere*
*Yalan deyil gerçektir, ben də gördüm tozunu.* ***(Yunus Emre)***

*Bir kaz aldım ben karıdan,*
*Boynu da uzun borudan.*
*Kırk Abdal kanın kurudan,*
*Kırk gün oldu kaynadırım, kaynamaz.* ***(Kayqusuz Abdal)***

**Şeyx (Şeyh):** Ərəbcə qoca, ağsaqqal, öndər, təriqət başçısı, bir təkkədəki dərvişlərin başçısı, mürşidi mənalarına gəlir. Təsəvvüfdə sufi müəllim və liderlərinə şeyx deyilmişdir.

Şeyx bəndəni Allaha, Allahı bəndəyə sevdirmək istəyən din lideridir. Funksiyası baxımından müridləri tərbiyə edən bir mömindir. Şeyxin şəriət elminə sahib, fəna məqamına keçmiş, əxlaqi–hamidə (öyülən əxlaqla) süslənməsi gərəkdir. Özü kamildir, ona görə də kamala çatdırır, yəni mükəmməldir.

"Şeyx mürşid alim gərək, xeyir və təat sahibi olması gərək, müstəqim gərək. Salik (təsəvvüf yoluna girən) və mürəbbi olub məşayih məqamına yetişməsi gərək. Ta ki, ona iqtida edənlərə faydası dəysin. Sözləri mənasız, cahil bidətçinin şeyx olması və ona tabe olmaq yaramaz" (Seyid Yəhya Bakuvi)

**Şeytan (Şeytan):** Ərəbcə qovulmuş, uzaqlaşdırılmış deməkdir. Kibr və həsədi səbəbi ilə Allahın "Adəmə səcdə ediniz" əmrinə qarşı çıxdığı üçün onun rəhmindən uzaqlaşdırılan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

varlıqdır, yəni iblisdi. Allah Təala “Qurani –Kərim”də buyururdu ki, Şeytan insana çox söz verir və bir çox şeyi xatırladır. Şeytanın söz verdiyi şeylərin hamısı yalandır. (“Nisa surəsi”, 121)

*Tutma şeytani– racimin qövlünü rəhmana uy,*
*Kim uyan şeytana cindir, tabeyi– rəhman deyil.* ***(Nəsimi)***

*“La”də qalma sufiya, bil tovhidin illasını,*
*Uyma şeytani– ləinə dinləmə risvasını.* ***(Xətai)***

**Şəcərə (Şecere):** Əsli ərəb dillərinə məxsus olan bu sözün mənası “ağac” deməkdir. İnsanin mənsub olduğu ailəni, sülaləni, kökündən başlayaraq göstərən nəsil, soy ağacı. Təsəvvüf məktəblərinin təməlini qoyanların, ayrıldığı qolları göstərən siyahıya da şəcərə adı verilir. Buna “silsilənamə” və “nəsəblərin kötüyü” də deyilir.

Təsəvvüfdə şəcərə deyiminin yükləndiyi əsas məna İnsani– kamildir. Şəcəreyi–Tuba–Cənnətdəki Tuba ağacı; Mərifət və əxlaqların əsası Şəcəreyi–mərifət–yəni mərifət ağacı və s. Ifadələrin tərkibində həmin mənasıyla istifadə edilmişdir.

**Şəriət (Şariat):** Haqq dini yolu. Böyük və geniş küçə. Nur, aydınlıq, işıq. Dinə və dünyaya aid islami qanunlardır. Tanrı buyuruğu. Qurani Kərim və Həzrəti Peyğəmbər Aleyhissalatü Vesselamın tərif etdiyi və bildirdiyi yol mənalarını daşımaqdadır. Allah tərəfindən Peyğəmbər Əleyhissəlam vasitəsiylə təbliğ olunan hökmləri əhatə edən ilahi qanunların məcmuəsi. Şəriət, eyni zamanda din mənasında işlədilmişdir ki, ehkamı əsliyə deyilən etiqadiyyatı və ehkamı feriyə deyilen ibadət, əxlaq; yəni İslam hüququnu ehtiva etməkdədir.

Təsəvvüfdə insanı Allaha yaxınlaşdıran dörd qapıdan birincisi şəriətdir. Şəriət elmini öyrənib əməl etmədən təriqətə keçilə bilməz.

*Şəriət yolunu Məhəmməd açdı,*
*Təriqət yolunu Şah Əli seçdi.* ***(Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Təriqətdə mərifətə qulaq ver,*
*Şəriətdə yol– ərkanı biləsən.*
*Həqiqəti nədən xəlq eylədi haqq,*
*Ərşi, kürsü, ol asimanı biləsən* ***(Aşıq Ələsgər)***

*Şeiriat sancağı geldi dikildi,*
*Marifet yoluna dürler töküldü.*
*Hayır– himmət ol dem gülbank çekildi,*
*Tarikat kemendin erkandan aldım.* ***(Aşıq Seyrani)***

**Şərqi (Şarkı):** Mahnı janrı. Musiqisi yazılmış şeirlər. Şərqilərin də türkülər kimi əsasını şeir və musiqi təşkil edir. Lakin şərqiləri türkülərdən ayıran cəhət şərqilərdəki şeirlərin müəllifi, musiqinin bəstəkarı bəlli olduğu halda, türkülərdə şeir və musiqi müəllifi əsasən anonim olur.

**Şəbeh:** Dini–tarixi məzmunda olan meydan mərasimi XVI əsrdə Azərbaycanda İslam təriqətlərindən olan şiəliyi möhkəmləndirmək məqsədi ilə başqa məzhəbə məxsus olan müqəddəslərin (Həzrət Əli, İmam Həsən, İmam Hüseyin və b.) ölümünü əks etdirmək üçün şairlərin yazdıqları mərsiyə mənzumələr. Bu mərsiyələr tamaşaçıda dini–mövhumi görüşlər tərbiyə etmək məqsədilə yazılır, rövzəxanlar, şəbihgərdanlar tərəfindən oxunurdu. Beləcə də şəbehlər meydana gəlirdi.

Sovet hakimiyyətinin ilk illərindən belə meydan mərasimlərinin keçirilməsi dövlət tərəfindən qadağan olundu.

Yazıçı Əbdürəhim Bəy Haqverdiyev (1870–1933) "Şəbeh" adlı hekayəsini də sovet rejiminin ateizm siyasətinə uyğun olaraq yazmışdır.

**Şiə (Şii):** Şiə ərəbcədə şe–ye–a kökündən firqə, bölük, qrup, tərəfdar, köməkci, kiməsə inanan və kömək edən mənalarında işlədilən bir sözdür. Həzrəti Əli və onun övladlarına bağlananlar şiə adlanmışlar.

Hz.Məhəmməd peyğəmbərin vəfatından sonra İmamətin Peyğəmbərin kürəkəni Hz.Əli və əhli beyt imamlarına aid məzhəb və mənsubları.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şiənin nə vaxt yarandığı məsələsi olduqca mübahisəlidir. Şiə qaynaqlar Hz.Peyğəmbər vaxtında, Əli, Əbi Talibi digər səhabələrdən üstün görən və onu xəlifəliyin ən layiqli sahibi olaraq qəbul edən Ebu Zer əl–Gıfari, Səlman əl–Farisi, Mikdad Əl Əsvədin ilk şiələr olduğunu, bu baxımdan şiənin Hz.Peyğəmbər dövründə mövcud olduğunu bildirməkdədir. Ancaq Hz. Əlinin məşru xəlifə olduğu iddiasıyla doğan tamamiylə bir siyasi hərəkat olaraq yarandığı iddialarıyla yanaşı Hz.Osmanın öldürülməsindən sonra və ya Hz.Əlinin xəlifəliyi sıralarında xüsusilə Camal və Sıffın döyüşlərini izləyərkən, yaxud Hz. Əlinin öldürülməsi və camaatın Muaviyə b. Əbi Süfyana beyət etməsiylə doğduğu irəli sürülür. Bütün bu hadisələr Şiənin meydana çıxma tarixini dəqiq olaraq bildirməsələr də hadisələrin hamısının şiəliyin inkişafına səbəb olduğu görülməkdədir. Məzhəblərində "imam" və "on iki imam" məsələsinə xüsusi diqqət verdikləri üçün bu məzhəbə "İmamiyyə" və ya "İsna Aşəriyyə" adı da verilmişdir.

Kitab, sünnət, icma və əqli dəlillər olaraq qəbul edilən bu firqə, ibadət və müəmələlər haqqında Əhli sünnə ilə cüzi ayrılıqlar görünməkdədir. Bu gün İran, İraq və Pakistanda olan bu məzhəbin mənsubları Şiənin böyük əksəriyyətini təşkil etməkdədir.

**Şifahi xalq ədəbiyyatı (Folklor, Sözlü ədəbiyyat, Şifahi Halk Edebiyyatı):** Xalqın şifahi şəkildə yaratdığı ədəbiyyat. Bu ədəbiyyat eyni zamanda məktəblərdə, ali məktəblərdə tədris olunan bir fənnin adıdır. Bu fənn aşağıdakı qollara ayrılır.

1. Folklor və onun janrları. Bu bölümü ədəbiyyat və sənət dəyəri daşıyan anonim xalq ədəbiyyatın bütün janrları əhatə edir (Azərbaycan mifologiyası, əmək və mərasim nəğmələri, atalar sözü, inanclar, dualar, tapmacalar, xalq dramları, laylalar, bayatılar, lətifələr, vəsfi– hallar, sınamalar və s.).

2. Aşıq poeziyası. Müəllifi bəlli olan aşıq şeiri.

Aşıq Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Aşıq Valeh, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir və b.

3. Dastanlar.

a) Qəhrəmanlıq dastanları. «Kitabi Dədə Qorqud», «Koroğlu» dastanı və b.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

b) Məhəbbət dastanları. «Əsli və Kərəm», «Abbas və Gülgəz», «Şah İsmayıl», «Aşıq Qərib» və b.

Türk folklor ədəbiyyatlarında folklor nümunələrinin anonim olanlarına xalq bilimi, müəllifi bəlli olanlara, yəni aşıqların yazdığı şeirlərə xalq şeiri və ya aşıq şeiri, dini təsəvvüfi xalq şeirlərinə də təkkə şeiri və ya təsəvvüfi xalq şeiri deyilir. Xalqın ortaq məhsulu olan bu üç bölüm xalq ədəbiyyatı, yəni şifahi xalq ədəbiyyatı mənasını ifadə etməkdədir.

Odur ki, türk xalq ədəbiyyatı özlüyündə üç qola ayrılır.

1. Xalq bilimi. Buraya xalqın ortaq yaratdığı əsərlər (türki, mani, dastan, bilməcə, əfsanə, ninni, yakışdırma, hayır–dua, bəddua, inanclar, ata sözləri və s.) daxildir.

2. Aşıq ədəbiyyatı. Müəllifi bəlli olan, sazı şeirdə və xalq hekayələrində sürdürən ədəbiyyat. Qaracaoğlan, Dadaloğlu, Aşıq Seyrani, Aşıq Veysəl, Aşıq Əmrah, Tokatlı Nuri kimi saz şairlərinin əsərləri.

3. Təkkə və ya təsəvvüfi xalq ədəbiyyatı. İslamiyyətin gətirdiyi din və dünyagörüşü izah edərkən türk dilindən və türk nəzm şəklindən uzaqlaşmayan təriqət şairlərinin ortaya qoyduqları ədəbiyyat. Yunus Əmrə, Hacı Bayram Vəli, Əşrəfoğlu, Pir Sultan Abdal, Kayqusuz Abdal kimi təsəvvüfi xalq şairlərinin əsərlərindən ibarət ədəbiyyat.

**Şühud (Şuhud):** Ərəbcə bir kəlmə olub gözlə görmək, müşahidə etmək, hazır olma, mövcud olma mənalarını ifadə edir. Təsəvvüfdə Haqqı Haqq vasitəsi ilə görmək mənasını ifadə edir.

**Tac (Tâc):** Süslü başlık anlamında bir kəlmə Hökmdarların rəsmi günlərdə, başlarına geydikləri mürassə başlıq. Bəzı şeyx və dərvişlərin başlarına geydikfəri çeşitli şəkillərdəki başlıq "külah tac" adlandırılır. Bu tacı geyen kişinin hansı təriqətdən olduğu anlaşılırdı. Täclar döymə yundan tikilirdi. Mövləvilərin geydiyi taca sikkə adı verilirdi. Tacın üst qisminə qubbə, başa geçən qisminə ləngər deyilirdi.

Hər təriqətin özünəməxsus bir tacı (əmmamə, papaq) vardır. Təriqətlərdə tac geyilməsi dərvişin həm hansı təriqətə mənsub olduğunu tanıtması, həm də hərəkətlərində ölçülü



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olmaq və dərgahını ləkələməmək duyğusunun təlqini baxımından əhəmiyyətlidir. Xəlvətiliyin geyim və əlamətləri də fərqli xüsusiyyətlərə malikdir. Xəlvətilikdə tacgeymə xüsusi mərasimlə həyata keçirilirdi. Təriqətə yeni girən müridin şeyx zikr təlqinindən sonra ya o gün, ya da uzun bir müddət sonra xüsusi bir mərasimlə başına «tac» deyilən başlıq qoyur və ya sarıq sarıyır, yaxud da bir xirqə geydirilir. Bunun təsəvvüfdəki simvolik mənası şeyxin müridə bütün gözəl əxlaqlar geyindirməsidir. Tacda olan işarə və dilimlərə də mənalar verilmişdir. Bir bölümlü olması tövhidə, iki bölümlü olması dünya və axirətin tərkinə, altı bölümlü olması imanın şərtlərinə, yeddi bölümlü olması yeddi ada, səkkiz bölümlü olması səkkiz cənnətə, on iki bölümlü olması on iki imama işarə olmaq mənasındadır. Xəlvətiliyin dörd dilim, qırx çubuq (budaq) şəklində bir tacı vardır.

**Taqva (Takva):** Qorxma, çəkinmə, qayğılanma mənasını verən dini–təsəvvüfi mahiyətdə bir termin. Allah qorxusuyla, günahdan qaçmaqda, Allahın əmr və qadağalarına tabe olmaqda dəqiqlik göstərmək. Allahın himayəsinə girmək, əmrini tutub əzabından qorunma mənasında “Quran”dan gəlmə bir termindir.

Taqva dini daha dərin bir anlayışla yaşama hadisəsidir, dində həssaslıqdır. Taqva sahibinə müttəqi deyilir.

**Tapmaca (Bilmece):** Folklorun bir janrı. Hər hansı bir əşya və ya hadisəni bənzətmə yolu ilə, qəsdən bilinməz şəkildə göstərən yığcam məcazi ifadəli cümlələr.

Yazılı ədəbiyyatda «müəmma», «luğaz» kimi terminlərlə də ifadə edilən tampacalar çətin anlaşılan fikir deməkdir. Zehni oyun və əyləncə kimi xalq arasında yayılmışdır. Azərbaycanda xalq arasında «tapmaq» mənasına gələn bu janra tapmaca deyilir.

Türk boyları arasında kökü «tapmaq»dan gələn «tapkır», «tavıcak», «tapcanq–nımah» (xakaslarda), «tavzuk» (kaşkarlarda) tapmaca mənasındadır.

Tapmacalar haqqında ilk məlumat Kaşqarlı Mahmudun «Divani–Lüğətit–türk»ündədir.

Azərbaycan tapmacaları nəsir və nəzmlə ifadə olunmuşdur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bir tabaq alma, sabaha qalma* ***(Ulduz)***

*O yanı qaya,*
*Bu yanı qaya,*
*İçində sarı maya* ***(Yumurta)***

Aşıq ədəbiyyatındakı qıfılbəndlər əsasən tapmacaların ifadə etdikləri fikirləri ifadə edir. Xalq ədəbiyyatında bayatılardan tapmaca kimi istifadə etməyin ən gözəl nümunəsi Sarı Aşığa aiddir.

*Mən aşıq içi dəri,*
*İçinin içi dəri.*
*Bu gün bir loxma yedim.*
*Üzü ət, içi dəri.* ***(Toyuğun daşlığı)***

Türklər tapmacaya «bilmece» deyirlər. Bu da «bilmək» sözündəndir. Bir zehni oyun, əyləncə kimi xalq arasında yayılan bilməcə folklorun anonim bir janrıdır. Bilməcələrin çözülməsi böyük bilik və ustalıq tələb edir. Xalq vaxt keçirmək, əylənmək, dövlət adamlarına xəbər çatdırmaq üçün bilməcələrə müraciət etmişdir.

Prof. Şükrü Elçin bilməcəyə belə tərif verir:

«Bilməcələr təbiət ünsürləri ilə bağlı olan hadisələri insan, heyvan, bitki kimi canlıları, əşyanı, ağıl, zəka və ya gözəllik növündən olan mücərrəd düşüncələri qapalı bir şəkildə diqqətimizə çatdıraraq tapmağı hədəfləyən qəlibləşmiş sözlərdir».

Türk tapmacalarının çoxu Azərbaycan tapmacalarında olduğu kimi ölçülü, qafiyəli, cinaslı şəkildə özünü göstərir. Bunlar şəkilcə mənzum və mənsur ola bilərlər.

Örnəklər:

*Nar tanesi,*
*Nur tanesi.*
*Bu dünyanın*
*Bir tanesi.* ***(Qurani–Kərim)***

*Dal üstündə sarı oğlan* ***(heyva)***

*Bir kiçicik kutudur,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Bütün dünya yurdudur.* ***(radio)***

*Bıyığımı bura– bura*
*Çıktım kapkara duvara* ***(sarmaşıq)***

*Altı mermer,*
*Üstü mermer,*
*İçinde bülbül öter* ***(dil)***

*Bir kızım var,*
*Bir gözü var.****(iynə)***

*Burdan vurdum kılıcı,*
*Halepten çıktı ucu.****(şimşək)***

*Yer altında yağlı kayış.* ***(İlan)***

**Tapuğ. (bax: Təriqət):** Gülşəni təriqətinin zikr törənlərində oxunan ilahilərə verilən ad.

Xəlvətiliyin bir qolu olan Gülşəni təriqətinin qurucusu İbrahim Gülşəni divan ədəbiyyatında Yunus Əmrə tərzində yazdığı şeirləri ilə tanınmış sufi şairidir. Mövlanənin təsiri altında "Manevi" adlı məsnəvi də yazmışdır.

*Gülşeni dervişdir gül konçalardur mesnevi,*
*Bülbülü– şeyda okur mesnevi, gah Manevi.*

Təkkə ədəbiyyatinda ünlü bir ada sahib olan İbrahim Gülşəni ahəngli bir üsluba malikdir.

*Benim gönlüm alıb dilber,*
*Gider derlər, gider derler.*
*Beni tərk o Leyli Mecnun,*
*Eder derler, eder derler.*

*Nə sevdadur deyüz bana,*
*Eşidüb kalmanuz tana.*
*Gönül bendən kaçub ona,*
*Gider derler, gider derler.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Taşlama:** Türk aşıq şeirində işlənən termin. Həcv mənasına gələn taşlamanın (daçlama) divan ədəbiyyatındakı qarşılığı həcvdir.

Taşlama cəmiyyətdəki çatışmayan cəhətləri, ihtehzalı bir şəkildə mövzu edən aşıq şeirləridir. Belə şeirlərdə bir yer və ya bir şəxsin qüsurları yumorlu şəkildə dilə gətirilir. Taşlamanın xüsusi şeir şəkli yoxdur.

Örnək:

*Telli sazdır bunun adı*
*Ne ayet dinler, ne de kadı.*
*Bunu çalan anlar özü,*
*Şeytan bunun neresinde?*

*Abdest alsan, aldın demez,*
*Namaz kılsan, qıldın demez.*
*Kadı kimi haram yemez,*
*Şeytan bunun neresinde.*

*Tut ağacından teknesi,*
*Kireşden bağlı perdesi.*
*Behey insanın teresi,*
*Şeytan bunun neresinde?*

*Dertli kimi sarıksızdır,*
*Ayağı da çarıksızdır.*
*Buynuzu yok, kuyruksuzdur,*
*Şeytan bunun neresinde?* ***(Aşıq Dertli)***

**Termin (Terim):** Elm və sənət anlayışını anladan ifadə. Azərbaycan və Türk ədəbiyyatının müxtəlif sahələrində folklor, klassik ədəbiyyat, təsəvvüf ədəbiyyatı kimi ədəbiyyat bölümlərinə aid yüzlərlə termin mövcuddur.

**Tovhid (Tevhid):** «Tevhid» ərəbcə bir kəlmə olub, «Allahın birliyinə inanma» mənasını ifadə edir. İslam dininin əsası tovhid inancı üzərində bina edilmişdir. Divan və təsəvvüfi xalq ədəbiyyatında Allahın birliyini ifadə edən şeirlərə tovhid deyilir. Orta



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əsrlər ədəbiyyatında şairlər əsərlərini «tovhid» və «münacat»la başlayırdılar.

Divan ədəbiyyatında tovhidlər qəzəl, qəsidə və məsnəvi şəklində qələmə alanırdı.

*Əvvəl o Allahın adı söylənir,*
*Cümlə ibadətin başıdır tevhid*
*Pirim Şeyx Səfidən bizə qalmışdır*
*Sofi qardaşların qanıdır tevhid.* ***(Xətai)***

*Kim ki hayrete daldı,*
*Nura mustağrak oldu.*
*Tevhidi zatı buldu*
*Sen seni bil sen seni.* ***(Hacı Bayrami Veli)***

*Nedur iki cihanda izzet ü can,*
*Ecep – la ilahe illallah.*

*Kime düşse olur said–i ebed*
*Nazarı la ilahe illallah.*

*Doludur arş ü ferş ü kebn ü mekan*
*Haberi la ilahe illallah.*

*Alem ü ademün zuhuri nedir,*
*Mazhar–i la ilahe illallah.*

*Kimyadur ki kalbi halis eder,*
*Cevher–i la ilahe illallah.*

*Açıcak tay olur sicilli– yi vücud*
*Mazhar–ı la ilahe illallah.*
*Li–menil–mülk hütbesine urulur*
*Minberi la ilahe illallah.*

*Gösterir ruha kuri ev edna*
*Rehberi la ilahe illallah.*

*Şamı şirk ü zalam–ı küfri sürer*
*Seher–i la ilahe illallah.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Kıymetinde görür bu alem–i Hak*
*Güheri la ilahe illallah (**Şeyhi**)*

**Tevhid– hane:** Tevhid evi deməkdir. Sufi təriqətlərində işlənən təbirdir. Bəzi təkkələrdə zikir və səma ayinin icra edildiyi yerə "Tevhid–hane" deyilir.

**Təcəlli (Tecelli):** Əyan olmaq, zahir olmaq, görünmə, təzahür etmək mənalarını ifadə edir. Qeybdən gələn və qəlbdə ortaya çıxan nurlara təcəlli deyilir.

Təsəvvüfdə Allahın mütəsəvvüfün qəlbində isim və sifətləriylə görünməsi. Bu hal, mütəsəvvüfün nəfsini arındırmasından sonra həyata keçir. Sufilər təcəllinin müxtəlif biçimlərindən bəhs edirlər. Vəhdəti vücud (varlıq birliyi) sözləri üzərində qurulmuş təsəvvüf anlayışında təcəlli, varlığın müxtəlif mərtəbələrinin ortaya çıxışını dilə gətirir.

Sufilərə görə insanla Allah arasında yetmiş min pərdə (hicab) vardır. Bu pərdələr nəfsin yeddi forması ilə əlaqədardır. Nəfsin hər formasında bir Allah ismi on min pərdəni ortadan qaldırır. Pərdələr qalxdıqca mütəsəvvüf, aləmdəki ilahi sirrləri görməyə başlayır. Gerçəkdə Allah hər an təcəlli etməkdədir. Amma bunu yalnız qəlb aynasını təmiz tutan insanlar görə bilir. Bu nöqteyi–nəzərdən əldə edilən məlumata kəşf deyilir. Kəşf, ilahi sirrlərin, gizli məlumatların açılması, qavranmasıdır.

*Hak təcəlli eyledi Musa üçün.*
*Nə Aristalis ü nə İbn– Sina üçün. (**Nəsimi**)*

*Musaya təcəlli göründü Turdan,*
*Məst olub ağlını şaşırdı sirdən (**Xətai**)*

**Təcnis (Tecnis):** Aşıq ədəbiyyatında bir şeir çeşidi. Yazılı ədəbiyyatda da nümunələri var. Əsas əlaməti şeirdəki qafiyələrin cinaslı olmasıdır.

Azərbaycan və Türk aşıq şeirində yüksək sənətkarlıqla yazılmış təcnis nümunələri mövcuddur. Təcnis heca vəznli bütün şeir şəkillərində yazıla bilər. Azərbaycan aşıq ədəbiyyatında təcnisin qoşma təcnis, gəraylı təcnis, bayatı təcnis, dodaqdəyməz təcnis,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

cığalı təcnis, ayaqlı təcnis və ya müstəzad təcnis, əvvəl-axır təcnis kimi çeşidli örnəkləri vardır.

Qoşma təcnis:

*Dost bağında bülbül qonmuş a dala,*
*Nazlı dilbər zülfün töküb a dala.*
*Mərd istər ki, çörək verə ad ala,*
*Namərd gözlər mərd iyidin sinisin.* ***(Aşıq Ələsgər)***

*Kitabda oxunan sina yaxşıdır,*
*Seyraqub gərdəni sına yaxşıdır.*
*Mən dedim öpməyə sinə yaxşıdır,*
*Könül ha yalvarır buxağından öp.*
***(Abbas Tufarqanlı)***

Gəraylı təcnis:

*Madər dedim əzəlimdən,*
*Kürümə də, Araza da.*
*Cüda düşdü əlim əldən,*
*Ara kəsdi arazada.(****Aşiq Alı****)*

Bayatı təcnis:

*Aşıq Qarabağlıdır*
*Xalın qara bağlıdır.*
*Nə gedən var, nə gələn.*
*Yollar qara bağlıdır.(****Sarı Aşıq****)*

Dodaqdəyməz təcnis:

*Qışda dağlar ağ geyinər, yaz qara,*
*Sağ dəstində ağ kağıza yaz qara.*
*Əsər yellər, qəhr eyləyər yaz qara,*
*Daşar çaylar, gələr daşlar çat ha çat.* ***(Aşıq Ələsgər)***

Cığalı təcnis:

*Ələsgərəm mən də nişana qoydum,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Təmiz ad saxladım, nişana qoydum.*
*Mən aşığam nişana,*
*Zülf üzündə nişana.*
*Sinəmə dağ çəkilib*
*Qaldı əldə nişana.*

*Başımı qarşına nişana qoydum,*
*Əsirgəmə at oxların dal dala.* ***(Aşıq Ələsgər)***

Ayaqlı təcnis:

*Bir xoş günü əvəz min aya billəm,*
*Boyun nəqqaş çəkib minaya billəm.*
*Pirim dərsin verib min aya billəm,*
*Bir sözünə min söz deyim dəsbədəs*
*Sən eylə həvəs.****(Aşıq Ələsgər)***

Əvvəl– axır təcnis:

(Belə təcnislərdə misranın ilk hərfi nə isə son hərfə qədər bütün təcnis boyu eyni hərflə davam edər)

*Nə yaxşı sən bizə gəlirsən canan,*
*Neçün gəldin belə hiyləbazinən.*
*Nardan– nara düşdü bu seyran,*
*Necə tutar ola qarğa bazinən.*

*Nazlı yarım heç doymuram bu səndən,*
*Noğul, nabat şirin olmaz bu səndən.*
*Nökər Cümə çox çəkinir bu səndən,*
*Namərdlərin dilin vursun baz ilan.* ***(Molla Cümə)***

Türk aşıq şeirindən təcnis örnəkləri:

*Derdi– dilim arttı yarımın derdim,*
*Seksende, doksanda yüzde seyr eyle.*
*Qonça güllərini yarımın derdim,*
*Gerdanda, dudakta, yüzde seyr eyle.*
*Sel gelince yıkılırmış yar dedim,*
*Al hanceri vur sineye yar dedim.*
*Yeter cev rü cəfa etme yar dedim,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Cism ü bedenimi yüz de seyr eyle.*

*Çeşmiya, bin qazel yazdım divane,*
*Bel bağladım yare,durdum divane.*
*Dedi: var yıkıl git behey divane,*
*Aşkın deryasında yüz de seyr eyle.* **(Çeşmiye)**

*Yakdı beni aşk oduna o yanmaz,*
*Ya ne dersin merhametsiz o yare.*
*Seher oldu fəryadımdan oyanmaz,*
*Umarım ki, öte bülbül o yare.*

*Ben aşığım el köküste, yüz yerdə,*
*Gel, efendim, gel sinemi yüz yerdə.*
*Yaralarım göz– göz oldu yüz yerde,*
*Demez yarım ne yaradır o yare.*

*Urdu beni zalım kanlı yaramaz,*
*Gayet çoktur deyil benim yaram az.*
*Bana yardan qayri cerrah yaramaz,*
*Umarım ki, yene bağrım o yara.* **(Aşıq Gevheri)**

**Təxəllüs (Mahlas):** Əsli ərəbcə bir kəlmə olan təxəllüs şairlərin özləri üçün götürdükləri ikinci ad, yəni əsl adının əvəzində yazdığı taxma ad deməkdir. Əslində “məxləs” və “təxəllüs” ərəbcə eyni mənanı ifadə edir. Yəni hər ikisi təxəllüsdür. Türk ədəbi dilində təxəllüs mənasında “mahlas” işlədilir.

Azərbaycan və Türk divan və aşıq şeirində təxəllüs götürmək bir ənənə olmuşdur. İslamiyyətdən sonra bütün divan şairləri və aşıqlarının şeirlərində təxəllüs çox yayqın olmuşdur.

Aşıqlar təxəllüsü (məxləsı) aşağıdakı yollarla almışlar.

1. Özü təxəllüs seçir. Aşıq adını, soyadını və ya özü seçdiyi bir adı təxəllüs götürür. Məs: Aşıq Veysəl Şatıroğlu, Dərtli, Aşıq İbrahim, Aşıq Qurbani

2. Bir ustad aşıq, pir və ya mürşiddin aşığa təxəllüs (mahlas) verməsi. Məs: Kəmali, Dəryami və s.

3. Röyasında badə içərkən təxəllüs (mahlas) alma. Seyrani, Hicrani, Zihni və s.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Mahlasım Hicranidir, bu da pirimin şanıdır.* ***(Aşıq Hicrani)***

4. Xalq arasında aşığa verilən təxəllüs: Ağ Aşıq, Sarı Aşıq, Göyçəli Aşıq Ələsgər, Tokatlı Nuri, Ərzurumlu Əmrah və s.

**Tekellüm. (bax: Deyişmə):** Türk aşıq şeirində bir termin. Aşıq deyişmələrində aşıqların söylədikləri ifadə.

Ərəbcə bir kəlmə olan təkəllüm "danışma", "söyləmə" deməkdir.

"Saz şairlərinin şeir və musiqi bölümlərində şeir söyləmələrinə xalq arasında təkərləmə deyilir. Aşıqlar isə buna təkəllüm deyirlər". (Mustafa Nihat Özön)

Türk aşıqlıq sənətində təkəllüm qarşılaşma, atışma, deyişmə kimi adlarla da ifadə edilir.

Aşıq deyişmələrinin ən çox hünər göstərən mərhələsi təkəllüm hesab edilir. Prof. İmay Günay bu bölümü söhbət və ya giriş, öyütləmə, bağlama, müəmma, sicilləmə, yalanlama, taşlama, tükətməcə, uğurlama şəklində səkkiz bölümə ayırır.

1. Söhbət və ya giriş bölümündə aşıqlıq ənənəsinə görə məclisdəki ən yaşlı və ya ev sahibi vəziyyətində olan aşıq "düz ayaq" və ya "geniş ayaq" deyilən qafiyə ilə kəlmələrin bol olduğu bir ayaqla (qafiyə ilə) deyişməyə başlar.
2. Öyüdləmə. Bu mərhələdə iki aşıq bir-birinə nəsihətlə yol göstərir və təcrübələrini bir-birinə anladırlar.
3. Bağlama müəmma bölümündə iki aşıq bir–birlərini dini, təsəvvüfi və islami mənqibələr mövzusunda imtahan edərlər.
4. Sicilləmə. Bu bölümdə aşıqlardan biri bacarıqsız olduğu halda onu mat etmək üçün soyunu, şəxsiyyətini tənqid edər, ona toxunan sözlər söylər.
5. Yalanlama bölümündə aşıqlar bir-birilə paylaşaraq uyğun qoşma dördlükləri oxuyarlar.
6. Taşlama. Bu bölümdə hər iki aşıq cəmiyyətin, bir yerin və ya bir-birlərinin qusurlarını, eyiblərini, zəif və çirkin yönlərini dilə gətirirlər.
7. Tükətməcə bölümündə aşıqlar zor ayaqlarla (qafiyələrlə) birlikdə dodaqdəyməzlər kimi çətin şeirlərlə deyişirlər.
8. Uğurlama–mədhiyyə də deyilən bu bölümdə aşıqlar bir-birlərini rahatlamaq, xətrini almaq məqsədilə gözəlləmələr,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qoşmalar söyləyərək, sonunda bir qoşmanın dördlüklərini paylaşaraq və biri digərini mədh edərək uğurlayırlar.(127, 47-60)

Türk aşıq sənətində çox vaxt aşıq deyişməsi, aşıq qarşılamaları adı ilə də bilinən təkəllüm Azərbaycan aşıq sənətində aşıq deyişmələri adı ilə məlumdur.

Prof. Vaqif Vəliyev deyişməni aşağıdakı mərhələlərə bölür:

1. Dəvət mərhələsi. Bu mərhələdə aşıq el-obada məhşur olan bir neçə aşıqla deyişib onları məğlub etdiyindən, daha görkəmli aşıqlarla deyişmək arzusunda olduğundan danışır.

2. Deyişməyə dəvət olan aşığın cavabı. Qalib aşıq "Aşıqlıq elmindən xəbərdar isən" və ya "Əgər aşıq isən bu meydana gəl" ifadələri ilə başqa aşığı aşıqlıq qabiliyyətini sınamağa dəvət edir. Bu mərhələ dəvət alan aşığın həmin çağrışa münasibətindən, daha doğrusu, cavabından asılı olaraq gerçəkləşir.

3. Hərbə-zorba mərhələsi. Qarşılaşan aşıqlar bir-birinə birinci növbədə mənəvi zərbə vurmaq, psixoloji təsir göstərmək üçün özləri haqqında, aşıqlıq sənətinə vaqif olmaları haqqından, sənət aləmində etdikləri müvəffəqiyyətlərdən danışırlar. İlk dəfə hərbə-zorbaya başlayan aşıq hansı rədiflə şeir desə, ona cavab verən sənətkar da həmin rədifə uyğun qafiyə tapmalı, şeirin forma və bölgülərinə sadiq qalmalıdır. Hərbə-zorbalarda yumşaq yumor, qarşıdakı aşığı sarsıtmaq üçün tutarlı həyati ifadələr, ənənəvi təşbih və mübaliğələrdən istifadə olunur. Nadir hallarda hərbə-zorbalar həcv xarakteri daşıyır.

Çox hallarda aşıqların bu hərbə-zorba "döyüşü" sülhlə nəticələnir. Hərbə-zorbada işlətdikləri "vuraram", "dağıdaram", "alaram caynağıma ataram yerə", "parça-parça olarsan" ifadələri yalnız məcazi məna daşıyan sözlər kimi qəbul edilir.

4. Qıfılbənd mərhələsi. Aşıqlar deyişmə zamanı bir-birinə üstün gəldikdə qıfılbəndə keçirlər. Qıfılbəndə, bağlamaya müraciət edərək dövrün fəlsəfəsini, ayrı-ayrı hadisələrə münasibəti əks etdirirlər. Qarşıdakı aşığın qıfılbənd cavabı hər iki sənətkarın sözləri seçmə və mənalandırma ustalığıdır.(131, 134-150)

**Təkkə (Tekke) (bax: Zaviyə):** Təriqətlərin fəaliyyət məkanı olaraq qəbul edilən təkkə və zaviyələr dərviş və sufilərin yığışıb söhbət və zikr etdikləri yerlərdir. Bu məkanlar islam dünya-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sında dərgah, zaviyə, təkkə, xanəgah, ribat, asitanə kimi müxtəlif adlar altında gəlib bizə çatmışdır. Zikr məclislərində bəstəli olaraq ilahilər oxunduğu üçün şeir və musiqi dünyası təkkələrlə yaxından əlaqəli idi. Başqa sözlə, təkkələr, dini və ictimai funksiyası ilə yanaşı, ədəbiyyat və incəsənətin muhafizə və inkişafında rol oynamışdır.

**Təkkə ədəbiyyatı:** Türkiyədə dini təsavvüfi xalq ədəbiyyatına verilən addır. Təsəvvüf düşüncələrini əks etdirən zəngin bir ədəbiyyat. Bu ədəbiyyata təsəvvüfi xalq ədəbiyyatı da deyilir. Təkkə ədəbiyyatı xalqa yaxın bir ədəbiyyatdır. Bu ədəbiyyatda dinin kəskin qadağaları, cəhənnəm qorxusu deyil, böyük bir ilham çeşməsi olan Allah sevgisi, insan sevgisi öz əksini tapmışdır.

Təkkə ədəbiyyatı milli dilin zənginləşməsi və yayılmasında böyük rol oynamışdır. Bu ədəbiyyat dilin təmizliyini artırır və xalqın danışıq dili ilə səsləşir.

**Təkkə şairləri:** Öz arzu və istəklərini, ilahi həyəcanlarını təsəvvüfi bir vəchlə ifadə edən şairlər. Təkkə şairləri adlanan şairlər yüksək mədəniyyətə sahib olmaqla bərabər xalq arasında yaşayan, xalqın içindən çıxan şairlərdir. Türkcənin inkişafında böyük xidmətləri olmuşdur.

Türkiyədə yetişən ünlü təkkə şairləri: Yunus Əmrə, Aşıq Paşa, Said Əmrə, İbrahim Gülşəni, Zəlili, Gülşəhri, Əflaki Dədə, Dədəmoğlu, Nizamoğlu, Kayqusuz Abdal, Pir Sultan Abdal, Kul Hüseyn, Kul Himmət, Hasan Dədə, Kazak Abdal, Azmi Baba, Muhiddin Abdal, Təslim Abdal, Usuli, Ümmi Sinan və b.

**Təkkə şeiri:** Təkkə aşıqlarının Allah sevgisi və axirət duyğularını dilə gətirən şeirləri. Belə şeirlər dini təsəvvüfi ədəbiyyatın məhsullarıdır.

Təkkə şeirləri dini təsəvvüfi xalq şeiri, divan ədəbiyyatı və xalq ədəbiyyatını bir-birinə yaxınlaşdıran cəhətləri ilə həm divan ədəbiyyatı şairlərini, həm də saz şairlərini bir-birinə yaxınlaşdıran bir körpü olmuşdur.

Təkkə şeirinin ən əsas xüsusiyyəti aşıq şeirinə nisbətdə daha çox fəlsəfi olması, divan şeirinə nisbətdə daha çox milli



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olması hər ikisi ilə müqayisədə daha təbii olmasıdır. Dini təsəvvüfi xalq şeiri ölçü, rədif, qafiyə, şəkil xüsusiyyətləri, dil və ifadə özəllikləri baxımından islamiyyətdən öncəki türk ədəbiyyatının təsiri altında qalaraq, duyğu və düşüncələrini islamiyyətin ışığı altında təsəvvüf düşüncələrinin zənginliyi ilə birləşdirilmişdir. (82, 345)

Təkkə şeirinin özünəməxsus türləri (şəkilləri) yaranmışdır: İlahi, Nəfəs, Ayin, Tapuğ, Durak, Cumhur, Hikmət, Şatiyə, Tevhid, Nutuk, Deme, Duvaz və s.

**Təkrir (Takrir):** Şeirdə misraların, nəsrdə isə cümlələrin başında gələn eyni söz və ifadələrin təkrarı ilə meydana gələn bədii ifadə tərzi. Bəzi Azərbaycan terminoloji lüğətlərində anafora deyə qeyd olunur. Azərbaycan və Türk aşıq ədəbiyyatında və klassik ədəbiyyatda təkririn ən gözəl örnəkləri mövcuddur.

Azərbaycan aşıq şeirindən nümunələr:

*Adam var çölləri gəzər kəllahı,*
*Adam var anlamaz gözəl Allahı.*
*Adam var ki, bilməz o bismillahı,*
*Adam var ki, yol ərkanı bəyənməz.* ***(Tufarqanlı Abbas)***
*Hərdən can deyirsən can eşidirsən,*
*Hərdən haqlı sözü yan eşidirsən.*
*Hərdən pis xəyalı şən eşidirsən,*
*Hərdən təzələrsən yaranı könlüm.****(Aşıq Niftulla)***

Türk aşıq şeirindən nümunələr:

*Adam var gösterir derd belasını,*
*Adam var feth eder Kan Kalesini.*
*Adam var getirir mübtelasını,*
*Adam var hızlıdan kaçmayı bilir.* ***(Aşıq Sümmani)***

*Kimine at vermiş eştirir gezer,*
*Kimine aşk vermiş coşturur gezer.*
*Kiminə mal vermiş koşturur gezer,*
*Sanki beni zəngin etmək zor kibi.* ***(Aşıq Veysəl)***

**Tərəkəmə (Terekeme):** Azərbaycan ədəbiyyatında soylarla bağlı ifadə edilən termin. Azərbaycanda "tərəkəmə" adı ilə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məhşur olan bir oyun havası da vardır. Türkiyədə də tərəkəmə soylarla bağlı olaraq söylənir. Türkiyənin İqdır, Qars, Ərzurum kimi bölgələrində tərəkəmə kimi bilinən soylar yaşamaqdadır.

"Tərəkəmə" sözü ərəbcə "tərakimə" sözündən götürülüb, hərfi mənada "türkmənlər" deməkdir. Mənbələr göstərir ki, hələ orta əsrlərdə (XIII– XIVəsrlər) Xəzərin şərq sahilindəki Azərbaycan ərazisinə məhz türkmənlər adı altında çox saylı türk tayfaları gəlmişdi. Köçəri maldarlıqla məşqul olan bu tayfalar burada məskunlaşaraq xalq danışıq dilinin inkişaf xüsusiyyətlərinə görə tədricən "tərəkəmə" adını almışlar. Hazırda Mildüzü ərazisində əhalinin əksəriyyəti xalq arasında "tərəkəmə" adlandırılmaqda davam edir. Bu etnonim xalq ədəbiyyatının müxtəlif sahələrində, o cümlədən yazılı abidələrimizdə və "Tərəkəmə" adlı oyun havasında yaşamaqdadır. Tərəkəmələr igid oğul və qızları ilə, dostluğa səxavəti, qonaqpərvərliyi ilə ad–san çıxarmışlar (137, 61-62).

**Təriqət (Tarikat):** Təriqət (Tarik, Tarika) mənşəcə ərəb sözü olub yol anlamındadır. Allaha yaxınlaşmaq üçün gedilən yolun görünən tərəfi – yəni təriqət yolu. Təşəkkülünü tamamlayan və sistemləşən təsəvvüf XI/XII əsrin ikinci yarısından başlayaraq təşkilatlanma prosesinə girdi. Təsəvvüfün qayda və metodlarını bəzi fərqlərlə yenidən müəyyənləşdirən mütəsəvvüflər, ümumiyyətlə öz adları ilə tanınan təriqətlər qurdular. Təsəvvüfün daha təsirli olmasını, xalq arasında daha sürətli bir şəkildə yayılmasını təmin edən təriqətlər varlıqlarını bütün islam dünyasında günümüzə qədər qoruya bildilər.

Təriqət qurucusu olan başlıca sufilər Əbdülqadir Gilani (v.561/ 1165, qadirilik), Əhməd Rifai (v.578/1182, rifailik), Nəcməddin Kübra (v. 618/1221, kübrəvilik), Şəhabəddin Sührəverdi (v. 632/1235, sührəverdilik), Əbul–Həsən əş–Şazili (v. 632/1235, şazililik), Mövlana Cəlaləddin Rumi (v.672/1273, mövləvilik), Bəhaəddin Nəqşbəndi (v. 791/1388, nəqşibəndilik), Hacı Bayram Vəli (v. 833/1429, bayramilik), Ömər Xəlvətidir (v.750/1349, xəlvətilik).

Lüğəvi mənası «yol» anlamına gələn «təriqət» təsəvvüfi mənada Allaha yetişmək üçün riayət olunan və bir sıra qayda və ayinləri olan yol deməkdir. Sufilər təsəvvüfün elmi-hal, digər



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

elmlərin isə elmi-qal olduğunu bildirirlər. Elmi-qal zahir bilgisi olub ağıla və nəqlə söykənir. Elmi-hal isə batın bilgisi olub zəhmətlə əldə edilə bilməyən, qəlbə gələn bilgini ifadə edir. Sufilər bu baxımdan təsəvvüfün qaynaqlarından olan "Quran"ı anlama və şərh etmədə təvil metodundan istifadə edir və özlərini ancaq hal əhli–elm–lədün sahibi insanların anlaya biləcəklərini bildirirlər.

Təsəvvüf strukturu içində yer alan təriqətlərin hər birinin özünəməxsus ədəb və ərkanı vardır. Görünüş, qiyafə, şeyxə bağlılıq, tac (papaq) və xirqə kimi. Bununla yanaşı, təriqətlərin bəzi ortaq istiqamətləri də vardır.

Təriqət şəriətdən, həqiqətə gedən yoldur. Ancaq bu yolun «Şeyx və mürşid deyilən Hz. Peyğəmbərə (s.a.v.) uzanan qırılmaz silsiləyə sahib bir rəhbəri olmalıdır. Təriqətin məzhəbdən fərqi təriqətin təsəvvüfi, məzhəbin fiqhi və etiqadi olmasındadır. Təriqət mənsubları həm də bir məzhəbə mənsubdurlar. Necə ki, sünni təriqətlər sünni məzhəblərə, şiə təriqətlər şiə məzhəbinə bağlıdır.

Müsəlman aləmində ilk olaraq qurulan təriqətlər arasında azərbaycanlı sufilərin əsasını qoyduqları təriqətlər daha aparıcı mövqedədir. Belə ki, Azərbaycan bu dövrdən etibarən təriqətlər mərkəzi halına gəlmişdi. Bir təsəvvüf hərəkatı olan əxiliyin Anadolu qolu, təriqətlərdən sührəverdilik, hürifilik, zahidilik, səfəvilik, xəlvətilik və xəlvətiliyin qolları, olan rövşənilik və gülşənilik təriqətləri burada doğulmuş və buradan da bütün islam aləminə yayılmışdır. Yenə yasəvilik, nəqşbəndilik kimi təriqətlər də Azərbaycanda geniş yayılmışdır. Bu təriqətlər araşdırıldığı zaman görüləcək ki, islam dünyasında yayılmış təriqətlərin və sufi cərəyanlarının bir neçəsi Azərbaycan mənşəlidir.

Təkkə və saz şairlərinin dilində «təriqət» anlayışı.

*Şeiriet, tarikat yoldur varana*
*Hakikat, marifet ondan içeri.* ***(Yunus Əmrə)***

*Şəriət, təriqət, mərifət haqdır,*
*Həqiqət odu var ondan içəri.* ***(Xətai)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Evvel şeiriatın şeirtin unutma,*
*Tarikatda rızasız bir iş tutma.*
*Gel, Esiri, marifeti yad etme*
*Hakikatte külli kemal oldu.* ***(Hekimanlı Esiri)***

*Evvel bu dergahtan kısmet,*
*Alır da var, almaz da var.*
*Tarikate kadem basıp,*
*Gelirde var, gelmez de var.****(Pir Sultan Abdal)***
*Ələsgər haq sözün isbatın verə,*
*Mələklər bu sözü yaza dəftərə.*
*Hər yanı istəsə, baxanda görə*
*Təriqətdə bu sevdalı gərəkdir.****(Aşıq Ələsgər)***

**Tərzlər:** Aşıq sənətində sənətkarlıq, ifaçılıqla əlaqədar işlənən termin.

Osman Sarıvəlli aşıq sənətindəki "tərz" və "tərzlər"in mahiyyətini belə açıqlayır:

1. Tərzi-hərəkət. (Aşıq mahnıların, xüsusən dastanların ifasında öz hərəkətlərini ayr-ayrı səhnələrə, epizodlara görə qurmalı, uyğunlaşdırmalıdır.)

2. Tərzi-ifadə. (Aşıq mahnıların, dastanların mövzularına, səhnələrə münasib hava (musiqi), ahəng seçməlidir).

3. Tərzi-zinət. (Buna aşıqlar "bəzək" yaxud "xal" da deyirlər. "Bəzək" sözlər yerində işləndiyi zaman mahnılara şirinlik gətirir. Lakin bəzən çalınan hava ilə oxunan söz arasında müəyyən uyğunsuzluk duyulmasın deyə "körpə quzu", "dəli ceyran", "alagöz maral", "dərdin alım", "qurban olum", kimi "bəzək" sözlərdən istifadə edirlər. (Belə ifadələr haqqında xalqın bir kəlamı var: "Aşığın sözü qurtaranda neynim-neynim deyər")

Gözəlləmələrə, lirik şeirlərə, mahnılara münasib "xallar", "bəzək" sözlər vuruş səhnələrində, davanın-dalaşın qızğın yerində (deyək ki, "Cəngi", "Misri" havaları çalınıb oxunduğu zaman) istifadə edilsə, gülüş doğura bilər. Mübarizə səhnələrinə ayrı, münasib "xallar", "bəzək" sözlər seçmək gərəkdir. (102, 55-56)

**Təsəvvüf (Tasavvuf):** Sufilik məsləki. Şərqdə dini ictimai fəlsəfi cərəyanlardan biri. Sufi və mütəsəvvüflərin Haqqa



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çatma yollarına verdikləri ad. Təsəvvüf islam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlərin adıdır. Bu fəlsəfi-dini təlimdə insanın nəfsi ilə mücadilə edərək onu islah və tərbiyə etməsi, öz varlığından və dünyadan keçərək Allaha qovuşması məqsədi izlənilir. Bəzi sufilərə görə, təsəvvüf sülhü olmayan bir savaş, nəfsə qul olmamaq, şeytana alçalmamaq, nəfsin nəsibini tərk edərək Haqqın nəsibini axtarmaq, zahirdən uzaqlaşıb batinə yaxınlaşmaq, əziyyətləri gizləmək, comərdlik, zəriflik və təmizlik olaraq dəyərləndirilmişdir

Bəşəriyyət tarixi ilə birlikdə düşünə biləcəyimiz mövzulardan biri də, şübhəsiz, özündə ilahi bilgi və sirlərin olduğu mistik düşüncədir. Gizlilik anlamını ehtiva edən latın mənşəli bu kəlmə tədricən fəlsəfi və dini mahiyyət almışdır. Müəyyən mənada gizlilik əsasına dayanan mistisizmdə maddiliyə qarşı ruhani (zöhd) və seyri-süluk kimi təcrübi bir sıra hallar olduğu görünür. Mistik təcrübənin və mistik anlayışın islam, xristian və iudizm dünyası, yunan düşüncəsi, brahmanizm, buddizm və manixeizmdən fərqli inikasları olduğu söylənilir.

«Sufi» və «təsəvvüf» kəlməsinin hansı kökdən törəmiş olduğu məsələsi ilə əlaqədar təqdqiqatçılar müxtəlif mülahizələr söyləmişlər. Təsəvvüf kəlməsinin saflıq, duruluq, bərraqlıq anlamına gələn «safv» kökündən, «bəni-suffə» qəbiləsindən, «suffə» əshabından, bir çöl bitkisi olan «sufanə»dən və yun anlamına gələn ərəbcə «suf» kökündən, yunanca hikmət anlamına gələn «sophia»dan törədiyi irəli sürülmüşdür. Bu mövzudakı ümumi qənaət kəlmənin «yun» anlamındakı «suf» kökündən törədiyidir və Seyid Yəhya da bunu qəbul edir. Peyğəmbərlərin və zöhd əhlinin qürur və mənəmliyin nişanəsi sayılan yumşaq ipək paltarlar yerinə, əksəriyyətlə yundan tikilmiş cod paltarlar geyməlləri zöhd və təqva nişanəsi olaraq dəyərləndirilmişdir. Bu anlayış tabiin və onları təqib edən nəsillər tərəfindən da davam etdirilmişdir.

Sufilər və müsəlman müəlliflərinin əksəriyyətinə görə, təsəvvüfün qaynağı "Quran" və hədislərdir. İslam mistisizmi deyə biləcəyimiz təsəvvüfün Hz. Peyğəmbər (s.a.v.) dövründə adı olmasa da, məzmunu mövcud olmuşdur. Çünki, "Quran"da haqqında bəhs olunan təqva, zikr, tövbə, riza kimi qəlbə aid əməllərin necə gerçəkləşəcəyini "Quran" və şəriətdən alıb,



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tətbiqi olaraq öyrədən zahidlərdir, sufilərdir. Təsəvvüfün Hz. Məhəmməd (s.a.v.) və səhabələr zamanındakı adı zöhddür. Axirəti dünyadan daha üstün tutmağa, maddə və əşyaya qarşı hal nümayiş etdirməyə islam təsəvvüfündə zöhd deyilmişdir. Bəzi sufilər zöhdü, lüzumlu olanı, dünyanı və pulu tərk etmək, əldə olmayan şeyin könüldə də olmaması, azlıq, xəlvət və aclıq olaraq ifadə etmişlər. Zöhd təsəvvüfün təməlidir, ibadət isə zöhdün təbii bir nəticəsidur. İbadətlərin məqsədi nəfsi tənzimləyərək Allaha yaxınlaşmaqdır. Təsəvvüf ilə zöhd arasındakı münasibət də bu baxımdan önəmlidir. Belə ki, zöhddə qorxu, təsəvvüfdə eşq ünsürünün aparıcı mövqedə olması görünür.

Təsəvvüfün tək bir şəkli olduğu deyilə bilməz. Quran və şəriətə sıx şəkildə bağlı, tamamilə şəriətə müvafiq təsəvvüf anlayışı ilə yanaşı, şəriət xaricində əsaslara dayanan batini–ifratçı sufi anlayışları da islam dünyasında olduqca geniş yayılmışdır. Bunların bir çoxunda başqa din və fəlsəfələrin təsirlərini müxtəlif dərəcələrdə görmək mümkündür.

Təsəvvüf müstəqil bir fəlsəfi təlim olaraq ilk dəfə Bəsrədə zühur etmişdir. İlk öncə sufi adını alan Əbu Haşim əs–Sufidir (v.150/767). İlk təkkə də Suriyada Rəml şəhrindəki Əbu Haşim təkkəsidir. Əbu Haşim ilə başlayan təsəvvüfi hərəkatlar qısa zamanda digər islam ölkələrinə də yayıldı.

İslamın ilk illərindən etibarən sufilik Azərbaycanda mövcud olmuşdur. Əvvəla Hz. Məhəmməd (a.s.v.) dövründə yaşamış təsəvvüf tarixi üçün mühüm əhəmmiyyətə malik bir şəxs olan Veysəl Qaraninin (v.657) qəbrinin bəzi mənbələrdə Azərbaycan ərazisində olduğu söylənilir.

«Kitabi–Dədə Qorqud» dastanında Burla Xatunun Salur Qazana söylədiyi:

*Quru quru çaylara su saldım*
*Qara donlu dərvişlərə nəzir verdim*.

misralarında olduğu kimi ən qədim ədəbi mətnlərimizdə də sufilərdən bəhs edildiyi görülür.

Hər yerdə rast gəlinən, əsrlər keçdiyi halda adı-sanı unudulsa da, yaddaşlarda qalan və böyük hörmətə layiq olan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

minlərlə «pir» qəbri və məqamı da Azərbaycanda islamın inkişafında sufilərin mövqeyini göstərən ən böyük dəlillərdir.

III/IX əsrdən başlayaraq təsəvvüf sistemləşmə mərhələsinə daxil oldu. Bu sistemləşmə zöhd dövrünə nisbətən böyük fərqlilikləri də özü ilə bərabər gətirdi. Bir tərəfdən, təsəvvüfün prinsip, qayda və metodları müəyyənləşdirilərkən, digər tərəfdən də, sufi düşüncəsinin yaşandığı müəssisələr (təkkələr) qurulmağa başlandı.

İlk təriqətin ortaya çıxdığı VI/XII əsrə qədər olan bu dövrdə təsəvvüf geniş ölçüdə təcrübəyə əsaslanan, nəzəriyyələrə çox yer verməyən, sadə, lakin dərin və anlamlı bir mənəvi həyat tərzi olaraq dəyərləndirilə bilər. Bayəzid Bistami, Cüneyd Bağdadi kimi zöhd dövrünün məşhur sufilərinin yaratdığı anlayışın bu dövrdə Qəzali tərəfindən sistemləşdirildiyini görürük. Qəzalinin fikri həyatının formalaşmasında üç ünsürün önəmli təsiri olmuşdur. Bunlar filosofları küfrdə, batıniliyi haqq yolundan azmada ittiham etməklə, fəqihlər və kəlamçıları da mistik ünsürlərə yer verməmələri səbəbi ilə tənqid etmişdirlər. Qəzali məzhəb çəkişmələrinin yaşandığı bir mühitdə kəlam, fiqh və təsəvvüf tərkibi ilə sünni sufiliyini sistemləşdirməyə çalışmışdır.

Qəzalidən sonra yetişən və Qəzalinin kəlam, fiqh və təsəvvüfü birləşdirməsinin müqabilində təsəvvüfü fəlsəfə ilə birləşdirərək fəlsəfi təsəvvüfü quran ibn Ərəbi də təsəvvuf tarixində önəmli bir şəxsiyyətdir. Görüşləri və izahları bir çox tənqidlərə məruz qalan ibn Ərəbinin düşüncə sisteminin əsası vəhdəti-vücuda dayanır. Bu düşüncəsini insan, eşq və həqiqəti–Məhəmmədiyyə ilə kamilləşdirən ibn Ərəbiyə görə Allahın tanınması mövzusuna ağıl və fəlsəfə kifayət deyildir, Allahı tanımanın əsl rəhbəri eşqdir. İbn Ərəbinin vəhdət anlayışı əsrlərlə davam edən təsəvvüfi ənənənin də təməlini qoymuşdur.

Varlıq anlayışı təsəvvüfün xaricindəki münasibətlərdə, hər şeyin öz varlığı ilə qaim olması, maddə olması və bunu da Allahın yaratması əsasına dayanmaqdadır. Təsəvvüfün varlıq anlayışında isə ibn Ərəbinin təmsil etdiyi görüş baxımından həqiqətdə mövcüd olan heç bir şeyin əslində mövcüd olmadığı, Allahın mövcüd olan maddələrdə adları və sifətləri ilə təcəlli etdiyi, yəni cəmal və cəlal sifətlərinin göründüyü əsas olaraq qəbul edilmişdir. İbn Ərəbinin bu görüşləri ilə ra-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

zılaşmayan bəzi mütəsəvvüflərə görə isə, həqiqətdə var kimi görünən maddələr əslində yoxdur. Bunların hamısı Allahın o maddədə təcəllisindən ibarətdir. Zahidlər və sufilər dövründə yazılmış müxtəlif risalə və kitablarda bu cür görüşlərin mübahisə doğurduğu *(«Fütuhatül–Məkkiyyə», «Füsusül–hikəm», «Əvarifül–məarif», «Məntiqüt–teyr», «Məsnəvi» və s.)* və bu əsərlərin təsəvvüfün inkişaf prosesində müəyyən bir boşluğu doldurduğu söylənilə bilər.

İbn Ərəbinin varlıq fəlsəfəsinin təsiri Seyid Yəhyada və daha sonra gələn xəlvəti şeyxlərində açıqca görülür. S.Yəhya *«Rümuz əl–işarət»* əsərində *«Nə deyim ki, hər şey özüdür. Əvvəl və axır dönən iki nöqtədir. Vücudun hər iki dairəsi dönər. Varlığının əvvəli yoxdur, yoxluq onda görülməz. Onun zatının pərdəsi Onun sifətidir. Onun sifətinin pərdəsi Onun əfalıdır.»* deyərək vəhdəti-vücud düşüncəsinə sahib olduğunu ifadə etmişdir. Yenə başqa bir yerdə də *«nə deyim, zahir və batin ondan başqa yox»* şəklindəki ifadələri ilə bu anlayışını aşkar etmişdir. Bakuvinin yetirməsi Dədə Ömər Rövşəni təsəvvüfü belə açıqlamışdır.

*Təsəvvüf qəlbi Həqqə bağlamaqdır,*
*Ürəyin eşq oduyla dağlamaqdır.*
*Təsəvvüf hüsni–xülq ilə ədəbdir,*
*Vəli hüsni–ədəb ətayi–Rəbdir.*
*Təsəvvüf bilmədir ətvari–qəlbi,*
*Əridib qoymaya qəlbində qəlbi.*
*Təsəvvüf yar olub, bar olmamaqdur,*
*Güli–gülzar olub, xar olmamaqdur.*
*Cahanun şahı Abdullah Ənsar*
*Demiş: yar ol, vəli bar olma zinhar.*
*Düşübən eşq oduna bitəkəllüf,*
*Yanub külli–kül olmaqdur təsəvvüf.*
*Yanar bir şəm'dür Həqdən təsəvvüf,*
*Söynməz deməsilə min kərən püf.*
*Cəme'i xəlqi bir görüb, təsəvvüf,*
*Deməməkdir eyüyə, yavuzə tüf.*
*Yanar bir nurdur dildə təsəvvüf,*
*Yanar rişü buruti hər ki der püf.*
*Iradətdir demiş bə'zi təsəvvüf,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Deməyüb, şeyxinə ustaduna uf.*
*Demiş bir uğramış fəthü fütuhə*
*Təsəvvüf bəzli–nəfğə, bəzli– ruhə.*
*Kəramət satmamaqlıqdır təsəvvüf,*
*Həqin içində etməyib təsərrüf.*
*Vəfa göstərmədür manəndi Yusif,*
*Qənimət bilmədir vəqti təsəvvüf.*
*Keçən ömrü üçün edib təəssüf,*
*Cəfa edən kimsənəyçün tələttüf.*
*Əbubəkr Məhəmməd der təsəvvüf,*
*Təərrüfdür, təərrüfdür, təərrüf.*

**Təsəvvüf ədəbiyyatı (Tasavvuf edebiyatı):** Təsəvvüflə bağlı mövzuları əhatə edən ədəbiyyat.

Bu ədəbiyyat iki qola ayrılır:

1. Təkkə ədəbiyatı və ya təsəvvüfi xalq ədəbiyyatı.
2. Təsəvvüf ədəbiyyatı.

A.S.Levent ədəbi əsərləri mövzularına görə təsnif edərkən təsəvvüf ədəbiyyatına aid əsərləri dörd bölməyə ayırmışdır:

a. Təsəvvüf nəşvəsi içində yazılmış təkkə şeirləri: ilahilər, nəfəslər, nitqlər, dövriyyələr;

b. Təsəvvüfi təriqətlərin əsasları və «ədəb və ərkan»"ından bəhs edən tədris əsərləri;

c. Övliya təzkirələri, təbaqat və mənaqib kitabları;

ç. Təsəvvüf terminlərini açıqlayan əsərlər

Təsəvvüfün ilk dövrlərində ədəbi baxımdan diqqətəlayiq bir tərəqqi olmadığı kimi, ilk sufilər dini hiss və həyəcanlarını əsasən qısa cümlələr şəklində söyləmiş, şeirə çox diqqət yetirməmişlər. Odur ki, təsəvvüf ədəbiyyatında ortaya çıxan ilk əsərlər nəsr formasındadır. İlk əsrlərdəki təsəvvüfi əsərlər ərəbcə yazılmışdır. IV/XI əsrdən etibarən farscanın, VIII/XIII əsrdən etibarən türkcənin təsəvvüf ədəbiyyatı dili olduğu görünür.

XI əsrdən etibarən türk ədəbiyyatı üzərində təsiri olan təkkə ədəbiyyatı həmçinin divan ədəbiyyatının varlığında da önəmli rol oynamışdır. Divan şairlərinin əksərində təsəvvüfə meyl olmuşdur. Sufi şairlərlə yanaşı dindən kənar mövzularda yazan şairlər də təsəvvüfün kəlmə və terminlərindən istifadə



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

etmiş, əski şerimizin söz varlığını, şeir dünyasını, dindən kənar kəlmə və rəmzlərlə təsəvvüfün söz zənginliyini birlikdə yaratmışlar.

İbn Ərəbi, Qəzzali, ibn Fərid, Yafii, Nablusi, Ətaullah İsgəndərani və Əbu Hayyan kimi şəxsiyyətlər təsəvvüfi ədəbiyyatın ərəb dilində nəzm və nəsrlə yazılan şah əsərlərini meydana gətirmişlər.

XI əsrdən etibarən farsca şeirlərdə görülməyə başlayan təsəvvüfün təsiri tədricən artmış, XII əsrdə sufi şairlər arasında məcazi dil meydana gəlmişdi. Sufilər bu əsrdə keçmiş mütəsəvvüflərin işlətdikləri kəlmə və istilahların eynisini istifadə etdikləri halda bu kəlmə və istilahları məcaz və istiarə yolu ilə işlətmişlər. Onlara görə həbib, məhbub, məşuq, sevgili Allah deməkdir. Allahı düşünməkdən hasil olan vəcd hamrdır (mey, şərab) və hammardır (saqi). Nurlu çöhrə Allahın zahiri, qapqara kəkil isə onun batini mənasında istiarə yolu ilə istifadə edilirdi. Təsəvvüf şairləri arasında bu şəkildə rəmzli dili ilk dəfə işlədən Əbu Səid Əbül–Xeyrdir. Təsəvvüf şerini də ilk dəfə ortaya çıxaranın da o olduğu söylənir. Hər nə qədər sonrakı çağlarda farsca yazan Sənai, Əttar və Mövlanə kimi böyük sufi şairlər yetişmişlərsə də bu məsələdə Əbu Səid öncül qəbul edilir.

Azərbaycan Şərq islam mədəniyyətinə elm, fəlsəfə, ədəbiyyat, sənət və daha bir çox sahələrdə dəyərli töhfələr vermişdir. Bunlardan biri də heç şübhəsiz, təsəvvüf və təsəvvüf ədəbiyyatı sahəsində olmuşdur. Azərbaycan ədəbiyyatında Babakuhi Şirvani, Nizami Gəncəvi, Mahmud Şəbüstəri, Imadəddin Nəsimi, Qasımi Ənvar, Dədə Ömər Rövşəni, Ibrahim Gülşəni, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Əbülqasım Nəbati, Həmzə Nigari kimi sufi şairlər təsəvvüf ədəbiyyatı sahəsində ölməz əsərlər yaratmışlar.

Azərbaycan sufiləri arasında ilk dəfə divan yazan Babakuhi Bakuvidir (v. 1051). Onun ərəb dilində ədəbi əsərləri ilə bərabər ona aid edilən bir divan da vardır. Təsəvvüf mövzulu şeirlərin toplandığı bu divan fars dilində yazılmış 269 qəzəldən ibarətdir. Divanın adı da «Baba Kuhi» kimi verilmişdir. Bu divanın səhvən ona istinad edildiyi də qeyd olunmuşdur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan təsəvvüf ədəbiyyatının nəzm sahəsində bir çox görkəmli şəxsiyyət yetişmişdir. Bunlardan biri XII əsrin dahi şair və mütəfəkkir sufisi Nizami Gəncəvidir (1141–1209). Nizami şeyx olub, Əxi Fərəc Zəncaninin müridіdir. Ömrünün axırlarında guşənişinlik rəsmini qəbul edərək batini saflaşdırma ilə məşğul olmuşdur. Onun *«Xəmsə»* adlı məşhur beş mənzum əsərindən başqa 20 000 beytlik divanı vardır. Əsərlərində çoxlu sufi fikir və rəmzləri işlətmişdir.

Mahmud Şəbüstəri (v. 1320) Şəbüstərdə anadan olmuş və yenə orada 37 yaşında vəfat etmişdir. Onun bir neçə əsəri vardır. Bunların içərisində ən məşhuru *«Gülşəni-raz»* adlı əsəridir. Fars dilinin semantik imkanlarını ustalıqla nümayiş etdirən bu əsər Əmir Hüseynin suallarına cavab olaraq yazılmışdır. Əsərdəki hissilik və məcazilik, ənənəvi Şərq ədəbiyyatının əsas xüsusiyyətlərinə uyğun olaraq metaforik-alleqorik bir lüğət təqdim edir. M.Şəbüstəri varlıq məsələləri, təsəvvüf düşüncələr, eşq, qadın, mənlik, ruh, metafizik aləm və s. dair mövzüları məcazi dillə yazır. *«Gülşəni–raz»* çox bəyənilmiş və əsrlərlə oxunmuşdur. Onun 40-a yaxın şərhi vardır. Bunlardan biri də Seyid Yəhyaya aid olub *«Şərhi–sualatı–Gülşəni–raz»* adındadır.

Azərbaycan ədəbiyyatının Azərbaycan türkcəsi ilə yazan ilk nümayəndələrindən olan İzzəddin Həsənoğlu da tanınmış sufi şeyxidir.

İmadəddin Nəsiminin şerləri başdan sona təsəvvüfanədir. O, təkkə ədəbiyyatının Azərbaycan türkcəsi ilə yazılmış ən gözəl nümunələrini ədəbiyyatımıza gətirmişdir.

Divanları əsrlərlə zövqlə oxunan Dədə Ömər Rövşəni və İbrahim Gülşəni Seyid Yəhyanın ədəbi və təsəvvüf sahəsindəki ən mühüm davamçılarıdır.

**Təsnif (Tasnif):** Azərbaycan aşıq musiqisində bir saz havası.

Aşıqlar bu havacat ilə "mürvəti təsniflər"(təkərləmə təsniflər), şeirlər deyirlər. Bu şeirlər 4, 5, 6, 7 və 8 hecalı olur.

Örnəklər:

*Qulac saçlı,*
*Qələm qaşlı.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Ağzın açdı*
*Gövhər saçdı*
*Süsənbərim.* **(Aşıq Allahverdi)**

*Elmi dayazlar,*
*Kamaldan azlar.*
*Hədyan avazlar,*
*Yamandır yaman.* **(Aşıq Alı)**

*Ağlayıb gülləm,*
*Gözyaşın silləm.*
*Dərdindən ölləm,*
*Sən bizə gəlsən.* **(Molla Cümə)**

*Dağın dalında,*
*Suyun yolunda,*
*Ayrim elində,*
*Bir yar sevmişəm.*
*Gedirəm axı,*
*Gedirəm axı.* **(Aşıq Bəsti)**

*Bir qəmli bülbüləm,*
*Güllər inanmır.*

*Məcnunsuz Leyliyəm,*
*Çöllər inanmır.*

*Göz yaşım sel olur,*
*Göllər inanmır.*

*Bir qərib yolcuyam*
*Yollar inanmır.*

*Deyirəm həsrətəm*
*Qollar inanmır.*
*Sözüm dastan olub*
*Tellər inanmır.*
*Aşıq Bəsti mənəm*
*Ellər inanmır.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sinnim qoxsan olub,*
*İllər inanmır.* ***(Aşıq Bəsti)***

**Tövbə (Tevbe):** Günahından peşman olub, bir daha günah iş görməməyə əhd etmək, günahdan geri dönmə, peşimançılıq.

Təsəvvüfi yetişkənlik yolunda yetmiş məqamdan bəhs edilir. İlki tövbə, sonuncusu isə qulluqdur. Sırf Allah rızası üçün edilən tövbəyə evbə deyilir. Tövbələri çox qəbul etməsi münasibəti ilə Allahın "Tevvab" ismi var. Cüneyd Allahdan başqa hər şeydən üz çevirməyə tövbə demişdir. Seyid Yahya Bakuvi; Müridə əvvəla tövbə lazımdır. Tövbə bu işin özülüdür. Özül olmasa bina möhkəm olmaz. Mülkü qoyub malikə çatana qədər keçilən hər məqam üçün tövbə vardır demişdir.

*Eğer tevbe kuşu olmazsa kafeste,*
*Helak olurdu insan bir nefeste.* ***(Hacı Bektaş Veli)***

*Şah Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini,*
*Bar– ilahi, əfv qıl kim, tövbəkarəm doğrusu.****(Xətai)***

**Tuba (Tuba):** Cənnətdə kökü havada, budaqları isə aşağı olan ağacın adı.

Rəvayətə görə bu hündür və gözəl görkəmli ağacın budaqları bütün cənnət evlərini kölgələndirir. Hər dəfə çiynəndikcə bir dad verən meyvələri vardır. Tuba ağacının üzərində isə hər insanin bir yarpağı vardır. İnsan öldüyü zaman bu yarpaq yerə düşür.

Azərbaycan və türk folklorunda, divan ədəbiyyatında, təkkə və aşıq ədəbiyyatında Tuba ağacının adı çəkilir.

*Tuba dalından uçanlar,*
*Cennet kapısın açanlar.****(Yunus Emre)***
*Salınır Tuba dalları,*
*Kuran okur hem dilleri.*
*Cennet bağının gülleri,*
*Kokar Allah deyü, deyü.****(Yunus Emre)***

*Bir Tuba boyludu, zülfləri dəstə,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Dərdini çəkməkdən olmuşam xəstə.*
*Əhdindən dönməyən ucuz söz üstə,*
*Dostunun qədrini bilən oynasın.* ***(Şəmkirli Hüseyn)***

**Türbə (Türbe):** Əsli ərəbcə olan bu sözün ilk mənası torpaq deməkdir. Müqəddəs olduğu zənn edilən insanlar üçün qapalı olaraq tikilmiş məzara türbə deyilir. Azərbaycanda səkkiz guşəli kümbəz şəklindəki türbələrin çoxu sufilərin qəbirləridir. Bakıdakı Seyid Yəhyanın kümbəzi kimi.

**Türkəçarə (Kocakarı ilacı):** Azərbaycan folklor janrı. “Xalq təbabəti” ifadəsinin qarşılığıdır. İnsanların uzun ömürlülük, xəstəlik və ölümə qarşı etdikləri müalicələr. Bəzi türkəçarələr inanclarla bağlı müalicə edilir. Bəziləri də bitki, yarpaq, ot, su, daş, ağac və sairədən hazırlanan müalicə vasitələridir. Həmin müalicə üsullarının kökü çox qədimə – qədim xalq təbabətinə dayanır. Odur ki, Azərbaycanda bu müalicə vasitələri “Xalq təbabətinin izi ilə”, “Dərman bitkiləri” kimi kitablarda nəşr olunmuşdur. Vaxtilə qazet və jurnallarda (“Elm və həyat” jurnalı)” Xalq təbabətinin izi ilə”, “Qədim tibbdən sətirlər” başlıqları ilə məqalələr yayınlanmışdır. Azərbaycanda nadir qədim tibb əlyazmaları mövcuddur.

İnanclara bağlı türkəçarələrə örnək:

“Qorxan adamın qorxusu keçsin deyə ona su içirirlər” “Sarılıq xəstəliyi olan insana sillə vursan, xəstəlik keçər” və s.

Otlarla, bitkilərlə, ərzaqla və s. bağlı olan türkəçarələrə örnək;

“Yumurta sarısının yağı davamlı saçın dibinə sürtülərsə, tökülən saçların yerində saç bitər”; “Yarpız və dəfnə təpidməsi dəri ləkələrini yox edər”, “Acqarına kələm yeyib üstündən su içmək vərəm xəstəliyinin əlacıdır”, “Sirkə və duzu qarışdırıb, ağız qarqara edilərsə, diş ağrısı azalar”, “Səsi tutulanlar qaynadılmış noxudun suyunu içərsə, səsi açılır”, “Soyuq dəymiş insan keçi piyi ilə ovulub, zoğal mürəbbəsindən çay içərsə, xəstəlik yavaş-yavaş azalar”, “ Müntəzəm olaraq turp yemək saç tüklərini sağlamlaşdırır” və s.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Türkmani:** Azərbaycan aşıq musiqisində saz havalarından birinin adı. "Türkmən" kəlməsindən törəmişdir."Türkmən" kəlməsi "Kitabi Dədə–Qorqud", "Oğuznamə" adlı əsərlərdə də vardır. Məsələn: "Oğuzun arsızı, türkmənin dəlisinə bənzər" və ya "Bəs varasan, bir çiçi türkmən qızı alasan"(Dədə Qorqud, Bakı, 1988, s.85) Bu kəlimə Kaşqarlı Mahmudun "Divani Lüğətit– türk"əsərində də verilmişdir. Fars mənbələrində də bu sözün etimoloji izahı "Türkmanend" yəni "türk" və "manend"(manend farsca bənzər) kəlimələrinin birləşməsi olaraq "türkəbənzər" şəklində izah olunur. (Fazil Rəhmanzadə "Yol", Bakı, 1994, s. 481.)

**Ustad (Üstad):** Ünlü söz və saz ustadlarına verilən ad.

**Ustadnamə (Hikaye döşemeleri):** Aşıq şeirində işlədilən bir termin. Ustad nəsihəti deməkdir. Ustadnamələr atalar sözləri kimi nəsihət xarakterli olurlar. Qoşma, bayatı, təcnis, gəraylı, divani, müxəmməs kimi şeir şəkillərində söylənilə bilir.

Dastan söyləyən aşıq çox zaman dastanları tərbiyəvi xarakter daşıyan ustadnamə ilə başlayır. Ustadnamə, bir növ, mövzu ilə bağlı deyiləcək ön sözdür. Aşıqlar dastan söyləməzdən əvvəl üç ustadnamə söyləyirlər. Əvvəlcə bir ustadnamə deyər, sonra ustadlar «ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək, iki olsun» deyərək ikinci ustadnaməni söylər, sonra isə «ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, yağı ömrü puç olsun» deyərək üçüncü ustadnaməni söylərlər, ondan sonra dastana keçərlər.

Örnək:

*Qoca dünya çoxun yola salıbdı,*
*Köçən köçüb, köçməyənlər köçəcək.*
*Qafil içmə bu gün əcəl şərbətin,*
*İçən içib, içməyənlər içəcək.*

*Necoldu var üçün qanlar tökənlər,*
*Əziz canın al qumaşa bükənlər.*
*Unutmasın şərmü–  xəta əkənlər,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Biçən biçib, biçməyənlər biçəcək.*

*Yazıq Alı, nə tez düşdün həvəsdən,*
*Sərraf olan seçər qızılı misdən.*
*Arif olan kəslər yaxşını pisdən*
*Seçən seçib, seçməyənlər seçəcək.* ***(Aşıq Alı)***

Azərbaycan aşıq ədəbiyyatındakı didaktik şeir nümunələri türk ozan – aşıq şeirində də mövcuddur. Türk aşıq şeirində dastan söyləyən aşıqlar dastanın əvvəlində söylədikləri ustad-namələri hekayə döşəmələri adlandırırdılar. Azərbaycan aşıqlarının qoşmaları ilə səsləşən, eyni ruhu ifadə edən nəsi-hətamiz şeir örnəkləri Yunus Əmrə (XIII əsr), Aşıq Paşa (XII əsr), Kayqusuz Abdal (XV əsr), Əşrəfoğlu (XV əsr), Pir Sultan Abdal (XVI əsr), Qaracaoğlan (XVII əsr), Gevhəri (XVII əsr), Aşıq Şenlik (XIX əsr), Aşıq Veysəl (XX əsr) və b. şeirlərində axtarıb tapmaq çətin deyildir.

*Dinle, sene bir nasihet edeyim,*
*Hatırdan, gönüldən keçici olma.*
*İyidin başına bir iş gelincə,*
*Onu yad ellere açıcı olma.*

*Meclisde arif ol, kelamı dinle,*
*El iki söylese, sen birin söyle.*
*Elindən geldikce iyilik eyle,*
*Hatira tokunup yıkıcı olma.*

*El arifdir yoklar senin bendini,*
*Dağıdırlar tuzağını, fendini.*
*Alçaqlarda otur gözet kendini*
*Qatı yüksəklerde uçucu olma.*

*Qaracaoğlan söyler, sözün başarır,*
*Aşkın deryasını boydan aşırır.*
*Seni her mecliste hacil düşürür,*
*Kötülerle konup göçücü olma.* ***(Qaracaoğlan)***

Türk aşıq şeirində yüzlərlə örnəyi olan tərbiyəvi didaktik şeirlər Türkiyə türkcəsi ilə mövcud olan elmi ədəbiyyatda «öy-



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

rətici şiir», «didaktik şiir», «giriş», «döşəmə», «hekayə döşəməsi» adlandırılır.

Hasan Köksal Anadolu aşıqlarının dastanın əvvəlində söylədikləri ustadnamələri «Giriş» və ya «Hekayə döşəmələri» adlandırır. Müəllif yazır: «Xalq hekayələrində giriş, yəni döşəmə didaktik nitəlikli bölmələrdir. Bunları usta aşıqlar və ya hekayəçi ustalar hekayəyə başlamazdan əvvəl söylərlər». (136, 288)

«Döşəmə» adlanan ustadnamələr qoşma, cinaslı qoşma, cığalı qoşma, səmai, mani, heydəri, cahannamə, müxəmməs kimi şeir şəkillərində söylənilir.

Aşağıda Yunus Əmrədən misal gətirdiyimiz səmai və Aşıq Sümmanidən örnək verdiyimiz qoşma ən gözəl döşəmə-ustadnamə nümunəsidir:

*Biz dünyadan gedər olduk,*
*Kalanlara selam olsun.*
*Bizim için hayır–dua*
*Kılanlara selam olsun.*

*Ecel büke belimizi,*
*Söyletmeye dilimizi.*
*Hasta ikən halımızı*
*Soranlara selam olsun.*

*Eceli gelenler gidər,*
*Hepsi gelmez yola gidər.*
*Bizim hepimizden haber,*
*Soranlara selam olsun.*
*Dərviş Yunus söyler sözü,*
*Yaş doldurur iki gözü*
*Bilmeyen ne bilsin bizi*
*Bilenlere selam olsun.* ***(Yunus Əmrə)***

*Çekme bu dünyanın endişesini,*
*Devr eyle könlünün dörd köşesini.*
*Eksiklikle kırıp kalp şişesini,*
*Dönüb ona derman olsan, ne fayda?*

*Arap, farsı bilen dilin olmasa,*
*Bülbüle münasip gülün olmasa.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Elbet bir meslekte elin olmasa*
*Dava ilə sultan olsan, ne fayda?*

*Sefil Sümmani, gel Hakkı zikr eyle,*
*Verdiyi nimete karşı şükr eyle.*
*Yaman işi ta ezelden fikr eyle,*
*Başa keçib peşman olsan, ne fayda?***(Aşık Sümmani)**

**Üçlər (Üçler):** Xalq sufizmində və təkkə ədəbiyyatında işlənən termin.

Evliyalar arasında yer alan bir qrup. Üçlər rical–i gaybdan üç böyük vəlidir. İnanclara görə bunlar Allaha darda qalan qullarına yardım etməsi üçün dua edirlər. Allah bunların dualarını qəbul edir.

Üç sayı türk mədəniyyəti tarixində müqəddəs say olaraq bilinir. Qədim türk əfsanələrində üç sayına müxtəlif motivlərdə rast gəlinir. Türk mifologiyasında ilahlar – Göy Tanrı, Yer Sular və Yağız yer olaraq üçə ayrılır. İlin dörd mövsümünün də hər biri üçə ayrılır.

*Üçü üçlər çağıdır,*
*Üçü cənnət bağıdır.*
*Üçü dərər gətirər,*
*Üçü vurar dağıdar.*

Nağıllarda da “üç gün üç gecə”, “göydən üç alma düşdü” kimi ifadələr işlənilir.

Dini təsəvvüfi ədəbiyyatda Ələvi–Bektaşi şairlərinin Allah, Məhəmməd, Əli üçlüyünü anlatdıqları şeirlər də üçlərlə bağlı söylənilir.

Ələvi Bektaşi inancı Həzrət Məhəmməd ilə birləkdə Həzrət Əlidə də ilahi bir nur görür, hər ikisini birləşdirərək onlarda Tanrı nurunun tapır. Onlara görə Məhəmməd və Əli ayr-ayrı vücuda sahib olmaqla bərabər eyni nurdan yaranmışlar. Bu xüsus Ələvi–Bektaşı şairləri tərəfindən “Allah Məhəmməd, Əli” üçlüyü şəklində ifadələr ortaya çıxarmışdır.(44, 226-27)

*Haqq, Məhəmməd, Əli üçü də nurdur,*
*Birini alma sən üçü də birdir.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Onların qoyduğu bir doğru yoldur,*
*Danışdı Məhəmməd, belə der Əli.* ***(Şah İsmayıl Xətai)***

*Bülbül oldum gül dalında şakıram,*
*Allah mədəd, ya Məhəmməd, ya Əli.*
*Şahi– Mərdan kitabını oxuram,*
*Allah mədəd, ya Məhəmməd, ya Əli.* ***(Şah İsmayıl Xətai)***

*Bu dünyanın evvelini sorarsan,*
*Allah bir, Muhammed, Alidir Ali.* ***(Pir Sultan Abdal)***

*Hayalı gönlümde yadigar kalan,*
*Allah bir, Muhammed, Alidir Ali.*
*Darı çeç üstünde namazın kılan,*
*Allah bir, Muhammed, Alidir Ali.* ***(Pir Sultan Abdal)***

**Ümmət (Ümmet):** Xalq, millət, icma, bir peyğəmbərin dininə mənsub olan adamlar. Bir dinə bağlı insanlar.

*Mustafanın immətiyəm, sevgisi canımdadır,*
*Həm Əliyi–Mürtəzanın dərdi dərmanımdadır.* ***(Xətai)***

**Üslub (Üslup):** Üslub hər bir yazıçının yaradıcılığına xas olan xüsusiyyət, onu başqa yazıçı və şairdən ayıran fərdi yaradıcılıq cəhəti nəzərdə tutulur. Türk ədəbiyyatşünaslığında üslub "yazarın bağlı olduğu, onunla düşündüğü və istifadə etdiyi dilin özəlliklərinə uyacaq biçimdə düşünmək sənətidir" şəklində ifadə edilir.(69, 288-289)

Aşıq ədəbiyyatında da hər bir aşığın şeir dilinin özünəxas olan cəhəti o aşığın üslubudur. Bu üslub bir sıra məziyyətləri ilə başqa aşıq və şairlərin üslubundan fərqlənir.

**Varsağı (Varsağı):** Heca vəzni ilə yazılmış xalq şeirinin bir janrı. "Varsaq" termininin türk boyu olan varsaqdan gəldiyi söylənilir. "Varsaq" adı verilən musiqi aləti və xalq sənətkarı adı mənasına gəldiyinə dair iddialar da vardır.

Türkmən şeirində varsağı məzəli şəkildə söylənən məhəbbət türkülərinə deyilir.

Varsağı orta əsrlərdə çox zaman məhəbbət və təsəvvüf, öyüdverici mövzularda yazılan şeirlərdə özünü göstərmişdir.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Varsağı səklində şeir yazmaq türk dünyasında çox geniş yayılmışdır. Heca vəzni ilə yazılmış “varsağı” şeir şəkli Səfəvilər xanədanının qurucusu Şah İsmayıl Xətainin (1486–1524) sarayındakı ədəbi məclislərdə də çox bəyənilmişdir. Sadıq Bəy Əfşar “Macmaül–Həvvas” adlı təzkirəsində “Şah İsmayılın sarayında vəzifəli şəxslərdən biri olan Məhəmməd Bəy Şəmsi adlı bir şairin varsağı şəklində şeirlər yazdığını xəbər verir”.(135, 330)

Göründüyü kimi, varsağı türk boyları arasında geniş yayılmış bir şeir şəklidir. 8 heca, 4 misra və bir neçə bənddən ibarət olur.

Azərbaycan şeirində varsağı örnəyi:

*Aman Allah, gözlərə bax,*
*Qarasında gözüm qaldı.*
*İpək saçlar qulac– qulac,*
*Sırasında gözüm qaldı.*

*O bir güldür açıb təzə,*
*Al yanaqlar bənzər közə.*
*Kirpikləri düşüb üzə,*
*Arasında gözüm qaldı.*

*Öpüb telin qarasını,*
*Meh dağıtdı sırasını.*
*Örtdü üzün parasını,*
*Parasında gözüm qaldı.*

*İsmixandan aralandı,*
*Sındı qəlbim paralandı.*
*Baxışımdan yaralandı,*
*Yarasında gözüm qaldı.* ***(Aşıq İsmixan)***

Türk aşıq şeirində də varsağı 4 misralı, 8 hecalı, 3–7 bəndli şeir şəkli olmaqla, özəl bir əzgi ilə söylənir və ilk dördlükdə “hey”, “behey”, “bre” kimi nidalardan istifadə edilir. Bu xüsusiyyəti onu “səmai”dən (gəraylıdan) fərqləndirir.

Örnək:

*Yürü bre çiçek dağı,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Sendə suna boylum kaldı.*
*Hep köçlerin dönüm çağı,*
*Bülbülün gönçesi soldu.*

*Göllerde küçücük suna,*
*Sesi hayat verir sana.*
*Ben ağlarım yana– yana,*
*Firkat ü– figanım kaldı.*

*Dedemoğlu ne hal oldu,*
*Dünya haldan– hala kaldı.*
*Tez seviştik, tez ayrıldık,*
*Ahıra pişmanım kaldı.* ***(Dedemoğlu)***

**Velayetname:** Əsli ərəb dilindən alınan “vilayət” və fars dilindən keçən “namə” sözlərindəndir. Vəllilik (övliyalıq) kitabı mənasını ifadə edir. Ağızdan-ağıza anladılan bir vəlinin kəramətləri mənqibə və nəsihətlərindən ibarət olan kitaba “Vilayətnamə” deyilir. Məsələn: “Vilayətnameyi-Osman Baba”, “Vilayətnameyi-Seyyid Əli Sultan”, “Mənakıb-ı Hacı Bektaş-i Veli” kimi əsərlər vilayətnaməyə misal ola bilər.

**Vəhdəti–vücud (Vahdet–i Vücud):** Vəhdət mənşəcə ərəb dilinə aid bir kəlmə olub birlik, Allahın birliyinə inanma, vahidlik deməkdir. Vəhdəti-vücud “varlığın birliyi” deməkdir. Allahdan başqa varlıq olmadığının idrak və şüuruna sahib olmaq, bilmək. Vəhdəti-vücud zövqlə əldə edilir, yaşanaraq bilinir. Bu fəlsəfə sistemi kitab oxudularaq öyrədilən bir fəlsəfə sistemi deyildir. Vəhdəti-vücud zövqlə əldə edilən gərçək varlığın bir olduğunu, bunun da Haqq varlığından ibarət olduğunu, hər şeyin o Birin çeşidli təcəllilərindən olduğunu bildirir.

**Vəli (Veli) (bax: Övliya):** Əsli ərəb dilinə aid olan “vəli” hami, yaxın dost, himayəçi, ermiş anlamındadır. Cəmi “övliya”dır. Müqəddəs sayılan adamlarla bağlı şərəfli ad-san olaraq işlədilmişdi.

Türk dastan və mənqibələrinin qəhrəmanları “vəli”lərdir. Mevlana, Hacı Bektaş Vəli, Hacı Bayram Vəli kimi.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İslamiyyətin yayılmasında vəlilərin də qazilər qədər böyük rolu olmuşdur.

"Ölkələrin fəthində qazilər ön planda görülür. Fəqət orduların və geniş xalq kütlələrinin mənəvi gücünü, həyat fəlsəfəsini inkişaf etdirən vəlilər olurdu. Bəzi hallarda vəlilər islam dininin müqəddəs dəyərlərinə etinasız olan maddi iqtidar sahiblərinə qarşı çıxaraq haqqı və xalqı müdafiə edirdilər. Ümumiyyətlə, vəlilər özlərini maddi iqtidar sahiblərindən üstün götürürdülər. Xalq da özlərinə yaxın olan və onlara yardımcı olduqlarına inandıqları vəliləri maddi iqtidar sahiblərindən üstün tuturdu. Bu mənəvi üstünlük vəlilərin ölümündən sonra da davam edirdi. Sultan və qazilərin çoxu öldükdən sonra unudulduğu halda Mövlana, Hacı Bektaş Vəli, Hacı Bayram Vəli, Akşəmsəddin kimi vəlilərə qarşı göstərilən sayqı və inancın əsrlər boyu davam etməsi bu baxımdan mənalıdır." (79, 120)

Vəlilər aşıqların şeirlərində də dilə gətirilmişdir.

*Her kim inkarına duramaz kabi,*
*Keşfin gösterse de olamaz veli.***(Aşıq Seyrani)**

**Vəsf (Vasıf):** İnsan gözəlliyinin, yaxud bəlli bir əşyanın sıradan olmayan ifadələrlə, məcazlar vasitəsilə anladılması.

Klassik ədəbiyyatda olduğu kimi Azərbaycan və türk xalq ədəbiyyatında da vəsflər yazılmışdır. Qaracaoğlan, Aşıq Ələsgər, Aşıq Alı və digər aşıqların şeirlərindən bunu görmək mümkündür. Aşıq Ələsgərdən bir örnək:

*Bahar fəsli yay ayları gələndə,*
*Süsənli, sünbüllü, lalalı dağlar.*
*Yoxsulu, ərbabı, şahı, gədanı,*
*Tutmaz bir birindən aralı dağlar.*

Qaracaoğlandan bir örnək:

*Benim yarım gelişinden bellidir,*
*Ağ elleri deste– deste güllüdür.*
*İbrişim kuşaklı ince bellidir,*
*İnce bellerimi sar dedi bana.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Vəsfi – hal. (bax: Fal):** Əski xalq ənənələrindən olan su falı ilə bağlı olaraq söylənən şeir. Bu fal əsasən Novruz bayramının sonuncu çərşəmbəsində – ilaxır çərşənbədə icra edilir. Buna vəsfi-hal deyilir. Vəsfi-hallar ailə-məişət mövzusunda olan bayatılardır. Mərasim belə icra olunur: İçi su ilə dolu bir badyanın ağzı dəsmalla bağlanır. Fal açdırmaq istəyənlərin hər biri badyaya bir üzük və ya başqa bir əşya atır. Badyanın yanında oturan şəxs badyadan çıxardığı hər bir nişanəyə bir bayatı söyləyir ki, buna vəsfi-hal deyilir. Bayatılar aşağıdakı kimi ola bilər:

*Göydə bir quzu gördüm,*
*Tükü qırmızı gördüm.*
*Açdım cənnət qapısın*
*Sevdiyim qızı gördüm.*

*Bülbül oxur yuvada,*
*Qanad çalır havada.*
*Əmim oğlu sağ olsun,*
*Mən niyə gedim yada.*

**Vəzn (Vezin):** Şeiri nəsirdən ayıran mühüm cəhətlərdən biri vəzindir.

Vəzn ölçü, çəki deməkdir. Şeirdə istifadə edilən misraların ölçüsü, həcmi.

Azərbaycan və Türk şeirində üç növ vəzndən istifadə edilmişdir.

1. Heca vəzni
2. Əruz vəzni
3. Sərbəst vəzn

Hecaların sayına dayanan vəzn heca vəznidir. Şeirin yazılma qaydalarına görə birinci misrada hecaların sayı nə qədərdirsə, ikinci, üçüncü və başqa misralarda da hecaların sayı o qədər olmalıdır.

Klassik divan ədəbiyyatında istifadə edilən ikinci vəzn əruz vəznidir.

Sərbəst vəzndə isə hecaların sayı əsas deyil.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Vəzni–aher:** Əruz vəzninin təsiri ilə türk saz şairlərinin yazdıqları şeir növü. Belə şeirlər müstef'ilatün, müstef'ilatün, müstef'ilatün, müstüf'ilatün qəlibində yazılır. Belə şeirlərdə hər misra ilk üçü bir-biri ilə qafiyə olmaq şərti ilə dörd bərabər parçaya bölünür. Hər parça ondan sonra gələn misraların başında təkrarlandığı kimi, sonraki parçalarda da eyni izləmə təkrar olunur. Daha doğrusu, digər bəndlər də eyni şəkildə bölünür və qafiyələnir.

Örnək:

*Ey vesli cennet kıl cana minnet vay serv– i kamet can içre cansın,*
*Kıl cana minnet vay servi kamət can içre cansın nev– res idansın.*
*Vay servi kamət can içre cansın nev– res fidansın şuh– i cihansın*
*Can içre cansın nev–res fidansın şuh–i cihansın gözden hansın*

*Üftade oldum gül gibi soldum sor bana noldum cevrinle canan,*
*Gül gibi soldum sor bana– noldum cevrinle canan oldum perişan.*
*Sor bana–noldum cevrinlə canan oldum perişan ey fitne–devran,*
*Cevrinle canan oldum perişan ey fitne– devran ahır zamandır.*

*Bir xub–edasın pek dil–rübasın lik pür–cefasın sirrin bilinməz,*
*Pek dil– rübasın lik pür– cefasın sirrin bilinməz nakşın alınmaz.*
*Lik pür– cefasın sirrin bilinməz nakşın alınmaz mislin bulunmaz,*
*Sirrin bilinmez nakşın alınmaz mislin bulunmaz bir nev–civansın.*

*Ettimse ahı feth etti mahı aşk–ı ilahi var sende gayet,*
*Feth etti mahı aşk–ı ilahi var sendə gayet Hakdan hidayet.*
*Aşk–ı ilahi var səndə gayet Hakdan hidayet Nuri nihayet,*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Var sende qayet Hakdan hidayət Nuri nihayet sahib–divansın.*

***(Tokatlı Nuri)***

**Vird, övrad (Vird):** Gündəlük olaraq sistemli oxunan dua anlamına gələn vird (cəmi: övrad) təriqətlərdə çox əhəmiyyət verilən zikrlərdəndir. Hər təriqətin özünəməxsus virdi vardır. Xəlvətiliyin virdi Seyyid Yəhyanın tərtib etdiyi «Virdi–Səttar»dır. Bu vird sayəsində xəlvətilik zahidiliyin bir qolu olmaqdan çıxıb müstəqil təriqət halına gəlmişdir

**Vücudnamə (Yaş destanı):** Terminoloji lüğətdə «Bəyani–hal» kimi də qeyd olunan vücudnamənin özünəməxsus bir şeir şəkli yoxdur. Aşıq şeirində çox zaman gəraylı, müxəmməs, qoşma, mürəbbe kimi şeirlərlə yazılır. Fəlsəfi məna daşıyan vücudnamədə insanın həyat yolu qısaca olaraq şeirlə ifadə olunur. Burada insanın dünyaya gəldiyi gündən uşaqlığı, təlim-tərbiyəsi, gəncliyi, eşqi, ailə həyatı, qocalığı və s. bədii şəkildə ifadə olunur.

Klassik ədəbiyyatda «Bəyani–hal» kimi bilinən «Vücudnamə»nin ən gözəl nümunəsinə Nizaminin əsərlərində rast gəlinir.

Azərbaycan aşıq ədəbiyyatında və dastanlarda çoxlu vücudnamə örnəkləri mövcuddur.

Aşıq Valeh aşağıdakı vücudnamədə insanın yaranışını belə dilə gətirir.

*Əsli binadan vəsfimi söyləyən*
*Ata bətnindən gəlmişəm anaya.*
*Ananın bətnində qan oldum, durdum,*
*Sanasan ki, qəvvas düşdü dəryaya.*

*Əvvəl başlandıqca bünyad oldu dil,*
*İki gözlər oldu ona müqabil.*
*İki damaq, ciyər, dil, ürək hasil,*
*Doqquz gündə tamamlandım əzaya.*

*Yerim xilqət oldu, döndüm zindana,*
*Əl-ayaq tərpətdim oyan, bu yana.*
*Doqquz ay,doqquz gün oldum nişana,*
*Allahınan gəldim bu gün dünyaya.*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk aşıq şeirində «yaş dastanları» adı ilə bilinən «Vücudnamə»lərin ən mükəmməl örnəkləri mövcuddur.

*Bir çocukda anasından doğunca*
*Bedenini pişirmeye tuz ister.*
*Üryan–üryan ortalıkda kalınca,*
*Sırtını örtmeye bir az bez ister.*

*Kanla sudan gelir onun qidası*
*Nesibini verer Bari Hudası.*
*Beşiklere beler onun anası,*
*Ahşam–sabah emzirmeye yüz ister.*

*Bir yaşında ürüm–ürüm ürünür.*
*İkisinde sürüm–sürüm sürünür.*
*Üç yaşında adım–adım yürünür.*
*Dört yaşında söylemeye söz ister.*

*Beş yaşında dili civan sevişir,*
*Altısında uşağınan döyüşür.*
*Yedisinde dişlerini deyişir*
*Sekizində her dedigin düz ister.*

*Dokuzunda olur bir tosun maya*
*Onunda da benzer kaşları yaya.*
*On birinde başı girer sevdaya.*
*On beşinde ala gözlü kız ister.*

*İyirmisinde akıl baştan savrulur,*
*Otuzunda vursa dağa devrilir.*
*Kırk yaşında ağıl başa çevrilir,*
*Ellisində avın almış baz ister.*

*Altmışında ener bir merdivandan*
*Yetmişinde minse düşeir divardan.*
*Sekseninde su getirmez pınardan*
*Doksanında döşeyini düz ister.*

*Pir Sultan Abdal bu söz hepmize,*
*Tonus girinceye belki de yaza*
*Yüz yaşında ölümünü gözede*
*Zemheriyi çıkarmaya yaz ister.* ***(Pir Sultan Abdal)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Yâ–Hû. (bax: Hu):** Ərəbcə "ey" "o" mənasında bir təbir. Zikr sırasında dərvişlər bəzən "Ya–hu" deyə zikr edərlər. Buradakı Hu ədatı Allahı ifadə edir.

Azərbaycanda xalq arasında bu ifadə "Ya Allah" şəklində işlədilir.

*Hər zaman kim, qarşıma ol dilbəri mehrü gəlür,*
*Canıma bir od düşüb, bu dilimə Ya Hu gəlir.* ***(Xətai)***

*Məhəbbət ötəri hal ha deyilmiş,*
*Hu çəkdim Kərəm tək aha dayandım.* ***(Ağ Aşıq)***

*Daim atam Zöhrab anam Hədiyyə*
*Hər işi tutdular ya Allah deyə.* ***(Nizami Zöhrabi)***

**Yanıltmaca (Yanıltmaca):** Azərbaycan və Türk folklorunda bir janr.

Yanıltmaq-çaşdırmaq, dili dolaşdırmaq mənasına gəlir. Xalqın doğru, axıcı danışmağı, sözü düzgün ifadə etməyi hədəf etdiyi bir söz oyunudur.

Yanıltmaclar daha çox uşaqların diqqətli olması, danışıq qabiliyyətinin təkminləşməsi, axıcı danışması üçün istifadə edilən bir növ xalq pedaqoji metodudur.

Azərbaycan yanıltmaclarından örnəklər:

"Ay qılquyruq qırqovul, gəl bu kola gir, qılquyruq qırqovul."

"Bu mis nə pis mis imiş, bu mis Kaşan misi imiş."

"Ağ balqabaq, boz balqabaq, boz balqabaq, ağ balqabaq."

"Ay göy-ala qara qarğa qardaş, mənimlə qardaş olsan da, qardaş olacağam, olmasan da səninlə göy ala qara qarğa qardaş olacağam."

"Dilim-dilim olasan ay dilim, dedim, dinmə. Dedi dinməz idim dindirdilər dindim mən."

"Getdim gördüm bir ağacdan şişək əti asıblar, o biri ağacdan eşşək əti asıblar. Şişək ətini uddum, eşşək ətini attım, şişək ətini uddum."

"Çatı gətir çay içində çal qatıra çayı çatar."

"Cümə axşamı cümə məscidində Cürə Cabbarın cüvəllağılar cübbəsini cibitdilər."



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Türk yanıltmaclarından örnəklər:

“Bir berber bir berbere, bre berber gel beraber berber dükkanı açalım demiş.”

“Şu köşe yaz köşesi, bu köşe kış köşesi.”

“Ocağı kıvılcımlandıranlardanmısın, qapı kıcırdatıcılardanmısın.”

**Yasəvilik (Yesevilik):** Türk xalqlarının mənəvi həyatı üzərində yüzillər boyu böyük təsir buraxan sufi şair Hoca Əhməd Yasəvi (1166) tərəfindən XII əsrdə Türküstanda qurulan təriqətin adıdır. Yasəvilik əvvəlcə Ceyhun bölgəsində, Daşkənd ətrafında və Şərqi Türküstanda yayılmış, sonra Mavərünnəhr və Xarəzm sahələrində inkişaf edərək buralarda da çox böyük önəm qazanmışdır. Ceyhun vadisindən və Xarəzmdən səhralara yayılan Yasəvilik öncə Xarəzmşahlarla Qarataylar arasında olan mücadilələr və nəhayət, monqol istilasından sonra bir çox türkmən boyunun təriqətı olmaqla, Xorasan, İran və Azərbaycanda da varlığını göstərərək, XIII əsrin əvvəllində Anadoluya daxil olaraq, burada qurduqları zaviyələr, açdıqları təkkələrlə sürətlə yayılmışdır.

**Yeddi aşıq:** Ələvi– Bektaşilərin yeddi böyük şairə (Nəsimi, Xətai, Füzuli, Qul Himmət, Yəmini, Virani, Pir Sultan) verdikləri ad.

**Yeddilər:** Yeddi rəqəmi türk boylarında müqəddəs rəqəmlərdən sayılır. Türk dastan və nağıllarında yeddi ermiş kişiyə yeddilər demişlər.

*“Ki, üçlər, yeddilər, qırxlar Haqq üçün”* ***(Şah İsmayıl Xətai)***

Türkıye aşıq şeirində yeddilər:

*Bir noktadan hasil olmuş kainat,*
*Her zerrede gizli bin bir kainat.*
*Yedilər marifet, üçlər tarikat,*
*Kırklar muhabbetin, tadın örneyi.* ***(Aşıq Feymani)***

**Yetmiş iki məqam:** Təsəvvüf yoluna girənlərin Allaha qovuşmaq üçün keçməli olduqları məqamlar.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Yol (Yol):** Türk islam dünyası inanclar sistemində bir termin. Təriqətdə davranış. Təriqət elminə verilən ad. Dini təsəvvüfi və aşıq şeirlərində çox istifadə edilən söz–termin.

Örnəklər:

*Yol odur ki, doğru vara,*
*Göz odur ki, Hakkı göre.*
*Er odur ki, alçakda dura,*
*Yüceden bakan göz deyil.* ***(Yunus Əmrə)***
*Bir yolun yolçusu olayım dersən,*
*Ələ iki qarpız almalı deyil.*
*Dərviş olub şalvar giyəyim dersən,*
*Gahi giyib, gahi atmalı deyil.*
*Qərib bülbül gül dalında tünədi,*
*Hər çalı başında ötməli deyil.* ***(Şah İsmayıl Xətai)***

*Erenlerin gerçeyiyiz,*
*Tekkelerin çiçeyiyiz.*
*Hacı Bektaş köceydiyiz,*
*Edep erkan yol bizimdir.*

*Kuldur Hasan Dede kuldur,*
*Manayı söyleyen dildir.*
*Elif Haqqa geden yoldur,*
*Cim ararsan dal bizdedir.* ***(Hasan Dede)***

*Doğru yoldur hakikatın kapısı,*
*Muhammedle Ali onun tapısı.*
*Beşler on yedi kemerbest yapısı,*
*On iki imamla bir de bacı var.* ***(Aşıq Selmani)***

**Yurd–rəvayətlər:** Azərbaycan aşıq şeirində epizodik səciyyə daşıyan rəvayətlər yurd rəvayətlər adlanır. İstər aşığın öz sağlığında, istərsə də onun ölümündən sonra onun haqqında söylənən əhvalatla bağlı olan şeir ifaçı tərəfindən məclisdə oxunarkən öncə həmin əhvalat – rəvayət danışılır. Bu tipli əhvalat– rəvayətlər aşıq leksikonunda "yurd" adlanır. Bu yurd "bulaq başı" "Yol üstü", "Qonaq qaldığı yer" və s. ola bilər.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Zahid (Zahid) (bax: Sofu):** Dinin əmrlərinə bağlı olan insan. İbadətlərini edən, dünya zövqlərindən əl çəkən dərviş.

*Zahidin bir barmağın kəssən dönüb Haqdan qaçar,*
*Gör bu miskin aşiqi sərpa soyarlar ağrımaz.* ***(Nəsimi)***

*Zahid sözüme inan,*
*Sözümüz dürr– ü mercan.*
*Mekanımız la mekan*
*Nişansız nişanımız.* ***(Oğlanlar Şeyhi İbrahim)***

*Zahid bil bu alemi nedir insan içinde,*
*Alem adem yoğiken doğdu bir an içinde.*
*Bilgin isen bu demi ol sultan–ı alemi,*
*Hak bilegör ademi kalma guman içinde.* ***(Gayibi)***

**Zaviyə (Zaviye). (bax: Təkkə):** Əsli ərəb dilinə məxsus bir kəlmə olan zaviyə "köşə", "bucaq", "kiçik təkkə" deməkdir. "Zaviyə" əsasən təkkədən kiçik mənasında olduğu üçün kiçik təkkələrə "zaviyə" deyilmişdir. Sufilərin dağ yamaclarında və tənha yerlərdə tənhalığa, guşənişinliyə çəkildikləri yerlər də zaviyələrdir. Mərəzədəki Diri Baba zaviyəsi kimi.

**Zəkat (Zəkat):** "Quran"a görə verilən gəlir vergisi.

**Zəngin qafiyə (Zengin kafiye):** Azərbaycan aşıq şeirində üç səs bənzərliyi olan qafiyə növü.

Örnək:

*Nə ümid qəzadan mən tək halıya,*
*Fəryadım elləri oda qalıya.*
*Ümid çeşməsiydi yazıq Alıya*
*Çeşməsi qeyb oldu, nəhri kəsildi.(**Aşıq Alı**)*

*Nagəh yarım söhbət etmə yetən müxənnətinən,*
*Nə layiqdir könlüm yıxmaq dərdinən, möhnətinən.*
*Nobarımsan Tanrı verdi səni mənə ərmağan,*
*Niyazım var Haqq yoluna fərzinən, sünnətinən.*
***(Molla Cümə)***



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Zərbül məsəl (Darb–ı mesel):** Anonim xalq ədəbiyyatının bir janrıdır. Azərbaycan ədəbi dilində «məsəl» şəklində də ifadə edilir. Türk ədəbi dilinə aid lüğətlərində «Darb–i mesel», «mesel» şəklində ifadə edilir. Hikmətli söz mənasına gələn atalar sözləri ilə eyni mənanı ifadə etsə də, məsəllərdə ata sözlərindən fərqli olaraq düşüncənin bir tərəfi ifadə olunmuş olur. Daha doğrusu, məsəli söylərkən hadisəni anlatmaq lazım gəlir. Atalar sözləri şahidlik tələb etmədiyi halda, zərbi–məsələlərdə bu tələb olunur. Həm Azərbaycan, həm də Türkiyə türklərində Molla Nəsrəddin lətifələri ilə bağlı «Sən çaldın» məsəli belə anladılır.

Azərbaycan türklərində bu məsəl belədir: «Bir gün Molla Nəsrəddin şəhərə gedirmiş. Hərə molladan bir şey xahiş edir. Biri də mollaya pul verir və tütək almağı xahiş edir. Molla ona «Bala sən çaldın» deyir. Buradan da «sən çaldın» ifadəsi zərb–məsələ dönür.

Eyni lətifə türklərdə «parayı verən düdüyü çalar» şəklində ifadə edilir. Lətifə belədir: «Hoca Nasreddin bir gün şehere gediyorrmuş. Cocuklardan her biri hocadan bir şey almagı rica eder. Cocuklardan biri də para verib bir düdük almasını rica eder. Akşam pazardan geri dönən hoca pul verən çocuğa «parayı veren düdüyü çalar» demiş. Buradan da «parayı verən düdüyü çalar» ifadəsi məsələ dönür.

**Zikr (Zikir):** Bütün təriqətlərin təməl ünsürü olan zikr hərfən anmaq, zikr etmək, xatırlamaq deməkdir. İstilah olaraq Allahın isimlərini, bəlli duaları, müxtəlif vaxtlarda müəyyən miqdarda səsli və ya səssiz söyləmək, təkrar etməkdir.

Zikrdə əsas ünsür, digər varlıqları unudaraq, hətta yox sayaraq Allahı anmaqdır. Ən əfzəl və üstün zikrin «Lailahəilləllah» olduğunu Peyğəmbərimiz söyləmişdir. Sufilər də bu cümləni zikrin təməli olaraq almış və bunun üzərində israrla durmuşlar.

Təriqətə daxil olmaq istəyənlər, əvvəlcə şeyxin hüzuruna çıxarılırlar. Talib şeyxin qarşısında diz çökür, bütün dünya varlığından sıyrılır və yalnız Allahı düşünməyə başlayır. Şeyx özünün lazımlı bilgilərini verir. Talib bu sırada başını sağ çiyninə doğru çevirib «Lailahə» deyir. Sonra başını sol köksünün ortasından bir xətt çəkər kimi çevirib, «illəllah» deyə zikr edir. Bunları söyləyərkən, ürəyinin döyüntüləri ilə ağızdan çıxan



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sözlər arasında bir əlaqə qurur. Beləliklə, bir yandan dil ilə, bir yandan könül ilə zikr başlayır. Xəlvətiyyə təriqətində nəfsin pisliklərdən və günahlardan təmizlənməsi əsasdır. Bunun yolu dillə, qəlblə, ruhla və sirlə görülən zikrdir. Xəlvətiyyədə tətbiq edilən zikrə «zikri– əsma» deyilir. Zikrin digər qayəsi Allahdan başqa bir varlığı düşünməmək, çoxluqdan qurtararaq birliyə yetişməkdir.

Cüneyd Bağdadiyə qədər şeyxlər müridlərinə sadəcə kəlimeyi– Tövhid (lailahəilləllah) sözünü zikr olaraq təlqin etmişlər. Cüneyd Bağdadi buna «Allah» «Huvə» və «Haqq» kəlmələrini əlavə etmişdir. Bunlara əlavə olaraq «Hay, Qəyyum, Qəhhar» kəlmələri ilə yeddi isimlə (Əsmai– səba) sülukun İbrahim Zahid Gilani və ya Pir Ömər tərəfindən tətbiq olunmuşdur. İlk dəfə Seyid Yəhya tərəfindən tətbiq olunduğu da söylənilmişdir. Əsma sayının «Qadir, Qəvi, Cabbar, Malik, Vədud» əlavəsi ilə 12–yə çatdırılması isə Seyid Yəhya tərəfindən olmuşdur. Xüsusilə, Yusif Müskuriyə bu on iki ismi təqdim etmişdir.

Zikr aşıqların dilində:

*Sefil Sümmani, gel Hakkı zikr eyle,*
*Verdiyi nimete daim şükr eyle.*
*Yaman işi ta ezelden fikr eyle,*
*Başa keçib peşman olsan, ne fayda.* ***(Aşıq Sümmani)***

**Zincirləmə (Zincirleme):** Azərbaycan və Türk aşıq şeirində zincirləmə şeir. Belə şeirlərdə bəndlərin sayı 30–a qədər ola bilir. Zincirləmənin özəlliyi hər dördlüyün və ya beyitin son kəlməsinin bir sonrakı beyt və ya dördlüyün ilk kəlməsi kimi təkrarlanmasıdır. Bəndlər bu şəkildə bir-birinə zincir kimi bağlanmış olur.

Təkrarlanan son kəlmə şeirin daha asan əzbərlənməsinə səbəb olur.

Örnək:

*Ey çeşm–i ahu tuti sühan–gu*
*Tuti sühan–gu zülfü semen–bu*
*Zülfü semen–bu müşg–i şümara*
*Müşg–i şümara vay od–ı sara*



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

*Zülfü semen–bu müşg–i şümara*
*Müşg–i şümara vay od–ı sara*
*Vay od–ı sara dehirde hem–ta*
*Dehirde hem–ta yoktur hiç asla*

*O kaş o göz ne o dil o söz ne*
*O dil o söz ne o ruh oyüz ne*
*O ruh o yüz ne gilman mı aslın*
*Gilman mı aslan huri mi neslin*

*O ruh o yüz ne gilman mı aslın*
*Gilman mı aslın huri mi neslin*
*Huri mi neslin var mı ki neslin*
*Var mı ki neslin hublukta asla*

*Sımın–bendesi çeşt–i fitnesin*
*Çeşt–i fitnesin gonca dehansın*
*Gonca dansın kaddin kıyamet*
*Kaddin kiyamet kan–ı melahat*

*Bir nevi–hilalsın aynı zülalsın*
*Aynı zülalsın yusif–cemalsın*
*Yusif–cemalsın her elde mahir*
*Her elde mahir el–hak bu zahir*

*Yusif–cemalsın her elde mahir*
*Her elde mahir el–hak bu zahir*
*El–hak bu zahir ettinmi ahir*
*Ettin mi ahir aklımı yağma*
*Gel koynuma gir bir öpücük ver*

` *Bir öpücük ver maksuda ergir*
*Maksuda ergir edip vefayı*
*Edip vefayı terk et cefayı*
*Terk et cefayı mefhap gedayi*
*Mefhap gedayı ağlama cana.* ***(Mefhap)***

**Zincirleme nağıl (Zincirleme masal):** Bir nağıl növü. Buna nağıl içində nağıl da deyilir. “Min bir gecə” nağılları kimi. Belə nağılların biri bitərkən o biri başlayır.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Zöhd (Zühd):** Rəgbət etməmək, üz çevirmək deməkdir. Allaha və axirətə yönəlmək üçün dünyadan əl çəkmək. Əlində mövcud olsa belə, könüldə mal və mülk sevgisinə yol verməmək.

*Əbu Osman Məkkənin sözüdür,*
*Təsəvvüf zöhdü təqvanın özüdür.* ***(Rövşeni)***

*Zühüd zahid tuzağıdır,*
*İlim amel nefs dağıdır.*
*Gönül evi Hak evidir,*
*Gel gönüle gir gönüle.* ***(Kayqusuz Vezeli Alaeddin)***

**Zümrüd quşu (Zümrüd–ü Anka) (bax: Simurq, Ənqa):** Yaşıl rəngli quş. Günəş və atəşdən yaradıldığına və səmanın dördüncü qatında yaşadığına inanılır. Digər bir adı da simurğ, ənqa və ya anka quşudur.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# İstifadə edilmiş ədəbiyyat

1. Abbas Tufarqanlı. 72 şeir. Bakı, 1978.

2. Abdulkadir Sezgin, Ülkemizde Alevilik–Sünnilik Meselesi, Ankara, 1998.

3.Abdulbaki Gölpınarlı. Türk Tasavvuf Şiiri Antolojisi. İstanbul, İnkilap kitapevi, 2004.

4. Abdülhalik M. Çay, Hıdırellez "Kültür Bahar Bayramı", Ankara, 1997.

5. Aburrahman Güzel. Kaygusuz Abdal, Ankara, 1981.

6. Ağalar Mirzə. Şirvana binə gəlləm. Bakı, 2004.

7. Ağalar Mirzə. Şirvan aşıq yaradıcılığı. Təşəkkülü və inkişafı tarixindən. Bakı, 2007

8. Afat Qurbanov, Türkoloji dilçilik, Bakı, 1993.

9. Ahmet Kırkkılıç, Başlanğıçtan Günümüze Tasavvuf. İstanbul, 1996.

10. Ahmet Kabaklı. Türk Edebiyyatı. I c. İstanbul, 1967.

11. Ali Berat Alptekin, Fırat Havzası Efsaneleri, Antakya, 1993.

12. Ali Püsküllüoğlu, Türk Halk Şiiri Antolojisi, Ankara, 1974.

13. Anri Masse. İslam. Bakı, 1992.

14. Aşıklık Geleneği ve Günümüz Halk Şairleri. Güldeste, (Hazırlayan Feyzi Halıcı) Ankara, 1992.

15. Aşıq Alı. Şeirlər. Bakı, 1975.

16. Aşıq Ələsgər. I və II c. Bakı, Elm, 1972.

17. Aşıq Əsəd. Seçilmiş əsərləri. (Tərtib edənləri Bəhlul Abdullayev, Rza Xəlilov), Bakı, 1979.

18. Aşıq Niftulla. Yollarda piyada qalan olmuşam.(toplayan və tərtib edən Ağalar Mirzə) Bakı, 2005.

19. Aşıq Şəmşir. Bakı, Yazıçı, 1980.

20. Avropa mənşəli sözlərin qısa lüğəti.(S.Ə. Cəfərov, A. H. Qarayev, K. Ə. Cəfərova) Bakı, Maarif, 1981.

21. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. I c. və II c. Bakı, 2002.

22. Azad Nəbiyev. Azərbaycan aşıq məktəbləri. Bakı, Nurlan, 2004.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

23. Azədə Musayeva, Dədə Ömər Ruşəni əlyazmaları üzərində araşdırmalar. Bakı, 2004.
24. Azərbaycan folkloru antologiyası I və II c. Bakı, 1968.
25. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars mənşəli sözlərin lüğəti. Bakı, Maarif, 1981.
26. Azərbaycan aşıqları və el şairləri. I c. Bakı, 1983.
27. «Azərbaycan öyrənmə yolu» jurn. 1930, sayı 4– 5, s.17.
28. Azərbaycan Sovet Ensiklopediyası. VIIc. Bakı, 1983
29. Baheddin Ögel, Türk Mifolojisi I– II, İstanbul, 1997.
30. Bertels A.E. İzbrannıye trudi. (Sufizm i Sufitskaya literatura).Moskva, 1965.
31. Cem Dilçin, Örneklerle Türk Şiir Bilgisi. Ankara, 1997.
32. Cevdet Kudret. Karacaoğlan. İstanbul, 1970
33. Çankırılı Ahmet Talat, Aşık Tokatlı Nuri, Çankırın, 1933.
34. Çengiz Mehdioğlu. Qopuz məktəbi. Təbriz, 2000.
35. Dadaloğlu, (Hazırlayan Saim Sakaloğlu), Ankara, 1993.
36. Divanu Lügat'it – Türk Tercümesi, (Çev.Besim Atalay) TDK.Yay, Ankara, 1986.
37. Eflatun Cem Günay. Saz Şairleri. Ankara, 1993
38.Erman Artun. Dini – Tasavvufi Halk Edebiyatı. İstanbul, 2006.
39. Emine Gürsoy – Maskalı, Gülden Sağol. Türk Kültüründe Arqo. İstanbul, 2002.
40. Ensar Aslan. Çıldırlı Aşık Şenlik. Ankara, 1975.
41. Esma Şimşek. Kadirli ve Osmaniye Ağıtları. Ankara, 1993
42. Ethem Cebecioğlu, Tasavvuf Luğati, İstanbul, 2005.
43. Ethem Ruhi Fığlalı, Mehmet Aydın, Milli Bütünlüğümüz ve Hacı Bektaş Veli. Ankara, 1999.
44. Ethem Ruhi Fığlalı, Türkiye'de Alevilik, Bektaşilik. İzmir, 1991.
45. Əbdüləli Kərimov. Türk aşıq şeiri müasir mərhələdə. Bakı, Nurlan, 2002.
46. Ədəbiyyatşünüslıq terminləri lüğəti (tərtib edəni. Əziz Mirəhmədov) Bakı, 1978.
47. Ərəb və fars sözləri lüğəti. Bakı, Yazıçı, 1985.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

48. F.K.Timurtaş. Yunus Emre Divanı. Ankara, Kültür Bakanlığı Yayınları, 1989.
49. Faruk Sümer. Türk Cümhuriyetlerini Meydana Gətirən Eller ve Türk Dastanları. İstanbul, 1997.
50. Ferit Develloğlu, OsmanlıcaTürkçe Lüğat, Ankara, 1995.
51. Fikret Türkmen. Aşık Garip Hikayesi, Ankara, 1974.
52. Fuat Köprülü, Türk Edebiyatında İlk Mutasavvuflar, Ankara, 1996.
53. Fuat Köprülü, Türk Edebiyatı Tarihi, İstanbul, 1986.
54. Fuat Köprülü, Türk Saz Şairleri, I – V, Ankara, 1962.
55. Görenek İnançlar Seksiyon Bildirileri, Ankara, 1997.
56. Halkbilim Sempozyumları I, II, III ve IV Halkbilim Sempozyumlarına Sunulan Bildiriler. İstanbul, 1986.
57. Hasan Ali Kasır. Seyrani, Ankara, 1999.
58. Hasan Köksal. Milli Destanlarımız ve Türk Halk Edebiyatı, İstanbul, 1985.
59. Hayrettin Bayman. Karacaoğlanın şiirlerinde Ahenk. Ankara, 1996.
60.Hikmet Tanyu, Türkiye'de Taşla İlgili İnançlar. Ankara, 1987.
61. Hilmi Dulkadir. Kars Günlüğü, Tarih, Folklor, Halk Edebiyyatı Araştırmaları. Mersin, 1997.
62. Hünkar Hacı Bektaş Veli'den Özdeyişler, Ankara, 1995.
63. Hüseyin İsmayılov. Göyçə Aşıq Mühiti. Təşəkkülü və İnkişaf Yolları. Bakı, Elm, 2002.
64. XX yüzyıl Türk Halk Şairleri Antolojisi, (Emir Kalkan), Ankara, 1991.
65. İmadəddin Nəsimi, Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1973.
66. İsgender Pala, Ansiklopedik Divan Şiiri Sözlüğü, Cilt I–II. Ankara, 1989.
67. İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı Yayınları, I – IV, Ankara, 1984.
68. İsmail Özmen, Alevi Bektaşi Antolojisi, Ankara, 1994.
69. L.Sami Akalın, Edebiyat Terimleri Sözlüğü, İstanbul, 1976.
70. İslam Sadiq. Hoydu, dəlilərim Hoydu. Bakı, 2006



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

71. M.Guluzade, Büyük İdeallar şairi, Bakı, 1973.
72. M.Necati Sebetçioğlu. Destanlar, İstanbul, 1986.
73. Maarife Hacıyeva, Celal Tarakçı, Şahin Göktürk, Azerbaycan edebiyat Terimleri Sözlüğü, Samsun, 1995.
74. Maarifə Hacıyeva, Erdal Karaman, Ahmet Kömürcü. Örneklerle Folklor, Halk ve Tekke edebiyatı sözlüğü. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2002.
75. Maarife Hacıyeva, Şahin Göktürk, Mehebbet Paşayeva, Azerbaycan Folklor ve Etnoqrafiya Sözlüğü, Ankara, 1999.
76. Maarifə Hacıyeva, Şahin Köktürk. Türk Dünyası ve Kardaş Ülkeler Edebiyatı, Samsun, 1997.
77. Maarifə Hacıyeva. Türk aşıqlan. Bakı, Azərnəşr, 2004.
78. Mahmud Tezcan. Başlık Parası Geleneği, Ankara, 1998.
79. Mehmet Kaplan, Türk Edebiyatı Üzerine Araştırmalar. 3.Tip Tahlilleri. İstanbul, 1985.
80. Mehmet Rıhtım. Seyid Yəhya Bakuvi və Xəlvətilik. Bakı, Qismət, 2005.
81. Mehmet Şeker. Fetihlerle Anadolunun Türkleşmesi ve İslamlaşması, Ankara, 1985.
82. Mehmet Yardımcı. Halk Şiiri, Aşık Şiiri, Tekke Şiiri, Ankara, 1999.
83. Mehmet Yardımcı. Türk Halkbilimi ve Edebiyat Araştırmaları. Ankara, 1999.
84. Metin Turan. Ozanlık Gelenekleri ve Türk Halk Şairleri Tarihi, Ankara, 1996.
85. Mevlana Celaleddin. Rübailer (Türkçeleştiren Feyzi Halıcı), Konya, 1985.
86. Mevlana'dan Altın Öğütlər.(Derleyen Ziya Elitez). İstanbul, 2004.
87. Məhərrəm Qasımlı. Ozan Aşıq Sənəti. Bakı, 2003.
88. Məmməd Aslan. Türk xalq şeirindən seçmələr. Bakı, Gənclik, 1989.
89. Milletlerarası Türk Halk Edebiyyatı ve Folkloru Kongresi Bildirileri. Konya, 1995.
90. Mir Hamza Nigari, Divan–ı Seyyid Nigari. Kule, İstanbul, 2004.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

91. Molla Cümə. Seirlər. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1966.
92. Mustafa Nihat Özön. Edebiyat ve Tenkid Sözlüğü. İstanbul, 1954.
93. Mürsəl Həkimov. Aşıq şeirinin növləri. Bakı, 1987.
94. Məmməd Aslan. İki zirvə. Yunus Əmrə, Aşıq Veysəl. Bakı, Yazıçı, 1982.
95. Metin Turan. Ozanlık Gelenekleri ve Türk Saz Şiiri Tarihi. Ankara, 1996.
96. Nəsimi. Meqalələr məcmuəsi. Bakı, 1973.
97. Nihat Sami Banarlı, Resimli Türk Edebiyatı Tarihi, İstanbul, 1976.
98. Nijat İşcan. Yunus Emre ve Külliyesi. Eskişehir, 1997.
99. Nizami Gəncəvi, Sirlər Xəzinəsi, Bakı, 2004.
100. Oğuznamə. (hazırlayan Samət Əlizadə) Bakı, Yazıçı, 1987.
101. Orhan Özbek. Aşık Şenlik, Ankara, 1969.
102. Osman Sarıvəlli. Qüdrətli şair, ustad sənətkar. Bakı, 1971.
103. Osman Turan.Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi. I, İstanbul, 1969.
104. Ömer Nasuhi Bilmen. Büyük İslam İlmihalı. İstanbul 1986.
105. Ömer Uluçay. Dilde ve Gönülde Hz. Ali. Adana, 1997
106. Öner Yağcı. Pir Sultan Abdal. Yaşamı və bütün şiirleri. İstanbul, 2000.
107. Paşa Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1970.
108. Piri Er. Geleneksel Anadolu Aleviliği, Ankara, 1998.
109. Rauf Mutluay. 105 Soruda Halk Edebiyatı. Sabah Yayınları, 1990.
110. Refik Ahmet Sevengil, Yüzyıllar Boyunca Halk Şairleri. İstanbul, 1965.
111. Reşid Rahmeti Arat, Yüzyıllar Boyunca Halk Şairleri, İstanbul, 1965.
112. Ruhi Kara, Erzincan Manileri, Ankara, 1994.
113. Sabahettin Eyüboğlu, Yunus Emre, İstanbul, 1985.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

114. Saim Sakaoğlu, Türk Dünyası El Kitabı, III c. Ankara, 1999.
115. Salman Mümtaz. El şairləri. Bakı, 2005.
116. Serhen R. Covey. Yetkili Alevilerin 7 Alışkanlığı. (türkçesi: Selim Yeniçeri). Beyaz Yayınları, İstanbul, 1999
117. Süleyman Ateş, Sorularla Kur'an–ı Kerim, Milliyet Yayınları, 1997.
118. Süleyman Uludağ, Tasavvuf Terimleri Sözlüğü, İstanbul. 2001.
119. Şah İsmayıl Xətai, Əsərləri, II cilddə Bakı, 1976.
120. Şükrü Elçin, Aşık Ömer, Ankara, 1987.
121. Şükrü Elçin, Türk Halk Edebiyatı'na Giriş, Ankara, 1986.
122. Tahir-ül Mövləvi. Edebiyat Lügatı. İstanbul, 1973.
123. Turqut Koca, Bektaşi Nefesleri ve Şairleri. İstanbul, 1990.
124. Türkçe Sözlük, Genişletilmiş Yedinci Baskı, Cilt I– II, TDK Yay. Ankara, 1983.
125. Türk Halklarının Edebi Geçmişi. Türk Dastanları. Uluslararası sempozyum, Bakı, 2004.
126. Türk Kültüründe Argo.(Editörler. Prof. Emine Gürsoy–Naskalı. doç.Dr.Çülden Sağol), İstanbul, 2002.
127. Umay Günay, Türkiye'de Aşık Tarzı Şiir Geleneği ve Rüya Motifi. Ankara, 1993.
128. Ustad Aşıqlar. Bakı, Gənclik, 1983.
129. Ustad Aşıqlar. Aşıq Abdulla. Bakı, 1976.
130.V.Milletlerarası Türk Halk Kültürü Kongresi.Gelenek Görenek İnanclar Seksiyon Bildirileri, Ankara, 1997.
131. Vaqif Vəliyev. Qaynar söz çeşməsi. Bakı, Yazıçı, 1981.
132. Vasfı Mahir Kocatürk, Tekke Şiiri Antolojisi. Ankara, 1994.
133. Yaşar Kalafat, Anadoluda Türk Halk Sufizmi, İstanbul, 1999.
134. Yavuz Özmakas, Berqama'da Efsaneler Adetler. İstanbul, 1941.
135. Azərbaycan ədəbiyyatı tarixi. I c. Bakı,1960. s.330



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

136. Hasan Köksal. Halk Edebiyatında Didaktik Şiirlər. IV Uluslararası Halk Edəbiyatı semineri. Eskişehir, 1989, s.238.
137. Şəmsəddin Beyləqanlı. Beyləqanım, Oğuz yurdum. Bakı, s. 61-62.
138. Azərbaycan klassik ədəbiyyat kitabxanası. 20cilddə I cild. Bakı, 1962.s.8-9.
139. Ulduz Sönməz. Saz demirmi bəs. Bakı, «Ağrıdağ», 2001.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**Maarifə HACIYEVA, Mehmet RIHTIM.**
**Folklor və təsəvvüf ədəbiyyati sözlüyü,**
Бакы, «Нурлан», 2009.

Íÿøðèééàò äèðåêòîðó:
**Проф. Надир Мяммядли**

Êîìïƒòåðä□ jû‹äû:
**Айэцн Балайева**

Êîìïƒòåð ò□ðòèá÷èñè â□
òåõíèêè ðåäàêòîðó:
**Рамин Абдуллайев**

Éûüûëìàüà âåðèëìèø: 14.03.2009
×àïà èìçàëàíìûø: 12.04.2009
Êà‹ûç ôîðìàòû: 60/84 32/1
Ì□òá□□ êà‹ûçû: ¹1
□□‡ìè: 330 ñ□ù.
Òèðàæû: 400

Êèòàá Àç□ðáàj‡àí ÌÅÀ Ôîëêëîð Èíñòèòóòóíóí
Êîìïƒòåð Ì□ðê□çèíä□ jû‹ûëìûø, "Íóðëàí" ÍÏÌ-äÿ
îôñåò ƒñóëó èë□ ÷àï îëóíìóøäóð.



eated by Neevia Personal Converter trial version http://www.neevia.c